**Xəzər Allahverdi oğlu Hüseynov**

# İkinci Dünya müharibəsindən sonra Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı

**(1946-1969-cu illər)**

*Monoqrafiya Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 31.01.2022-ci il tarixli qərarı ilə çap olunur (protokol №07)*

**Naxçıvan-2022**

**Elmi redaktor**: ZƏHMƏT ŞAHVERDİYEV
*AMEA-nın müxbir üzvü, professor*

**Rəyçilər:** ELBRUS İSAYEV
*Naxçıvan Dövlət Universitetinin rektoru*
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

QASIM HACIYEV
*Tarix elmləri doktoru*

QADİR ƏKBƏROV
*Tarix üzrə fəlsəfə doktoru*

*Monoqrafiya Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında 1946-cı ildən başlayaraq 1969-cu ilə qədər olan bir dövrdə muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına həsr olunub.*

*Əsərdə muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişaf problemləri, əldə etdiyi uğurlar, ayrı-ayrı dövrlərdə məruz qaldığı çətinliklər və onun baş verməsi səbəbləri zəngin statistik materiallardan, müxtəlif dövrlərdə nəşr olunmuş tarixi əsərlərdən, dövrü mətbuatdan, arxiv sənədlərindən və s. mənbələrdən istifadə edilməklə ətraflı araşdırılmışdır.*

*Monoqrafiyanın mühüm bir hissəsini İkinci Dünya müharibəsindən sonrakı dövrdə Naxçıvan Muxtar Respublikasında xalq təsərrüfatının inkişafı təşkil edir. Əsərdə ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəlməsindən sonra muxtar respublikada sosial-iqtisadi və mədəni tədbirlərin həyata keçirilməsindən, quruculuq işlərindən, əldə edilən nailiyyətlərdən, uğurlardan bəhs edilmişdir.*

*Monoqrafiya ali məktəb tələbələri, muxtar respublikanın sosial-iqtisadi inkişafı və mədəniyyəti ilə maraqlananlar, və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

***X.A.Hüseynov. II Dünya müharibəsindən sonra Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı (1946-1969-cu illər). Naxçıvan-2022, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 280 s.***

<u>4700000000</u>
053-2022

© "Əcəmi" 2022.

# GİRİŞ

Mənbələrin verdiyi məlumata görə cəmiyyət tarixində elə bir xalq, elə bir dövlət olmamışdır ki, öz tarixi, sosial-iqtisadi həyatı və sair amilləri ilə maraqlanmasın. Onun yeraltı və yerüstü təbii sərvətlərinin gayğısına qalmasın, kənd təsərrüfatının əkinçilik mədəniyyətinin, təsərrüfat həyatının bu və ya digər sahələrinin inkişafı tarixinin öyrənilməsinə və gələcək nəsillərə çatdırılması problemlərinə fikir verməsin.

Müstəqil Azərbaycan dövlətinin yaranması, möhkəmləndirilməsi və inkişafı tarixşünaslıq elmi qarşısında daha çox mühüm vəzifələr qoymuşdur. Təsadüfi deyil ki, görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan Respublikası Elmlər Akademiyasının əməkdaşları ilə görüşündə demişdir: “İndi mən elmin inkişafı üçün strategiya haqqında ümumi fikrimi deyirəm, amma konkret olaraq bu məsələlərlə siz özünüz məşğul olmalısınız. Ancaq bir məsələ barəsində mən konkret təkliflərimi vermək istəyirəm. Bu da Azərbaycan tarixi ilə bağlıdır. Məlumdur ki, geniş kütlə, xalq, millət üçün ən çox təsirlisi humanitar elmlərdir və xüsusən millətin, xalqın tarixi, ya ümumiyyətlə tarix onun ədəbiyyatının, mədəniyyətinin tarixidir. Bu, indi bizim üçün xüsusilə lazımdır. Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya, yaxud başqa fənlərin hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi var. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır. O cümlədən mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır.

Ona görə də biz indi xalqımızın tarixinin yaradılması işini gərək diqqət mərkəzinə alaq.

İndi vəzifə ondan ibarətdir ki, Azərbaycan tarixi yazılmalıdır. Mən bunu bir neçə dəfə demişəm” [9, 1 fevral 1997].

Ümummilli liderimiz Heydər Əliyevin fikirlərinə və göstərişlərinə uyğun olaraq, indi tarixşünaslar və tədqiqatçılar tərəfindən Azərbaycan xalq təsərrüfatı tarixinin müxtəlif dövrləri, müxtəlif sahələri, o cümlədən region təsərrüfatlarının inkişafı tarixi və nailiyyətləri yeni təfəkkür tərzində tədqiq edilir, elmi dövriyyəyə daxil olaraq, tarixşünaslıq elmini daha da zənginləşdirir.

Ulu Öndər Heydər Əliyev "Kitabi - Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi üzrə Dövlət komissiyasının iclasında demişdir: "Ölkəmiz dövlət müstəqilliyini əldə edəndən sonra biz azərbaycanlılar öz tariximizi, tarixi keçmişimizi və tariximizdə mövcud olan mühüm hadisələri, mərhələləri yenidən təhlil edirik, tədqiq edirik və onları müstəqillik mövqeyindən daha da obyektiv, doğru-düzgün yazmağa və həm ölkəmizin ictimaiyyətinə, həm də dünyaya çatdırmağa çalışaq" [9, 18 fevral 1999].

Tarixi zərurət kimi meydana çıxan keçid dövrü nəinki mənəvi, həm də iqtisadi xarakterli ən zəruri məsələlərin həllini həyatı tələbata çevirir. Bu baxımdan İkinci Dünya müharibəsindən sonra Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı tarixinə dair ciddi elmi tədqiqatların aparılmasını da tələb edir.

İkinci Dünya müharibəsindən sonra bərpa illərində Azərbaycanın tərkib hissəsi olan Naxçıvan tarixinin müxtəlif sahələrinin yeni təfəkkür tərzi səviyyəsində yazılması ən vacib, zəruri məsələlərdən biridir. Məhz bu mənada bərpa illərində Naxçıvan Muxtar Respublikasında xalq təsərrüfatının inkişafı tarixinin elmi dövriyyəyə daxil edilməsinin də xüsusi əhəmiyyəti vardır.

Naxçıvan Muxtar Respublikasında sənayenin inkişaf tarixinə aid bu günə qədər xüsusi tədqiqat işləri aparılmamışdır. Bu mövzuya aid bir sıra faktiki materiallar tarixi və iqtisadi ədəbiyyatlarda öz əksini tapmışdır. Bu ədəbiyyatları fikrimizcə üç yerə bölmək olar:

Azərbaycan tarixinin və iqtisadiyyatının inkişafına həsr edilmiş əsərlər;

Azərbaycanın müstəqilliyinin bərpa olunmasından sonra yazılmış əsərlər;

Naxçıvan tarixinin və iqtisadiyyatının inkişafına dair əsərlər.

İkinci Dünya müharibəsindən sonra keçmiş SSRİ-nin tərkibində olan Azərbaycan Respublikasının sosial-iqtisadi və siyasi-mədəni həyat tərzində baş vermiş kəmiyyət və keyfiyyət dəyişiklikləri, Azərbaycan tarixşünaslığının diqqət mərkəzində olmuş, respublika sənaye və mədəniyyət tarixini əks etdirən sanballı kitablar, monoqrafiyalar yazılmış və dissertasiyalar müdafiə edilmişdir. Bu kitab, monoqrafiya və dissertasiyalarda Azərbaycan xalqının qəhrəmanlıq əməlinin nəticələri, ölkə iqtisadiyyatının inkişafında olan nailiyyətlər və sair amillər imkan daxilində işıqlandırılmış və tariximizi xeyli zənginləşdirmişdir. Bu baxımdan Aslanov S.R. [29], Əliyev H.Ə. [50], Əmirov Ə.S. [82], Qəndilov S. [142], Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. [143], Quliyev M.İ. [145], Nadirov A.A. [204] və digər tarixçi və iqtisadçı alimlərimizin əsərləri mühüm əhəmiyyətə malikdir.

Respublika tarixçiləri və iqtisadçıları tərəfindən yazılmış kitablarda, monoqrafik əsərlərdə tədqiq edilən mövzu ilə əlaqədar Naxçıvan regionundakı vəziyyət, mülki və iqtisadi tarixə aid məlumatlar vardır. Lakin bu əsərlərin heç birində Naxçıvan Muxtar Respublikasında sənayenin inkişaf məsələləri ümumi şəkildə, demək olar ki, əks olunmamışdır. Buna baxmayaraq tarixçilərimiz və iqtisadçı alimlərimiz Naxçıvan Muxtar Respublikasında sənayenin inkişaf tarixini öyrənmək və qiymətləndirmək baxımından müəllifə elmi, nəzəri və faktiki materiallar vermişlər.

Mövzunun öyrənilməsi üçün S.R.Aslanovun "Sovet Azərbaycanı sənaye respublikasıdır", H.Ə.Əliyevin "Sovet Azərbaycanı 50 ildə", Ə.S.Əmirovun "Sənayenin tərəqqisi",

S.Qəndilovun “Coşqun inkişaf illəri”, M.İ.Quliyevin “Yüksəliş yollarında”, A.A.Nadirovun “Naxçıvan MSSR (iqtisadi coğrafi oçerk)” və başqalarının əsərləri geniş imkanlar yaradır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev “Azərbaycan SSR kənd təsərrüfatının və bütün iqtisadiyyatının daha dinamik inkişafını təmin etməli” əsərində demişdir: “İşgüzarlıq əhvali-ruhiyyəsinin, sağlam mənəvi-siyasi iqlimin bərqərar olması, zərbəçi əməyə həvəs oyadan mənəvi amillərin rolunun güclənməsi, əkinçi və heyvandar əməyinin mənəvi nüfuzunun artması, mənfi hallara qarşı barışmazlıq bütün bunlar siyasi-kütləvi və ideoloji işin səmərəli nəticələridir və həmin nəticələr kənd təsərrüfatının gözəl nailiyyətlərində öz təcəssümünü tapmışdır. Hər bir zəhmətkeşin öz ictimai borcunu, yalnız özü üçün deyil, bütün kollektivin, rayonun, respublikanın işi üçün öz şəxsi məsuliyyətini dərk etmək ruhunda tərbiyə edilməsi, kəndlərdə əmək coşqunluğu əhvali-ruhiyyəsinin özü adamları ucaldır, onların mənəvi üfüqlərini genişləndirir, fəal həyat mövqeyini formalaşdırır” [53, s.99].

Cəmiyyətin inkişafında qüdrətli sənaye ilə yanaşı, kənd təsərrüfatının yaradılması və inkişafı da ən vacib məsələlərdən biridir. İqtisadiyyatın ən mühüm sahələrindən olan kənd təsərrüfatının dinamik inkişaf etdirilməsinə həmişə diqqət yetirilmiş və yetirilir. Əhalinin ərzaq məhsullarına olan tələbatını nəzərə alaraq müstəqilliyimizin ilk illərində aqrar islahatlar da məhz Naxçıvandan başlamışdır.

Aqrar sahə Naxçıvan Muxtar Respublika iqtisadiyyatının aparıcı sahələrindən biri olmaqla, həm də muxtar respublikanı regional respublika beynəlxalq əmək bölgüsündə təmsil edən, dünya iqtisadi inteqrasiyasına qovuşduran məsələlərdən biridir. Belə ki, muxtar respublika kənd təsərrüfatında istehsal olunan məhsulların müəyyən bir qismi digər ölkələrə ixrac olunur.

Ölkədə kənd təsərrüfatının inkişafına yüksək qiymət verən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “2015-ci ildə Azərbaycan Respublikasında “Kənd

təsərrüfatı" ili elan edilməsi haqqında" 12 yanvar 2015-ci il tarixli sərəncamında deyilir: "Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədi ilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində bölgələrdə müasir infrastruktur qurulmuş, kəndlərarası avtomobil yollarının şəbəkəsi genişləndirilmişdir" [103, 13 yanvar 2015].

Tarixi inkişaf prosesindən aydın olur ki, müstəqil Azərbaycan dövlətinin ayrılmaz tərkib hissəsi olan Naxçıvan qədim zamanlardan Şərqin qapısı kimi tanınmış, uzaq və yaxın ölkələrlə sosial-iqtisadi və mədəni əlaqələrə malik olmuşdur. Şərq və Qərb sivilizasiyasını birləşdirən iqtisadi və mədəni əlaqələrlə körpü rolunu yerinə yetirən, Avropa və Asiya qitəsinə gedən karvan yolları, o cümlədən Böyük İpək yolu Naxçıvan ərazisindən iki istiqamətdə keçmişdir. Azərbaycanın mülki və iqtisadi tarixində Naxçıvan da müəyyən rol oynamış və özünə məxsus xüsusiyyətləri ilə fərqlənmişdir. Bu nöqteyinəzərdən Naxçıvan tarixinin araşdırılması Azərbaycan tarixşünaslığının aktual problemlərindən biridir. Buna görə, Naxçıvan Muxtar Respublikasının tarixinin bu gününə alimlərimizin, ilk növbədə tarixşünaslarımızın dərindən və hərtərəfli diqqət yetirmələri xüsusi əhəmiyyətə malikdir.

Müasir dövrümüzdə ermənilərin birbaşa, onların havadarlarının isə dolayı yolla ölkəmizə olan ərazi iddiaları Azərbaycanın mülki, iqtisadi və siyasi tarixində Naxçıvanın yeri və roluna dair fundamental elmi tədqiqatların daha əsaslı və məqsədyönlü aparılmasını bütün ciddiliyi ilə qarşıya qoyur.

Naxçıvan MR-in 75 illik yubileyi üzrə dövlət komissiyasının iclasında görkəmli dövlət xadimi Heydər Əliyev

demişdir: "Məqsəd sadəcə bir mərasim keçirməkdən ibarət deyil, məqsəd Azərbaycanın tərkib hissəsi, ayrılmaz hissəsi olan Naxçıvanın tarixini təhlil etmək və bunu geniş kütləyə, o cümlədən beynəlxalq aləmə təqdim etməkdən ibarətdir. Bunun da zərurəti ondan irəli gəlir ki, Azərbaycanın başqa torpaqlarına iddiallarla yanaşı, Naxçıvana qarşı iddia kəskindir. Naxçıvanın Ermənistan ərazisi ilə Azərbaycanın əsas hissəsindən ayrı düşməsi də buna müəyyən qədər əsas yaradır" [58, 11 fevral 1999].

Qeyd etmək lazımdır ki, Ermənistanın Naxçıvanla bağlı əsassız olaraq ərazi iddiaları bu və digər formada tarixən davam etmişdir. Məkrli siyasətlərini həyata keçirə bilməyən ermənilər buna nail ola bilmədiyi bir sıra hallarda Naxçıvanın iqtisadiyyatına, onun aqrar təsərrüfatının inkişafına əngəl olan, onu ləngidən təşəbbüslər etmiş və tədbirlər həyata keçirmişlər. Ermənilər Naxçıvanda kənd təsərrüfatı sahələrini məhv etməyə çalışmışlar. Arpaçay-Göyçə (indiki Sevan) kanalını çəkməklə Naxçıvanın əkin sahələrini susuz qoymuşdular. Naxçıvan Muxtar Respublikasında olan əkin sahələrini bu yolla məhv etməyə çalışmışdılar. Tarixi inkişaf xüsusiyyətlərinin tədqiqi belə qənaətə gəlməyə əsas verir ki, XX əsrin 50-60-cı illərində muxtar respublikada kənd təsərrüfatının nisbətən zəif inkişaf etməsinin, bir sıra hallarda durğunluq keçirməsinin əsas səbəblərindən biri də Ermənistanın Naxçıvana qarşı tutduğu qeyri-məqbul mövqeyi olmuşdur. Bunu 1990-cı illərdə baş vermiş hadisələr bir daha təsdiq etdi. Nəticədə, Naxçıvana Azərbaycandan təcrid olunmuş kommunikasiya, nəqliyyat xətləri kəsilmiş vəziyyətdə, blokada şəraitində yaşamaq və işləmək nəsib olmuşdur.

Ulu öndər Heydər Əliyev muxtar respublikanın ən ağır dövründə Naxçıvana gəldi, ona rəhbərlik etdi, bu qədim diyarı daxili təxribatlardan, Ermənistanın hərbi təcavüzündən qorudu, burada ictimai-siyasi sabitlik yaratdı.

Qeyd etmək olar ki, qədim bir keçmişə malik olan Naxçıvan bölgəsinin ictimai həyatı, xüsusilə onun mühüm təsərrüfat sahələrindən biri olan kənd təsərrüfatının inkişafı tarixinə və müasir dövrünə dair çox da mükəmməl əsərlər yazılmamışdır. Əlbəttə, mövcud problemin dəqiq tədqiqinə keçmiş sovet imperiyasının siyasi quruluşunun ideoloji və sinfi prinsipləri də ciddi əngəl törətmişdir. Buna baxmayaraq Naxçıvan bölgəsi özünəməxsus xüsusiyyətlərini və varlığını mühafizə edib saxlamışdır.

Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişaf tarixi (1946-1969-cu illər) Azərbaycanın kənd təsərrüfatı tarixi ilə üzvü surətdə bağlıdır. Lakin Azərbaycan kənd təsərrüfatının inkişafı tarixində Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı tarixinə cuzi diqqət yetirilmişdi. Muxtar respublikada kənd təsərrüfatının inkişafı tarixi ilə bağlı elmi tədqiqat işləri lazımi səviyyədə, ardıcıl olaraq araşdırılmamış, fundamental əsərlər, monoqrafiya və kitablar çox az nəşr edilmişdir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı tarixinin tədqiq edilməsinə böyük ehtiyacı nəzərə alaraq, qarşımıza xüsusi məqsəd qoymuşuq.

Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun dediyi kimi: “Azərbaycanın tarixi, ilk növbədə vahid, bütöv Azərbaycan xalqının tarixi deməkdir. Bununla belə, tariximiz xalqımızın yaşadığı, dövlətimizin tarixi boyunca fəaliyyət göstərdiyi ərazilərin də tarixi deməkdir. Ümumiyyətlə, millətin və dövlətin tarixi bölünməzdir, bütövdür, tamdır. Lakin bu məntiqə də inanmaq lazımdır ki, bütövlükdə Azərbaycanın tarixi onun ayrılmaz tərkib hissəsi olan vilayətlərin, şəhərlərin, kəndlərin, tayfaların, nəsillərin tarixinin birliyindən, vəhdətindən ibarətdir. Ona görə də Bakının, Gəncənin, Qarabağın, Şamaxının, Qubanın, Lənkəranın tarixini yazmaq və ya Kəngərli, Səfəvi, Şirvanşahlar, Bakıxanovlar sülalələrini araşdırıb ümumiləşdirmək əslində Azərbaycan tarixini tədqiq

etmək deməkdir” [187, s.11]. Bu mənada Naxçıvanın tarixini araşdırmaq lazımdır.

Ölkədə baş vermiş hadisələr iqtisadi və sosial inkişafa dair proseslər göstərir ki, Azərbaycanın tərkib hissəsi olan Naxçıvan bölgəsində kənd təsərrüfatının inkişafı tarixi ilə bağlı olan məsələlər aktualdır, tarixşünas alimlərin və tədqiqatçıların daim diqqət mərkəzində olmalıdır.

1946-1969-cu illərdə muxtar respublikada kənd təsərrüfatının ümumi vəziyyəti, yeni kənd təsərrüfatı sahələrinin yaranması, onun maddi-texniki bazasının gücləndirilməsi, kənd təsərrüfatının ekstensiv və intensiv yollarla inkişafı, əldə edilmiş nailiyyətləri və sair amillərin tədqiqi proseslərini və hadisələrin inkişaf dinamikasını izləməyə, araşdırmağa imkan verir.

Azərbaycan tarixşünaslığında 1946-1969-cu illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişaf tarixi kompleks şəkildə tədqiq edilməsə də, problemin öyrənmə səviyyəsini iki istiqamətdə nəzərdən keçirmək məqsədəuyğundur: a) xronologiya üzrə; b) problemlər üzrə.

Totalitar rejim şəraitində və müstəqillik dövründə Azərbaycan Respublikasının sosial-iqtisadi və siyasi-mədəni həyat tərzində baş vermiş kəmiyyət və keyfiyyət dəyişikləri alimlərimizin diqqət mərkəzində olmuş, imkan daxilində respublikamızın mülki, iqtisadi, siyasi və mədəni tarixini əks etdirən kitablar, monoqrafiyalar yazılmış və qiymətli dissertasiyalar müdafiə edilmişdir.

Tədqiqatçı alimlərin əsər və tədqiqatlarında Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişaf etdirmək sahəsindəki fəaliyyətinin öyrənilməsinə dair materiallar olsa da çox azdır. Respublika alimlərinin əsərlərində muxtar respublikanın rayon və kolxozlarında kənd təsərrüfatını inkişaf etdirmək sahəsində qazandıqları nailiyyətlərdən bəzi faktlar göstərilmişdir. Muxtar respublikada kənd təsərrüfatının inkişaf tarixi kompleks və sistem halında tədqiqi respublika alim-

lərinin qarşısına məqsəd qoyulmadığına görə, problemə bu prizmadan baxılmamışdır. Lakin buna baxmayaraq, qeyd olunan əsərlər Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişaf tarixini öyrənmək və tədqiq etmək baxımından müəllifə elmi, nəzəri və faktiki materiallar vermiş, istiqamət göstərmişdir.

Azərbaycan xalqının bu günki iqtisadi, mədəni və mənəvi potensialının güclənməsində, yüksək intelektə malik bir millət kimi formalaşmasında zəngin ənənələrə malik təhsil sistemi mühüm rol oynamışdır. Azərbaycan Respublikasının Prezidentinin qeyd etdiyi kimi, "Azərbaycan təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri tarix boyu təhsildə daim varisliklə novatorluğun, ən-ənə ilə islahatın vəhdətini öz fəaliyyətlərində əks etdirmişlər".

Mədəniyyət sahəsinin inkişafında aparıcı istiqamətlərdən biri də təhsil səviyyəsinin yüksəldilməsidir. Məhz buna görə bu gün təhsil və tərbiyə məsələlərinin bütün sahələri diqqət mərkəzində durur. Bu məsələlər hər zaman xalq təhsili işçilərinin qurultaylarının müzakirə mövzusu olmuşdur. Qurultaylarda məktəblərimizin fəaliyyətində ciddi dəyişikliklərin həyata keçirilməsi məsləhət görülmüşdür. Bu orta və ali təhsilin məzmununa aiddir. Mərkəzdə isə fasiləsiz təhsilin tam sisteminə keçid durur.

Bu işdə əsas rolu ziyalılar, əsasən də müəllimlər oynayır. Müəllimlik millətlərarası mədəniyyətinin formalaşmasında mühüm vasitədir.

Ümumilikdə, mədəni quruculuq tarixi üzrə ümumi elmi əsərlər ilə yanaşı, mədəniyyətin müxtəlif sahələrinin tarixi də tədqiq olunmalıdır. Azərbaycanda xalq təhsilinin inkişaf tarixi müxtəlif cəhətlərdən tarixçilər tərəfindən tədqiq olunmuşdur. Bu məsələlər ötən əsrin 50-ci illərində dərc olunan mədəni quruculuq tarixi üzrə elmi əsərlərdə də öz əksini tapmışdır.

Baxmayaraq ki, tədqiqatlarda bir çox faktiki material toplanmış, onlarda vacib tarixi hadisələrə birtərəfli yanaşma

olmuşdur, mədəni cəbhədə dövlət xadimlərinin aktiv fəaliyyəti nəticəsində əldə olunan nəticələr diqqət mərkəzinə çəkilmə-lidir.

1960-1970-ci illər respublikada mədəni quruculuq tarixinin ümumi problemləri və onun müxtəlif sahələrinin tədqiqatında fəal hazırlıq dövrü kimi qeyd olunurdu. Mədəni quruculuq tarixinə həsr olunan ümumi işlər sırasında N.Paşayevin, H.Həsənovun, A.Atakişiyevin işləri maraq doğurur.

İlk iki müəllifin əsərlərində müharibəyə qədərki illərdə xalq təhsili məsələlərinə baxılır. Onlar, əsasən, göstərilən illərdə xarakterik olan proseslərin dərin analizi olmadan tədqiqat aparırdılar. A.Atakişiyevin [31] monoqrafiyasında böyük faktiki materialda problemin ümumi məsələləri ilə yanaşı, eləcə də xalq təhsili məsələləri öyrənilirdi. Lakin tədqiqatın müvəqqəti çərçivələri müharibədən sonrakı dövr ilə əhatə olunmuşdur.

Ümumilikdə mədəni quruculuq məsələləri və ümumiləşmiş işlərin təşkili ilə yanaşı, eləcə də göstərilən problemin sahələr üzrə gərgin hazırlanması prosesi gedirdi. Bu illərdə dərc olunan işlər arasında T.A.Musayevin Azərbaycanda xalq təhsilinin inkişafına həsr olunan tədqiqatlarını da qeyd etmək lazımdır [167]. Bu tədqiqatda, ilk dəfə olaraq, Azərbaycan tarixşünaslığında mədəni quruculuğun öyrənilməsinə kompleks yanaşma yaranmışdır.

Məktəb quruculuğuna, məktəb təhsili məsələlərinə M.M.Mehdizadənin elmi əsərində də maraqlı yanaşma müşahidə olunur. Burada məktəb işinin təşkili və formalaşması, respublikada məktəbin təşkili prosesini açan zəngin material ümumiləşdirilirdi [150]. Bu tipli tədqiqatlarda bəzən yanaşmanın uyğunsuzluğu məqamı ilə rastlaşsaq da ümumilikdə Naxçıvan MSSR-də ali və orta ixtisas kadrlarının hazırlanması, xalq təhsilinin inkişaf yolunun öyrənilməsi məsələləri tədqiqata cəlb olunmalıdır. Qeyd edək ki, monoqrafiyada İkinci Dünya müharibəsindən sonra Naxçıvan Muxtar Respublikasının

sosial-iqtisadi və mədəni inkişaf yolu izlənilmişdir.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi, siyasi və mədəni inkişaf tarixinin öyrənilməsi tədqiqi Naxçıvanşünas alimlərin: İ.Ə.Həbibbəylinin [95], İ.M.Hacıyevin [88], Q.Ə.Mədətovun [151], A.A.Nadirovun [204], Ə.X.Nuriyevin [211], R.C.Qəhrəmanovun [140], S.H.Sadıqovun [340], S.Y.Babayevin [32], Z.Ə.Şahverdiyevin [353], H.F.Səfərlinin [343], A.Y.Hüseynovun [100], N.H.Əhmədovun [72], E.S.İsayevin [108], Ə.Q.Qasımovun [135], F.A.Cəfərovun [43], X.A.Hüseynovun [104] və başqalarının diqqət mərkəzindən kənarda qalmamışdır. Monoqrafiya üzərində işləyərkən bu alimlərin əsərlərinə istinad etmiş, onların əsərlərində İkinci Dünya müharibəsindən sonra muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına aid olan məsələlərdən istifadə etmişik.

Azərbaycan tarixşünaslığında 1946-1969-cu illərdə Naxçıvan Muxtar Respublikasının tarixindən bəhs edən əsərlər xronoloji baxımdan 1950-ci illərin sonlarına təsadüf edilir və diqqəti cəlb edir.

Qeyd etmək olar ki, 1957-ci ildə muxtar respublikada kənd təsərrüfatının inkişafı ilə bağlı R.C.Qəhrəmanovun "Naxçıvan MSSR-nin kənd təsərrüfatı və onun inkişaf etdirilməsi yolları" adlı kitabı nəşr olunmuşdur [140]. Kitabda 1946-1955-ci illərdə Naxçıvan MSSR kolxozlarının istehsalatı iqtisadiyyatın bəzi problemləri işıqlandırılmış və nəzəri məsələlər irəli sürülmüşdür.

1959-cu ildə A.A.Nadirovun "Naxçıvan MSSR (iqtisadi-coğrafi oçerk)" adlı kitabı nəşr edilmişdi. Kitabda muxtar respublikada kənd təsərrüfatının inkişafı haqqında müəyyən fikirlər irəli sürülmüşdü [204].

İ.Q.Şükürzadə 1962-ci ildə "Böyük Vətən müharibəsi illərində kənd təsərrüfatının inkişafında Naxçıvan MSSR kolxozçularının vətənpərvərlik hərəkatı (1941-1945-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir [359].

Dissertasiya dövrün tələblərinə uyğun olaraq yazılmışdır. Demək olar ki, muxtar respublika kənd təsərrüfatının mühüm məsələləri dissertasiyada öz əksini tapmışdır.

İ.X.Hüseynov 1965-ci ildə "Azərbaycan KP Naxçıvan vilayət təşkilatının kənd təsərrüfatını inkişaf etdirmək uğrunda mübarizəsi (1953-1958-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdi [102]. Onun dissertasiyasında partiyanın kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri, kənddə partiya-siyasi və təşkilat işi, kənd təsərrüfatı məhsulları istehsalının yüksəldilməsi uğrunda mübarizə kimi məsələləri tədqiq edilmişdir. Dissertasiya keçmiş sovet idiologiyasının tələblərinə, amirlik siyasətinə uyğun yazılmışdır.

R.C.Qəhrəmanovun 1967-ci ildə "Naxçıvan MSSR-də kənd təsərrüfatının yerləşdirilməsi və ixtisaslaşdırılması" adlı kitabı nəşr edilmişdi [141]. Kitabda muxtar respublikada kənd təsərrüfatı ehtiyatlarından səmərəli istifadə etmək yolları, kənd təsərrüfatının yerləşdirilməsi və ixtisaslaşdırılmasının nəzəri əsasları, öyrənilən ərazinin təbii-iqtisadi şəraiti, kənd təsərrüfatı məhsulları emalı ilə məşğul olan sənayenin tələblərinin yerli istehsal hesabına ödənilməsi və sair məsələlər iqtisadi nöqteyi-nəzərdən təhlil edilmiş, sovet dövlət iqtisadi proqramına uyğun yazılmışdır.

Naxçıvan MSSR-nin tarixinindən bəhs edən Q.Ə.Mədətov "Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-nin təşkili" haqqında 1968-ci ildə kitab nəşr etmişdir [151]. Burada müəllif bu və digər problemlərlə yanaşı muxtar respublikada kənd təsərrüfatı məsələlərinə də toxunmuşdur.

1979-cu ildə ulu öndər Heydər Əliyevin "Azərbaycan SSR kənd təsərrüfatının və bütün iqtisadiyyatının daha dinamik inkişafını təmin etməli" adlı kitabı nəşr edilmişdir [53]. Kitabda muxtar respublikanın kənd təsərrüfatına aid qiymətli fikirlər var. Monoqrafiyanın yazılmasında bu kitabın çox böyük rolu olmuşdur.

1984-cü ildə Naxçıvan Muxtar Respublikanın tarixini əks

etdirən C.B.Quliyev., Q.Ə.Mədətov və A.A.Nadirovdan ibarət müəlliflər kollektivinin "Sovet Naxçıvanı" adlı kitabı nəşr edilmişdi [143]. Muxtar respublikanın 60 illiyinə həsr olunmuş kitabda Naxçıvanın tarixindən iqtisadi, sosial və mədəni inkişaf yolundan bəhs edilmişdi. Kitabda kənd təsərrüfatına aid materiallar olsa da çox azdır.

Z.M.Təhməzov., A.Y.Hüseynov 1984-cü ildə "Geniş tərəqqi yollarında" adlı kitabı nəşr etdirmişdir [366]. Burada Naxçıvan MSSR-nin iqtisadi və mədəni tərəqqisi uğrunda zəhmətkeşlərin mübarizəsi öz əksini tapır. Qismən kənd təsərrüfatı və meliorasiyanın inkişafı təhlil edilir.

Naxçıvanın sosial-iqtisadi həyatının işıqlandırılmasında A.Y.Hüseynov 1987-ci ildə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası müharibədən sonra sosialist quruculuğu dövründə (1946-1958-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə edilmişdir [100]. Dissertasiyada kənd təsərrüfatı məsələləri də müəyyən mənada öyrənilmişdir.

Bu istiqamətdə səy göstərənlərdən biri də S.H.Sadıqov olmuşdur. 1995-ci ildə onun sovet dövrünün tələblərinə uyğun olan "Naxçıvan Muxtar Respublikasının tarixindən" adlı kitabı nəşr edilmişdir [340]. Kitabda 1920-1970-ci illərdə Naxçıvan Muxtar Respublikasının siyasi, iqtisadi və mədəni həyatında baş verən əsaslı dəyişikliklər öz əksini tapmışdır.

Son illərdə muxtar respublikanın iqtisadi-mədəni və sosial-siyasi tarixi üzrə aparılmış tədqiqatlar, nəşr olunmuş monoqrafiya və kitablar, bu diyara olan marağın bir daha artdığını göstərir. Bu Naxçıvan Muxtar Respublikası tarixinin ümumi mənzərəsinin əks olunmasına, iqtisadi tarixinin, mədəniyyətinin dərindən öyrənilməsinə zəmin yaradır. Əldə olan elmi nəticələr, əsərlər imkan verir ki, "Naxçıvan tarixi" çoxcildliyi hazırlansın. Buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 6 avqust 2012-ci il tarixdə "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə Sərəncam imzalamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məslisinin Sədri Vasif Talıbovun Sərəncamına uyğun olaraq “Naxçıvan tarixi” üç cilddə nəşr olunaraq oxuculara təqdim olunmuşdur. “Naxçıvan tarixi” çoxcildlik əsərindən monoqrafiyanın yazılmasında lazımınca istifadə edilmişdi. Ümumiyyətlə, tarixçi alimlərin Naxçıvan Muxtar Respublikası tarixinin müxtəlif dövrünə dair yazdıqları elmi əsərlərdə, yubiley xarakterli kitab, monoqrafiya və dissertasiyalarda tədqiq olunan mövzuya dair müəyyən faktiki materiallar olsa da, İkinci Dünya müharibəsindən sonar Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafında Naxçıvan Muxtar Respublikasının yeri, xüsusi tədqiqat obyekti kimi seçilməmişdir. Ölkəmizdə xalqımızın öz dövlət müstəqilliyini əldə etdiyi, möhkəmləndiyi, inkişaf etdiyi, əsas siyasi və sosial iqtisadi dəyişikliklərin baş verdiyi bir dövrdə II Dünya müharibəsindən sonra Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni indişafının öyrənilməsinə ciddi ehtiyac duyulur. Buna görə də hesab edirik ki, tədqiq olunan monoqrafiya İkinci Dünya müharibəsindən sonra Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafının tarixində yaranmış boşluğu doldurmaqda və mövcud problemin öyrənilməsində müəyyən rol oynayacaqdır.

Problemin araşdırılmasında ümummilli lider Heydər Əliyevin, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun fərman, sərəncam və göstərişləri istiqamətverici metodoloji əsas kimi götürülmüşdür.

# I FƏSİL

# NAXÇIVANIN SƏNAYESİ
# (1946-1969-CU İLLƏR)

## 1.1. İkinci Dünya müharibəsindən sonra Naxçıvan MR-də sənaye potensialının yaradılması vəziyyəti və inkişaf perspektivləri.

Məlum olduğu kimi iqtisadiyyatın bir sıra sahələri vardır. Onlardan biri də sənayedir. Sənaye iqtisadiyyatın mühüm sahəsidir. Ölkənin iqtisadi bazasının yaranması, xalqın həyat səviyyəsinin yüksəldilməsi və onun gündən-günə artan tələbatının ödənilməsi sənayenin inkişaf və müvəffəqiyyətlərindən xeyli dərəcədə asılıdır.

XX yüzilliyin əvvəllərində Naxçıvanın sənayesinin inkişafı yalnız bir neçə kiçik müəssisələrdən - az miqdarda məhsul verən və ibtidai üsulla işləyən duz mədənindən, kərpic bişirən kürələrdən, yarımkustar üsulla işləyən pambıq-təmizləyən, ipək və gön-dəri istehsal edən ayrı-ayrı şəxslərin xırda müəssisələrindən ibarət idi.

Ən xırda kustar sənaye müəssisələri nəzərə alınmasa, Birinci Dünya müharibəsindən əvvəlki illərdə Naxçıvanın sənayesi yox dərəcəsində idi. “Qafqaz 1910-cu ildə” adlı məlumat kitabında yazılmışdır ki, Naxçıvanda fabrik və zavodlar yoxdur... [158, s.16].

İkinci Dünya müharibəsindən sonrakı illərdə Naxçıvanın geridə qalmış sənaye müəssisələri ildən-ilə texnika, texnologiya və yüksək əmək təşkilinin nəticəsində genişlənmiş, bir sıra yeni sənaye müəssisələri tikilib, istifadəyə verilmiş və hərtərəfli inkişaf etdirilmişdi. Bu sənaye müəssisələrindən - barama-açan, tikiş, mebel, quşçuluq fabrikləri, Badamlı və Sirab mineral su dolduran zavodları, tütün fermentasiya, konserv, avtomobil təmiri, elektrotexnika, asfalt-beton zavodları, duz və filiz mədənləri, daş karxanaları, alminium qablar zavodu, ət-süd kombinatı, şərab və pivə zavodları, kimya, meşə

və ağac emalı sənayesi sahələri, dəyirman və tikinti materialları kombinatı, alt trikotaj, xalçaçılıq və s. sahələri göstərmək olar [8, s.114].

Əsasən yerli xammal emal edilməsi ilə bağlı olan muxtar respublikanın sənaye müəssisələrinin istehsal etdiyi yüksək keyfiyyətli məhsullar dünyanın bir çox şəhərlərinə göndərilmişdi.

Üzərində "Naxçıvan" markası olan müxtəlif çeşidli sənaye məhsulları yaxın, uzaq elləri dolanaraq muxtar respublikanın şöhrətini daha da artırmışdı. "Badamlı"nın, "Sirab"ın, Naxçıvan duzunun, şərabın, dadlı Ordubad mürəbbəsinin, baramaaçan fabrikin məhsullarının, Qaratəpə mərmərinin, Şahtaxtı travertinin, elektrotexnika zavodunun və s. müəssisələrin istehsal etdiyi sənaye məhsullarının soraği Pribaltika vilayətlərindən, Qazaxıstandan, Orta Asiyadan, Sibirdən, Uzaq Şərqdən, Yaponiyadan, Belçikadan, İtaliyadan, İsveçrədən və başqa ölkələrdən gəlir [10, s.6].

Naxçıvan MR ərazisində sənayeni inkişaf etdirmək üçün böyük əhəmiyyətə malik olan müxtəlif metal və qeyri-metal faydalı yataqlar, kənd təsərrüfatı məhsulları, iqtisadi və müalicə əhəmiyyətli mineral sular vardır.

Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, muxtar respublika ərazisində sənayeni inkişaf etdirmək üçün böyük əhəmiyyəti olan müxtəlif filiz və qeyri-filiz yataqları başlıca olaraq molibden, mis, qurğuşun, sink, daş duz, mərgümüş, pirit, dolomit, kükürd, odadavamlı gillər, mərmər, tuf, əhəng, gəc, gips, ondaluzit, barıt, gümüş, qızıl, oxra, kvars, torf, uran, marqa, malaxit, melenterit, həqiq daşları, dəyirman daşları, mineral boyalar, habelə bir çox faydalı mədən suları ilə zəngindir [8, s.118].

1950-60-cı illərdə Naxçıvan MR-də sənayenin inkişafı baxımından mühüm mərhələ hesab edilə bilər. Bu dövrdə bütün sənayenin ümumi məhsul istehsalının artım sürəti 1940-

cı ildəkinə nisbətən 1950-ci ildə 144%, 1960-cı ildə 286%, çatdırılmışdır [177, s.23].

Naxçıvan MR-də sənaye məhsullarının ümumi artım sürəti yeni sənaye müəssisələrinin yaradılması hesabına olmuşdur. Təkcə bu faktı göstərmək kifayətdir ki, 1951-1960-cı illərdə muxtar respublikada 5 iri dövlət sənaye müəssisəsi tikilib istifadəyə verilmişdi [169. s.90].

Belə sənaye müəssisələrindən yeni istilik-elektrik stansiyasını, Parağaçay və Gümüşlü dağ-mədən müəssisələrini, Naxçıvan şəhərində ət kombinatını, tikiş fabrikini, Badamlı mineral su dolduran zavodu göstərmək olar.

İkinci Dünya müharibəsindən sonrakı illərdə yaradılan müəssisələr Muxtar Respublikada sənayenin quruluşunun xeyli zənginləşməsinə səbəb olmuşdu. 50-60-cı illərdə sənayenin xəritəsi xeyli dəyişilmiş, onun ənənəvi sahələrinin genişlənməsinə əsaslanmışdı. Bu da muxtar respublikanın sənaye quruluşunun kompleks inkişaf prinsipi əsasında təşəkkül tapmasına səbəb olmuşdur.

İkinci Dünya müharibəsi qələbə ilə qurtardıqdan sonra hərbi iqtisadiyyatdan dinc iqtisadiyyata keçidin müvəffəqiyyətlə başa çatdırılması xalq təsərrüfatını bərpa və daha da inkişaf etdirmək vəzifələrini yerinə yetirmək sahəsində işləri daha çox genişləndirməyə imkan yaratdı. Müharibədən sonra bütün ölkədə olduğu kimi Naxçıvan MR-də sənaye cəbhənin tələbi ilə bağlı olan istehsal sahələri öz təmayyülünü dəyişdi. Yüngül və yerli sənaye müəssisələri kütləvi tələbat məhsulları istehsal etdi.

Keçmiş SSRİ xalq təsərrüfatının bərpası və daha da inkişaf etdirilməsinə dair dördüncü beşillik (1946-1950-ci illər) plana 1946-cı il martın 18-də SSRİ Ali Sovetinin birinci sessiyasında baxıldı. 1946-1950-ci illərdə Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik planda sənayenin və kənd təsərrüfatının inkişafını müharibədən

əvvəlki səviyyəyə yüksəltmək və bu səviyyəni ötüb keçmək əsas vəzifə kimi irəli sürüldü [7, s.105].

Dördüncü beşillik planda Azərbaycan SSR xalq təsərrüfatının inkişafına da xüsusi diqqət verilirdi. 1946-1950-ci illər üçün Azərbaycan SSR-də əsaslı işlərin həcmi 5900 milyard manat, o cümlədən respublikaya tabe olan təsərrüfat üzrə 579 milyon manat müəyyən edilmişdi [170, s.107].

Keçmiş SSRİ xalq təsərrüfatının bərpa və inkişafına dair beşillik plan haqqında Qanuna müvafiq olaraq, 1946-cı il avqustun 15-də Azərbaycan SSR Ali Sovetinin VIII sessiyası "1946-1950-cı illər üçün Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişafına dair beşillik plan haqqında" Qanun qəbul etdi. Bu plana görə beş ildə respublikanın xalq təsərrüfatına 5,9 milyard manat kapital qoyulması, sənaye məhsulu buraxılışını 1940-cı ilə nisbətən 18% artırmaq nəzərdə tutulmuşdu [171, s.181]. Dördüncü beşillik planda Naxçıvan MSSR xalq təsərrüfatının da inkişaf etdirilməsinə ciddi fikir verilirdi.

1946-cı il sentyabrın 9-da Naxçıvan MSSR Ali Sovetinin VII sessiyası Azərbaycan SSR-nin dördüncü beşillik planı haqqında Qanuna uyğun olaraq "1946-1950-ci illərdə Naxçıvan MSSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan" təsdiq etdi. Bu planda yeni sənaye müəssisələrinin yaradılması, geoloji-kəşfiyyat işlərinin genişləndirilməsi, sənaye məhsullarının istehsalını müharibədən əvvəlki səviyyəyə çatdırmaq və bu səviyyəni ötüb keçmək kimi məsələlər nəzərdə tutulmuşdu.

1946-1950-ci illərdə Naxçıvan MSSR Sənaye Nazirliyi və onun tabeliyində olan müəssisələr üzrə ümummilli məhsul istehsalı 12,4 milyon manat, o cümlədən yerli sənaye üzrə 5,1 milyon (1926-1927-ci illərin qiyməti ilə) müəyyən edilmişdir ki, bu da müharibədən əvvəlkinə 1940-cı ilə nisbətən 63% artıq idi [212, vər.169].

Dördüncü beşillikdə ittifaq əhəmiyyəti olan sənaye sahələrinin inkişafına xüsusi diqqət yetirilmişdi. Plana görə Ordu-

bad ipək və konserv zavodları, Culfa dağ-mədən kombinatında istehsal xeyli genişləndirilməli, Parağaçay kombinatı işə salınmalı idi.

Əsaslı tikinti sahəsində Naxçıvan duz mədəninə su kəmərinin çəkilməsi, kərpic zavodlarının mexanikləşdirilməsi, mexaniki emalatxanaların genişləndirilməsi, Badamlı mineral sular zavodunun, şərab anbarlarının və s. obyektlərin tikilməsi də beşillik plana daxil edilmişdi.

Qeyd etmək olar ki, dördüncü beşillik plan, İkinci Dünya müharibəsinin gedişi nəticəsində dayandırılmış inkişaf yolunu davam etdirdi. Bu yol muxtar respublikada dinc məqsədlər üçün sənaye məhsulları istehsal etmək, yeni sənaye müəssisələri tikmək, yenidən qurmaq, geoloji kəşfiyyat işləri aparmaq və genişləndirməkdən ibarət idi.

Kütlələrin yaradıcılıq fəaliyyətini yüksəltmək məqsədilə bütün ölkədə olduğu kimi, Naxçıvanda da istehsalat müşavirələri keçirildi. Bu müşavirələrdə dördüncü beşilliyin əzəmətli vəzifələri geniş izah edildi.

Əmək kollektivlərinin işini yaxşılaşdırmaq üçün əməli təkliflər irəli sürüldü. Bu təkliflərin bir çoxu həmin vaxt istehsala tətbiq olundu.

Azərbaycan xalqı, o cümlədən Naxçıvan zəhmətkeşləri müharibədən sonrakı 4-cü beşillikdə fəal iştirak etdilər.

Azərbaycan zəhmətkeşləri dördüncü beşillik planı vaxtından əvvəl dörd ildə yerinə yetirdilər. 1950-ci ildə respublika sənayesinin ümumi məhsul istehsalı müharibədən əvvəlki səviyyəni 39% ötüb keçmişdi [11, s.669].

Naxçıvan MR sənaye müəssisələrinin fəhlələri, mühəndis-texnik işçiləri və ziyalıları da müharibədən sonrakı 4-cü beşilliyi yüksək istehsalat qələbələri ilə başa çatdırdılar. Muxtar respublikada sənayenin istehsal planı beşilliyin sonunda, yəni 1950-ci ildə 102,3 % yerinə yetirilmişdi, o cümlədən yerli sənaye 120,8% ittifaq və respublika tabeliyində olan sənaye 100,1% ödəmişdi [217, vər.59].

1950-ci ildə muxtar respublikada sənaye məhsul istehsalı 1940-cı ilə nisbətən səviyyəsini 1,4 dəfə ötüb keçdi [16, s.4].

Dördüncü beşillikdə xalq təsərrüfatını dinc quruculuq dövrünün tələblərinə uyğun olaraq bərpa və inkişaf etdirmək üçün böyük kapital qoyuluşu həyata keçirildi. Yağ və pendir zavodları, mərmər və mebel fabriki, başqa müəssisə və istehsal sahələri tikilib istifadəyə verildi. Badamlı mineral su doldurma zavodunun tikintisinə başlandı. Ordubad baramaaçma fabriki yenidən quruldu. Ordubadın Parağaçay və Şərurun Gümüşlü dağlarında böyük əhəmiyyəti olan yeni dağ mədənləri kəşf olundu. Muxtar respublikanın müalicə əhəmiyyəti olan mədən sularının zəngin bulaqları aşkar edildi. Qarabağlar və Xök kəndlərində muxtar respublikada ilk dəfə olaraq kənd elektrik stansiyaları tikildi. 1940-cı ilə nisbətən 1950-ci ildə elektrik enerjisi istehsalı 4,5 dəfə artdı [16, s.41]. Bütün bunların nəticəsində 1940-cı ilə nisbətən 1950-ci ildə muxtar respublikada sənaye məhsulu istehsalı 44% artmışdır ki, bu da Azərbaycanın orta göstəricilərindən 39 % çoxdur [205, s.24].

Muxtar respublikada sənaye məhsullarının dördüncü beşillikdə bu qədər artması fəhlə və qulluqçular arasında yarışın (rəqabətin) genişlənməsi, sənaye müəssisələrinin yenidən qurulması, kütləvi izahat işlərinin aparılması, əmək məhsuldarlığının artması, məhsulun maya dəyərinin aşağı salınması kimi obyektiv amillər nəticəsində mümkün olmuşdu.

Müharibədən sonrakı dövrdə iqtisadi həyatda müvəffəqiyyətlərlə yanaşı, xeyli mənfi hallar da mövcud idi: planların yerinə yetirilməməsi obyektiv təhlil əvəzinə "ziyankarlıq" və işi "qəsdən pozmaq kimi" qiymətləndirilirdi. "Hücumçuluq", "Növbədənkənar" işlər geniş miqyas almışdı. Müəssisə rəhbərlərinin planı yerinə yetirmədiyinə görə cəzalandırması qorxusu hesabatların kütləvi surətdə təhrif edilməsinə, rəqəmlərin şişirdilməsinə və hər cür yalanlara səbəb olurdu [7, s.113-114].

1946-1950-ci illərdə inkişaf planının əsas vəzifəsi xalq təsərrüfatını dinc quruculuq məqsədlərinə yönəltmək olduğundan əsas diqqət istehsalın bu istiqamətdə bərpasına yönəldilirdi. Bununla belə, bir sıra yeni sahələrin inkişaf etdirilməsi üçün də müəyyən addımlar atılmışdı, lakin bu sahədə fəaliyyətin miqyası xeyli məhdud olmuşdu. Ona görə də Azərbaycan və Naxçıvan iqtisadiyyatında uzun müddət davam edən birtərəfli inkişaf meyli bu dövrdə də qalırdı.

Müharibədən sonrakı xalq təsərrüfatının ilk beşillik planı ölkə, o cümlədən Azərbaycan iqtisadiyyatının bərpa və inkişaf vəzifəsini nəzərdə tutsa da, respublikada onların gerçəkləşdirilməsi tam həyata keçirilmədi. Ona görə yenə də birtərəfli inkişaf əlamətlərini özündə saxlayan Azərbaycan və Naxçıvan iqtisadiyyatının uzun illərdən bəri yaratdığı sosial-iqtisadi problemlər məhz bu dövrdən özünü daha kəskin şəkildə göstərməyə başladı. Respublika ərazisi daxilində məhsuldar qüvvələrin həmahəng yerləşdirilməsində yaranan uyğunsuzluqlar nəticəsində onun ayrı-ayrı bölmələri arasında sosial-iqtisadi inkişafın ümumi səviyyəsinə görə tarixən özünü biruzə verən fərqlər artmaqda davam edirdi. Azərbaycan sənayesinin əsas sahələrini neft-qaz hasilatı və onunla əlaqədar çoxlu başqa sahə təşkil etdiyindən və onlar Bakı-Sumqayıt bölgəsində cəmləşdiyindən respublikanın ümumi sənaye məhsulu istehsalının əsas hissəsi də bu regionun payına düşürdü.

Ərazinin başqa hissələrinin təbii sərvtlərindən və digər imkanlardan kifayət qədər istifadə edilməməsi nəticəsində onların əksəriyyətində sənaye məhsulları istehsalının həcmi xeyli aşağı səviyyədə idi. Kənd təsərrüfatının lazımi dərəcədə inkişaf etməməsi, buna əsasən həm də emal sənayesinin xeyli zəif inkişafı əksər regionların sosial-iqtisadi yüksəlişini məhdudlaşdırdı. Nəticədə əhalinin yüksək təbii artımı baş verən ərazilərdən Bakı-Sumqayıt bölməsinə kütləvi və daimi axın prosesi baş verdi ki, bu da bütövlükdə respublikada ciddi sosial problemlərin yaranmasına səbəb oldu [7, s.115]. Halbuki,

Azərbaycan Respublikasının regionlarında, xüsusilə Naxçıvan MR-də əhalini məskunlaşdırmaq üçün yeni sənaye müəssisələrinin yaradılmasına böyük ehtiyaclar var idi. Bu dövrdə də əvvəlki illərdə olduğu kimi Naxçıvanı Ermənistana birləşdirmək, yerli əhalini deportasiya etmək üçün ermənilər Azərbaycanda yaranmış mürəkkəb şəraitdən istifadə edərək Naxçıvanda sənaye müəssisələrinin yaradılmasının qəti əleyhinə olmuşdular. Halbuki, Azərbaycanın bu və ya digər sərhədyanı regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikası ərazisində sənaye müəssisələrinin yaradılması, əhalinin məskunlaşdırılması əsas və mühüm məsələlərdən biri idi.

Mərkəz, keçmiş SSRİ Dövlət Plan komitəsində yerləşən ermənilərin Naxçıvanı Ermənistana birləşdirmək üçün məkirli siyasətləri mərkəzi inandırmışdı ki, Naxçıvan Muxtar Respublikasında sənaye müəssisələri yaratmaq və inkişaf etdirmək qeyri mümkündür. Buna baxmayaraq mərkəzin fabrik və zavodlarının xammala olan tələbatı, xüsusilə dağ-mədən sənaye xammallarına olan ehtiyacı muxtar respublikada yeni sənaye müəssisələrinin yaradılması və inkişafı üçün zəmin yaratmışdı.

Azərbaycanda və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında dördüncü beşilliyin qarşısında duran vəzifələrin yerinə yetirilməsi regionun tərəqqi və inkişafı üçün daha geniş perspektivlər açdı və zəmin yaratdı. İkinci Dünya müharibəsindən sonrakı beşillik dövründə xalq təsərrüfatının bərpa edilib, başa çatdırılması və inkişaf etdirilməsi nəticəsində möhkəmləndirilmiş təməl üzərində beşinci beşilliyin (1951-1955-ci illər) əsası qoyuldu.

1951-1955-ci illərdə məhsulun keyfiyyətini yüksəltmək və çeşidini genişləndirmək sahəsində mühüm tədbirlər görülməli idi. Bu istiqamətdə təşkilat-texniki tədbirlərin həyata keçirilməsi üçün müəyyən vaxt və vəsait tələb edilməsi sürətin bir qədər azalmasına səbəb olmuşdu. Bununla belə, məhsulun

keyfiyyətinin yüksəldilməsi və çeşidinin genişləndirilməsi beşinci beşillikdə istehsalın xeyli təkmilləşməsini tələb edirdi.

Əvvəlki illərdə olduğu kimi, 1951-1955-ci illərdə də sənayenin daha da inkişafına çox böyük əhəmiyyət verilirdi: 1955-ci ildə ümumiyyətlə ölkədə sənaye istehsalının səviyyəsi 1950-ci ilə nisbətən 70% artmalı idi [29, s.202].

Böyük tikinti proqramı xalq təsərrüfatının daha da inkişafı üçün mühüm zəmin yaradırdı. 1951-1955-ci illərdə sənayeyə dövlət kapital qoyuluşu əvvəlki 1946-1950-ci illərə nisbətən təqribən iki dəfə artıq idi. Beşinci beşillik planın başlıca məqsədlərindən biri də texniki tərəqqinin sürətini artırmaq idi.

Beşinci beşillik planın direktivlərində həmçinin şəxsi istehlak şeyləri istehsalının böyük sürətlə artırılması da nəzərdə tutulmuşdu. Beş ildə yüngül sənaye və yeyinti sənayesi məhsulu azı 70% artmalı idi [29, 203].

Beşinci beşillik planla əlaqədar olaraq Naxçıvan MR fəhlələri, kolxozçuları və ziyalıları qarşısında böyük əhəmiyyət kəsb edən yeni vəzifələr durdu. Muxtar respublika zəhmətkeşləri beş il ərzində çox işlər görməli idilər.

1955-ci ildə sənaye müəssisələrinin ümumi məhsulu 1950-ci ilə nisbətən 90,5%, o cümlədən yerli sənaye 66,7%, yeyinti sənayesi 117,3%, sənaye kooperasiyası 45,5%, yüngül sənayenin 29,3% artırılması nəzərdə tutulurdu. Beşinci beşilliyin sonunda yerli tikinti materialların istehsalı 2-2,5 dəfə, yeyinti sənaye 2,2 dəfə artırılmalı idi. Çox işlənən mallar istehsalının səviyyəsi 70%-ə yüksəlməli idi [219, vər.52].

1951-1955-ci illərdə Naxçıvan MR-də xalq təsərrüfatının inkişafı üçün 136797, 9 min manat əsaslı vəsait nəzərdə tutulmuşdu [323, vər.5]. Bu vəsaitdən 3429,5 min manatı Naxçıvan MSSR Sənaye İttifaqına, 4837,9 min manatı Naxçıvan MSSR Yerli Sənaye Nazirliyinə 16154,2 min manat Naxçıvan MSSR Yeyinti Sənaye Nazirliyinə 9500 min manatı Sabir adına əlillər arteli üçün müəyyən edilmişdi [323, vər.4].

Naxçıvan MR sənaye işçiləri beşillik planı yerinə yetirmək üçün ilk gündən fədakarlıq göstərdilər. Nəticədə 1951-ci ildə sənaye üzrə məhsul istehsal planı 108,7% [220, vər.3], 1952-ci ildə isə 112,7% yerinə yetirilmişdi [221, vər.126]. Bununla yanaşı, Naxçıvan MR Yerli Sənaye Nazirliyi, Naxçıvan Sənaye İttifaqı dövlət planlarını yerinə yetirməmişdi.

1953-cü ilin dekabr ayında Azərbaycan KP Naxçıvan Vilayət təşkilatının XX konfransında muxtar respublika sənaye müəssisələrinin fəaliyyəti dərin və hər tərəfli təhlil edilmişdi, Naxçıvan MR sənayesi qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsi sahəsində konkret tədbirlər işlənib hazırlandı. Konfrans nümayəndələri Azərbaycan KP Naxçıvan Vilayəti Komitəsinin, Naxçıvan MR Nazirlər Sovetinin, bir çox partiya və sovet orqanlarının habelə təsərrüfat quruculuğunun və mədəni quruculuğu işində olan nöqsanları və bunun səbəblərini prinsipial tənqid və özünü tənqid əsasında açıb göstərdilər. Naxçıvan MR yerli sənayesinin işində ciddi nöqsanların olduğu qeyd edildi. Konfrans yerli sənaye müəssisələrinə rəhbərliyi kökündən yaxşılaşdırmağa, iqtisadiyyatın inkişafının perspektiv məsələləri ilə daha dərindən məşğul olmağa, sənaye işçilərinin bütün qüvvələrini sənaye istehsalının daha da artırılması uğrunda mübarizəyə səfərbərliyə almağa, sənaye istehsalı üzrə beşinci beşillik planın tamamilə yerinə yetirilməsini təmin etməyə çağırdı.

Naxçıvan vilayət təşkilatının XX konfransının qərarlarına əməli işlə cavab verən Muxtar Respublikanın sənaye işçiləri daimi texniki tərəqqidən ən yüksək texnikaya keçilməsində, əmək məhsuldarlığının yüksəldilməsində, məhsulun maya dəyərinin aşağı salınmasında yeni texnikanın istehsala tətbiq edilməsində görkəmli nailiyyətlər qazandılar. Məhz bunun nəticəsidir ki, Naxçıvan MR sənaye nazirliyinin müəssisələri beşinci beşillik planı vaxtından əvvəl, 4 il 6 ayda yerinə yetirdilər [321, vər.7].

Beşinci beşillikdə muxtar respublikada sənaye istehsalını 1950-ci ilə nisbətən 67,6%, sənaye kooperasiyası üzrə 40,5%, şərab tresti 282,5% yerinə yetirilmişdi.

1955-ci ildə yerli tikinti materiallarının istehsalı 1950-ci ilə nisbətən 3 dəfə artırılmışdı [321, vər.8].

Beşinci beşillik planın nəticələrinin təhlili göstərir ki, 1955-ci ildə Naxçıvan MR Yerli Sənaye Nazirliyinin müəssisələri 1950-ci ilə nisbətən ümumi məhsul istehsalının artım planını 140,6%, Naxçıvan Sənaye Şurası 165,5%, Naxçıvan Şərab tresti isə 382,5 % yerinə yetirmişdi [321, vər.14].

1951-1955-ci illərdə Naxçıvan Muxtar Respublikasında sənayenin şəbəkəsi xeyli genişlənmişdi. Naxçıvan, Ordubad şəhərləri ilə yanaşı Şərur, Şahbuz və Culfa rayonlarında yeni sənaye müəssisələri tikilib istifadəyə verilmişdi.

1951-1955-ci illərdə Şərur rayonunda elektrik şəbəkəsi, Ordubadda Parağaçay, Şərurda Gümüşlü dağ-mədən sənaye müəssisələri, Naxçıvanda çörək zavodu, ət kombinatı, Şahbuz rayonunda Badamlı mineral su doldurma zavodu və s.sənaye müəssisələri tikilib istismara verildi. Nəticədə sənayenin yeni sahələri (mineral sular, ət-süd, çörək-bulka, əlvan metal istehsalı) meydana gəldi və bu sahələr hesabına sənaye məhsulu istehsalı 1951-1955-ci illərdə daha sürətlə (Azərbaycanda 45%, Naxçıvan Muxtar Respublikasında 87%) artdı [205, s.24].

1951-1960-cı illərdə muxtar respublikada mebel fabrikası, elektrik şəbəkəsi, ət-süd kombinatı, mərmər fabrikası, Badamlı mineral sular zavodu, Parağaçay, Gümüşlü dağ-mədən sənayesi kimi mühüm sənaye müəssisələrinin tikilib istifadəyə verilməsi muxtar respublika iqtisadiyyatında böyük rol oynadı.

1955-ci ildə mebel fabrikası 800,0 min manatlıq, mərmər fabrikası isə 28,6 min ton məhsul istehsal etmişdi [321, vər.16].

1955-ci ildə Naxçıvan MR sənaye müəssisələrinin ümumi məhsul istehsalı planı 107,6%, o cümlədən yerli tabelikdə

olan sənaye sahələri 111,5% və respublika tabeliyində olan sənaye sahələri 105,6% yerinə yetirmişlər. Ordubad sənaye kombinatı dövlət planlarını 127,2%, Şərur rayon kombinatı 116,3%, Culfa rayon kombinatı 106,3%, Naxçıvan şərab tresti 114,3%, Naxçıvan sənaye kooperasiyası 111,1%, Badamlı mineral sular zavodu 104,1%, Şərur çox sənədli sənaye arteli 114,7%, Azərbaycan SSR 10 illiyi adına Ordubad sənaye arteli 105,0 %, Naxçıvan çoxsənədli sənaye arteli 103,1%, Naxçıvan ət soyuducu kombinatı 129,4%, Naxçıvan yağ sənayesi 107,9%, Ordubad ipək fabrikası 114,0%, Şərur pambıqtəmizləmə zavodu 106,0%, Asfalt beton zavodu 168%, Çörək-bulka zavodu 107% yerinə yetirmişdi [321, vər.18).

Beşillik planın müvəffəqiyyətlə muxtar respublikada yerinə yetirilməsi onun iqtisadi və sənaye potensialını daha da gücləndirdi. Sənayenin inkişafı və yüksəlişi üçün maddi baza yaradıldı.

Muxtar respublikada beşinci beşilliyin vaxtından əvvəl yerinə yetirilməsi respublika zəhmətkeşlərinin çox böyük qələbəsi olmaqla qarşıdakı VI beşilliyi də vaxtından əvvəl yerinə yetirmək üçün zəmin yaratdı. Sənaye işçilərini yeni daha mürəkkəb vəzifələrin həllinə hazırladı.

1956-cı ilin fevral ayında keçirilən XX qurultay keçmiş SSRİ xalq təsərrüfatının inkişafına yekun vurdu. Bu yekun son dərəcə əlamətdar idi. Ölkə sənayesi beşinci beşillik planı artıqlaması ilə yerinə yetirmişdi.

1956-1960-cı illər üçün xalq təsərrüfatının inkişafına dair altıncı beşillik plan haqqında XX qurultayının direktivlərində yaxın beş ildə sənayenin konkret vəzifələri ifadə olundu. Ölkənin, milli respublikaların iqtisadiyyatının daha da inkişaf etdirilməsi altıncı beşillik planın xüsusi vəzifəsi idi.

XX qurultaydan bir qədər əvvəl (1956-cı il yanvarın 25-də) Azərbaycan KP-nın XXI qurultayı oldu. Qurultay altıncı beşillik plan direktivlərinin layihəsini bəyanərək, Azərbaycanda xüsusilə sənayeni inkişaf etdirmək üçün qərar qəbul etdi.

Azərbaycan SSR XXI qurultayının qərarları Naxçıvan MR-ə də aid idi. 1956-1960-cı illərdə Naxçıvan MR-də xalq təsərrüfatının inkişaf planında sənayeni inkişaf etdirmək vəzifəsi qarşıya qoyulmuşdu.

1956-1960-cı illərdə Naxçıvan MR xalq təsərrüfatını inkişaf etdirmək üçün əsaslı vəsaitin ümumi həcmi bütövlükdə 216746,0 min manat idi [322, vər.7]. Bu vəsaitdən 60000 min manatı Naxçıvan MR Yerli Sənaye Nazirliyi, 32600 min manatı Naxçıvan MR Sənaye Şurası, 250000 min manatı Naxçıvan MR Yeyinti Nazirliyi üçün müəyyən edilmişdir [321, vər.6]. Bu da muxtar respublikada sənayenin daha sürətlə inkişaf etdirməyə imkan verirdi.

Naxçıvan MR sənaye müəssisələrinin kollektivləri qabaqcıl təcrübələrdən istifadə edərək, altıncı beşilliyin birinci ili olaraq 1956-cı ildə sənayenin ümumi istehsal planını 104,1% yerinə yetirmişdi. 1956-cı il muxtar respublika sənaye müəssisələri dövlətə plandan əlavə 5,3 milyon manatlıq məhsul vermişdilər [224, vər.47].

1957-ci ildə muxtar respublikanın zəhmətkeşləri ötən beşilliklərdə qazanılmış müvəffəqiyyətləri möhkəmləndirərək, altıncı beşilliyin ikinci il planını vaxtından əvvəl yerinə yetirmək uğrunda yarışı yeni qüvvə ilə genişləndirdilər. Yarış iştirakçısı olan bir çox müəssisələr öz öhdəliklərini müvəffəqiyyətlə yerinə yetirdilər.

1957-ci ildə muxtar respublikanın sənayesi 166 milyon 298 min 700 manatlıq məhsul istehsal etmiş və ya dövlət planını 102% yerinə yetirmiş ki, bu da 1956-cı ildəkindən 6 milyon 486 min 900 manatlıq və yaxud 4,05% çoxdur. O cümlədən, Azərbaycan SSR Xalq təsərrüfatı Şurasının tabeliyində olan sənaye təşkilatları 107 milyon 279 min 700 manatlıq məhsul istehsal etmiş və ya ümumi məhsul buraxılışı planını 108,4% yerinə yetirdilər. Bu isə 1956-cı ildəkindən 16 milyon 363 min 200 manat və ya 18% artıqdır [47, s. 4].

Naxçıvan MR-in sənaye işçiləri altıncı beşilliyin iki ilində əldə edilmiş nailiyyətləri möhkəmləndirmək, əmək məhsuldarlığını xeyli artırmış, məhsulun maya dəyərini aşağı salmışdılar. Məhz bunun nəticəsi olaraq 1958-ci ildə sənaye məhsulları istehsal planı 101,6% yerinə yetirilmişdi [226, vər.5]. Naxçıvan MR-də sənayenin ümumi məhsulunun artım sürəti 1940-cı ildəkinə nisbətən 1958-ci ildə 246% olmuşdu [177, s.33].

Naxçıvan MR sənaye işçiləri 1959-cu ildə 1958-ci ildəkinə nisbətən 29 milyon manatdan çox sənaye məhsulları istehsal etmişdilər.

1959-cu ildə muxtar respublikanın rayonları dövlət sənaye istehsal planlarını aşağıdakı qaydada yerinə yetirmişdi.

Naxçıvan rayonu üzrə 100,6%, Ordubad rayonu üzrə 104,3%, Culfa rayonu üzrə 102,5%, Şahbuz rayonu üzrə 105,2%, Şərur rayonu üzrə 97,6%.

1959-cu ildə ümumi sənaye məhsul istehsal planı Yerli Sənaye Nazirliyinin müəssisələri üzrə 101,5% yerinə yetirilmişdi [226, vər.5].

1950-60-cı illərdə Naxçıvan MR-də sənayenin inkişafı baxımından irəliləyiş olmuşdur. Belə ki, muxtar respublikada sənayedə ümumi məhsul istehsalının artım sürəti 1940-cı ildəkinə nisbətən 1950-ci ildə 144%, 1960-cı ildə 285%, 1961-cı ildə 301%, 1962-ci ildə 314% -ə çatdırılmışdı [177, s.33].

Sənaye məhsullarının artım sürəti ikinci dünya müharibəsindən sonrakı illərdə Naxçıvan MR-də sənaye potensialının yaradılması, inkişafı və istismara verilməsi hesabına mümkün olmuşdur.

İkinci Dünya müharibəsindən sonrakı illərdə sənaye potensialının yaradılması nəticəsində Naxçıvan MR-də sənaye coğrafiyasının xəritəsi xeyli genişləndirilmişdi. Belə ki, muxtar respublikada dağ-mədən, elektroenergetika, yeyinti, yüngül, tikinti materialları sənayesi və sənayenin digər sahələri yaradılmışdır. Burada sənayeni inkişaf etdirmək üçün külli miq-

darda filiz və qeyri-filiz yataqları, mineral sular, kənd təsərrüfatı məhsulları, ekoloji şərait, əmək ehtiyyatları və s amillər vardır.

Ümümiyyətlə, 1950-60-cı illərdə Naxçıvan Muxtar Respublikasının sənayesi çətin, ziddiyyətli, eyni zamanda uğurlu inkişaf yolu keçmişdi. Lakin iqtisadi idarəetmə və planlaşdırmada ciddi qüsurlarla əlaqədar olaraq mövcud inkişaf sürəti, əmək məhsuldarlığı, istehsal muxtar respublikanın potensial imkanlarından xeyli aşağı idi.

### 1.2. Muxtar respublikada yeni sənaye sahələrinin yaradılması.

İkinci Dünya müharibədən sonrakı dövrdə Naxçıvan Muxtar Respublikasında sənaye potensialının yaradılması və inkişafı nəticəsində dağ-mədən, elektroenergetika, yeyinti, yüngül və sənayenin digər yeni sahələri yaradılmış təkmilləşərək inkişaf etdirilmişdir.

**Dağ-mədən sənayesi.** Azərbaycan Respublikası özünün çox zəngin olan təbii sərvətləri ilə Zaqafqaziya regionunda görkəmli yer tutur. Bu təbii sərvətlər Azərbaycanın Kiçik Qafqaz zonasında, xüsusilə onun şimal-şərq yamaclarında (Daşkəsən - Gədəbəy qrupu rayonu) və Naxçıvan MR ərazisində yerləşmişdir.

Kiçik Qafqazın şimal-şərq hissəsində yerləşmiş respublikanın bu kiçik guşəsi özünün coğrafi mövqeyinə və təbiətinə görə Urala bənzəməsi və müxtəlif yeraltı sərvətlərlə çox zəngin olmasına görə haqlı olaraq “Azərbaycan Uralı” adlandırılır [15, s.47].

Yeraltı və yerüstü təbii sərvətlərlə zəngin olan Naxçıvan MR-in iqtisadiyyatında dağ-mədən sənayesi mühüm yer tutur. Muxtar respublika ərazisində böyük əhəmiyyəti olan müxtəlif filiz və qeyri-filiz yataqları geniş yayılmışdır. Bu yataqlar başlıca olaraq molibden, mis, qurğuşun, sink, daşduz, pirit, mərgümüş, dolomit, kükürd, odadavamlı gillər, mərmər, tuf

daşı, dəyirman daşı, əhəng daşları, gəc, ondaluzit, gips, barıt, gümüş, qızıl, oxra, kvars, torf, uran, marqa, malaxit, melenterit, həqiq daşları, mineral boyalar, bir çox faydalı mədən suları və s. ibarətdir [28, s.170; 8, s.118].

Naxçıvan ərazisinin təbii sərvətlərə malik olmasına baxmayaraq, burada duz mədəni müstəsna olmaqla, dağ-mədən sənayesi 50-60-cı illərdə yaradılmış və inkişaf etdirilmişdir.

Mərkəzin, Moskvanın tələb və siyasətinə görə 50-60-cı illərdə Naxçıvan MR-də dağ-mədən sənaye kompleksi hər tərəfli və dinamik inkişaf yoluna qədəm qoyması üçün əməli tədbirlər həyata keçirilmişdi. Nəticədə muxtar respublika ərazisində iki dağ-mədən sənaye müəssisəsi Parağaçay molibden və Gümüşlü qurğuşun-sink mədənləri yaradılmışdı. Bu mərkəzi hakimiyyətin tam tələblərinə uyğun idi. Çünki bu yeni yaradılmış müəssisələr də digər keçmiş sənaye müəssisələri kimi mərkəzin fabrik və zavodlarını xammalla təmin edən zəruri məsələlərdən biri idi. Qeyd etmək olar ki, keçmiş sovet ittifaqının təlabatı ilə əlaqədar olaraq, 1950-1960-cı illərdə filiz-mədən sənayesinin sürətlə inkişafına çox ciddi fikir verilmişdir.

1950-60-cı illərdə sənayenin xammal, enerji mənbələrinə və istehsal regionlarına yaxınlaşması prinsipi əsasında muxtar respublika ərazisində təbii sərvətlərdən istifadə edilməsi işi xeyli genişlənmişdi. Bu dövrdə Naxçıvan MR-də dağ-mədən sənayesi daha coşğun inkişaf etdirilərək, ümumi Zaqafqaziyanın qabaqcıl sənaye sahələrindən birinə çevrilmişdi. Naxçıvan MR dağ-mədən sənaye məhsullarının bir qismi Ufa, Novoçerkaski, Kuybışev, Xarkov, Çelyabinski, Yaroslavl, Sverdlovski, İrəvan, Üst-Kemenoqorski, Dişidinski və başqa yerlərdə yerləşən əlvan və kimya metallurgiya zavod və kombinatlarına göndərilirdi.

İkinci Dünya müharibəsindən sonrakı illərdə muxtar respublika ərazisində yerləşən və istismar olunan Parağaçay

molibden, Gümüşlü qurğuşun-sink və duz-mədən sənaye müəssisələrinin fəaliyyəti daha da gücləndirilmişdi.

**Molibden istehsalı.** Mənbələrin vermiş olduğu məlumata görə Naxçıvan MR-də molibden yataqları 1951-1952-ci illərdə müəyyən edilmişdi. Parağaçay kəndi ətrafındadır. Dəniz səviyyəsindən 2300-2800 m yüksəklikdə yerləşir. Yataq istismar obyekti kimi 4 kvars molibden damarlarından ibarətdir. Əsas filiz mineralları prit, xalkoprit və molibdendir. Yataq 1952-ci ildən istismara verilmişdir [333, vər.5].

Keçmiş SSRİ əlvan metallurgiya sənaye naziri "Azərbaycan SSR ərazisində əlvan və az tapılan metalların kəşfi və axtarışlarını gücləndirmək, Parağaçay molibden müəssisəsində tikinti işlərini yaxşılaşdırmaq barəsində" 1952-ci il aprelin 19-da qərar qəbul etmişdi [330, vər.3]. Bu qərara görə Azərbaycan SSR Baş Geologiya Kəşfiyyat İdarəsində axtarış kəşfiyyat ekspediyası yaradılmışdı. Ekspediyaya kömək məqsədi ilə Keçmiş SSRİ Əlvan Metallurgiya Sənaye Nazirinin 1952-ci il mayın 11-də olan əmrinə əsasən iki nəfər ən təcrübəli mühəndis-geoloq, üç nəfər texnik geoloq, iki nəfər texnik qazma ustası göndərilmişdi [332, vər.6]. Ekspedisiya Parağaçayda böyük kəşfiyyat axtarış işləri aparmış, mühüm molibden yataqlarını aşkar etmiş və göstərmişdi ki, bu yataqlar yer səthinin çoxda dərin qatlarında yerləşmir. Bu isə iqtisadi cəhətdən çox əlverişli olub, müasir, dağ-mədən texnikasından geniş istifadə etməyə, külli miqdarda yanacaq, enerji və başqa avadanlıqlar işlədilməsinə çox qənaət etməyə imkan verir. Bu mədəndə açıq qazma üsulundan istifadə etmək mümkündür ki, bu da fəhlələrin sağlamlığının qorunmasına müsbət təsir edir.

İqtisadi cəhətdən çox böyük əhəmiyyətə malik olan Parağaçay dağ-mədən sənayesinin yaradılması bir sıra çətinliklərlə qarşılaşdı. İşçi qüvvəsinin, yol təsərrüfatının, yanacaq, enerji və s. amillərin azlığı və olmaması müəyyən çətinliklər törədirdi. "Azərbaycan SSR ərazisində SSPİ Əlvan Metallurgiya Sənaye Nazirliyinin müəssisələrinə köməklik göstər-

mək barədə” Azərbaycan K/b/P MK və Azərbaycan SSR Nazirlər Soveti 1952-ci il mayın 27-də birgə qərar qəbul etmişlər [331, vər.2]. Bu qərarı Azərbaycan K/b/P Naxçıvan Vilayət Komitəsi və Naxçıvan MSSR Nazirlər Soveti 1952-ci il iyunun 18-də birlikdə müzakirə edərək müvafiq qərar qəbul etmişlər. Həmin qərarda deyilir: “Azərbaycan K/b/P rayon partiya komitələrindən və rayon icraiyyə komitələrinin sədrlərindən tələb edilsin ki, Naxçıvan MSSR ərazisində olan SSRİ Əlvan Metallurgiya Sənaye Nazirliyinin və Azərbaycan SSR-nin müəssisələri üçün lazımi köməklik göstərsinlər” [331, vər.5].

“Parağaçay mədən idarəsini işçi qüvvəsi ilə təmin etmək barədə” Azərbaycan K/b/P Naxçıvan Vilayət Komitəsi və Naxçıvan MSSR Nazirlər Soveti 1952-ci il noyabrın 11-də qərarına əsasən Parağaçay mədən idarəsinə kömək məqsədilə 1952-ci ilin noyabrından 1958-ci il fevralın 20-nə kimi 500 nəfər səfərbər edildi [334, vər.1].

1953-cü ildə Parağaçayda ən qiymətli metal istehsal edən saflaşdırıcı fabrik tikilib qurtarmış və istifadəyə buraxılmışdı.

Parağaçay dağ-mədən sənayesinin perspektivlərini və onun gələcək inkişafını nəzərə alan Azərbaycan SSR Ali Soveti Rəyasət heyəti Parağaçay molibden yataqları yaxınlığında şəhər tipli Parağaçay qəsəbəsinin yaradılması haqqında 1954-cü il 13 avqustda fərman vermişdi [329, vər.1]. Bu fərmana əsasən Parağaçay molibden yataqları yaxınlığında şəhər tipli fəhlə qəsəbəsi yaradılmışdı.

Az vaxt ərzində muxtar respublikanın qabaqcıl müəssisələrindən olan Parağaçay dağ-mədən sənaye idarəsi 1954-cü ildə əmtəə məhsulları istehsalını 126,9 faiz, [329, vər.3] molibden istehsalını 111,0 faiz, filizin çıxarılmasını 110,2 faiz, filizin saflaşdırılmasını 115,0 faiz, filizdən molibdenin tərkibinin yüksəldilməsi 102,3 faiz yerinə yetirilmişdi [329, vər.12].

SSRİ Əlvan Metallurgiya Sənaye Nazirliyinin Parağaçay dağ-mədən idarəsinin kollektivi 1955-ci ildə məhsul isteh-

salının yüksəldilməsi və maya dəyərinin aşağı salınması uğrunda mübarizəni genişləndirərək istehsalat planlarını bütün sahələr üzrə vaxtından əvvəl, 1955-ci il oktyabrın 27-də yerinə yetirmişdi.

Belə ki, mədəndə 1955-ci ilin istehsalat planı 6611 min manat olduğu halda, 8263 min manat və yaxud 125% yerinə yetirilmişdi. Məhsulun istehsalı və keyfiyyəti filiz saflaşdırma fabrikasında xeyli yaxşılaşmışdı. Məhsulun keyfiyyəti 1954-cü ildə 0,372% olduğu halda, 1955-ci ildə 0, 405% çatdırılmışdı. Bir fəhlənin orta hesabla illik əmək haqqı 1955-ci ildə 2877 manat (1952-ci ilin qiyməti ilə) nəzərdə tutulduğu halda, 35926 manat olmuşdu. Bu da 1954-cü ilə nisbətən 21,6% çoxdur. 1955-ci ildə əmək məhsuldarlığı 1954-cü ilə nisbətən 9,4% artırılmışdı. Parağaçay dağ mədən sənaye idarəsi 1955-ci ildə dövlət planlarını filiz istehsalına görə 118%, dağ-keçid işlərinə görə 108,1%, dağ hazırlıq işləri 145,4%, dağ kəşfiyyat işlərinin 110,0% yerinə yetirilmişdi. Filiz saflaşdırma fabrikasının kollektivi 1955-ci ildə filizin emal edilməsi planının 118%, filizdən metal alınmasını 99%, sənaye məhsullarında metalın yüksəldilməsini 103,1%, sənaye məhsulu buraxılışını 120,7% yerinə yetirmişdilər [333, vər.8].

1955-ci ilin dekabrı, 1956-cı ilin əvvəlləri üçün SSRİ Əlvan Metallurgiya Sənaye Nazirliyinin Baş Volfram idarəsinə Azərbaycan KP MK Sənaye Şöbəsinin, Azərbaycan SSR Nazirlər Soveti Dövlət Plan Komitəsinin, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, Naxçıvan MSSR Nazirlər Soveti Dövlət Plan Komitəsi, Azərbaycan KP Ordubad rayon partiya komitəsinin Parağaçay filiz mədənində dövlət planlarının yerinə yetirilməsi barədə vermiş olduqları birgə məlumat bunu aydın göstərir. Məlumatda qeyd olunur ki, Parağaçay mədən idarəsində 1955-ci ilin dekabr ayının molibden sənaye məhsulunun planı 113,8% , əmtəə məhsulunu 114,1%, filizin çıxarılması 106,2%, filizin saflaşdırılması

102,5%, filizdə molibdenin tərkibi 110,2%, dağ mədən keçid işləri 119,8% yerinə yetirilmişdi.

1956-cı ilin əvvəlində kollektiv molibden sənaye məhsulu planını 109,1%, filiz çıxarmanı 101,8%, filizin saflaşdırılmasını 103,6%, filizdə molibdenin miqdarı 106,4%, dağ mədən işləri 217,6%, əmtəə məhsulu planını isə 109,2% yerinə yetirmişdir [319, vər.3].

Ölkənin iqtisadiyyatını artırmağa çalışan Parağaçay mədən idarəsinin kollektivi 1956-cı ilin tək molibden sənaye məhsulları planını yerinə yetirməmişlər. Mədən işlərinin bu və ya digər sahələrində mühüm nailiyyətlər əldə etmişlər.

1956-cı ildə Parağaçay dağ-mədən sənaye müəssisəsi məhsulun maya dəyərini 9,7% aşağı salmış, bir fəhlənin istehsal etdiyi əmtəə məhsulu 119,4%-ə, sənaye məhsulunun istehsalı 109,3%-ə, filiz çıxarmanı 101,9%, fabrikdə təkrar istehsalı planını 104,2%, bütün müəssisə üzrə bir fəhlənin buraxdığı sənaye məhsulu 104,5%-ə çatdırılmışdır [333, vər.7].

Parağaçay dağ-mədən idarəsi sonrakı ildə də yüksək göstəricilərə nail olmuşdu. Belə ki, 1957-ci ildə ümumi məhsul istehsalı planını 106,8, molibden sənaye məhsulunun buraxılışını 108,4%, əmtəə məhsullar istehsalı 108,5%, filizin çıxarılması 103,8%, filizin saflaşdırılması 108,4%, əmək məhsuldarlığının yüksəldilməsi 137,7%, dağ kəşfiyyat işləri 145,2%, dağ hazırlıq işləri 140,7% yerinə yetirilmişdir [334, vər.8,10].

1959-cu ildə Parağaçay dağ-mədən idarəsinin kollektivi 1957-ci ildə əldə edilmiş müvəffəqiyyətləri möhkəmləndirərək VI beşilliyin dördüncü il planını vaxtından əvvəl yerinə yetirmək uğrunda yarışı xeyli genişləndirdilər. Nəticədə mədən kollektivi ümumi məhsul istehsal planını 115,5%, həm də 45 gün əvvəl yerinə yetirmişdi. Parağaçay mədəninin fəhlələri bu müvəffəqiyyətlərə görə kollektiv Azərbaycan SSR XTŞ-nın və Azərbaycan Həmkarlar İttifaqları Şurasının keçici qırmızı bayrağına və birinci pul mükafatına layiq görülmüşdü [226,

vər.7]. Məhsulun keyfiyyətinin yaxşılaş-dırılmasına, əmək məhsuldarlığının yüksəldilməsinə daha çox fikir verən Parağaçay mədəni 1959-cu ildə əmək məhsuldarlığının 13,3% artmasına nail olmuşdu [226, vər.9). Mədəndə məhsulun maya dəyəri 5,8% aşağı salındı. 1959-cu ildə Parağaçay filiz saflaşdırma fabrikinin kollektivi filizin emal edilməsi planını 118,9% yerinə yetirdi [331, vər.24]. Parağaçay dağ-mədən sənaye müəssisəsində istehsalın artırılması səviyyəsi Azərbaycan Respublikasında sənaye məhsullarının artım səviyyəsinə tamamilə uyğun idi.

1960-cı illərdə Parağaçay dağ mədən idarəsi mədən kollektivi arasında ideya siyasi kütləvi izahat işini xeyli gücləndirmişdi. Nəticədə istehsalın boş dayanması halları xeyli azalmış, qəza baş verməsi halları aradan qaldırılmışdı. Şaxtaların bərkidilməsi sahəsində yeni üsul tədbiq edilmişdi. Bu isə ildə istehsalata 29 min manat qənaət etməyə imkan vermişdi [226, vər.7]. 1967-ci ildə Parağaçay mədən idarəsində işlər yenidən qurulduğuna görə ümumi məhsul istehsal planı 106,7%, sənaye məhsul istehsalı planı 100,3%, filizin-molibdenin keyfiyyəti 108,1%, filizin molibdendən ayrılması 103,5% ödəməklə bərabər, mədəndə ehtiyyat hissələri 10 ildən çox artmışdı [244, vər.64].

Ən yeni texnika ilə təchiz olunmuş Parağaçay dağ-mədən sənaye müəssisəsi ildən-ilə öz istehsal gücünü artırmışdı. 1969-cu ildə məhsul satışı planı 111% yerinə yetirilmiş, məhsulun artım sürəti 1968-ci ilə nisbətən 110% olmuşdu [356, 8 fevral 1970, №32].

1959-1970-ci illərdə istehsalın kəmiyyət artımı ilə yanaşı olaraq, Parağaçay dağ-mədən müəssisəsinin texniki iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına, filizin saflaşdırılmasına və s. xüsusi fikir verilmişdir. Bunun nəticəsində mədəndə məhsul istehsalı artırılmış və məhsulun maya dəyəri aşağı salınmışdı. Parağaçay dağ-mədən müəssisəsi illər boyu qabaqcıllar sırasında olmuşdu.

**Qurğuşun-sink istehsalı sənayesi.** Naxçıvan Muxtar Respublikasında yerləşən dağ-mədən sənaye müəssisələrindən biridə Gümüşlü qurğuşun-sink yataqlarıdır. Gümüşlü dağ-mədən sənayesi Naxçıvan MR Şərur rayonunda Zaqafqaziya dəmir yolundan 18 km, Şərqi Arpaçayın sol sahilində çox əlverişli bir sahədə yerləşir. Bu mədənin çox iqtisadi əhəmiy-yəti və gələcəyi vardır. Bu mədən də müharibədən sonrakı illərində istifadəyə verilmişdi. Keçmiş SSRİ Əlvan Metal-lurgiya Sənaye Nazirliyinin göstərişi ilə 1952-ci ildən Gümüş-lü dağ mədən yataqlarında, Azərbaycan SSR geoloji kəşfiyyat idarəsi tərəfindən çox da böyük olmayan bir fabrik tikilmişdi.

1952-1955-ci illərdə aparılmış geoloji kəşfiyyat işləri nəticəsində məlum oldu ki, Gümüşlü yatağı şimal, şimal-şərq istiqamətində 3,5 km uzanır. Şərti olaraq geoloqlar yatağı 4 hissəyə bölmüşdülər. Birinci sahəyə aid edilən şimal hissə 1953-cü ildən istifadə edilir. 2 sahə mərkəz, 3 sahə şərq və cənub hissələri əhatə edir ki, bu sahələrdə 1952-1955-ci illərdə tədqiqat işləri aparılıbdır. 4-cü sahə Yaycı hissəsi adlanır. Burada tədqiqat işləri 1955-ci ilin sonunda aparılmışdır. Eyni zamanda geoloqlar Dandik sahəsini də tədqiq etmişdilər.

Birinci sahədə filizli damar 130 m dərinlikdə və 300 m-lik şaxtada, ikinci lay isə ondan 100 m aralıda yerləşir [223, vər.145].

Gümüşlü yatağında mineroloji tədqiqat işləri 1954-1955-ci illərdə V.Q.Kruqlov və L.A.Yevseyev tərəfindən aparıl-mışdı. Yatağın tərkibində qalenit, sfalerit, az halda pirit, xalkopirit, arqentit, çerusit, anqlevit, nadir hallarda saf filizlər: kovelinə, xalkovinə, maloxitə, limonvitə rast gəlinir.

Qeyri-filiz minerallarından kvars, barıt, dolomit, ankerit, kalsit və s.var. Əsas filiz komponentlərindən başqa, spektral analiz nəticəsində məlum olubdur ki, sürmə, mis, gümüş, titan, qalay, vanadium və marqans izləri var [223, vər.147].

Gümüşlü polimetal yatağında filizdə qurğuşun 4,5%, sink isə 0,5%-dir. Yataq 1954-cü ildən istifadəyə verilmişdi [96, s.5; 192, s.172].

Burada ildən-ilə qazma işləri sürətləndirilmiş, ölkənin bu qiymətli təbii sərvətə olan tələbatını ödəmək üçün bütün imkanlardan istifadə edilmişdi.

Belə ki, Gümüşlü dağ-mədən idarəsinin kollektivi 1955-ci ilin sonunda qazma işlərini 115%, filiz çıxarılmasını 133,1% və əmtəə məhsulunu 131,3% yerinə yetirmişdi [223, vər.144]. İdarədə əmək məhsuldarlığı 50% artmış, məhsulun maya dəyəri isə 5% aşağı salınmışdı [223, vər.108].

İdarənin kollektivi bir qayda olaraq sonrakı illərdə də plan tapşırıqlarını artıqlaması ilə yerinə yetirilmişdi. 1957-ci ildə 115,1%, qazma işlərinin 117,2%, geoloji kəşfiyyat işləri üzrə əmək məhsuldarlığı 6,9% aşağı salınmışdı [335, vər.7-8]. Ən yeni texnika ilə təchiz olunmuş Gümüşlü dağ-mədən idarəsinin kollektivi, 1958-ci ildə daha böyük nailiyyətlər qazanmışdı. Belə ki, mədən həmin il istehsalat planını 119% yerinə yetirmiş, məhsulun maya dəyərini 12% aşağı salmışdı [225, vər.3]. Ümumiyyətlə, 1958-ci ildə Gümüşlü qurğuşun-sink idarəsinin göstəricisi belə olmuşdu: əmtəə məhsulu planı 112%, filizin çıxarılması 114,6%, tikinti işləri 102,5%, konçentrat istehsalı 107,0%, filizin emalı 112,4%, filizdən metal alınması 92,6%, məhsulun keyfiyyəti 9,8%, dağ hazırlıq işləri 109,5%, qazma işləri 107,8 %, geoloji kəşfiyyat işləri planı 162,6%, yerinə yetirilmişdi [336, vər.76,78]. Kollektivin bu qələbəsi yüksək qiymətləndirilmiş və ona Azərbaycan SSR Xalq Təssərrüfatı Şurası və Azərbaycan SSR həmkarlar təşkilatının ikinci pul mükafatı və keçici qırmızı bayrağı verilmişdi [225, vər.135]. Buna cavab olaraq Gümüşlü mədən kollektivi 1959-cu ildə də daha yaxşı işləyərək ümumi məhsul istehsalı planını 110,5% yerinə yetirmiş, əmək məhsuldarlığını 21,4% artırmış, məhsulun maya dəyəri 9,5% aşağı salınmış, filizin emalı planını 112,9%, filizin çıxarılması 113,7%,

konçentrat buraxılışı planını 112 % [337, vər.2,3], qazma işlərini 105,7%, geoloji kəşfiyyat işləri planını 102,4% yerinə yetirmişdir [63, vər.6]. Elmin yeni nailiyyətlərindən, qabaqcıl istehsalat metodlarından bacarıqla istifadə edən Gümüşlü dağ-mədən idarəsi sonrakı illərdə böyük nailiyyətlər qazanmışdır.

Belə ki, 1969-cu ildə Gümüşlü dağ-mədən sənaye müəssisəsində məhsul satış planı 102% yerinə yetirilmişdi. İstehsalın artım sürəti 1968-ci ilə nisbətən 80% olmuşdu [356, 8 fevral 1970, №32].

Mənbələr göstərir ki, Gümüşlü dağ-mədən sənaye müəssisəsi 1988-ci ilə qədər həmişə yüksələn xətlə inkişaf etmişdir.

Mütəxəssislərin məlumatlarına əsasən qeyd etmək olar ki, muxtar respublika ərazisində olan təbii sərvətlər tükən-məzdir. 50-60-cı illərdə Naxçıvan MR ərazisində olan təbii sərvətləri aşkar etmək üçün beş geoloji - kəşfiyyat partiyası fəaliyyət göstərmişdi [224, vər. 48].

Onlar təsərrüfat əhəmiyyəti olan Ağdərə, Nəsrivaz, Pəzməri polimetal filiz yataqlarını, Xalxal, Sirab, Qahab, Göydağ, Misdağ, Yaşıllıq mis porfir yataqlarını, Nehrəm, Püsyan duz yataqlarını, Buzqov, Şahtaxtı, Qarabağlar travertin yataqlarını, Xalac mərmər yatağını, mineral su mənbələrini, Darıdağ mərgümüş yatağını, Şəkərdərə, Ağyurd, Pyazbaşı qızıl yataqlarını və s. yataqları aşkar etmişdilər.

**Duz çıxarılması.** Naxçıvanda ən qədim sənaye sahələrindən biri duz çıxarılmasıdır. Duz dağı adlanan ərazidə dəniz səviyyəsindən 850-1200 metr yüksəklikdə, Naxçıvan şəhərindən şimal-qərb tərəfdə 10 km məsafədə yerləşən duz mədəni çox qədim zamanlardan istifadə edilən təbii, zəngin duz ehtiyatlarına malik yataq olub, oradan xörək duzu çıxarılır. Duz mədənində faydalı qatın qalınlığı 60 metr, ehtiyatı isə 97 milyon tona çatır [72, s.277].

Hazırda Naxçıvan MR bütün Zaqafqaziyada yeganə daş duz istehsal edən regiondur. Burada istehsal edilən daş duz

mal-qara və müəyyən texniki sənaye müəssisələri (gön, dəri, sabun istehsalında, soyuducu və s. işlərdə) üçün istifadə edilir. O müxtəlif qatışıqlardan (gips, mergil və s.) təmizləndikdən sonra mətbəx duzu kimi istifadə edilir. Naxçıvan duzu bir mətbəx duzu kimi çox keyfiyyətlidir. 20-ci illərdə sənayenin digər sahələri kimi duz istehsalı sənayesi də yenidən yaradılmışdır. Muxtar respublikada duz istehsalının texniki səviyyəsi xeyli yüksəldilmiş, hazır məhsulun daşınması üçün mədəndə dəmir yolu stansiyasını birləşdirən hava məftil yolu çəkilmişdir. Bu tədbirlər nəticəsində duz istehsalı 1924-cü ildəki 18,5 min tondan 1940-cı ildə 45,5 min tona çatdırılmışdı [16, s.41]. 1950-ci ildə duz mədəninin istehsalı 1913-cü il səviyyəsini 12 dəfə ötüb keçmişdir. Lakin 1940-cı il səviyyəsinə çatmamışdır. Bunun əsas səbəbi ondan ibarətdir ki, müharibə digər sənaye sahələri kimi duz mədəninin də işinə ağır zərbə vurmuşdur.

Duz mədəninin kollektivi istehsal proseslərini mexanikləşdirərək, 1950-ci ildə ölkəyə 44,5 min ton duz vermişdilər. Buna baxmayaraq beşinci və altıncı beşilliklər dövründə duz mədənində durğunluq və böhran olmuşdu. Belə ki, duz mədənində 1950-ci ildə natural şəkildə 44,5 min ton duz məhsulu istehsal edildiyi halda, 1953-cü ildə 40,3 min ton, 1955-ci ildə 37,9 min ton, 1956-cı ildə 35,0 min ton, 1957-ci ildə 15,7 min ton natural şəkildə duz məhsulu istehsal edilmişdi [177, s.35]. Bu rəqəmlər onu göstərir ki, 1953-cü ildən etibarən duz mədənində məhsul istehsalının həcmi 1958-ci ilə kimi azalmışdı. Şübhəsiz ki, duz mədəninin tənəzzülə və durğunluğa düşməsinin bir çox obyektiv və subyektiv səbəbləri var.

Əvvəlki illərdə olduğu kimi, 50-60-cı illərdə də erməni millətçilərinin törətdiyi fitnəkarlıqlar Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının, xüsusilə aqrar sənaye kompleksinin inkişafına mənfi təsir etmiş və sovet rəhbərliyi tərəfindən bunların qarşısı vaxtında alınmamışdı.

50-ci illərin sonlarında Keçmiş SSRİ-də kimya sənayesinin inkişafının sürətləndirilməsi ilə əlaqədar olaraq Azərbaycan Elmlər Akademiyasının sabiq prezidenti akademik Y.Məmmədəliyev İqtisadiyyat İnstitutunun əməkdaşlarına bildirmişdi ki, biz də öz kimya sənayemizi inkişaf etdirmək üçün duz istehsalını genişləndirmək lazımdı. Duz istehsalının yüksək səviyyədə inkişafını təmin etmək üçün Naxçıvanda olan böyük duz mədənlərində olan hasilatını genişləndirməliyik. Bu məqsədi həyata keçirmək üçün iqtisadçı alim A.A. Nadirov bir neçə mütəxəssislə Ukraynanın Artyemçuk şəhərinə gedib, duzun kənar qarışıqlardan təmizlənməsi texnologiyasını öyrənmişdi. Slavyansk şəhərində bu duzdan standartlara uyğun mətbəx duzu alınması sistemi ilə tanışlıq əsasında Y.Məmmədəliyevə öz təkliflərini təqdim etmişdi. Məsələni eşidən kimi ermənilər Moskvadakı Dövlət Plan Komitəsində yerləşən ermənilərin köməyi ilə, Ermənistanın Avan adlı çox cüzi ehtiyyatlara malik duz yataqlarından istifadə məsələsini ortaya atmışdılar. Onlar guya Naxçıvan duzunun çox baha başa gələcəyi barədə Dövlət Plan Komitəsinə məlumat verərək, onun istehsalının genişləndirilməsinin məqsədəuyğun olmadığını "əsaslandırdılar" və buna da nail olmuşdular. Halbuki, Avan yataqlarının ehtiyatları çox az idi. Azərbaycan isə öz kimya sənayesini inkişaf etdirmək üçün baha qiymətə başqa yerlərdən duz gətirməyə məcbur oldu [205, s.28-29]. Deməli, ermənilərin yeritmiş olduğu məkirli siyasət nəticəsində və Dövlət Plan Komitəsində olan havadarlarının köməyi ilə beşinci və altıncı beşilliklərdə Naxçıvan duz mədənini qəsdən tənəzzülə və durğunluğa düçar etmişdilər. Hətta ermənilərin Naxçıvan MR təsərrüfatına vurduğu ən böyük zərbələrdən biri Arpaçay suyunun Göycə gölünə axıdılması idi. Naxçıvan MR-in əsas kənd təsərrüfatı istehsalı mərkəzi olan Şərur rayonunda kəskin su qıtlığı yaratmaqla ermənilər muxtar respublikanın istehsal sənaye müəssisələrini xammaldan məhrum etməyə çalışdılar ki, gələcəkdə yerli əhali məcbur olub, muxtar

respublikanı tərk etsin. Bu isə çox təhlükəli siyasət və cinayət idi. Ermənilər utanmadan az qalırdı ki, Naxçıvan duz mədənini öz adlarına yazsınlar.

Naxçıvan duz mədənində yaranmış tarixi gerilik 1959-cu ildə qismən aradan qaldırılmışdı. Duz mədəninin kollektivi mütərəqqi üsullardan istifadə edərək 1959-cu ildə 45 min ton natural şəkildə məhsul istehsal etmişdilər [177, s.35]. İllik plan 116,5% yerinə yetirilmişdi [227, vər.6]. 1959-cu ildə duz mədəninin kollektivi yeni texnikanın istehsalata tətbiqinə, istehsal proseslərinin təkmilləşdirilməsinə, məhsulun keyfiy-yətinin yaxşılaşdırılmasına, əmək məhsuldarlığının yüksəl-dilməsinə və istehsal olunan məhsulun maya dəyərinin aşağı salınmasına daha çox fikir vermişdilər. Bunun nəticəsində mədəndə əmək məhsuldarlığı 1959-cu ildə 7,1% artmışdı [227, vər.7].

Son illərdə duz mədənində səmərələşdirici təklif və ixtiralar da tətbiq edilmişdir ki, bu da xeyli vəsaitə qənaət imkanı vermişdi. Naxçıvan duz mədəninin kollektivi duz vaqonlarının asqı yolda hərəkətlərini diyircəkli yastıq üzərinə keçirmişlər. Bu səmərələşdirici təkliflərin təbiqinin nəticəsində 49 min manat əlavə vəsaitə qənaət olunmuşdur [227, vər.8]. İstehsalın boş dayanması halları xeyli azalmış, qəza baş ver-məsi halları aradan qaldırılmışdı. Bu nailiyyətlərlə yanaşı Naxçıvan duz mədənində duz istehsalı 1950-1959-cu illərdə nəinki artırılmış, hətta müharibədən əvvəlki səviyyəyə çatdırıl-mışdı. Bununla belə Duzdağda olan 97 milyon ton duz ehtiyat-larından heç də düzgün istifadə edilməmişdi. Belə ki, duz ehtiyatlarının orta təbəqəsinin ancaq cüzi bir hissəsindən istifadə olunub, alt və üst təbəqələrə toxunulmayıb, duzun açıq üsulla çıxarılmasına tam əməl edilməmişdi.

Sonrakı illərdə duz mədəninin işindəki qüsurlar aradan qaldırılmış və bu qiymətli sərvətinin istehsalında vahid qayda yaradılmasına nail olunmuşdu. Nəticədə 1959-cu ildə 45 min ton, 1960-cı ildə 55 min ton, 1961-ci ildə 56 min ton, 1962-ci

ildə 60 min ton, 1963-cü ildə 70,5 min ton [177, s.35], 1965-ci ildə isə 72,7 min ton natural şəkildə duz istehsal edilmişdir [169, s.30].

Rəqəmlərdən görünür ki, yeddilikdə hər il muxtar respublikada duz istehsalı artırılmışdı. Belə ki, 1965-ci ildə natural şəkildə istehsal olunan duz məhsulu 1940-cı ildə (45,5 min ton) istehsal olunan duz məhsulundan 27,2 min ton çox idi. Buna baxmayaraq 1966-1970-ci illərdə duz mədənində obyektiv və subyektiv amillər nəticəsində tənəzzül və iflic vəziyyəti yaranır. Bunu aşağıdakı rəqəmlər bir daha təsdiq edir. Belə ki, 1965-ci ildə Naxçıvan Muxtar Respublikasında 72,7 min ton duz istehsal edildiyi halda, 1966-cı ildə 65,6, 1967-ci ildə 52,0, 1968-ci ildə 53,0, 1969-cu ildə 44,6, 1970-ci ildə 62,1 min ton duz istehsal edilmişdi [169, s.30].

Naxçıvan MR ərazisində daşduz yataqlarının çox olmasına baxmayaraq, 1966-1970-ci illərdə erməni xəyanəti nəticəsində duz mədəni böhrana düşmüşdü.

Ümumiyyətlə, 50-60-cı illərdə Naxçıvan MR-da dağ-mədən sənayesinin inkişaf təhlil edilən zamanı müəyyən olmuşdur ki, Parağaçay, Gümüşlü dağ-mədən sənaye müəssisələri yüksələn xətlə inkişaf etdiyi halda, duz mədəni qeyri-sabit inkişaf etdirilmişdir. Buna baxmayaraq, muxtar respublikada dağ-mədən sənayesi istənilən səviyyəyə yüksəlməmişdir.

**Elektroenergetika hasilat sənayesi.** Naxçıvan Muxtar Respublikasında dağ mədən sənayesinin gələcək sürətli inkişafının təmin olunmasında və inkişafında elektrik enerjisi çox böyük əhəmiyyət kəsb edir.

İkinci Dünya müharibəsinə kimi Naxçıvan MR-də elektrik enerji bazasını əsasən kiçik həcmli kommunal və bəzi müəssisələrin nəzdində olan istilik, habelə xırda su elektrik stansiyaları təşkil edirdi. Bu elektrik enerjisi Naxçıvan MR-in əsas sənayesini qismən təmin etsə də, muxtar respublikanın başdan-başa elektrikləşdirilməsi üçün kifayət deyildi. İkinci

Dünya müharibəsindən sonrakı illər muxtar respublikanın elektrikləşdirilməsi tarixində xüsusi yer tutur. Muxtar respublikada dağ-mədən, yeyinti, yüngül, yerli və sair sənaye sahələrinin inkişafı, habelə əhalinin elektrik enerjisinə artan tələbatı energetika sənayesinin sürətlə inkişaf etdirilməsi zərurətini doğurmuşdu. 50-60-cı illərdə muxtar respublikanın şəhər və kəndlərində bir sıra elektrik stansiyaları tikildi, mövcud olanlar genişləndirilmişdi. 1958-ci ildə muxtar respublikaya yüksək gərginlikli elektrik xəttinin çəkilməsi sənaye müəssisələrinin də elektrik enerjisinə olan ehtiyacını ödəmişdi. Yüksək gərginlikli elektrik xəttinin çəkilişi ilə əlaqədar olaraq Naxçıvan duz mədənində, çörək zavodunda, mebel fabrikində, Şərur pambıqtəmizləmə zavodunda, Ordubad ipək fabrikində, konserv zavodunda və başqa sənaye müəssisələrində ağır zəhmət tələb edən işlər mexanikləşdirilmişdi. Bu da sənayenin inkişafında öz müsbət rolunu göstərmişdi. Elektrikləşmə kənd təsərrüfatının ayrı-ayrı sahələrinə də tətbiq edilmişdi. 1966-cı ilin sonunda Respublikanın bütün şəhər, qəsəbə və kəndləri elektrikləşdirilmişdi. Muxtar respublikada 1940-cı ildə natural şəkildə 614 min kilovat-saat elektrik enerjisi hasil edildiyi halda, 1960-cı ildə 8058 min kilovat-saat natural şəkildə elektrik enerjisi hasil edilmişdi [177, s.35].

Naxçıvan MR-də sonrakı illərdə elektrik enerjisi daha böyük sürətlə inkişaf etmişdi. Məlum olduğu kimi, keçmiş SSRİ ilə İran dövləti arasında olan müqaviləyə əsasən 1967-ci ilin mart ayından etibarən Naxçıvan yaxınlığında Araz çayı üzərində hər biri 22 min kilovat gücündə olan 2 su elektrik stansiyasının tikintisinə başlanmışdı [32, s.185]. Bu orta güclü elektrik stansiyasının tikilib başa çatdırılması Naxçıvan MR-də energetika hasilat sənayesinin inkişafında mühüm mərhələ olmuşdur. Məhz bunun nəticəsində ilk dəfə olaraq 1971-ci ildə Naxçıvan MR-də 25,7 milyon kilovat saat elektrik enerjisi hasil edilmişdir ki, bu da 1940-cı ildə hasil olunduğundan (0,6

milyon kilovat-saat) 43 dəfə, 1960-cı il səviyyəsindən isə (8,1 milyon kilovat-saat) 3,2 dəfə çoxdur [176, s.339].

Elektrik enerjisindən səmərəli və qənaətlə istifadə etmək ən mühüm məsələlərdən biridir. Tədqiqat zamanı aşkar edildi ki, muxtar respublikanın sənaye müəssisələri elektrik enerjisindən səmərəli istifadə etmiş, müəssisələrdə texnoloji proseslər düzgün qurulmuş, dəzgahların səmərəsiz hərəkətlərinə yol verilməmişdir. Nəticədə enerjiyə xeyli qənaət olunmuşdur.

**Yeyinti sənayesi.** Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında yeyinti sənayesi qabaqcıl yerlərdən birində durur. Azərbaycanın digər iqtisadi rayonlarında nisbətən daha çox sahəli quruluşa malik olması ilə səciyyələnən Naxçıvan MR yeyinti sənayesi burada istehsal edilən ümumi sənaye məhsulunun yarıdan çox hissəsini verir. 50-60-cı illərdə muxtar respublikanın yeyinti sənayesində bir sıra yeni sahələr yaradılmış, bütün sahələrdə məhsul istehsalı xeyli artmış, şərabçılıq, həmçinin mineral sular istehsalı yüksək sürətlə inkişaf etmişdi. Tütün fermantasiya və piyvə sənayesi kimi mühüm sahələr istifadəyə verilmişdi. Yeyinti sənayesində baş vermiş müsbət dəyişikliklər muxtar respublikanın iqtisadiyyatı, xüsusən onun kənd təsərrüfatının yüksəlişi ilə əlaqədardır. Mineral sular doldurulması Naxçıvan MR yeyinti sənayesinin inkişaf səviyyəsinin xeyli yüksəldilməsinə səbəb olmuşdur. Digər dövrlər kimi, 1950-60-cı illərdə də muxtar respublikada yeyinti sənayesinin inkişafı hökümətin diqqət mərkəzində olmuşdu. Bu qayğı və diqqətin nəticəsidir ki, burada konserv-şərab, mineral su, tütün fermentasiya sənaye sahələri və digər qrup (ət, süd, qənnadı, çörək bişirmə, piyvə, un və s.) sənaye sahələri muxtar respublikanın yerli tələbatının ödənilməsi məqsədi ilə inkişaf etdirilir.

Qeyd etmək olar ki, Naxçıvan MR-nin yeyinti sənayesi muxtar respublikada istehsal olunan ümumi məhsulların yarıdan çox hissəsini verir. 1973-cü ilin məlumatına görə Naxçıvan MR-nin müstəqil balansında olan 40 iri sənaye

müəssisəsinin 17-si yeyinti sənayesi sahələrinin payına düşür [176, s.339].

Konserv sənayesi. Naxçıvan MR ərazisində yerləşən yeyinti sənaye müəssisələrindən biri də Ordubad şəhərində yerləşən konserv zavodudur.

Ordubad konserv zavodu ilə təmsil olunan bu sahə Azərbaycanın müvafiq sənaye sahəsinin inkişafında əhəmiyyətli rol oynayır. Burada 46 növ mürəbbələr, kompotlar və s.hazırlanır. Ordubad konserv zavodu məhsullarının keyfiyyətinə görə Azərbacanın qabaqcıl müəssisələrindən biri sayılır və onun məhsulları ölkənin 70-dən artıq rayonuna göndərilir. 1929-cu il iyul ayının 15-də istifadəyə verilmiş, 1932-ci ilin əvvələrində Azərbaycan konserv trestinin ixtiyarına keçmiş [320, vər.7,8] bu zavodun işi müharibədən sonrakı illərdə yenidən qurulmuşdu. 1947-ci ildə zavod 1,275, 0 min manatlıq satlıq məhsul istehsalı əvəzinə 1,355, 0 min manatlıq məhsul istehsal etmişdir ki, bu da planın 106,4%-ni təşkil edir. Zavodda 80,0 min manatlıq yaxud nəzərdə tutulduğundan 157 ton artıq əmtəə məhsulu istehsal edilmişdi [48, vər.16].

Ordubad meyvə konserv zavodunun əsas xammalını Ordubad rayonu verir. Müəyyən miqdar xammal Azərbaycan Respublikasının başqa rayonlarından alınır. Bəzi hallarda yerli xammal mənbələrinin məhdudluğu üzündən zavodun istehsal gücündən tam istifadə edilmir. Hətta çox zaman səmərəsiz olaraq, Azərbaycanın başqa rayonlarından (Quba-Xamaz və b.) zavoda meyvə gətirilir. Ordubad meyvə konserv zavodu başlıca olaraq, mürəbbə (qoz, gilənar, gül, qovun və s.), kompot (ərik, şaftalı və s.), pavilla və s. buraxır.

Konserv zavodunun son illər ərzində buraxdığı məhsul aşağıdakı şəkildə səciyyələnə bilir (milyon şərti banka hesabilə) [205, s.85; 177, s.35].

| | |
|---|---|
| 1940-cı il 1,5 | 1955-ci il 3,7 |
| 1950-ci il 1,8 | 1956-cı il 4,3 |
| 1951-ci il 2,0 | 1957-ci il 4,5 |

| | |
|---|---|
| 1952-ci il 2,3 | 1958-ci il 5,1 |
| 1953-cü il 2,8 | 1959-cu il 4,3 |
| 1954-cü il 3,0 | 1960-cı il 4,4 |

Bu rəqəmlərdən görünür ki, Ordubad konserv zavodu məhsul istehsalını beşinci və altıncı beşilliklər ərzində 1940-cı ilə nisbətən müntəzəm olaraq artırmışdı. Belə ki, zavod 1940-cı ildə 1,5 milyon şərti banka məhsul istehsal etdiyi halda, 1960-cı ildə 4,4 milyon şərti banka məhsul istehsal etmişdi. Qeyd etmək olar ki, 1961-ci ildə zavod 6,1 milyon şərti banka müxtəlif çeşidli məhsul istehsal etmişdi [177, s.35].

Sonrakı illərdə də konserv zavodu məhsul istehsalını xeyli artırmışdır. Belə ki, zavod 1965-ci ildə 6252 min şərti banka məhsul istehsal etdiyi halda, 1967-ci ildə 7888 min şərti banka, 1968-ci ildə 8703 min şərti banka, 1969-cu ildə 9298 min şərti banka, 1970-ci ildə 10032 min şərti banka, 1971-ci ildə isə 12,7 milyon şərti banka konserv məhsulu istehsal etmişdi [169, s.30]. Rəqəmlərdən görünür ki, Ordubad konserv zavodu ildən-ilə məhsul istehsalının həcmini artırmışdı. 1971-ci ildə 12,7 milyon şərti banka konserv məhsulu istehsal etmişdir ki, bu da 1940-cı ilə nisbətən (1,5 milyon şərti banka) 8,5 dəfə, 1960-cı ilə nisbətən (4,4 milyon şərti banka) 2,9 dəfə çoxdur. Bununla, əlaqədar olaraq muxtar respublikada meyvəçiliyi, bağçılığı, konserv sənayesinin artan tələbatı üçün xeyli miqdarda xammal istehsal edən qabaqcıl təsərrüfat sahələrinə çevirmək lazımdır.

**Şərab sənayesi.** Naxçıvan Muxtar Respublikasının yeyinti sənayelərindən biri də şərab sənayesidir. 50-60-cı illərdə muxtar respublikada 3 şərab zavodu vardı. Bunlar Naxçıvan, Şahbuz və Əbrəqunusda yerləşirdi. Bu zavodlardan ən böyüyü Naxçıvan şərab zavodudur. Bundan əlavə, Çalxanqala, Badamlı və başqa kəndlərdə də ilk emal məntəqələri yerləşirdi. Bu müəssisələrdə konditasiya dərəcəsinə çatmış şərab hasilat materiallarından əsas zavodlarda hazır şərab istehsal edilirdi. Şərab zavodları respublikanın Naxçıvan

(indiki Babək), Şahbuz və Culfa rayonlarının verdiyi üzüm əsasında işləyirdi. Lakin üzüm istehsalının Respublikada hələlik aşağı səviyyədə olması başqa sənaye müəssisələri kimi şərab zavodlarının da istehsal gücündən tam istifadə edilməsinə imkan vermir. Muxtar respublikanın şərab zavodlarının məhsulu müxtəlif adlarla istehsal olunurdu. Burada əsas olaraq süfrə, dessert şərabları, konyak, üzüm arağı, "Naxçıvan", "Əbrəqunus", "Şahbuz" süfrə, cəhrayı portveyn, "Naxçıan koqoru" kimi şərablar istehsal edilir. İstehsal edilən şərabların əksəriyyəti öz keyfiyyətinə görə yüksək qiymətləndirilir. Azərbaycan ərazisi daxilində istehsal edilən müvafiq şərab məhsullarının mühüm hissəsini təşkil edən muxtar respublika şərab sənayesi digər sənaye sahələri kimi 60-cı illərdə xeyli artmışdır. Təkcə bu faktı göstərmək kifayətdir ki, 1960-cı ildə muxtar respublikada 42 min dekalitr şərab istehsal edildiyi halda, bu rəqəm 1965-ci ildə 67 min dekalitr, 1970-ci ildə 75 min dekalitrə, 1971-ci ildə isə 98 min dekalitrə çatdırılmışdır [16, s.41]. Rəqəmlərdən göründüyü kimi, muxtar respublikada 1971-ci ildə 98 min dekalitr müxtəlif çeşiddə şərab məhsulu istehsal edilmişdir ki, bu da 1960-cı ilə nisbətən (42 min dekalitr) 2,3 dəfə çoxdur.

Naxçıvan MR-də şərab istehsalının gələcək perspektivi burada üzüm tədarükünün səviyyəsindən çox asılıdır. Respublikanın torpaq, iqlim şəraiti imkan verir ki, burada iri üzümçülük sahələri yaradılsın. 50-60-cı illərdən tədqiq olunan dövrdən muxtar respublikada iri üzümçülük sovxozlarının yaradılması imkan vermişdi ki, şərabçılıq sənayesi də geniş inkişaf etsin. Müasir şərab sənayesinin müstəqil balansında olan 8 iri müəssisə - "Arpaçay", "Naxçıvan MR-in 40 illiyi", "Naxçıvan", "Ordubad" və "Sədərək" üzümçülük sovxozları nəzdində olan zavodlarla, Naxçıvan, Şahbuz və Əbrəqunus şərab zavodları ilə təmsil olunmuşdur [176, s.340].

**Mineral sular istehsalı.** Azərbaycan Respublikasının başqa rayonlarından fərqli olaraq, Naxçıvan MR müxtəlif

fiziki-kimyəvi tərkibli mineral su mənbələri ilə daha zəngindir. 5,5 min kv km sahəsi olan Naxçıvan MR 200-dən çox mineral su mənbəyi aşkar edilmişdir. Dünyada nadir halda təsadüf edilən Darıdağ, Mərgümüşlü mineral suyu, Barjomi tipli Sirab suyu, Botlinski tipli Badamlı mineral suyu, Yesentuki tipli Vayxır mineral suyu və s. mineral bulaqlar muxtar respublikanın tükənməz təbii sərvətləridir. Bu qiymətli təbii sərvətlərdən istifadə edilməsi muxtar respublikanın xalq təsərrüfatında mühüm rol oynayır. Buna baxmayaraq, mərgümüşlü, buromlu, dəmirli, natriumlu, kaliumlu, sulfatlı, maqneziumlu, xlorlu və başqa tərkibindən ibarət olan bu mühüm təbii sərvətlərdən yalnız Badamlı və Sirab mineral su mənbələrindən az miqdarda istifadə edilir. Lazımi iqtisadi və texniki şəraitin olmadığına görə Badamlı və Sirab mineral su zavodlarının da gücündən tam istifadə olunmur. Litri 20 qəpik olan Badamlı və Sirab mineral sularının hər il havayı çaylara, zəmilərə axan 340-350 milyon litrdən çox sərvəti Azərbaycan Yeyinti Sənaye Nazirliyini və aid təşkilatları düşündürməlidir. Axı, yeraltı sulardan səmərəli istifadə etmək məsələsi dövlət qarşısında duran əsas vəzifələrdən biridir.

"Azərbaycan narzanı" adı ilə geniş şöhrət qazanmış Badamlı mineral su zavodu 1947 -ci ildə yaradılmışdır. Zavod 1955-ci ildə tam mexanikləşdirilmişdi. Məhz buna görə də 1955-ci ildə 9064 min butulka, 1960-cı ildə 12894 min butulka, 1965-ci ildə 18471 min butulka, 1970-ci ildə 37004 min butulka, 1971-ci ildə isə 44455 min butulka mineral su istehsal olunmuşdur [177, s.35; 168, s.41].

Mütəxəssislərin apardıqları müşahidələr nəticəsində müəyyən edilmişdir ki, Badamlı mineral sular qruppasının ümumi debiti sutkada 980 min litrdi. Lakin, Badamlı mineral suyundan ancaq 8,5% istifadə edilir. Bu qiymətli sərvətin 275 min litri və yaxud 91,5 % izafi yerə, çeşmələrə axır [326, vər.97].

Naxçıvan ərazisində olan zəngin bulaqlardan biri də Sirab mineral bulaqlarıdır. Sirab mineral suyu ilk dəfə 1935-1936-cı illərdə butulkalara doldurulmuşdu. İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq, burada iş təxirə salınmış və müharibədən sonrakı illərdə yenidən fəaliyyətə başlanmışdı. 1951-ci ildə burada yarım mexanikləşdirilmiş zavod yaradılmışdı. Bu zavod bir müddət "Naxçıvan suyu" adı ilə mineral su istehsal etmişdi. Lakin 1954-cü ildə təbii fəlakət nəticəsində zavod və bulaqların bir neçəsi sıradan çıxmışdı. Yalnız 60-cı ildən sonra yarım mexanikləşdirilmiş zavod bərpa olunub istifadəyə verildi. Azərbaycanın bir çox rayonlarına göndərilən "Naxçıvan suyu" sonralar tariximizə "Sirab" mineral suyu kimi daxil oldu. 1977-ci ildə Sirab mineral sular zavodunda gücü saatda 6 min ədəd olan yeni avtomat su doldurucu xətt quraşdırıldı ki, bunun da nəticəsində zavodun istehsal gücü ildə 30 mil. butulkaya qaldırıldı.

Muxtar respublika ərazisində süfrə və müalicəvi əhəmiyyətə malik olan mineral sulardan biri də Vayxır kəndinin yanında yerləşir. Vayxır mineral suyu öz kimyəvi tərkibinə görə karbon qazlı, xloridli, hidrokarbonatlı, natrium-kaliumlu olub, tərkibində dəmir və mərgümüş ionları vardır.

Moskva Mərkəzi Elmi-Tədqiqat Kurortologiya və Fiziki Üsullarla Müalicə İnstitutu Vayxır mineral suyunu müayinədən keçirmiş və SSRİ Həmkarlar İttifaqı Mərkəzi Şurasının Kurortlar İdarəsinə təqdim etdiyi xüsusi arayışda Vayxır mineral suyunun fiziki-kimyəvi xassələrinin Yesentuki 17 №-li suyunun fiziki-kimyəvi xassələrinə uyğun gəldiyi göstərilir. Keçmiş SSRİ Nazirlər Soveti yanında faydalı qazıntılar üzrə Dövlət Ehtiyat Komitəsi Vayxır mineral suyunun uzun müddətli ehtiyata malik olmasını qərara almışdı [23, s.19; 175]. Buna baxmayaraq, Vayxır mineral suyundan da hələlik istifadə edilmir. Naxçıvan çayına axıdılır.

Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının mineral suları təkcə süfrə üçün deyil,

bu mineral sular öz xarakter xüsusiyyətlərinə görə eyni zamanda müalicəvi xüsusiyyətlərə malikdir. Naxçıvan MR-də yerləşən mineral sular yerli əhalinin nəzər diqqətini ta qədim zamanlardan cəlb etmiş və onlar həmin sulardan müalicə məqsədilə istifadə etmişdilər. Naxçıvan MR-i ərazisinin Culfa rayonunda yerləşən Darı dağ mineral suyu daha yüksək müalicə xüsusiyyətinə malikdir. Darıdağ mineral suynun tərkibində alüminium, dəmir, kalsium, maqnezium, kalium, natrium, xlor, sulfat, silikat turşusu, hidroarsenium, sərbəst karbon qazı vardır [23, s.17]. Dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşən Darıdağ mineral suyu 5 bulaq və 32 kəşfiyyat quyularından ibarətdir.

Mütəxəssislər Darıdağ mineral suyuna keçmiş SSRİ-də olan Sineqor və Zubi sularına nisbətən, şübhəsiz üstünlük verirlər. Darıdağ mineral suyu öz xüsusiyyətlərinə görə qitaBürbül (Fransa), Dürxheym (Almaniya), Ronnen (İtaliya), Stimbot (ABŞ), Kudova (Polşa), Sipeqorek (Saxalin) sularının analoqudur [23, s.19]. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə Darıdağ suyu onlardan üstündür. Tempraturu 53-57 $^0$S, ehtiyatı 4507 $m^3$ gün təsdiq edilmişdir [195, s.123].

Ümumiyyətlə, Naxçıvan ərazisində çoxlu içməli mineral sularla yanaşı Nəhəcir, Kotam, Ləkətağ, Kömür, Qızılvəng, Parağaçay, Qahab, Sədərək, Cuza, Ərəfsə, Dəstə və s. müalicəvi xüsusiyyətləri tam öyrənilməmiş mineral sular daha çoxdur. Bu qiymətli təbii sərvətlərdən hələ ki, çox az istifadə olunur.

Naxçıvan Muxtar Respublikasında digər yeyinti sənaye sahələri (ərimiş yağ, pendir, süd, ət, çörək, un, qənnadı məmulatları və s.) 50-60-cı illərdə əsasən yerli əhalinin tələ-batının ödənilməsi məqsədi ilə inkişaf etdirilmişdi. Əhalinin yeyinti məhsullarına artan tələbatını nəzərə alaraq, muxtar respublikada qənnadı, biskvit fabriklərinin və digər müəssisə-lərin tikilməsi məqsədəuyğundur.

**Yüngül sənaye.** 1950-60-cı illərdə xalq təsərrüfatının bütün sahələri kimi muxtar respublikada yüngül sənayenin də inkişaf etdirilməsi üçün imkan yaranmışdı. Eyni zamanda hökümət xalqın yaşayış səviyyəsini yüksəltmək məqsədilə xalq tərəfindən çox işlənən mallar istehsalını artırmağa xüsusi diqqət vermişdi.

Azərbaycan Respublikasının sənaye müəssisələri kimi Naxçıvan MR-in sənayesinin bütün sahələrində texnikanın tətbiqi miqyası xeyli genişlənmişdi. Köhnə, az məhsuldar avadanlıq, yeni, yüksək məhsuldar, kiçik qabaridli maşın və dəzgahlarla əvəz edilmişdi. Nəticədə yerli xammal bazası əsasında inkişaf edən Naxçıvan MR yüngül sənayesi 50-60-cı illərdə xalq təsərrüfatının mühüm sahələrindən birinə çevrilmişdi. Yüngül sənayenin bütün sahələrinə texnikanın tətbiqi miqyası genişləndirilmişdi.

Yerli xammal bazası əsasında inkişaf edən Naxçıvan MR yüngül sənaye müəssisələri başqa sənaye müəssisələrinə nisbətən ən çox məhsul istehsal edir. Sənayenin bu sahəsinin xarakter xüsusiyyəti ondan ibarətdir ki, onun müəssisələri hazır məhsul istehsal etmir. Ancaq kənd təsərrüfatı xammalının ilk emalı ilə məşğul olur. Muxtar respublikanın yüngül sənaye müəssisələri tərəfindən istehsal olunan yarımfabrik məhsullar keçmiş Sovet İttifaqının bir çox şəhərlərində olan fabrik və zavodlara göndərilirdi.

Naxçıvan Muxtar Respublikasının yüngül sənayesi yeyinti sənaye sahələri kimi çoxsahəlidir. Burada pambıqtəmizləmə, baramaaçma, pambıq parça, tikiş, gön-dəri və sair sənaye müəssisələri üstünlük təşkil edir.

**Pambıqtəmizləmə sənayesi.** Naxçıvan Muxtar Respublikasında pambıqtəmizləmə sənaye müəssisəsi Şərur rayonunda yerləşirdi. Şərur pambıqtəmizləmə sənaye müəssisəsi muxtar respublikada olan yüngül sənayenin ən iri müəssisələrindən biri idi. Naxçıvan MR-də istehsal olunan bütün pambıq bu zavodda emal edilirdi. 1926-cı ildə istifadəyə verilmiş bu zavod başqa

pambıqtəmizləmə müəssisələri kimi əsasən pambıq lifi istehsal edirdi.

İstehsal prosesində burada xeyli miqdarda qiymətli çiyid və tiftik kimi tullantılar da alınırdı.

Qeyd etmək lazımdır ki, Şərur pambıqtəmizləmə zavodunun istehsal etdiyi yüksək keyfiyyətli sənaye məhsulları təkcə keçmiş Sovet İttifaqının bir çox şəhərlərində olan fabriklərə deyil, eyni zamanda xarici ölkələrdə yerləşən fabriklərə də göndərilirdi.

İstehsal prosesində orta hesabla hər bir ton xam pambıqdan 34% pambıq lifi, 63% çiyid və 3% tiftik istehsal edən Şərur pambıqtəmizləmə zavodunun kollektivi 1951-1955-ci illərdə plan tapşırıqlarının yerinə yetirilməsi sahəsində böyük əmək nümunələri göstərmişdi.

Təkcə bu faktı göstərmək kifayətdir ki, zavodun kollektivi 1950-ci ilə nisbətən, 1951-ci ildə yüngül sənaye üçün 1.992 ton artıq mahlıc istehsal etmişdi. 1952-ci ildə, 1951-ci ilə nisbətən 231 ton, 1953 -cü ildə isə 1952-ci ildəkindən 1.343 ton artıq mahlıc istehsal etmişdi [356, 24 mart 1954, №35]. Zavod istehsalının əsas sahələri həmin dövrdə mexanikləşdirilmişdir ki, bu da istehsalın səviyyəsinin yüksəldilməsinə və avadanlıqlardan səmərəli istifadə etməyə imkan vermişdi.

Muxtar respublikada son illərdə pambıq lifi istehsalı aşağıdakı şəkildə olmuşdu (min tonla) [204, s.83; 177, s.35].

| | | | |
|---|---|---|---|
| 1951-ci il | 5,1 | 1956-cı il | 4,7 |
| 1952-ci il | 5,3 | 1957-ci il | 6,3 |
| 1953-cü il | 6,6 | 1958-ci il | 5,0 |
| 1954-cü il | 7,1 | 1959-cu il | 5,4 |
| 1955-ci il | 7,9 | 1960-cı il | 5,7 |

Göründüyü kimi, 1951-1960-ci illərdə pambıqtəmizləmə zavodu lif istehsalını müntəzəm olaraq artırmışdı. Belə ki, 1955-ci ildə pambıqtəmizləmə zavodunda 7,9 min ton lif istehsal etmişdir ki, bu da 1940-cı ildəkinə nisbətən (2477 ton) 3,2 dəfə çoxdur. Lakin, 1956-cı ildə zavodda lif istehsalı (4,7

min ton), 1955-ci ilə nisbətən (7,9 min ton) 1,68 dəfə azalmışdır. Bunun əsas səbəbi odur ki, 1956-cı ildə Muxtar Respublikada pambıq əkin sahələri xeyli azalmışdır. Nəticədə dövlətə pambıq tədarükü az olmuşdur. Sonrakı illərdə pambıq əkin sahələri artırıldığına görə, dövlətə pambıq tədarükü planı artıqlaması ilə yerinə yetirilmişdi. Pambıqtəmizləmə zavodu 1957-ci ildə 6,3 min ton mahlıc (lif), 1629 ton çiyid toxumu istehsal etmişdi [224, vər.77]. Zavod 1957-ci ildə ümumi məhsul istehsal planını 105,1 %, 1958-ci ildə 102%, 1959-cu ildə isə 101 % yerinə yetirmişdi [356, 27 fevral 196, №43].

Pambıqtəmizləmə zavodu azaldılmış dövlət planını altıncı beşillikdə yerinə yetirsədə zavodun istehsal gücündən 40-50% istifadə edilmişdir. Bu isə gələcəkdə pambıqtəmizləmə zavodunun fəaliyyətinin dayandırılması demək idi.

Keçmiş SSRİ Dövlət Plan Komitəsi tərəfindən ermənilərin təsiri ilə qəsdən pambıqtəmizləmə zavodunun planı azaldılmışdır ki, az məhsul istehsal etdiyinə, zərərlə işlədiyinə görə bu müəssisənin saxlanılması qeyri mümkün hesab edilsin. Bu da erməni xislətinin yeritmiş olduğu siyasətin bir formasıdır.

Şərur pambıqtəmizləmə zaodunu tam gücü ilə işlətmək üçün Azərbaycanın digər rayonlarından dəmir yolu vasitəsilə zavoda xam pambıq gətirmək mümkün idi. Necə ki, Daşkəsəndən Rustavi metallurgiya zavoduna xammal aparılırdı. Nəyin ki, Azərbaycandan, Orta Asiyadan da Şərur pambıqtəmizləmə zavoduna xam pambıq gətirmək olardı. Məqsədli olaraq bu iş təşkil edilməmişdir.

Nəticədə pambıqtəmizləmə zavodunda məhsul istehsalının həcmi xeyli azalmışdır. Belə ki, 1965-ci ildə 6122 ton natural şəkildə pambıq lifi istehsal edildiyi halda, 1970-ci ildə 5841 ton lif istehsal edilmişdir [172, s.30]. Deməli, 1965-ci ilə nisbətən, 1970-ci ildə 281 ton pambıq lifi az istehsal olunmuşdur. Zavodda pambıq lifinin az istehsal edilməsinin əsas səbəblərindən biri muxtar respublikada pambıq tədarükünün və pambıq əkin sahələrinin azalması, planlaşdırmanın düzgün

aparılmaması ilə izah etmək olar. Təkcə bu faktı göstərmək kifayətdir ki, muxtar respublikanın təsərrüfatları 1953-cü ildə dövlətə 21978 ton, 1959-cu ildə 13500 ton, 1965-ci ildə 11778 ton, 1970-ci ildə isə 7872 ton pambıq məhsulu satmışdı [177, s.57; 169, s.35].

Ermənilər Şərur pambıqtəmizləmə zavoduna zərbə vurduqları kimi Naxçıvan MR pambıq əkin sahələrinə də ən böyük zərbə vurmuşlar. Onlar Arpaçay suyunun Göyçə gölünə axıdılması ilə Şərur rayonunda pambıqçılıq təsərrüfatını sıradan çıxardılar. O zaman keçmiş SSRİ-nin dövlət başçısı N.S.Xuruşova Göyçə gölü gəzintisində ermənilərin əvvəldən hazırladıqları Arpaçay-Göyçə gölü kanalı layihəsinə qol çəkdirdilər. Bununla da Naxçıvanın iqtisadiyyatına ağır zərbə vurdular. Naxçıvan MR-in əsas kənd təsərrüfat istehsalı mərkəzi olan Şərur rayonunda kəskin su qıtlığı yarandı. Kənd təsərrüfatının bu və ya digər sahələri kimi pambıqçılıq təsərrüfatına da böyük zərbə dəydi.

70-ci illərin əvvəllərində muxtar respublikada pambıq əkilmədiyinə və tədarük edilmədiyinə görə Şərur pambıqtəmizləmə zavodu fəaliyyətini dayandırmışdır.

Görünür ki, Şərur pambıqtəmizləmə zavodu fəaliyyətinin dayan-dırılmasında ermənilərin məqsədi ondan ibarət olmuşdur ki, Naxçıvanda sənaye sahələri inkişaf etməsin, Ermənistandan asılı vəziyyətə düşüb, gələcəkdə onun əyalətlərindən birinə çevrilsin.

Onu da qeyd etmək olar ki, 50-60-cı illərdə pambıqtəmizləmə zavodunda hasil edilən çiyid İrəvan yağ-piy zavoduna göndərilmişdi. Bu isə düzgün normal hal deyildi. Çünki məhdud yem ehtiyatına malik olan muxtar respublika malqarası əlavə qiymətli qüvvəli yemdən məhrum olurdu.

Təsadüfi deyil ki, muxtar respublikada yem çatışmadığına görə Azərbaycanın İmişli, Sabirabad, Saatlı rayonlarına muxtar respublikanın kolxoz fermalarından göndərilmiş mal-

qaranın əksəriyyəti tələf olmuş, kolxoz təsərrüfatlarına böyük ziyan dəymişdi.

Hər il muxtar respublikadan min tonlarla çiyid Ermənistana göndərildiyi halda, onun özünə başqa regionlardan çiyiddən hazırlanan qüvvəli mal-qara yemi olan jmıx gətirilmişdi. Məsələn, 1956-cı ildə muxtar respublikaya başqa regionlardan 52,6 min sentner jmıx gətirilmişdi ki, buna da 2,7 milyon manat pul sərf edilmişdi [204, s.84].

Düzgün olmayan bu siyasətə son qoymaq üçün pambıqtəmizləmə zavodunun tullantısı olan çiyiddən muxtar respublikanın özündə jmıx istehsal etmək mümkün olardı. Bunun üçün Şərur pambıqtəmizləmə zavodu nəzdində hidravlik məngənə qoymaqla, yeni bir sex açmaq o qədər də çətin məsələ deyilmiş. Aydın məsələdir ki, bu sex niyə açılmamışdır. Deməli, sadə bir hidravlik sex açılmış olsa idi, Şərur pambıqtəmizləmə zavodunun tullantısı olan çiyid xammal kimi İrəvan yağ piy zavoduna gedə bilməzdi.

**İpək fabriki.** Naxçıvan MR-də yüngül sənayenin ən mühüm sahələrindən biri də akademik Y.H.Məmmədəliyev adına Ordubad ipək fabrikidir. 1931-ci ildə istifadəyə verilmiş Ordubad ipək fabrikinin əsas xammalı baramadır. Lakin muxtar respublikada hasil edilən barama ipək sənayesi xammalının 40-50 %-ni vermişdi. Qalan xammal Azərbaycanın və keçmiş SSRİ-nin başqa regionlarından gətirilmişdi. Bu da süni ipəyə nisbətən onsuz da baha maya dəyərli olan təbii ipəyin qiymətini bir daha yüksəldir.

Ordubad ipək fabriki bütün dövrlərdə dövlət planını yerinə yetirmiş, məhsul istehsalını ildən-ilə artırmışdı. Hətta İkinci Dünya müharibəsinin törətdiyi ağır çətinliklərə baxmayaraq, Ordubad ipək fabrikində xam ipək istehsalı müharibə illərində azalmamış, əksinə artmışdı. Belə ki, ipək fabriki istehsalat planını 1943-cü ildə 100,8%, 1945-ci ildə isə 104,5% yerinə yetirmişdi [325, vər.37].

1950-60-cı illərdə də Ordubad ipək fabrikinin kollektivi bir qayda olaraq plan və tapşırıqları yerinə yetirmiş və Azərbaycan Yüngül Sənaye Nazirliyinin keçici qırmızı bayrağına layiq görülmüşdü. Ordubad ipək fabriki xam ipək istehsalının inkişafı aşağıdakı şəkildə səciyyə olunur (min tonla) [204, s.84; 177, s.35].

| | |
|---|---|
| 1940-cı il 16,9 | 1955-ci il 21,3 |
| 1950-ci il 10,4 | 1956-cı il 23,3 |
| 1951-ci il 8,8 | 1957-ci il 24,6 |
| 1952-ci il 12,1 | 1958-ci il 24,7 |
| 1953-cü il 11,0 | 1959-cu il 24,5 |
| 1954-cü il, 12,0 | 1961-ci il 25,7 |

1951-1955-ci illərdə ipək fabriki, demək olar ki, yenidən qurulmuş və əsasən mexanikləşdirilmişdi. Bu isə əl əməyinin yüngülləşməsinə səbəb olmuşdu. Fabrik iki növbəli iş sisteminə keçmişdi. Nəticədə 1951-1955-ci illərdə ipək fabriki bir milyon 3 yüz min manatdan artıq əlavə gəlir əldə etmiş, əmək məhsuldarlığı 13,9% artmışdı. Məhsulun maya dəyəri 7,5% aşağı salınmış, xammal və yanacağa 469 min manatdan artıq qənaət edilmişdi [223, vər.113].

Ordubad ipək müəssisəsi muxtar respublikada bir qayda olaraq yeni beşilliyin hesabına işləyən müəssisələrdən biri hesab olunur. Hökümətin bu müəssisəyə göstərdiyi qayğıya cavab olaraq, Ordubad ipək fabrikinin kollektivi altıncı beş illiyin ikinci ilində (1957-ci ildə) 24 min 570 kq xam ipək istehsal edərək, illik planı 105,3% yerinə yetirmiş [327, vər.63] məhsulun maya dəyərini xeyli aşağı sala bilmişdir.

Fabrik kollektiv daxili imkanları səfərbərliyə alaraq, altıncı beşilliyin üçüncü ili olan 1958-ci ilin məhsul istehsalına dair dövlət planını 103,0 yerinə yetirmişdir [175].

Ordubad ipək fabriki tək Ordubad rayonunun iqtisadiyyatında deyil, muxtar respublikanın da iqtisadiyyatında çox böyük rol oynayır. Təkcə bir faktı göstərmək kifayətdir ki,

fabrik baramaçılıqdan 1957-ci ildə 3,309.192 manat gəlir əldə etmişdi.

Muxtar respublikada lazımi miqdarda barama tədarük edilərsə, ipək fabrikinin istehsal gücü məhsul istehsalını daha çox artırmağa imkan verir. Belə ki, 1924-cü ildən Ordubad baramaaçan fabrikində cəmi 2 ton ipək xammalı istehsal edildiyi halda [16, s.4] burada istehsalın həcmi 1940-cı ildə 16,9 ton, 1955-ci ildə 21,3 ton, 1958-ci ildə 24,7 ton, 1959-cu ildə isə 24,5 tona çatmışdı [177, s.35]. 1959-cu ildə fabrik də 24,5 ton xam ipək istehsal edilmişdir ki, bu da 1924-cü ilə nisbətən 14,25 dəfə çoxdur. Xam ipək istehsalı 1940-cı ilə nisbətən 1958-ci ildə 146%-ə çatmışdı [177, s.23]. Ordubad baramaaçma fabriki Azərbaycan Respublikasının bir sıra rayonlarından alınmış baramanı da emal edərək, hazır məhsulu Şəki İpək kombinatına və ölkənin bir çox ipək toxuma fabriklərinə göndərmişdi.

Öz istehsal gücünün həcmini artıran Ordubad baramaaçan fabrik ölkəyə 1959-cu ildə 24,5 ton , 1965-ci ildə 31 ton, 1970-ci ildə isə 49,1 ton xam ipək vermişdi [177, s.35; 172, s.30].

1966-1970-ci illərə dair dövlət plan tapşırıqlarını yerinə yetirən Ordubad baramaaçan fabrik 1967-ci təsərrüfat ilini tam əmək qələbələri ilə başa vurmuşdu. Hər rübdə birinci yer tutan Ordubad baramaaçan fabrik Azərbaycan Yüngül Sənaye Nazirliyinin keçici qırmızı bayrağını və hər dəfə 2300 manat pul mükafatı almışdı [244, vər.44].

Ölkəyə 1970-ci ildə 49,1 ton, 1971-ci ildə 60 ton xam ipək verən Ordubad baramaaçan fabrikində baramanın ilkin emalı hesabına istehsalın həcmini xeyli gücləndirməklə yanaşı burada tədricən ipək parça istehsalı üzrə əlavə müvafiq sexlərin yaradılmasını planlaşdırmaq məqsədəuyğun idi.

**Tikiş sənayesi.** Başqa sənaye sahələri kimi, Naxçıvan MR-in iqtisadiyyatında tikiş sənayesinin də əhəmiyyəti böyük olmuşdur. Muxtar respublikada olan tikiş sənayesi bir çox

müəssisəni birləşdirir. Onlar bütün rayonda yerləşən əhaliyə məişət xidməti kombinat nəzdində yaradılan sexlər, Azərbaycanda iri tikiş fabriklərindən biri hesab edilən 5№-li Naxçıvan tikiş fabriki, Naxçıvan alt trikotaj fabriki və Naxçıvan fərdi tikiş müəssisələridir. Bu gün Naxçıvan MR-in müstəqil balansında olan bütün sənaye müəssisələrində çalışan sənaye istehsal heyətinin 18%-dən çoxu bu sənaye sahələrinin müəssisələrində cəmlənmişdir [176, s.343]. Ümumiyyətlə, Naxçıvan MR-də tikiş sənayesi işçi qüvvəsinin ən çox cəmləşdiyi sənaye sahəsidir.

1959-cu ildə istifadəyə verilmiş 5№-li tikiş fabriki müstəsna olmaqla 50-60-cı illərdə və ondan əvvəlki illərdə də muxtar respublikada tikiş sənayesinin iri müəssisələri olmamışdı. Bu sənaye sahəsi ilə sexlər, artellər və çox da böyük olmayan kombinatlar məşğul olmuşlar ki, bunlar muharibədən sonrakı illərdə Naxçıvan Sənaye İttifaqının, Naxçıvan Kooperativlər İttifaqının, Naxçıvan Sənət kooperasiyasının və başqa təşkilatların tərkibində fəaliyyət göstərmişdi. Naxçıvan Sənaye İttifaqı sistemi üzrə 1952-ci ildə 300 min manatlıq kütləvi geyim paltarı, 8 min cüt ayaqqabı istehsal edilmişdi [221, vər.127]. Beşinci beşilliyin üçüncü ili olan 1953-cü ilin istehsal planını Şərur rayonunda yerləşən artel 164 % yerinə yetirmişdi [356, 18 mart 1954, №33].

1956-1960-cı illərdə sənaye müəssisələrinin kollektivi daha böyük əmək qələbələri əldə etmişdi. Belə ki, muxtar respublikanın tikiş sənaye müəssisələri 1957-ci ildə 2 milyon 561 min manatlıq geyim paltarı, 3467 cüt ayaqqabı və başqa məhsullar istehsal etmişdi [326, vər.85]. 1956-cı ilə nisbətən 1957-ci ildə məhsul istehsalının həcmi təqribən 12% artmışdı, 760 cüt ayaqqabı 600 min manatlıq geyim paltarı istehsal etmişdi [326, vər.88]. Şəhər və rayon mərkəzlərində paltar, ayaqqabı və s. təmir sexləri genişlənmişdi.

Bu göstəricilər sonrakı illərdə daha çox olmuşdu. Məsələn, 1958-ci ildə muxtar mespublika Yerli Sənaye Nazirliyinin

müəssisələrində 4,0 min cüt gön dəri ayaqqabı istehsal edilməsi nəzərdə tutulduğu halda 4,2 min cüt ayaqqabı istehsal edilərək illik plan 105% yerinə yetirilmişdi [56, vər. 9]. Deməli, 1958-ci ildə 200 cüt ayaqqabı artıq istehsal edilmişdi ki, bu da 1957-ci ilə nisbətən, 1958-ci ildə 121,0 % təşkil edir [175].

1959-cu ildə istifadəyə verilmiş Naxçıvan 5 saylı tikiş fabriki 1969-cu ildə 603,5 min ədəd kişi və uşaq üst köynəyi, fərdi paltar tikiş müəssisələri isə 196,4 min manatlıq tikiş sənaye məhsulu istehsal etmişdi. 1969-cu ildə 1968-ci ildəkinə (502,6 min ədəd) nisbətən 100,9 min ədəd kişi və uşaq üçün üst köynəyi, 47,1 min manatlıq fərdi paltar tikişi artıq istehsal etmişdi [356, 8 fevral 1970, №32].

5 saylı Naxçıvan tikiş fabrikinin kollektivi 9 milyon 210 min manatlıq əvəzinə 9 milyon 375 min manatlıq məhsul istehsal edərək ümumi məhsul istehsalı üzrə səkkizinci beşillik plan tapşırıqlarını 101,7% yerinə yetirmişdi [356, 8 fevral 1970, №32].

Bu faktorlar onu göstərir ki, muxtar respublikada tikiş sənayesini inkişaf etdirmək üçün imkanlar vardır.

Tikiş sənaye müəssisələrinin istehsal etdiyi sənaye malları əhalinin artmaqda olan tələbatını ödəməmişdir. Buna görə də Naxçıvan MR-də olan kiçik sexləri, artelləri, kombinatları, xüsusilə ayaqqabı sexlərini birləşdirib, iri fabrik yaratmaq məqsədə müvafiq və iqtisadi cəhətdən əlverişli olar. Çünki digər yerlərdən muxtar respublikaya gətirilən geyim, ayaqqabı və s. yüngül sənaye malları üçün çoxlu izafə xərclər sərf olunur. Bu xərclərin qarşısı alınar. Əhalinin yüngül sənaye mallarına olan tələbatı qismən ödənilə bilər.

Ümumiyyətlə, Naxçıvan MR-də yüngül sənayeni inkişaf etdirmək üçün hər cür xammal ehtiyatları vardır.

**Yerli Sənaye.** Muxtar respublikada əhalinin yerli tələbatını müxtəlif çeşidli sənaye malları ilə təmin edən, ittifaq və respublika balansına daxil olmayan yerli sənaye sahəsi də geniş inkişaf etmişdi. Muxtar respublika ərazisində yerləşən yerli

sənaye öz tərkibində 8 sənaye kombinatını  və 6 sənaye artelini birləşdirir.

Naxçıvan MR-in bütün rayonlarında yerli sənaye kombinatlarının təşkil edilməsi muxtar respublikanın rayonlarında olan zəngin təbii sərvətlərdən istifadə işini xeyli yaxşılaşdırmışdı. Yerli sənaye kombinatları vasitəsilə respublikanın bütün rayonlarında kənd təsərrüfatı artellərinin təmir emalatxanaları, təzə ayaqqabı, geyim paltarları hazırlayan sexlər və artellər yaradılmışdı.

Naxçıvan MR-in iqtisadiyyatının inkişafında təbii tikinti materiallarından: vulkanik qranit, mərmər, tuf, əhəng daşı, travertin, dolomit, odadavamlı gil, andaluzit, çınqıl, qum və s. ehtiyyatlardan geniş istifadə edilməsinin də müstəsna əhəmiyyəti vardır. Çünki bu təbii materiallar hörgü, üzlük, dəmir-beton konstruksiyaları və s. tikinti materiallar sənayesinin inkişafı üçün geniş bazadır.

Məlum olduğu kimi, xalq təsərrüfatının mövcud sahələrinin yüksəlişi və yeni sahələrin yaradılması əsaslı tikintinin və inşaat materialları sənayesinin inkişafından çox asılıdır.

1950-60-cı illərdə Naxçıvan MR-də yeni təbii sərvətlər aşkar etmək məqsədi ilə Azərbaycan Respublikası Geologiya idarəsi sistematik olaraq axtarış və kəşfiyyat işləri aparmışdı. Azərbaycan Respublikası EA Geologiya İnstitutu və başqa təşkilatların sayəsi nəticəsində burada zəngin tikinti materialları aşkar edilmişdi. Bu yerli tikinti materialları başqa təbii sərvətlərlə birlikdə muxtar respublikanı daha da məhşurlaşdırmışdı.

Geoloji kəşfiyyat müəssisələri müəyyən etmişdi ki, dəmir və şose yollarının yaxınlığında yerləşən tikinti materialları sənayesi yataqlarının çox böyük ehtiyyatları vardır və onlardan istifadə etmək xeyli asandır. Belə tikinti sənaye materiallarının yataqlarından mərmər, travertinlər, əhəng, tuf, dəyirman daşları, odadavamlı gillər, çınqıl, qum, məmulat daşlarından çaxmaq daşı, yəşəm, əqiq, xalsedon, opal, amekiş, araqonit, onda-

luzit, cilalayıcı materialları və s. qeyd etmək olar.

Mütəxəssislərin fikrincə, təkcə Şərur rayonunun Dizə kəndi yaxınlığında Arpaçayın sağ sahilindəki Qara təpə, Oğlanqala kəndlərinin yaxınlığında, Ordubad rayonunun Vənənd, Kotam, Kilid kəndlərində və s. yerlərdə mərmər yataqlarının tükənməz ehtiyatları vardır.

Dizə kəndi yaxınlığındakı Qaratəpədə olan qara mərmər təbəqələrinin qalınlığı 0,8-1,0 metrə çatır. Mərmər yaxşı kəsildiyinə və asan cilallandığına, (həmçinin qara, tünd, boz) gözəlliyinə, tərkibinin əlverişli olmasına görə ən yaxşı üzlük materialı hesab olunur. Hazırda qara mərmər yataqlarından geniş istifadə olunur. Bu mərmərə təkcə vətənimizin müxtəlif şəhərlərində deyil, həmçinin xaricdə də böyük maraq göstərilir [32, s.191].

Şərur rayonu Oğlanqala kəndindən 3 km aralıda yerləşən Qaratəpə mərmər yatağı tükənməz ehtiyata malikdir. Mərmər ehtiyatı B kateqoriyası üzrə 11.500, C kateqoriyası üzrə isə 22100 $m^3$-dir [176, s.129]. Belə faktları digər mərmər yataqları haqqında demək olar.

Muxtar respublika ərazisində geniş yayılmış, zəngin tikinti sənaye materiallarından biri də travertin (mişarla kəsilmiş daş) yataqlarıdır. Burada travertin təbəqəsinin qalınlığı 1,5 m, bəzən daha çoxdur. Travertin qiymətli üzlük tikinti materialı kimi, ölkədə tikilən nəhəng binaların üzünü bəzəyir.

Muxtar respublikanın Şahtaxtı kəndində istehsal edilən travertinin çox böyük yataqları vardır. Şərur rayonunda (indiki Kəngərli rayonu) yerləşən bu yataq Şahtaxtı dəmir yol stansiyasının 12-13 km-dir. Şahtaxtı travertin yataqları hazırda istismar edilir. Onlardan əhəng almaq üçün, nəhəng binalarda üzlük kimi geniş istifadə olunur. Travertin ehtiyatı B kateqoriyası üzrə 1.609.000 $m^3$-dir. Bu travertinlər bir çox ölkələrə, xüsusən Yaponiyaya göndərilmişdi.

Sirab, Badamlı mineral bulaqları sahələrində də travertin yataqları aşkar edilmişdi.

Naxçıvan MR ərazisində Dərəlik, Süst, Buzqov, Xök, Qızılvəng, Dərəşam, Qızılboğaz, Vayxır, Həmzəli, Qahab, Çalxanqala və başqa yerlərdə çox qiymətli tikinti sənaye daşlarının yataqları vardır.

Muxtar respublika ərazisində geniş yayılmış qiymətli tikinti sənaye materiallarından biri də əhəngdaşı yataqlarıdır. Bu yataqlar Yaycı, Axır, Xök, Şahtaxtı kəndlərində və başqa yerlərdə yerləşirlər. Rəngi açıq və tutqun boz olan Axırlı əhəngdaşı yatağının təxmini ehtiyatı isə 800.000 $m^3$-dir. Yaycı və Axırlı yatağın böyük perspektivi vardır. Belə əhəngdaşları Culfa şəhərindən 8 km şimal-şərqdə də geniş yayılmışdır [176, s.129].

Bunlardan başqa muxtar respublikada olan tikinti materiallar sənayesindən çınqıl, qum, gips, gəc, kirəmid, mergil, saxsı və şüşə üçün odadavamlı gillərin və sairlərin zəngin ehtiyatları aşkar edilmişdir.

Naxçıvan MR ərazisi digər sənaye sahələri kimi kimyəvi xammal və dərman bitkiləri ilə də çox zəngindir. Muxtar respublikanın ərazisində duz yataqları, dolomitlər, kükürd, fosforit, melenterit, arsen, sürmə və s. kimyəvi tərkibli elementlər geniş yayılmış və böyük ehtiyatlar vardır. Belə ki, Naxçıvan (indiki Babək rayonu) rayonun Nehrəm kəndində aşkar edilmiş Nehrəm duz yataqlarındakı layların qalınlığı 46 metrdən 85 metrə çatır. Yatağın geoloji nəqliyyat aparılmış hissəsində duzun ümumi ehtiyatı kateqoriyaları üzrə təxminən belədir (min tonla): A-313,760, B-313,624, C-365,176, A+B+C- 814,560. Yatağın ehtiyatı isə 2-2,5 mld.t güman edilir [176, s.133]. Nehrəm dolomit yataqlarının da böyük ehtiyatları vardır. Tükənməz ehtiyata malik olan Nehrəm dolomit yataqlarının bir hissəsini mütəxəssislər hesablamışlar ki, yatağın ehtiyatı B kateqoriyası üzrə 99,266,637 ton, C kateqoriyası üzrə isə 1,542, 431 tondur [176, s.134]. Xammalının keyfiyyəti yüksək olan Nehrəm dolomit yatağının səthdə olması onun açıq üsulla istismarına imkan yaradır. Nehrəm kəndində

melenter və tərkibində 25%-ə qədər zəy olan daş yataqları aşkar edilmişdi. Bütün Zaqafqaziyada yeganə olan bu daşdan təbabətdə, kimya, gön-dəri və toxuculuq sənayesində geniş istifadə olunur. Culfa rayonunda istehsal edilən dəyirman daşları yalnız ölkəmizdə deyil, xarici ölkələrdə də məşhurdur.

Yuxarıda verilmiş mineral və faktiki materiallardan aydın görünür ki, Naxçıvan MR-də yerli sənayeni inkişaf etdirmək üçün hər cür xammal və imkanlar vardır. Bu imkanlardan istifadə edən muxtar respublikanın yerli sənaye müəssisələrindən Naxçıvan şəhər yerli sənaye kombinatı 1950-ci ilin planını 119%, Şərur rayon yerli sənaye kombinatı illik planı 101,6%, Naxçıvan rayon yerli sənaye kombinatı 101,1% yerinə yetirmişdi. Yerli sənaye sistemi üzrə əmək məhsuldarlığının artırılması 1949-cu ildə 72,1%, 1950-ci ildə 74,7%, 1951-ci ildə isə 85,8%-ə çatdırıldı. Buraxılan məhsulun maya dəyəri 1949-cu ildə 1,2%, 1950-ci ildə 1,9%, 1951-ci ildə isə 2,3% aşağı salınmışdı. Lakin Yerli Sənaye Nazirliyinin Ordubad və Culfa rayon kombinatları 1951-ci il dövlət planını kəsirlə yerinə yetirmişdilər. Ordubad rayon sənaye kombinatı illik planı 67,9%, Culfa rayon sənaye kombinatı isə 31,6% ödəyə bilmişdi.

Naxçıvan MR Yerli Sənaye Nazirliyinin Naxçıvan şəhər Şərur, Ordubad, Culfa, Naxçıvan rayon sənaye kombinatları istehsal olunan malların çeşidini artırmaq və planda müəyyən edildiyi kimi, bütün göstəricilər üzrə planı ödəmək məsələsinə ciddi fikir verməmişdi. Buna görə də bu sahədə illik plan ancaq 29% ödənmişdi. Yerli sənaye kombinatları 150 min ədəd kərpic, 10554 ədəd ayaqqabı, 2500 cüt corab, 2000 ədəd baş örtüyü borclu qalmışlar.

Yerli Sənaye Nazirliyinin müəssisələri 1951-ci ildə dövlət planını 98,1% yerinə yetirmişdilər. Halbuki bu müəssisələrdə 187 min manat dəyərində xammal istehsal edilməmişdi. Əgər müəssisələrdə xammal vaxtında istifadə edilsə idi, illik plan 102,6% yerinə yetirilərdi [356, 14 mart 1952, №30].

İrəli gedən nöqsanlardan biri də Yerli Sənaye Nazirliyinin sistemində lazımi mütəxəssis kadrların, baş mühəndis, inşaat mühəndisi, texniklər, texnoloqlar, dizel işçiləri, traktorlar və s. çatışmaması idi. Bu vəziyyət 1952-ci ilin mart ayında Naxçıvan MR Yerli Sənaye işçilərinin respublika müşavirəsində tənqid edilmiş mövcud nöqsanları aradan qaldırmaq üçün xüsusi qərar qəbul olunmuşdu.

Beşilliyin sonunda daş karxanası dövlət planlarını yerinə yetirərək, inşaat obyektlərinə 599000 ədəd "kubik", 11950 $m^3$ "but" (özül) daşı və s. material vermişdi. 1955-ci ildə əmək məhsuldarlığı 1950-ci ilə nisbətən 1,4 dəfə, məhsulun maya dəyəri isə 12% aşağı salınmışdı [321, vər.17].

Naxçıvan Muxtar Respublikasının Yerli Sənaye Nazirliyinin işçiləri sonrakı ildə dövlət planını 102,4% yerinə yetirmişdilər [224, vər.47].

Muxtar respublikanın Yerli Sənaye Nazirliyi müəssisələrinin işçiləri daxili imkanları səfərbərliyə alaraq, altıncı beşilliyin ikinci ili olan 1957-ci ilin məhsul istehsalına dair dövlət planlarını 104,2% yerinə yetirmiş, plandan əlavə 700 min manatlıq, 1956-cı ilə nisbətən bir milyon 800 min manatlıq məhsul istehsal etmişdi.

Yerli Sənaye Nazirliyinin müəssisələri 1957-ci ildə istehsal planlarını yerinə yetirməklə əmək məhsuldarlığını 10,4% artırmış və buraxılan məhsulun maya dəyərini 2,2% aşağı salmaqla nail olmuşlar.

1956-cı ilə nisbətən 1957-ci ildə məhsul istehsalının həcmi 12% artmışdı. 760 cüt ayaqqabı, 25 ton çuqun, 112 ton qənnadı məmulatı, 600 manatlıq geyim paltarı və 80 min manatlıq təzə mebel, 40 ton meyvə məmulatı və 559 dekalitr saxsı qabı plandan artıq istehsal edilmişdi. 1957-ci ildə yerli ehtiyat mənbələrindən istifadə olunaraq 434 ton meyvə tədarük edilib qurudulmuş, Leninqrad, Stalinqrad və Donbas şəhərlərinə göndərilmişdi [47, s.47].

1950-1960-cı illərdə əhaliyə məişət xidməti sahələrində

də bir sıra işlər görülmüş, şəhər və rayon mərkəzlərində paltar, ayaqqabı, radio, ev əşyaları və s. təmir sexləri genişləndirilmişdi. Bu məqsədlə Şərur və Culfa rayonlarında yeni sexlər tikilib istifadəyə verilmişdi. 1957-ci ildə 70 ədəd araba, 611 ədəd təkər, 151000 ədəd şırım üçün truba və 1400 ədəd yağ-süd qabı istehsal edərək, kolxozlara verilmişdi [326, vər.88].

1957-ci ildə Yerli Sənaye müəssisələri 798 min manatlıq təzə mebel, 442 ton qənnadı məmulatları, 2 milyon 561 min manatlıq geyim paltarı, 3467 cüt ayaqqabı və başqa məhsulları istehsal etmişdi. 1957-ci ildə 2 milyon 440000 bişmiş kərpic, 4165 ton əhəng, 9807 ton gəc, 781000 ədəd "kubik" daşı, 3754 ton asvalt və s. tikinti materialları buraxılmışdı [326, vər.85]. Bu növ məhsulların istehsalı 1956-cı ildəkinə nisbətən 10-15% artıq olmuşdu.

Bunlarla yanaşı Naxçıvan MR Yerli Sənaye Nazirliyi müəssisələrinin işində ciddi nöqsanlar da aşkar edilmişdi. Belə ki, istehsal planının ümumi məhsulu üzrə yerinə yetirilməsinə baxmayaraq, xalq təsərrüfatı planı üzrə nəzərdə tutulduğundan 310000 ədəd kərpic, 335 ton əhəng, 125 ton gəc və 200000 manatlıq mebel az istehsal edilmişdi [326, vər.89]. Texnikadan zəif istifadə olunması və müəssisələrdə texniki rəhbərlərin istehsalat prosesinə nəzarətsizliyi üzündən buraxılan məhsulun keyfiyyəti lazımi səviyyədə olmamışdı. Mebel fabrikinin, Şərur yerli sənaye kombinatının buraxdığı məhsulların keyfiyyəti alıcıları qane etməmişdi. Sənaye müəssisələrinin rəhbərləri istehsalat planlarının yalnız ümumi məhsul istehsalı üzrə yerinə yetirilməsinə çalışaraq, başlıca növlər və çeşitlər üzrə yerinə yetirilməsinə fikir verməmişlər. Muxtar respublika yerli tikinti materialları ilə zəngin olmasına baxmayaraq burada tikinti obyektləri lazımi materiallarla yaxşı təmin edilməmişdi.

Muxtar respublikada daxili ehtiyat mənbələrindən geniş istifadə etmək və ümumiyyətlə, yerli sənayeni genişləndirmək üçün əsas amillərdən biri də qabaqcıl texnikanı tətbiq etmək, ağır və çox zəhmət tələb edən işləri tamamilə mexanikləşdir-

məkdən ibarətdir. Muxtar respublikada ixtisaslı mütəxəssislər olmadığından bu işi başa çatdırmaq həmin dövrdə mümkün olmamışdı. Demək olar ki, işlərin 80% əl ilə götürülmüşdü, bu da məhsulun maya dəyərini bahalaşdırmışdı. Naxçıvan MR Yerli Sənaye Nazirliyinin müəssisələrində mövcud olan nöqsanlar Azərbaycan KP Naxçıvan Vilayət Partiya təşkilatının XXII konfransında (28-29 dekabr 1957-ci ildə) kəskin tənqid edilmişdi. Məhz bunun nəticəsində 1959-cu ildə yerli sənaye müəssisələri tərəfindən 745000 manatlıq təzə mebel, 1753 ədəd dəmir peç (qızdırıcı soba), 4325000 manatlıq geyim paltarı istehsal edilmiş, əhaliyə məişət xidməti və fərdi tikiş üzrə 1116000 manatlıq xidmət göstərərək planı artıqlaması ilə yerinə yetirmişdilər.

Yerli Sənaye Nazirliyi 1959-cu ildə 2295000 ədəd bişmiş kərpic, 2736 ton əhəng, 4512 ton gəc, 1161000 kubik daşı, 5620ton asvalt və s. tikinti materialları istehsal edib, inşaat təşkilatlarına vermişdi.

Yerli Sənaye Nazirliyinin müəssisələri 1959-cu ildə məhsul istehsalını 20% artırmışdı [328, vər.9].

Bunun əksinə olaraq 60-cı illərdə Yerli Sənaye Nazirliyinin müəssisələrində tikinti materiallarının istehsalı xeyli azalmışdır. Belə ki, 1959-cu ildə 2295000 ədəd kərpic, 2736 ton əhəng istehsal edildiyi halda, 1965-ci ildə 1147000 ədəd kərpic, 1334 ton əhəng, 1970-ci ildə isə 289000 ədəd kərpic, 500 ton əhəng istehsal edilmişdi [177, s.35; 169, s.30].

Hətta muxtar respublikada kərpic bişirən kürələrin də sayı azalmışdı. Qeyd etmək olar ki, yerli sənayenin 50-60-cı illərdəki vəziyyəti muxtar respublikanın imkanlarından çox geri qalmış, yerli əhalinin təlabatını təmin etməmişdi. Halbuki, Naxçıvan MR-də yerli sənaye istehsalını artırmaq, yüksəltmək üçün təbii-iqtisadi və istehsal imkanları daha çoxdur.

Ümumiyyətlə, 50-60-cı illərdə Naxçıvan MR-da amirlik və başqa metodlardan istifadə edilib, sənayenin bu və ya digər sahələrinin inkişafında müəyyən nailiyyətlər olsa da, sənayenin

yeni sahələri, xüsusilə dağ-mədən sənayesi kimi sahələrin yaranmasına baxmayaraq, sənayedə durğunluq və tənəzzül yaranmışdır. Muxtar respublikada sənaye məhsulu istehsalının həcmi 1956-1960-cı illərdə cəmi 6%, 1961-1965-ci illərdə 8%, 1956-1965-ci illərdə cəmi 14% artmışdı [26, s.26].

Naxçıvan MR iqtisadiyyatının 1956-1965-ci illərdəki inkişafı çox ziddiyyətli, natamam xarakter daşımışdır. Həmin illərdə Naxçıvan MR-nın sənayesində bir sıra irəliləyişlər olsa da, kənd təsərrüfatının daha da inkişaf etdirilməsi haqqında qərar və göstərişlər vaxtında, lazımi səviyyədə yerinə yetirilməmişdi. Muxtar respublikada kənd təsərrüfatı xammalı emal edən və bu əsasda inkişafına böyük imkanlar olan ənənəvi sənaye sahələrinə diqqət zəifləmişdi. Nəticədə, inkişafı kənd təsərrüfatının vəziyyətindən asılı olan yüngül, yeyinti sənaye sahələri, istifadəsinə böyük ehtiyac olan tikinti materialları, istehsal sahələri durğunluq dövrü keçirmişdi.

1950-1960-cı illərdə Naxçıvan Muxtar Respublikasında sənayenin xəritəsinin genişləndirilməsinə baxmayaraq, onun sənayesi Azərbaycanın bir çox başqa regionlarına nisbətən məhsul istehsalına görə aşağı inkişaf səviyyəsində olmuşdu.

1969-cu il 14 iyul tarixində Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə ölkədə dönüş mərhələsinin təməli qoyuldu. Həmin ilin avqustun 5-də Heydər Əliyev Azərbaycan KP MK Plenumunda çıxış edərək, respublikanın iqtisadiyyatını dərin və hərtərəfli təhlil etdi, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, idioloji işdə ciddi nöqsanlar olduğunu qeyd etdi və onların aradan qaldırılma yollarını göstərdi.

1970-1980-ci ilərdə Heydər Əliyev kimi fitri istedadlı, uzaqgörən, xalqını sonsuz məhəbbətlə sevən, bir şəxsiyyətin Azərbaycana rəhbərlik etməsi respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında sürətli yüksəlişə səbəb oldu.

# II FƏSİL

# NAXÇIVANIN KƏND TƏSƏRRÜFATI İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRAKI DÖVRDƏ (1946-1969-CU İLLƏR)

## 2.1. İkinci Dünya müharibədən sonrakı illərdə muxtar respublikada kənd təsərrüfatının vəziyyəti.

İkinci Dünya müharibəsindən sonrakı illərdə Naxçıvan MR-də əsaslı dəyişikliklər həyata keçirilmiş, kənd təsərrüfatının iqtisadiyyatı xeyli yüksəlmiş, maddi-texniki bazası güclənmiş, kolxozlar və sovxozlar təşkilat-təsərrüfatca möhkəmlənmiş, təsərrüfata ixtisaslı rəhbərlik yaxşılaşdırılmış, kənd təsərrüfatı mütəxəssislərinin sayı çoxalmış, suvarma təsərrüfatının inkişafına daha çox diqqət verilmiş və əkin sahələri, xüsusilə pambıq əkin sahəsi xeyli artırılmışdır.

SSRİ Ali Soveti sessiyasının 1946-cı ilin martında qəbul etdiyi dördüncü beşillik haqqında qanuna uyğun olaraq Azərbaycan SSR-in Ali Soveti 1946-cı ilin avqustunda "1946-1950-ci illərdə Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinin beşillik planı haqqında qanun" qəbul etmişdir [340, s.127].

1946-cı il sentyabrın 9-da Naxçıvan MSSR Ali Sovetinin VII sessiyası "1946-1950-ci illərdə Naxçıvan MSSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan haqqında Qanun" qəbul etdi [356, 11 sentyabr 1946].

Dördüncü beşillik planda kənd təsərrüfatı istehsalını müharibədən əvvəlki səviyyəni ötüb keçmək, heyvandarlığı daha da inkişaf etdirmək kimi mühüm vəzifələri nəzərdə tutulurdu. Beşilliyin sonunadək muxtar respublikada bütün kənd təsərrüfatı məhsulları 1940-cı ilə nisbətən 21,2 faiz çoxalmalı idi.

Beşillik plana görə Naxçıvan MSSR-də 1950-ci ilə qədər qaramalın sayı 57,9 faiz, qoyun və keçilərin sayı 15,6 faiz, ev quşlarının sayı 3 dəfə, ümumi əkin sahəsi 1940-cı ilə nisbətən

3.500 hektar çoxalmalı, kənd təsərrüfatının maddi-texniki bazası xeyli gücləndirilməli idi.

Bu illərdə kənd təsərrüfatının bərpa və inkişafına diqqət artırılmışdı. ÜİK(b)P MK-nın fevral (1947-ci il) plenumu “Müharibədən sonrakı dövrdə kənd təsərrüfatını yüksəltmək tədbirləri haqqında” qərar qəbul etdi. Əkin sahələrinin genişləndirilməsi, dənli və texniki bitkilərin məhsuldarlığının yüksəldilməsi, heyvandarlıq məhsullarının artması, MTS və sovxozların işinin yaxşılaşdırılması, kənd təsərrüfatı maşınları istehsalının artması barədə tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycanın kənd təsərrüfatının istehsalat-texniki bazası möhkəmləndi [7, s.99].

Muxtar respublikanın zəhmətkeşləri dördüncü beşillik planı öz həyatı mənafelərinə tam müvafiq bir mübarizə proqramı kimi qarşıladılar və onu yerinə yetirmək uğrunda mübarizəyə başladılar.

1947-48-ci illərdəki planlarının yerinə yetirilməsi aşağıdakı rəqəmlər ilə belə izah olunur.

Cədvəl 2.1.

| Bitkilərin adı | 1947-ci il | | 1948-ci il | |
|---|---|---|---|---|
| | Plan | Ödənilmişdi | Plan | Ödənilmişdi |
| Bütün dənli bitkilər üzrə planın ödənilməsi | 43000 | 101,6% | 42931 | 100,1% |
| Pambıq | 5200 | 100% | 6500 | 100% |
| Tütün | 400 | 100% | 400 | 100% |
| Yem bitkisi | 2134 | 100% | 3116 | 100% |
| Göyərti | 408 | 100% | 440 | 100% |
| Bostançılıq | 480 | 100% | 525 | 100% |
| Kartof | 247 | 98% | 243 | 101,1% |

Bu rəqəmlər göstərir ki, texniki bitkilərin pambıq hesabına 1948-ci ildə artımı 1947-ci il planına nisbətən 1300 hektar artıqdır [215, vər.42].

SSRİ Nazirlər Sovetinin və ÜİK(b)P MK-nın "Kolxozlarda kənd təsərrüfatı arteli nizamnaməsinin pozulması hallarının aradan qaldırmaq tədbirləri haqqında" 1946-cı il 19 sentyabr tarixli qərarının olmasına baxmayaraq, bəzi partiya, sovet və kənd təsərrüfat rəhbərləri xırda kolxozlar iriləşdikdən sonra əsas vəzifə olan bütün kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmaq, ictimai heyvandarlığı yüksəltmək əvəzinə kolxoz quruluşu məsələsinə istehlak nöqteyi-nəzərincə yanaşmamışdı. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi belə nöqsanlara qarşı kəskin mübarizə apardı.

Muxtar respublikanın yerli hökumət təşkilatları həmin nöqsanları aradan qaldırmaq üçün əməli tədbirlər hazırladı. Kolxozlarda komissiyalar təşkil olundu və partiya MK-nın proqramlarında nəzərdə tutulan əməli tədbirlərin həyata keçirilməsi bu komissiyalara tapşırıldı. Bu komissiyalar kolxozların təşkilat təsərrüfatca möhkəmləndirilməsində böyük rol oynadı.

1946-1950-ci illərdə Azərbaycanın bütün regionlarında olduğu kimi, Naxçıvan MR-də də kənd təsərrüfatının maddi-texniki bazası möhkəmləndirilmiş, onun traktor, kənd təsərrüfatı maşın və alətləri, habelə energetika, mineral gübrə, kənd təsərrüfatı mütəxəssisləri, torpaq, su və sair ilə təmin edilməsi diqqət mərkəzində olmuşdur.

1946-1950-ci illərdə kənd təsərrüfatı məhsullarının istehsalı və dövlətə satışı planları vaxtından əvvəl yerinə yetirilmişdir. Belə ki, 1950-ci ildə muxtar respublikada əkinçilik və heyvandarlıq məhsullarının dövlətə satış və tədarükü 3438 ton taxıl, 17918 ton pambıq, 608 ton tütün, 311 ton tərəvəz, 1708 ton ət, 1995 ton süd və süd məhsulları, 734 min ədəd yumurta, 246 ton yun, 80 ton barama və sair kənd təsərrüfatı məhsulları üzrə plan yerinə yetirilmişdir [177, s.74].

Yuxarıda verilmiş rəqəmlərdən aydın görünür ki, dördüncü beşillik dövründə muxtar respublikanın zəhmətkeşləri kənd təsərrüfatının inkişafında xeyli nailiyyətlər qazanmışdılar.

Müharibədən sonra 1946-1950-ci illərdə muxtar respublika kənd əməkçilərinin kənd təsərrüfatı sahəsində olan nailiyyətləri xeyli çoxdur. Lakin bunlarla yanaşı nöqsanlar da olmuşdur. 1949-cu ildə yüksək məhsul almaq üçün görülən işlər heçdə lazımi səviyyədə olmamışdır. Bunu göstərmək kifayətdir ki, peyinin tarlalara daşınması planları 10,7%, torpağa verilməsi planı isə 4,7%, mədən gübrələrinin daşınması 1700 tona qarşı 1208 ton, yəni 72,1%, torpağa verilməsi 896 ton, yəni 52,5%-ni təşkil etmişdi [215, vər.47].

İkinci Dünya müharibəsindən sonrakı illərdə, xüsusilə 50-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatına ciddi fikir verilmişdi, kənd təsərrüfatı nəzərdə tutulan səviyyədə inkişaf etmişdi. Məsələn, dördüncü beşillikdə dövlət tərəfindən Naxçıvan MSSR kənd təsərrüfatına 21 milyon manat kapital qoyulmuşdusa, beşinci beşillikdə bu məbləğ 4920.0 min manata, altıncı beşillikdə 35050.0 min manata çatdırılmışdı. Bu vəsait muxtar respublika kənd təsərrüfatının inkişafında və yüksəlişində mühüm əhəmiyyət kəsb etmişdir.

Göründüyü kimi ölkəni yeyinti məhsulları, sənayeni kənd təsərrüfatı xammalı ilə müntəzəm təmin etmək üçün dövlət xalq təsərrüfatının bu mühüm sahəsinə ayrılan vəsaitin həcmini artıraraq, əkinçilik və heyvandarlıq istehsal proseslərini mexanikləşdirmək, kənd təsərrüfatının elektrikləşdirilməsini və kimyalaşdırılması tempini yüksəltmək, su təsərrüfatı və meliorasiyanı genişləndirmək, kəndin inkişafnı, iqtisadi və sosial problemlərini kompleks həll etmək və s. mühüm məsələləri həmişə diqqət mərkəzində saxlayır.

Azərbaycan partiya təşkilatının XVII konfransı kənd təsərrüfatında əkin sahələrini artırmaq, məhsuldarlığını yüksəltmək və maldarlığı kökündən yaxşılaşdırmağı Azərbaycan partiya təşkilatlarının qarşısında ciddi vəzifə olaraq qoydu.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi ÜİK(b)P MK fevral plenumunun qərarları və göstərişlərinə həmişə əsaslanaraq Azərbaycan K(b)P MK-nın rəhbərliyi altında kolxozçular, su təsərrüfatı işçiləri, MTS və kənd təsərrüfatı mütəxəssisləri arasında işi təşkil edib, onların bütün qüvvələrini kənd təsərrüfat bitkiləri məhsullarının artırılmasına, əkin sahələrinin genişləndirilməsinə, mal-qaranın artmasına, su ehtiyatının mexanizasiya səviyyəsinin artırılmasına səfərbər etmişdir. Nəticədə, 1949-50-ci illərdə kənd təsərrüfatının bütün sahələrində məhsuldarlıq artmış, ümumi gəlir əhəmiyyətli dərəcədə çoxalmışdır [217, vər.40].

SSRİ Nazirlər Soveti 1950-ci il 20 may tarixli qərarında Azərbaycan SSR, o cümlədən Naxçıvan MSSR qarşısında yaxın 4-5 ildə buğdanın məhsuldarlığını 2 dəfə artırmaq, bununla da respublikanı özünü-öz çörəyi ilə təmin etmək və toxucu sənayesi üçün bol pambıq vermək kimi vəzifələri qoymuşdu. 1950-ci ilin payızında kənd təsərrüfatı orqanları bu mühüm vəzifəni həyata keçirməyə başlayıb 29.035 hektar sahədə, yəni keçən ilə nisbətən 4.035 hektar artıq payızlıq dənli bitkilər əkmişdilər. Payızda əkilən ümumi əkinin 93,2% buğda olmuşdur ki, bu da 1949-cu ildəkindən 6.505 hektar artıq idi [217, vər.41].

1951-ci ilin may ayından 1952-ci ilin sentyabr ayına kimi Naxçıvan MSSR-də MTS-lər dövlətdən 90 ədəd yeni güclü traktor, 60 traktor kotanı, 16 dənli bitki toxumsəpəni, 32 çiyid səpən maşın, 30 kombayn, 10 taxıldöyən, 28 qoşma və otbiçən, 34 pambıqyığan maşın alınmış, muxtar respublikaya 10 min 900 ton gübrə gətirilmişdi. Bu da əkinçilik mədəniyyətini yüksəltməyə, kənd təsərrüfatı bitkilərinin, xüsusilə texniki və dənli bitkilərin məhsuldarlığını xeyli artırmağa imkan yaratmışdır [220, vər.10].

Muxtar respublikada heyvandarlığı inkişaf etdirmək planı 1951-ci ildə iribuynuzlu heyvanlar üzrə 88,2%, xırdabuynuzlu heyvanlar üzrə 96,7% yerinə yetirilmişdir. 1952-ci il avqustun

1-ə respublika üzrə göstəricilər belə olmuşdur: iribuynuzlu heyvanlar üzrə plan 98,4%, xırdabuynuzlu heyvanlar üzrə isə 130,3% olmuşdur [220, vər.15].

1951-ci ildə kolxozlar ət təhvili planını 115,5% yerinə yetirdikləri halda, kolxozçular 75,7% yerinə yetirmişlər ki, buna görə də muxtar respublikada ət təhvili planı ancaq 96,5%, yağ 101,5%, yumurta 104,5%, yun üzrə 107,7% yerinə yetirilmişdir [220, vər.20].

Təkcə bu faktı göstərmək kifayətdir ki, 1953-1955-ci illərdə kənd təsərrüfatının inkişafı və yüksəldilməsi məsələsinə Sov.İKP MK-nın üç plenumu həsr edilmişdir. Dövlətin kənd təsərrüfatı sahəsində qarşıya qoyduğu ümumxalq vəzifəsi ölkədə iqtisadiyyatı inkişaf etdirməkdən, əhalinin ərzaq məhsullarına olan tələbatını ödəməkdən, yüngül və yeyinti sənaye sahələrini xammalla təmin etməkdən ibarət idi. Sov. İKP MK-nın sentyabr (1953-cü il), fevral-mart (1954-cü il), yanvar (1955-ci il) plenumlarının qarşıya qoyduqları muhum vəzifələri yerinə yetirərək, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi və respublika zəhmətkeşləri 1953-1955-ci illərdə kənd təsərrüfatının inkişaf etdirilməsində bir sıra işlər görmüş, müəyyən nəticələr əldə edilmişdi. Bu dövrdə muxtar respublikada kolxoz quruluşu daha da inkişaf edib möhkəmləndirilmiş, MTS-lərin işi xeyli yaxşılaşmış, elmin nailiyyətləri kənd təsərrüfatının bu və ya digər sahələrinə tətbiq edilmiş, qabaqcıl aqrotexniki, zootexniki üsullardan istifadə edilməyə başlanmışdı.

Muxtar respublikada kolxoz istehsalının bütün sahələrinin müvəffəqiyyətlə inkişaf etdirilməsi üçün ən mühüm şərait yaranmışdır. 1950-ci ildə muxtar respublikada kolxozların sayı 72 olduğu halda, bu rəqəm artaraq 1955-ci ildə 100-ə çatdırılmışdır [177, s.40].

ÜİK(b)P XIX qurultayı 1952-ci il oktyabrın 5-14 oldu. Qurultay "1951-1955-ci illərdə SSRİ xalq təsərrüfatının inkişafına dair beşinci beşillik plan haqqında direktivləri təsdiq

etdi". Kənd təsərrüfatı sahəsində direktivlərin müəyyən etdiyi başlıca vəzifə, bütün kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını yüksəltməkdən, ictimai mal-qaranın sayını daha da çoxaltmaqdan, eyni zamanda onun məhsuldarlığını xeyli artırmaqdan, əkinçilik və heyvandarlığın ümumi və satlıq məhsullarını çoxaltmaqdan ibarət idi [11, s.691].

Ölkənin digər iqtisadi regionları kimi, Naxçıvan Muxtar Respublikasının zəhmətkeşləri də beşinci beşillik planı öz doğma işləri, öz həyatı mənafelərinə tam muvafiq bir mübarizə proqramı kimi qarşılamış və onu yerinə yetirmək uğrunda mübarizəyə başlamışdılar.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi kolxoz təsərrüfatını genişləndirmək, istehsalın idarə olunmasında kolxozçuların fəallığını artırmaq sahəsində xeyli iş görülmüşdü. Kolxozlarda daim istehsal briqadaları möhkəmləndirilmiş, briqadir kadrların seçilməsi və tərbiyə edilməsinə diqqət artırılmış, kolxoz quruluşunu daha da inkişaf etdirmək, əkinçilik və heyvandarlıq məhsullarını yüksəltmək və sair sahədə mühüm işlər görülmüşdür.

Direktivlərin tələbinə uyğun olaraq muxtar respublikada pambıq əkin sahəsi xeyli artırılmışdı. Belə ki, muxtar respublikada pambıq əkin sahəsi 1950-ci ildə 7827 hektar olduğu halda, 1955-ci ildə 9705 hektara çatdırılmışdı [177, s.43]. Hətta kolxozlarda pambıqçılığın daha da inkişaf etdirilmək üçün Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti "Naxçıvan MSSR rayon zəhmətkeş deputatları sovetlərinin icraiyyə komitələri yanında pambıqçılıq şöbələri yaratmaq haqqında" fərman vermişdi.

Pambıqçılıq şöbələri respublikanın 2 pambıq əkən Naxçıvan (indiki Babək) və Şərur rayonlarında yaradılmışdı.

Muxtar respublikada əkin sahələrinin genişləndirilməsi, bol məhsul uğrunda mübarizədə aqrokimya elmindən geniş istifadə edilməsi, xırda kolxozların böyük kolxozlarla birləşdirilməsi, kolxozların və kolxozçuların ümumi gəlirlərini

artırılmışdır. Bu isə həmin dövrdə kəndlərin abadlaşdırılmasına və zəhmətkeşlərin maddi rifahının yüksəlməsinə imkan vermişdi.

Naxçıvan MR-da kənd təsərrüfatının vəziyyəti təhlil edilən zamanı aydın oldu ki, muxtar respublikada kolxozlar iriləşən zamanı bir sıra ciddi nöqsanlara da yol verilmişdir.

Bəzi hallarda idarə heyəti, sədrlər kənd təsərrüfatı arteli üzvləri tərəfindən seçilmir, onlar öz fəaliyyətləri haqqında kolxozçuların ümumi yığıncaqlarında hesabat vermirdilər.

Muxtar respublikanın kolxozlarında aparılan yoxlamalar nəticəsində aşkar edilmişdir ki, respublikanın 12.521 təsərrüfatdan 1124-də 98,16 hektar əkin sahəsi mənimsənilmişdir. Təkcə Naxçıvan (indiki Babək) rayonunun Nehrəm kəndində 64 təsərrüfat həyətyanı sahələrini 7 hektar artırmışdı [217, vər.56].

Muxtar respublikada xırda kolxozlar iriləşən zamanı aşkar oldu ki, ayrı-ayrı şəxslər tərəfindən 118 hektar əkin sahəsi 134 min manat pul, 8 tondan artıq taxıl, 21 baş at, 189 iri buynuzlu, 2963 baş xırda buynuzlu heyvan və 2500-dən artıq quş mənimsənilmişdir [220, vər.18]. Bütün bunlar kolxozlara qaytarılmışdır.

1951-1955-ci illərdə muxtar respublikada kənd təsərrüfatının maddi-texniki bazası xeyli möhkəmləndirildi, taxılçılıq, pambıqçılıq, tütünçülük, üzümçülük, meyvəçilik, heyvandarlıq, baramaçılıq kimi mühüm sahələr inkişaf etdirildi. Kənd təsərrüfatı məhsullarının istehsalı və dövlətə satışı planı vaxtından əvvəl yerinə yetirildi.

Muxtar respublikada "Suvarılan torpaqlardan daha mükəmməl istifadə etmək və kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsini yaxşılaşdırmaq məqsədilə yeni suvarma sisteminə keçmək haqqında" SSRİ Nazirlər Sovetinin 1950-ci il 17 avqust tarixli qərarını yerinə yetirən Naxçıvan Vilayət Partiya Komitəsi və Naxçıvan MSSR Nazirlər Soveti muxtar respublikada su təsərrüfatının inkişafına diqqəti daha da artırmışlar.

Bunun nəticəsində 1954-1955-ci illərdə 2 milyon 800 min$^3$-a yaxın su tutumu olan 2-ci və 3-cü Batabat göllərinin, Naxçıvan (indiki Babək) rayonunun Nehrəm, Təzəkənd kəndlərində olan göllərin inşası başa çatdırılmışdı.

Muxtar respublikanın kolxozlarında olan torpaq sahələri (uzun müddətə istifadəyə verilən torpaqlardan başqa) 1950-ci ildə 380034 hektar olduğu halda, bu rəqəm 1955-ci ildə 382311 hektara çatdırılmışdır [177, s.41].

Kolxozlarda kənd təsərrüfatı bitkilərinin bütün əkin sahələri 1950-ci ildə 50048 hektar olduğu halda, 1955-ci ildə bütün əkin sahələri 53900 hektar olmuşdur [177, s.44]. Əkinçilik məhsullarının dövlətə satışı və tədarükü 1950-ci ildə dənli bitkilər üzrə 3438 ton, pambıq 17918 ton, mal-qara və quş əti (diri çəki hesabı ilə) 1708 ton, süd və süd məhsulları 1995 ton, yumurta 734 min ədəd, yun (yuyulmuş zaçot çəkisi hesabı ilə) 246 ton yerinə yetirildiyi halda, 1955-ci ildə dənli bitkilər üzrə 3750 ton, pambıq 16944 ton, mal-qara və quş əti 2856 ton, süd və süd məhsulları 3974 ton, yumurta 1041 min ədəd, yun 353 ton, əkinçilik məhsulları dövlətə satılmış və tədarük edilmişdi [177, s.74].

Ümumiyyətlə, Azərbaycan zəhmətkeşləri kimi, Naxçıvan Muxtar Respublikası-nın zəhmətkeşləri də 1951-1955-ci illərdə kənd təsərrüfatını inkişaf etdirərək dövlət planı və tapşırıqlarını yerinə yetirərək muxtar respublika iqtisadiyyatının inkişafında mühüm nailiyyətlər qazanmışlar.

1957-ci ildə muxtar respublikanın kolxozlarında heyvandarlıq sahəsində mühüm naliyyətlər əldə edilmişdir. Heyvandarlığın inkişaf planı 1957-cı ilin 11 ayı ərzində iribuynuzlu mal-qara üzrə 98%, qoyunlar üzrə 104% yerinə yetirilmişdir [224, vər.26].

Görülən tədbirlər nəticəsində heyvanların tələfatı xeyli azalmış, ana heyvanlardan alınan balaların sayı isə xeyli artmışdı. Belə ki, əgər 1955-ci ildə hər 100 baş inəkdən 65 buzov, hər 100 baş ana qoyundan 83 quzu alınmışdısa, 1957-ci

ildə hər 100 baş inəkdən 72 buzov, hər 100 baş ana qoyundan 85 quzu alınmışdı [224, vər.29].

1958-ci ildə Naxçıvan MSSR-də işçi qüvvəsi, xammal və materiallar lazımi qaydada bölüşdürülmüş, kənd təsərrüfatının inkişafına əsaslı sərmayə qoyuluşu artırılmış, muxtar respublikada xırda kolxozlar iri kolxozlarla birləşdirilmişdi. Nəticədə, 1958-ci ildə muxtar respublikada 4722 ton dənli bitki, 11553 ton pambıq, 1057 ton tütün, 56,8 ton kartof, 968 ton tərəvəz, 2928 ton üzüm, 2398 ton ət (diri çəki hesabı ilə), 4630 ton süd və süd məhsulları, 863 min ədəd yumurta, 412 ton yun, 80 ton barama və s. kənd təsərrüfatı məhsulları dövlətə satılmış və tədarük edilmişdi [100, s.16].

1965-ci ildə muxtar respublikada üzümçülüyün vəziyyəti heç də yaxşı olmamışdı. Belə ki, 1965-ci il iyun tarixinə qədər respublikada 512 hektar yeni üzüm bağı əkilmişdir ki, bu da müəyyən edilmiş planın 35,3% təşkil edirdi. Bəhs edilən dövrdə kolxozlar üzrə 300 hektar plana qarşı 136 hektar, yaxud 45,3%, üzümlük və şərabçılıq komitəsinin sovxozları üzrə 1155 hektar plana qarşı 376 hektar, yaxud 32,6% yerinə yetirilmişdir [234, vər.51].

Səkkizinci beşilliyin birinci ili olan 1966-cı ildə muxtar respublikada kənd təsərrüfatı sahəsində bəzi naliyyətlər əldə edilmişdi. Belə ki, 1966-cı ildə əvvəlki illərə nisbətən dövlətə 674 ton pambıq, 1050 ton taxıl, 3,5 ton barama, 4653 ton üzüm, 70 ton tütün, 65 ton bostan məhsulu, 421 ton süd, 12 ton yun və s. kənd təsərrüfatı məhsulları satılmışdır [241, vər.49].

1966-cı ildə muxtar respublikada olan kolxoz və sovxozlarla Azərbaycan kənd Təsərrüfatə Texnikası Birliyinin 5 rayon şöbəsi xidmət göstərmişdi [169, s.33]. Onlar müasir traktor və kənd təsərrüfati maşınları, eyni zamanda ehtiyyat hissələri ilə təmin edilmşdir. Bəhs edilən dövrdə muxtar respubilkanın kolxoz və sovxozlarında 448 traktor, 114 ədəd taxılyığan kombayn, 339 ədəd yük avtomobili fəaliyyət göstərmişdir [169, s.80]. Lakin görülən tədbirlərə baxmayaraq

Naxçıvan kənd təsərrüfatının maddi-texniki bazası lazımi səviyyədə olmamışdır.

Göstərilən müvəffəqiyyətlərlə yanaşı, kənd təsərrüfatı sahəsində 1966-cı ildə bəzi nöqsanlara da yol verilmişdir. Muxtar respublikada pambıqçılıqla məşğul olan 23 təsərrüfatdan 9 təsərrüfat pambıq istehsalı planını yerinə yetirməmişdir. Belə ki, 1966-cı ildə pambığın maşınla yığılması muxtar respublikada 27%, Şərur rayonunda 19%, Naxçıvan (Babək) rayonunda isə 37% yerinə yetirilmişdir [241, vər.50].

Ümumiyyətlə, tədqiqat zamanı müəyyən edilmişdir ki, II Dünya müharibəsindən sonra muxtar respublikanın kənd təsərrüfatı sahələrinin çoxunda inkişaf olsa da, bu bütün sahələri əhatə etməmişdir.

## 2.2. Müharibədən sonrakı illərdə kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi.

İkinci Dünya müharibəsinin gedişi ilə əlaqədar olaraq Azərbaycanın bütün regionlarında olduğu kimi, muxtar respublikanın da torpaq fonduna zərbə dəymişdi. Belə ki, 1940-cı ildə muxtar respublikanın bütün təsərrüfat dərəcələrində kənd təsərrüfatı bitkilərinin əkin sahələri 55926 hektar olduğu halda, 1950-ci ildə 51430 hektar, 1955-ci ildə 55274 hektar olmuşdur [177, s.43]. Bu rəqəmlər onu göstərir ki, muxtar respublika zəhmətkeşlərinin fədakarlığına baxmayaraq, 1951-1955-ci illərdə bütün təsərrüfat dərəcələrində kənd təsərrüfatı bitkilərinin əkin sahələri 1940-cı il səviyyəsinə yüksəlmişdir.

1950-ci illərdə respublikanın torpaq balansına görə bütün əkin yerlərinin 52,4%-ini suvarılan torpaqlar, 19,1%-ini şərti suvarılan sahələr və 28,5%-ini isə dəmyə torpaqlar təşkil edirdi. Bütün suvarılan sahələrin 39,2%-i Şərur rayonunun, 35,2%-i isə Naxçıvan (Babək) rayonunun payına düşürdü; birlikdə götürülmüş bütün qalan rayonların payına düşən suvarılan torpaq sahələri 25,6%-i təşkil edirdi. Bütün dəmyə torpaqlarının 35,4%-i Şahbuz rayonunda, 35,2%-i Culfa

rayonunda yerləşirdi; birlikdə götürülmüş qalan rayonların payına 29,4%-i düşürdü [140, s.46].

Naxçıvan MSSR-in dəmyə əkin sahələrində yayın birinci yarısında yetişən bitkilərdən arpa, buğda, paxlalılar və başqaları becərilir. Belə torpaqlar dağların ətəklərində, yamaclarda və dağ vadilərində yerləşir.

Muxtar respublikanın belə sahələrirə yağıntı az düşür ki, bu da kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına mənfi təsir göstərir. Su təchizatı məsələlərinin müsbət həll edildiyi təqdirdə dövlət fondunun 46 min hektar dincə qoyulmuş torpağı habelə, kolxozlara təhkim edilmiş, lakin susuzluq nəticəsində istifadə edilməyən əkin üçün yararlı 40 min hektardan artıq kənd təsərrüfat dövriyyəsinə daxil edilə bilərdi.

Naxçıvan MSSR-da su probleminin həll edilməsi ilə kənd təsərrüfatı istehsalında əlavə olaraq, istifadə olunmayan 8,6 min hektar məhsuldar torpaq sahəsindən istifadə etmək və bunun hesabına qiymətli kənd təsərrüfat bitkilərinin mövcud əkin sahəsinin, habelə bağ və üzümlükləri təxminən 4 dəfə artırmaq mümkün olardı.

1955-ci ildə dövlət aktı üzrə Naxçıvan MSSR kolxozlarında daimi istifadə üçün 336.216 hektar torpaq təhkim edilmişdir. Naxçıvan MSSR Kənd Təsərrüfatı Nazirliyi Yer Quruluşu İdarəsinin məlumatına görə respublika kolxozlarına təhkim edilmiş bütün torpaqların 131.741 hektarı, yaxud 99,92 faizi kolxozların ictimai istifadəsində, 4475 hektarı, yaxud 0,08 faizi isə kolxozçuların həyətyanı sahələrini təşkil edirdi.

Naxçıvan MR-da bütün torpaq sahəsinin 61,8 faizini əkinçilik üçün əlverişli olmayan torpaqlar, yəni örüşlər təşkil edir ki, bu da əsas etibarı ilə dağ və dağətəyi zonalarda yerləşmişdir. Muxtar respublikada əkin yerlərinin əsas hissəsi (61,6 faizi) Şərur və Babək rayonlarında, istifadə edilməyən torpaqların yarıya qədəri isə əsasən Culfa və Ordubad rayonlarının dağlıq hissəsində yerləşirdi [140, s.43-44].

Beşinci və altıncı beşillikdə Naxçıvan MSSR-də aparılan

təsərrüfat-mədəni quruculuq işləri ilə əlaqədar əkin üçün yararlı torpaq sahəsi xeyli azalmışdı. Belə ki, 1955-ci ildə 55274 hektar əkin sahəsinə yararlı torpaq sahəsi olduğu halda, 1959-cu ildə bu rəqəm 48656 hektara yenmişdi [177, s.43].

Muxtar respublikada kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin azalmasının digər səbəbi əhalinin artımı, yeni sənaye müəssələrinin və yaşayış məntəqələrinin tikilməsi, yolların salınması, su qovuşuqlarının yaradılması, kanalların çəkilməsi və s. amillər olmuşdur. Buna görə də yararsız torpaq sahələrini yaralı hala salınıb əkin dövriyyəsinə daxil edilməsi, meliorasiya və irriqasiya işlərinin gücləndirilməsi zərurətini doğururdu.

1960-cı illərdə Naxçıvan MSSR-ın kolxozlarına istifadə üçün təhkim edilən torpaqlar ümumi ərazinin Culfa rayonunda 74,9 faizini, Şahbuzda rayonunda 76,1 faizini, Ordubad rayonunda 74,4 faizini, Naxçıvan rayonunda (Babək) 60,1 faizini və Şərur rayonunda isə 55,7 faizini təşkil edirdi. Naxçıvan MR Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə muxtar respublikada kənd təsərrüfatına yararlı torpaq sahəsi 60-cı illərdə cəmi 148149 hektar idi. Bu torpaq sahəsinin 38569 hektarı Babəkdə, 37699 hektarı Şərurda, 28601 hektarı Şahbuzda, 27472 hektarı Culfada, 15808 hektarı isə Ordubadda yerləşmişdi [141, s.86].

Naxçıvan MSSR-in aryı-ayrı rayonları təkcə torpaqların quruluşuna görə deyil, həm də torpaq təchizatına görə bir sıra xüsusiyyətlərə malikdir. Muxtar respublikanın ayrı-ayrı rayonlarında orta hesabla hər bir əmək qabiliyyətli kolxozçuya düşən torpaq və əkin sahəsinin miqdarı hektarca Culfa rayonunda müşahidə olunurdu. Culfa rayonundan sonra hər bir əmək qabiliyyətli kolxozçuya düşən əkin sahəsinə görə ikinci yeri torpağı daha yüksək şumlama qabiliyyətinə malik olan Naxçıvan (Babək) rayonu tuturdu ki, burada da çox zəhmət tələb edən bitkilər becərilirdi.

İnzibati ərazi bölgüsünə görə Naxçıvan MSSR ərazisi

cəmi 5.5 min.km$^2$-dir. 1963-cü ildə Naxçıvan MSSR-in bütün torpaq sahəsi 537037 hektar idi. Bunun 438007 hektarı kolxozların, 10922 hektarı sovxozların və digər təsərrüfatların, 57395 hektarı dövlət ehtiyat fondunun, 3026 hektarı dövlət meşə fondunun, 27687 hektarı isə torpaqdan digər istifadə edənlərin (şəhərlərin, sənayenin, nəqliyyat müəssələrinin, idarələrin torpaqları da daxil olmaqla) istifadəsinə verilmişdi [177, s.42].

1965-ci ildə Naxçıvan MSSR-nın torpaq fondu 536300 hektar olmuşdur. Torpaqların xeyli hissəsini dağlar, dərələr, şəhərlər, kəndlər, sənaye, nəqliyyat müəssisələri, çaylar və göl suları altında qalan sahələr təşkil edirdi. Bundan başqa, dövlət fondlarında saxlanılan torpaqlar və dövlət meşələri də göstərilən miqdara aiddir. Buna görə də torpaq fondu haqqında tamamlanmış fikir söylərkən qeyd etmək olar ki, əvvəla, ümumi torpağın 116330 hektarı (21,7%-i) Naxçıvan (Babək), 131595 hektarı (24,6%-i) Şərur, 91730 hektarı (17,1%-i) Şahbuz, 99440 hektarı (18,5%-i) Culfa və 97205 hektarı (18,1%-i) Ordubad rayonunun ərazisi idi. İkincisi, bu torpaqların 67,1%-i kolxozların, 19,4%-i sovxozların istifadəsində 13,0%-i dövlət fondundakı torpaqlar və 0,5%-i isə meşə fondundan ibarət idi [141, s.84].

Azərbaycanın digər iqdisadi rayonları kimi Naxçıvan muxtar respublikasının kənd təsərrüfatı da suvarma əkinçiliyinə əsaslanır. Muxtar respublikada iqlim və torpaq şəraitinə görə kənd təsərrüfatını inkişaf etdirmək üçün su mənbələrinin yaradılması, yeni su kanallarının çəkilməsi, su qovuşaqlarının tikilməsi ən vacib məsələlərdən biridir.

İkinci Dünya müharibəsindən sonrakı illərdə bu sahəyə diqqət daha da artırılmış, su təsərrüfatını inkişaf etdirmək üçün dördüncü beşillikdə 8900.0 min manat vəsait ayrılmışdır. Nəzərdə tutulmuşdur ki, muxtar respublikada "Çalxan", "Uzunoba", "Qaraçuq", "Batabat", "Qıvraq", "Qarabağlar", "Şahtaxtı", "Qahab", "Nehrəm", "Təzəkənd" və s. və başqa

göllər, su anbarları tikilsin. Naxçıvan çayının sol kənarında olan "Püsyan" kanalı, tikintisi 1940-cı ildən başlanan Arazdəyən-Şərur kanalı və s. kanallar təmir edilsin. Nehrəm, Çeşməbasar, Küznüt, Sədərək, Qahab və başqa kəndlərdə 10 artizan quyusu qazılsın, batan kəhrizlər bərpa edilsin, 50 kəhrizin tunelinin uzadılıb suya çatması və 5 təzə kəhrizin qazılıb başa çatdırılması da planlaşdırılmışdı.

Naxçıvan MSSR-da suvarma mənbələri Arpaçayı, Naxçıvan çayı, Əlincə çayı, Ordubad çayı, Vənənd çayı və başqa çaylar, habelə 333 kəhriz vardır ki, onlardan yalnız 263-dən istifarə edilirdi. Bunların da hamısı 2340 saniyə litr su verərək 1800 hektar sahəni su ilə təmin edirdi. Qalan 70 kəhriz isə istifadəsiz qalırdı [215, vər.48].

Suvarma sistemini daha da yaxşılaşdırmadan kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, bol məhsul yetişdirmək olmaz. Müharibədən sonrakı illərdə dövlət kanallar çəkilişinə, kollektorlar tikintisinə, torpaqların meliorasiya cəhətdən yaxşılaşdırılmasına xərclənən vəsaiti xeyli artırdı. Yeddiillikdə Şərur rayonunda Yuxarı Sovxoz kanalı çəkilildi, bu kanalın suyu ilə yüzlərlə hektar xam torpaq suvarıldı. Sədərək kanalının çəkilməsi muxtar respublikanın su ehtiyatının artmasını təmin etdi [174, s.58].

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin XVII konfransının materiallarında qeyd edildiyi kimi, müharibədən sonrakı dövrdə Naxçıvan rayonunda olan 105 kəhrizin müntəzəm olaraq 65-dən istifadə edilirdi. Qalanlarından bir neçəsinin suyu az olub 24 kəhriz isə tamamilə sıradan çıxmışdır. Culfa rayonundakı 12 kəhrizdən ancaq 6-dan istifadə olunurdu. İkinci su mənbəyi su gölləridir. Belə göllərdən 11-i köhnə, 4-ü yeni tikilmişdi. Bunların suyu ilə 1985 hektar əkin sahəsi suvarıla bilirdi [215, vər.48].

Azərbaycan K(b)P XVII qurultayının qərarlarını və Azərbaycan K(b)P Naxçıvan təşkilatının XVII konfransının tarixi qərarlarını yerinə yetirərək su təsərrüfatı orqanları və

melioratorları 1949-1951-ci illərdə Şərur rayonundakı Yuxarı Sovxoz kanalının və Şahbuz rayonundakı Batabat gölünün tikintisini genişləndirmiş, yerli əhəmiyyətə malik olan 63 su gölü, 29 kəhriz əsaslı təmir edilmiş, 17 kəhriz bərpa edilmiş, 4 yeni kəhriz tikilmişdi [217, vər.51].

"Suvarılan torpaqlardan daha mükəmməl istifadə etmək və kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsini yaxşılaşdırmaq məqsədilə yeni suvarma sisteminə keçmək haqqında "SSRİ Nazirlər Sovetinin 1950-ci il 17 avqust tarixli qərarını yerinə yetirən Naxçıvan Vilayət Partiya Komitəsi və Naxçıvan MSSR Nazirlər Soveti muxtar respublikada su təsərrüfatının inkişafına diqqəti daha da artırmışdı.

1952-ci ildə suya olan tələbatı ödəmək üçün muxtar respublikada 2 kəhriz tikilmiş, 14 kəhriz bərpa edilmiş, 11 kəhriz uzadılmış və 1951-ci ildə kəhrizlərin cari təmiri 50%, 1952-ci ildə isə 83% yerinə yetirilmişdir. Bundan başqa Güznüt su anbarının tikintisinə başlanaraq onun birinci növbəsi işə salınmış, ikinci Batabat su gölünün tikintisinə başlanmış, Qaraçuq su gölünün genişləndirilməsi və Arpaçayı üzərində iri su anbarının tikilməsi nəzərdə tutulmuşdur [220, vər.16].

1954-1955-ci illərdə 2 milyon 800 minə yaxın kub litr su tutumu olan 2-ci və 3-cü Batabat göllərinin, Naxçıvan rayonunun Nehrəm, Təzəkənd kəndlərində olan göllərin inşası başa çatdırılmış Y.Cabbarov adına kolxozda bir milyon kub litr su tutumu olan gölün istifadəyə verilməsi üçün xeyli işlər görülmüşdü. Nəzərdə tutulmuş su qurğularının, su mənbələrinin bir qisminin 1951-1955-ci illərdə istifadəyə verilməsinə baxmayaraq, onlardan səmərəli istifadə edilməmişdir.

1957-ci ildə Şərur rayonundakı 52 km uzunluğunda olan Yuxarı Sovxoz kanalının ikinci hissəsinin istifadəyə verilməsi ilə əlaqədar olaraq 2500 hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmiş və 6000 hektar əkin sahəsində suvarma işləri yaxşılaşdırılmışdır. Bəhs edilən dövrdə respublikada 14 kəhriz bərpa edilmiş, üç kəhrizin başı ucaldılmış

və 125 kəhrizdə əsaslı təmir aparılmışdır [224, vər.44].

1958-1959-cu illərdə Naxçıvan MSSR-də su təchizatını yaxşılaşdırmaq üçün dövlət tərəfindən lazımi vəsait ayrılmışdır. Bunun nəticəsində muxtar respublika ərazisində suvarma mənbələri daha da genişləndirilmiş, Şahbuz rayonunda Batabat gölləri, Qanlı göl, Naxçıvan (Babək) rayonunda Nehrəm, Təzəkənd, Qahab, Çalxanqala, Uzunoba gölləri, Şərur rayonundakı Qıvraq, Xok, Qarabağlar, Axura gölləri, Ordubad rayonunda Dəstə gölü və s. istifadəyə verilmişdi.

Təkcə 1958-ci ildə daşqın və sel axınlarına qarşı mübarizə məqsədilə Naxçıvan çayında, Axura çayında və Yuxarı Sovxoz kanallarının mühafizəsində 1093 kub metr daş-beton işləri görülmüşdü.

1960-cı ildə suya olan təlabatı ödəmək üçün 79 kəhriz əsaslı surətdə təmir edilmişdir. Bunun sayəsində ümumi su ehtiyyatı 10 kubmetr artmışdır. 10 milyon kubmetr su tutumu olan Uzunoba su anbarı tikilmişdir [226, vər.83]. Bütün bu tədbirlərin həyata keçirilməsinə baxmayaraq 60-cı illərdə muxtar respublikanın kənd təsərrüfatında suya olan tələbat tam ödənməmişdi.

Kənd təsərrüfatının möhkəmləndirilməsində çox mühüm vasitə olan maşın-traktor stansiyaları məhsuldar qüvvələrin inkişaf etdirilməsi işində çox böyük rol oynamışdır. II Dünya müharibədən sonrakı dövrdə MTS-lərin traktor parkı xeyli genişləndirilmiş və onun texniki təchizatı yaxşılaşmışdı. Tədqiq olunan dövrdə araşdırılmışdı ki, 1948-ci ildə muxtar respublika kolxozlarında 168 traktor, 8 kombayn, 103 avtomobil fəaliyyət göstərmişdir [177, s.76].

1948-ci ildə MTS-lər üzrə traktor işlərinin yerinə yetirilməsi aşağıdakı qaydada olmuşdur. Şərur MTS-i illik planı yumşaq şum hesabilə 20000 hektara qarşı 26153 hektarla, Naxçıvan MTS-i isə 14500 hektar plana qarçı 16672 hektar yerinə yetirmişdilər [215, vər.46].

Qeyd etmək olar ki, 1949-cu ilin yanvar ayından 1951-ci

ilin may ayına qədər olan dövrdə muxtar respublikanın MTS-ləri dövlətdən 2 milyon 100 min manat miqdarında kənd təsərrüfatı maşınları, o cümlədən 44 yeni traktor, 3 taxıldöyən maşın, 16 pambıqyığan maşın və s. almışlar. Dövlət muxtar respublikanın kolxoz-larına 2 milyon 545 min manat miq-darında mədən gübrəsi və 3 milyon 243 min manat miqdarında borc vermişdi [217, vər.52].

1950-ci ildə həyata keçirilmiş tədbirlər nəticəsində xırda kolxozların iriləşdirilməsi kolxoz istehsalının daha artıq mexanikləşdirilməsi işində böyük əhəmiyyətə malik idi. Kənd təsərrüfat texnikasından istifadə edilməsi üçün yeni imkanlar açan xırda kənd təsərrüfat artellərinin iriləşdirilməsi ilə əlaqədar olaraq Naxçıvan MSSR kolxozlarında traktorla görülən işlərin həcmi xeyli artırılaraq, onların keyfiyyəti əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı. Xırda kənd təsərrüfatı artellərinin mövcud olduğu şəraitdə bir traktor briqadasının bir neçə kolxoza xidmət etməsi MTS-in parkından səmərəli istifadə edilməsi işlərini çətinləşdirirdi. Tərkibində 3-4 traktoru olan bir traktor briqadası tez-tez 5-6 xırda kolxoza xidmət etməli olurdu. Xırda kolxozların iriləşdirilməsi MTS-in traktor parkının məhsuldarlığının əhəmiyyətli dərəcədə artırmağa imkan verirdi.

1951-ci ilin may ayından 1952-ci ilin sentyabr ayına kimi Naxçıvan MSSR-də MTS-lər dövlətdən 90 ədəd yeni güclü traktor, 60 traktor kotanı, 16 dənli bitki toxumu səpən və 32 çiyid səpən maşın, 30 kombayn, 10 taxıl döyən, 28 qoşma və öz-özünə hərəkət edən otbiçən maşın almış, respublikaya 10 min 900 ton gübrə gətirilmişdir [220, vər.10]. Görülən bu işlər muxtar respublikada əkinçilik mədəniy-yətini yüksəltməyi, kənd təsərrüfatı bitkilərinin, xüsusilə texniki və dənli bitkilərin məhsuldarlığını xeyli artırmağa imkan vermişdi. Məsələn 1950-ci ildə muxtar respublikanın kolxozlarında 203 traktor, 8 taxıl kombaynı, 115 yük avtomobili fəaliyyət göstərdiyi halda, 1953-cü ildə traktorların sayı 317-yə, taxıl kombaynlarının sayı

54-ə, yük avtomobillərinin sayı 200-ə çatdırılmışdı [177, s.76].

Tədqiq olunan dövrdə məlum olmuşdu ki, 50-ci illərdə muxtar respublikada MTS-in traktor parkları xeyli genişləndirilmiş və onun texniki təchizatı yaxşılaşdırılmışdı. 1951-ci ildə muxtar respublikada Şərur rayonunun dağətəyi zonası, Culfa rayonu kolxozlarına xidmət edən daha 2 maşın-traktor stansiyası yaradılmışdı. Bu stansiyalar düzənlik və dağətəyi zonalarının 54 kolxoz təsərrüfatına xidmət etmişdi.

Sov.İKP MK sentyabr (1953), fevral-mart (1954) və yanvar (1955) Plenum-larının tarixi qərarlarında maşın-traktor stansiyalarının qarşısına qoyulmuş yeni vəzifələrin həyata keçirilməsi, traktor parkının məhsuldarlığının kəskin surətdə artırılması, mövcud ehtiyatlardan tamamilə istifadə yolu ilə kolxozlarda bütün kənd təsərrüfat işlərinin vaxtlı-vaxtında və yüksək keyfiyyətdə yerinə yetirilməsi irəli sürülmüşdü [11, s.703].

1950-ci illərdə MTS-lərin traktor parklarında kəmiyyət artımından əlavə böyük keyfiyyət dəyişiklikləri də olmuşdur. Məhsuldarlığı yüksək olan çox güclü tırtırlı dizel matorlu traktorların xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmışdı. Məsələn əgər 1940-cı ildə muxtar respublika MTS-i traktor parkının quruluşunda təkərli traktorların xüsusi çəkisi 76,1%-i təşkil edirdisə, 1955-ci ildə bu rəqəm 22,5%-ə enmişdir. Əksinə, 1940-cı ildə güclü tırtırlı traktorların xüsusi çəkisi cəmi 23,9%-i təşkil etdiyi halda, 1955-ci ildə bu rəqəm 77,5%-ə çatmış, daha doğrusu 1940-cı ildəkinə nisbətən 3 dəfə artıq olmuşdu [140, s.58].

Sov.İKP MK 1953-cü il plenumunun qərarına uyğun olaraq muxtar respublika-nın kənd təsərrüfatında görülən işlərin mexanikləşdirilməsi və maddi texniki bazasının qüvvətlənməsi üçün 1951-55-ci illərdə muxtar respublika MTS-in traktor parkı istər fiziki traktorların miqdarı, istərsə də onların gücü cəhətdən xeyli genişləndirilmişdi. Həmin illərdə muxtar respublikada əlavə olaraq 3 yeni MTS (Şərur rayonunun

xanlıqlar kəndində, Culfa şəhərində və Şahbuz kəndində) təşkil edilmişdir. 1955-ci ildə muxtar respublikada olan traktorların sayı 1940-cı ilə nisbətən 1,7 dəfə, kombaynların sayı isə 5 dəfə artmışdır. Belə ki, muxtar respublikada fiziki vahid hesabı ilə 1950-ci ildə traktorların sayı 203 olduğu halda, 1953-cü ildə 317, 1955-ci ildə isə 303-ə çatmışdı. Verilmiş rəqəmlərdən aydın olur ki, 1955-ci ildə muxtar respublika MTS-lərində 15 at qüvvəli traktorların sayı 1950-ci ilə nisbətən xeyli artmışdı [204, s.37; 177, s.76].

Qeyd etmək lazımdır ki, dənli bitkilərin məhsuldarlığının artırılmasında MTS-lərin rolu daha çox olmuşdur. Belə ki, 1953-cü təsərrüfat ilində əkilən dənli bitki sahələrində keçirilmiş səpinin 28,8%-i, kombayınla yığım işinin 26%-i və yığılmış küləşin döyülməsinin 32%-i MTS-lər vasitəsilə görülmüşdür [221, vər.104].

1951-55-ci illərdə muxtar respublikanın MTS-ləri kolxozlarda gördükləri əsas kənd təsərrüfat işlərinin həcmini xeyli artırmışdılar. 1955-ci ildə MTS-lər kolxozlarda (yumşaq şumlama hesabilə) 149 min hektar həcmində, 1940-cı ildə olduğundan təqribən 2 dəfə artıq iş görülmüşdü. Belə ki, MTS-lərin texanikası ilə 1955-ci ildə 1940-cı ilə nisbətən 1,9 dəfə çox dondurma şumu, 4 dəfədən çox herik şumu, 1,2 dəfədən artıq yığım işləri aparılmışdı [140, s.60].

Yeri gəlmişkən onu da qeyd etmək olar ki, kənd təsərrüfat işlərinin mövcud mexanikləşdirmə səviyyəsi kolxoz istehsalının bütün sahələrinin daha da inkişaf etdirilməsi tələblərinə cavab vermirdi. MTS-lərin malik olduqları maşın texnikasından həm də qənaətbəxş surətdə istifadə edilmirdi.

Naxçıvan MSSR-in ayrı-ayrı MTS-lərinin işi onların qabaqcıl texnika ilə təchiz edilməsi səviyyəsinə uyğun gəlmirdi. Muxtar respublikanın bir çox kolxozlarında kənd təsərrüfat bitkilərinin məhsuldarlığı hələ də tələb olunan səviyyədə deyildi, nəzərdə tutulmuş normadan aşağı idi. Həmin kolxozlarda bu vəziyyətin əsas səbəbi kolxoz və MTS-lər tərəfindən

görülən işlərin keyfiyyətsiz olması, bir sıra sovet və kənd təsərrüfat orqanları, MTS və kolxoz rəhbərlərinin aqrotexniki məsələlərinə etinasız yanaşması idi.

MTS-lərin bir çox traktor briqadaları tarla işlərini vaxtı-vaxtında və keyfiyyətli görmürdü, dondurma şumunun qaldırılması planını yerinə yetirmirdilər ki, bunun da nəticəsində yazlıq bitkilərin böyük bir hissəsi yaz şumuna əkilirdi. Yaz və payız əkinlərinin müddətləri həddindən artıq uzadılırdı. Heriklər gec qaldırılır və pis becərilirdi. Kolxozların bir çoxunda cins olmayan, keyfiyyətsiz toxumlar səpilir, səpin normaları pozulurdu. Deyilənlərə nümunə olaraq Arpaçay MTS-ini misal göstərmək olar. Burada 1955-ci ildə dondurma şumunun qaldırılması planı cəmi 47% yerinə yetirilmiş, 1500 hektar sahədə yazlıq bitkiləri yaz şumuna əkilmişdir ki, bu da 100 sentnerlərlə az taxıl yığılmasına səbəb olmuşdu.

1940-1955-ci illərdə hər bir 15 at güclü traktorlara düşən orta illik hasilat Arpaçay MTS-inə yumşaq şum hesabı ilə 364 hektar, Culfa MTS-ində isə 241 hektar olmuşdur. Həmin dövrdə hər bir 15 at gücündə traktorlara düşən orta illik hasilatın yumşaq şum hesabı ilə müvafiq surətdə 420 və 465 hektar təşkil etdiyi Şərur və Naxçıvan MTS-lərində vəziyyət nisbətən yaxşı idi [140, s.65].

XX əsrin 50-ci illərində Şərur və Naxçıvan MTS-lərinin qabaqcıl briqadaların iş təcrübəsi göstərmişdi ki, Naxçıvan MSSR-i MTS-lərinin ən mühüm vəzifəsi olan traktorlardan torpağın məhsuldarlığını artırmaq üçün Şərur və Naxçıvan MTS-lərində böyük imkanlar olmuşdu. Bunu demək kifayətdir ki, 1956-cı ildə Naxçıvan MSSR-də 42,9 min hektar əkin sahəsinə malik 66 kolxoza maşın-traktor stansiyasının 7,1 min at gücünə malik 472 traktoru və 56 taxılyığan kombaynı xidmət etmişdi [176, s.351]. Maşın-traktor stansiyalarında daimi mütəxəssis mexanizator kadrları hazırlamaq vəzifəsinin yerinə yetirilməsi üçün Naxçıvan MSSR-in maşın-traktor stansiyalarının ştatına daimi işçi olaraq çoxlu traktorçu, traktor

briqadalarının briqadiri, kənd təsərrüfat maşınlarının maşinisti və başqa işçilər daxil edilmişdi.

Sov.İKP MK-nin sentyabr plenumundan sonra maşın-traktor stansiyaları rəhbər kadrlar və kənd təsərrüfat mütəxəssisləri ilə xeyli möhkəmləndirildi. Ümumiyyətlə, 50-ci illərdə Naxçıvan MSSR-də kənd təsərrüfatının maddi-texniki bazası xeyli möhkəmləndirilmiş və inkişaf etdirilmişdi.

1956-cı ildə 1940-cı ilə nisbətən bütün kənd təsərrüfatı maşınlarının miqdarı xeyli artmışdı, o cümlədən ümumi mexaniki qüvvə üç, traktorlar iki, kombaynlar isə on dəfə artmışdı. 1956-cı ildə MTS-lər yumşaq şum hesabilə 140 min hektardan artıq traktor işləri görmüşlər ki, bu da 1940-cı ilə nisbətən 2,5 dəfədən çoxdur. 1957-ci ildə Naxçıvan MSSR kolxozlarında tarla işlərinin 90 faizi pambıq əkini və cərgələrarası becərilməsi 100 faiz mexanikləşdirilmişdi [204, s.55].

Bununla əlaqədar olaraq həmin dövrdə traktor parkının gücü də müvafiq dərəcədə artmışdı. Belə ki, 1940-cı ildə muxtar respublikada maşın-traktor stansiyaları və maşın-heyvandarlıq stansiyalarının sayı 2 olduğu halda, 1957-ci ildə 5-ə çatdırılmışdı [176, s.351].

Muxtar respublikada kənd təsərrüfatının maddi-texniki bazasını gücləndirmək məqsədilə 1957-ci ilin aprel ayında Şahbuz rayonunda yeni MTS yaradıldı. MTS-lər yeni texnika ilə təchiz edildilər [224, vər.36]. 1957-ci ildə MTS-lərdə 15 at qüvvəsinə malik 662 ədəd müxtəlif markalı traktor, 70 kombayn, 19 taxıl döyən və xeyli başqa kənd təsərrüfatı maşınları olmuşdu. Bu dövrdə MTS-lərin gücü ilə respublikada ümumi əkinlər üçün aparılan şumun 90%-i, pambıq əkilməsi və cərgə arası becərilməsi işi 100% mexanikləşdirilmişdi [224, vər.37].

Sov.İKP MK-nın 1958-ci il 25-26 fevral tarixli plenumunda "Kolxoz quruculuğunu daha da inkişaf etdirmək və maşın-traktor stansiyalarını yenidən təşkil etmək haqqında" xüsusi qərar qəbul etdi. Bu qərara əsasən ölkədə maşın-traktor

stansiyaları əsasında təmir-texniki stansiyalar (TTS) təşkil edildi.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi Sov. İKP MK-nın fevral 1958-ci il plenumunun qərarlarını həyata keçirmək üçün əməli tədbirlər hazırladı. Muxtar respublikada mövcud olan 5 MTS-in əsasında 3 təmir-texnika stansiyası yaradıldı.

Muxtar respublikada "Kolxoz quruluşunu daha da inkişaf etdirmək və maşın-traktor stansiyalarını yenidən qurmaq haqqında" Sov.İKP MK və Nazirlər Sovetinin 1958-ci il 18 aprel tarixli qərarına əsasən muxtar respublikanın kolxozlarına müxtəlif markalı 206 traktor, 49 kombayn və digər kənd təsərrüfatı maşınları və alətləri satılmışdı. Ümumiyyətlə, respublika kolxozları 10 milyon manatdan artıq kənd təsərrüfatı texnikası almışlar [226, vər.73].

1959-cu ildə Naxçıvan MSSR-da müxtəlif markalı traktorların sayı 421-ə, taxıl kombaynlarının sayı 120-ə, yük avtomobillərinin sayı isə 379-a çatdırılmışdı ki, bu da 1958-ci illə müqayisədə xeyli artıq idi [177, s.76].

1960-65-ci illərdə muxtar respublikanın maşın-traktor stansiyaları təkcə yeni traktorlarla deyil, həm də əkin maşınları, torpaq becərən və s. maşınlarla təhciz olunmuşdu. Traktor və kənd təsərrüfatı maşınlarının sayca çoxalması Naxçıvan MSSR MTS-lərinin əsas istehsal vasitələrinin dəyərini artırmışdı. 1965-ci ildə muxtar respublikanın kolxozlarında 472 traktor, 141 taxılyığan kombayn, 329 yük avtomobili var idi [169, s.79].

Bütün bunlarla yanaşı muxtar respublikanın kənd təsərrüfatını inkişaf etdirmək üçün XX əsrin 60-cı illərində maşın traktor stansiyalarına hələ çox ehtiyac var idi.

II Dünya müharibəsindən sonra Naxçıvan MSSR-da kənd təsərrüfatını və kəndlərin elektrikləşməsi üçün bir sra tədbirlər görülmüşdü. Muxtar respublikada kolxozların elektrikləşməsi, elektrik enerjisindən istifadə edilməsi, kolxozlar arası su

elektrik stansiyalarının tikilməsi barədə SSRİ Nazirlər Sovetinin 1948-ci il 29 may, 1951-ci il 15 yanvar, 1951-ci il 3 fevral tarixli qərarlarını, həmçinin Azərbaycan SSR kolxozlarında elektrikləşməni yaxşılaşdırmaq tədbirləri haqqında Azərbaycan K(b)P MK-nın və Azərbaycan XKS-nin 1946-cı il 16 yanvar tarixli qərarını, Azərbaycan K(b)P MK-nın kənd elektrik stansiyaları tikilməsini genişləndirmək, 1954-cü il mayın 18-də olan qərarını Naxçıvan MSSR Ali Sovetinin 1946-cı il 9 sentyabr tarixdə 1946-1950-ci illərdə muxtar respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə dair beşillik plan haqqında qanununu və başqalarını göstərmək olar [216, vər.23].

1950-ci ildə muxtar respublikada elektrik enerjisi istehsalı 1940-cı ilə nisbətən 4 dəfə çox artdı. Naxçıvan MSSR-də 1946-50-ci illərdə kənd elektrik stansiyaları tikilişinə başlanmışdı. Şərur rayonunun (indiki Kəngərli rayonunun) Qarabağlar və Xok kəndlərində muxtar respublikada ilk dəfə olaraq kənd elektrik stansiyaları tikildi [143, s.74]. Elektrik stansiyasını tikən kəndin sakinləri olmuşlar. Onlar öz qüvvələri ilə su elektrik stansiyasını tikib istifadəyə vermişdilər. Onların bu işi respublikanın digər kəndlərinə da yayılmışdı. Görülən tədbirlər nəticəsində muxtar respublikanın Yaycı, Qıvraq, Xok, Didivar, Şıxmahmud, Nehrəm, Siyaqut, Maxta, Çərçiboğan, Kərimbəyli, Nüs-nüs, Qarababa, Kükü, Bənəniyar, Ərəfsə və s. kəndlərində su elektrik stansiyaları tikilmiş və istifadəyə verilmişdi. Belə kiçik elektrik stansiyalarının sayı 50-ci illərdə 15-dən çox idi [215, vər.27-28].

1953-1957-ci illərdə muxtar respublikada kəndlərin elektrikləşməsi işi geniş miqyas almışdı. Bu illərdə 20 su elektirik stansiyası tikilmiş və elektrik dizeli qurulub istifadəyə verilmişdi [102, s.12].

1958-ci ildə Şərur-Naxçıvan-Culfa-Ordubad yüksək gərginlikli elektrik xətti istifadəyə verildi. Nəticədə muxtar respublikanın sovxoz, kolxoz və TTS-ləri daimi elektrik enerji-

si ilə təmin olundu [100, s.16]. Elektrik enerjisinin kənd təsərrüfatında geniş tətbiqi kəndlərin elektrikləşdirilməsi işində böyük dönüş yaratmışdı.

Qeyd etmək lazımdır ki, II Dünya müharibəsindən sonra ölkədə kadrların hazırlığı və onların ixtisaslarının artırılması işinin öhdəsindən lazımınca gələ bilinməmiş, bu məsələ hökumət rəhbərlərinin qarşısında ciddi bir məsələ kimi qalmışdı.

Bu məqsədlə müharibədən sonra Naxçıvan MR-da texnikumların və digər orta ixtisas məktəblərinin şəbəkəsi genişlənir və təkmilləşirdi. Əgər 1945-46-cı ildə burada fəaliyyət göstərən 3 texnikum və orta ixtisas məktəbində 649 nəfər təhsillə əhatə olunmuşdusa, sonralar orta təhsilli mütəxəssislərin hazırlanmasında artmalar və azalmalar müşahidə edilmişdi. Belə ki, həmin orta ixtisas məktəblərində hazırlanan mütəxəssislərin sayı 1950-51-ci illərdə 614 nəfər olmuşdur [177, s.60].

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin həmin dövrdə keçirilən konfrans, plenum və fəallar yığıncağında kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsi diqqət mərkəzində olmuşdu. Naxçıvan Vilayət Partiya Komitəsi kolxoz və sovxozları ixtisaslı kadrlarla təmin etmək üçün öz plenum və büro iclaslarında 9 dəfə məsələ müzakirə etmiş və konkret qərarlar qəbul etmişdi. 1946-cı ildə kolxozlara kurs və texnikumlarda hazırlanmış 50 nəfər baytar feldşeri, 40 nəfər təsərrüfat, 30 nəfər maldarlıq briqadiri, 33 nəfər mühasib göndərilmişdi. İlin sonunadək daha 180 nəfər kənd təsərrüfatı kadrı hazırlanmışdı [356, 17 fevral 1946].

Ümumiyyətlə, 1947-1948-ci illərdə Naxçıvanda ali və orta təhsilli mütəxəssislər 54,6% (743 nəfər) təşkil edirdi. Ali və Orta təhsillilərin çoxalması isə əsas etibarı ilə, gənc və gələcəyi olan mütəxəssislərin rəhbər işə irəli çəkilməsilə əlaqədardır. Tədqiq olunan dövrdə məlum olmuşdur ki, ali təhsilli mütəxəssislərdən 393 nəfər irəli çəkilmişdi ki, bunlardan da 44% (173 nəfər) kənd təsərrüfat işlərinə göndərilmişdir. İrəli çəkilənlərin 5,6% yəni 19 nəfəri qadın idi.

Xalq təsərrüfatını ixtisaslı kadrlarla təmin etmək üçün 1947-1948-ci illərdə burada 1100 nəfər kadr hazırlanmışdı ki, bundan 405 nəfəri kənd təsərrüfatı mütəxəssisi idi [215, vər.35].

1947-1948-ci illərdə kənd təsərrüfatının ixtisaslı kadrlara olan tələbatı lazım olan qaydada deyildi. Çünki Naxçıvan MSSR-da 200 nəfər kolxoz sədrindən ancaq 21% (42 nəfər) orta təhsilli olmuşdur.

1950-ci ildə respublikada 200 xırda kolxozun yerində 69 iri kolxoz təşkil edilmişdir. Kolxozların rəhbər işçilərinin tərkibi yaxşılaşdırılmışdır. Kolxoz sədri vəzifəsinə 9 nəfər kənd təsərrüfatı mütəxəssisi, 13 nəfər isə rayonların partiya sovet və kənd təsərrüfatı işçiləri fəallarından irəli çəkilmişdi [217, vər.54].

Muxtar respublikada kənd təsərrüfatı kadırlarına olan tələbatı ödəmək üçün 1951-ci ildə 286 mexanizator, 203 nəfər kolxoz kadrları hazırlamaqla, kənd təsərrüfatı texnikomundan 52 mütəxəssis buraxılmış və AKTİ-na təhsil almaq üçün 115 nəfər göndərilmişdi [220, vər.17].

1952-ci ilə Naxçıvan MSSR-da kolxoz sədrlərinin tərkibi aşağıdakı kimi olmuşdu: Ali təhsilli 3, qurtarmamış ali təhsilli 4, orta təhsilli 22, tam olmayan orta təhsilli 25 nəfər olmuşdu. Qalanları isə ibtidai təhsillilər idi. İxtisasa görə aqronom 1 nəfər, aqrotexnik 11 nəfər, zootexnik 2 nəfər, baytar həkim 1 nəfər, baytar texnik 2 nəfər, bir illik kolxoz sədri kursunu bitirmişlər 4 nəfər idi [220, vər.19].

Kənd təsərrüfatı kadrlarının yetişdirilməsində Naxçıvan kənd təsərrüfatı texnikumu böyük rol oynamışdı. Texnikumda 1951-1959-cu illərdə 449 nəfər kənd təsərrüfatı mütəxəssisi hazırlanmışdı. Onlardan 125 nəfəri aqronom, 163 nəfəri zootexnik, 172 nəfəri baytar, 19 nəfəri isə mexanizator idi. Bundan əlavə, 1954-cü ildə 79 aqronom-zootexnik kursları yaradılmış, 42 aqrotexnik kursuna 1082 nəfər, 37 zootexnik kursuna isə 1049 nəfər, cəmi 2131 nəfər kolxozçu cəlb edildi.

1954-1957-ci illərdə MTS-in yanında təşkil edilmiş

mexanizator kurslarını 460 nəfər bitirmişdi. Həmçinin muxtar respublikanın MTS-in göndərişi ilə Azərbaycan SSR-in müxtəlif mexanizator məktəblərinə 188 gənc oğlan və qız qəbul edilmişdir [102, s.11].

Muxtar respublikada 1957-ci ildə hökumət orqanları kolxozları və sovxozları kənd təsərrüfatı işini yaxşı bilən təcrübəli mütəxəssislərlə möhkəmləndirmək məqsədilə müəyyən işlər görmüşdülər. 1957-ci ildə respublikada kənd təsərrüfatı mütəxəssislərindən 42 nəfər kolxoz sədri, 135 nəfər briqadir, 88 nəfər ferma müdiri vəzifəsində işləmişdilər [224, vər.40].

1958-cu ildə muxtar respublikanın kənd təsərrüfatında 817 nəfər kənd təsərrüfatı mütəxəssi işləyirdi. Onlardan 37 nəfəri ali, 780 nəfəri isə orta ixtisaslı idi [100, s.16].

1960-cı ildə muxtar respublikada olan 96 nəfər kolxoz sədrindən 31 nəfəri kənd təsərrüfatı mütəxəssisi, 21 nəfəri ali təhsilli idi. Bəhs edilən ildə kənd təsərrüfatında 422 nəfər kənd təsərrüfatı mütəxəssisi - aqronom, baytar həkimi, zootexnik çalışırdı ki, bunların 115 nəfəri ali təhsillilər idi [158, s.30].

1963-cü ildə kolxozlarda işləyən rəhbər işçilərin və mütəxəssislərin sayı təhsilə görə aşağıdakı kimi olmuşdu (1963-cü il aprelin 1-nə nəfər hesabı ilə) [177, s.79].

Cədvəl 2.2.

| Göstəricilər | Cəmi | Ali təhsilli | Orta xüsusi ixtisas təhsilli |
|---|---|---|---|
| Kolxoz sədri. | 84 | 18 | 25 |
| Kolxoz sədrinin maaşlı müavini. | 6 | 1 | 2 |
| Aqronom. | 75 | 4 | 68 |
| Zootexnik. | 71 | 6 | 63 |
| Baytar həkimi, baytar feldşeri, baytar texniki. | 74 | - | 69 |
| Mühəndis və texnik. | 23 | - | 20 |

| | | | |
|---|---|---|---|
| İstehsalat briqadasının briqadiri. | 320 | - | 75 |
| Heyvandarlıq fermasının müdiri. | 176 | - | 58 |
| Çalışanların cəmi: | 829 | 29 | 380 |

Verilmiş cədvəldən aydın olur ki, 60-cı illərdə muxtar respublikada kənd təsərrüfatı mütəxəssislərinin sayı heç də ürək açan səviyyədə olmamışdır.

**2.3. Dənli və paxlalı bitkilərin inkişafı.**

Kənd təsərrüfatının bütün başqa sahələrinin yüksəlişi, əhalinin və bütün xalq təsərrüfatının getdikcə artan tələbatının təmin edilməsi taxıl təsərrüfatının müvəffəqiyyətlə inkişaf etməsindən asılıdır.

Naxçıvan Muxtar Respublikasında II Dünya müharibəsindən sonrakı illərdə kənd təsərrüfatının inkişafı üçün mühüm əhəmiyyətə malik olan təsərrüfat və siyasi vəzifələr 1946-cı il martın 18-də “1946-1950-ci illərdə SSRİ xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan haqqında” qanunda və s. tarixi qərarlarda öz əksini tapmışdı.

Müharibədən sonrakı illərdə hökumət kənd təsərrüfatının ən mühüm sahəsi olan taxılçılığın inkişafına ciddi nəzarət etmiş, ona mütəşəkkil və plana uyğun xarakter vermiş, xalq təsərrüfatının əməkçilərinin yaradıcılıq qüvvələrinin, faşist işğalçılarının ölkəyə vurduğu ağır yaraları sağaltmaq, dağıdılmış kənd təsərrüfatını, onun müxtəlif sahələrini qısa müddətdə bərpa və inkişaf etdirmək kimi ciddi və mürəkkəb vəzifəni yerinə yetirilməsinə yönəltmişdir. Dövrün tələbinə uyğun olaraq dövlət kənd təsərrüfatını daha da inkişaf etdirmək üçün geniş miqyaslı kompleks tədbirlər sistemi hazırlamışdı.

Dördüncü beşillik planda kənd təsərrüfatı istehsalının müharibədən əvvəlki səviyyəni ötüb keçmək kimi mühüm vəzifələr nəzərdə tutulurdu. Beşilliyin sonunadək muxtar respublikada bütün kənd təsərrüfatı məhsulları 1940-cı ilə

nisbətən 21,2% artmalı idi. Hər hektardan 9,4 sentner məhsul alınması nəzərdə tutulurdu.

Muxtar respublika zəhmətkeşləri dördüncü beşillik planı öz doğma işləri kimi qarşılamış və onu yerinə yetirmək uğrunda mübarizə aparmışdılar. Muxtar respublikanın torpaq-iqlim şəraiti burada dənli və dənli paxlalı bitkilərin inkişafı üçün əlverişli şərait yaratmışdır.

Dördüncü beşillik illərində kolxozların təşkilat-təsərrüfatca möhkəmləndirilməsi burada taxılın ümumi məhsuldarlığını xeyli artırmağa imkan verdi.

Naxçıvan Vilayət Partiya Komitəsi ÜİK(b)P MK-nın fevral (1947-ci il) plenumunun tarixi qərarlarından ruhlanaraq, muxtar respublika taxılçılarını bu tarixi qərarın qarşıya qoyduğu məsələlərin yerinə yetirilməsi uğrunda mübarizəyə cəlb etmişdi. Bunun nəticəsində taxılçılar dövlətə taxıl tədarük planını 1947-ci ildə 101,6%, 1948-ci ildə isə 100,1% yerinə yetirmişdilər [215, vər.42].

Naxçıvan MSSR-də taxılın məhsuldarlığı 1947-ci ildə 5,7 sentner olduğu halda, 1948-ci ildə 6,2 sentnerə çatdırılmışdı [215, vər.43].

Məhz bunun nəticəsində 1946-1950-ci illərdə taxıl məhsullarının istehsalı və dövlətə satış planları vaxtından əvvəl yerinə yetirilmişdi.

SSRİ Nazirlər Sovetinin 1950-ci il 20 may tarixli qərarında Azərbaycan SSR-də, o cümlədən də Naxçıvan MSSR-də yaxın 4-5 ildə taxılın məhsuldarlığını 2 dəfə artırmaq, bununla da muxtar respublikanı özünü öz çörəyi ilə təmin etmək kimi mühüm vəzifə irəli sürüldü. Nəticədə 1950-ci ildə dövlətə taxıl tədarük planı 128,5%-ə çatdırıldı [218, vər.25].

1950-ci ilin payızında bu mühüm vəzifə ilə əlaqədar olaraq muxtar respublikada 29,035 hektar sahəyə, yəni 1949-cu ildəkinə nisbətən 4,035 hektar artıq sahədə payızlıq taxıl bitkiləri əkildi [217, vər.41].

Ölkənin kənd təsərrüfatının qüdrətli yüksəlişinə dair qar-

şıya qoyduğu ədalətli vəzifələrin yerinə yetirilməsi, bütün istehsalın əsası olan taxıl təsərrüfatının daha geniş miqyasda inkişafını tələb edir. Bu zərurət ondan irəli gəlir ki, əhalinin sürətlə artması və xalqın maddi rifahının yaxşılaşdırılması taxıla olan təlabatın təmin edilməsi ilk növbədə taxıl istehsalının artırılmasını, ölkədə çörək bolluğunun yaradılmasını tələb edir.

Ölkəmizin iqtisadiyyatında taxıl əkininin düzgün və məqsədəuyğun yerləşdirilməsi çox vacib məsələdir. Burada əsas prinsip, taxılın daşınması xərclərini mümkün qədər azaltmaq məqsədi ilə onu istehsal rayonlarının yaxın zonalarında yerləşdirilməsi məqsədəuyğundur. Bundan başqa, taxılın eyni zamanda heyvandarlıq üçün çox mühüm yem mənbəyi olması da nəzərə alınmalıdır.

1951-ci ildə muxtar respublika kolxozçuları planı vaxtından əvvəl 115,6% yerinə yetirərək dövlətə plandan əlavə 5 min 335 sentner taxıl təhvil vermişdilər. 1952-ci ilin avqustun 4-nə isə plan 112,9% yerinə yetirilməklə plandan əlavə 7400 sentner artıq taxıl təhvil verilmişdi [220, vər.20].

Muxtar respublika taxılçıları 1953-cü ildə hər hektardan 19 sentner əvəzinə orta hesabla 20-22 sentner taxıl əldə etdilər. Taxıl təhvili planı 1952-ci ildə 122,2%, 1953-cü ildə 113% yerinə yetirildi [221, vər.121]. 1953-cü ildə taxılın məhsuldarlığı 18% artırıldı [356, 14 aprel 1954].

50-ci illərin əvvəllərində muxtar respublikada heç bir əsas olmadan taxılın yerində başqa bitki əkilmişdi. Bu da ümumi əkin sahələrində dənli və dənli paxlalı bitkilərin mövqeyini dəyişdirdi və istehsalın azalmasına səbəb oldu. Bu vəziyyəti normal hal kimi qiymətləndirmək olmaz.

Sov.İKP MK-nın fevral-mart (1954-cü il) plenumu taxıl istehsalını daha da artırmaq məsələsini müzakirə edərək, həmin vəzifəni yerinə yetirmək yollarını və vasitələrini müəyyən etdi. Plenum kənd təsərrüfatının planlaşdırılmasındakı yalnış xətti pislədi və əkin sahələrinin mövcud quruluşunun dəyişdirilməsini zəruri hesab etdi. Planlaşdırma və kənd təsərrüfatı orqan-

larına təklif edildi ki, dənli bitkilər əkinini xeyli artırmaq üçün tədbirlər görsünlər [11, s.704].

Muxtar respublikada taxılçılıq mədəniyyətinin belə qeyri-normal vəziyyətə düşməsi, azalması taxıl bitkilərinin becərilməsində maddi-maraq prinsipinin pozulmasına səbəb olurdu. Nəticədə muxtar respublikada taxılın məhsuldarlığı bütövlükdə ölkə üzrə orta məhsuldarlıqdan geri qalırdı. Belə ki, taxıl bitkilərinin məhsuldarlığı müharibə illərindən fərqli olaraq dördüncü beşillikdə hər hektardan 6,00-6,30 sentner, 1951-1955-ci illərdə isə orta hesabla 6,72-7,7 sentnerə çatdırılsa da yenə də ölkə səviyyəsindən aşağı idi.

1956-cı ildə muxtar respublikada bütün təsərrüfat dərəcələrində dənli və dənli-paxlalı bitkilərin əkin sahəsi 2225 hektar genişləndirildi. Əgər 1955-ci ildə muxtar respublikada dənli və dənli-paxlalı  bitkilərin əkin sahəsi 34251 hektar idisə, bu rəqəm 1956-cı ildə artaraq 36476 hektara çatdırıldı [177, s.47].

Muxtar respublikada 1956-cı ildə 1940-cı ilə nisbətən digər kənd təsərrüfatı bitkiləri əkin sahələrinin genişləndirilməsi hesabına taxıl bitkilərinin əkin sahəsi 7 faizə qədər azalmışdı. Buna baxmayaraq məhsuldarlığın yüksəldilməsi hesabına 1940-cı ilə nisbətən taxıl istehsalı xeyli artmışdı [204, s.62].

Sov.İKP-nın XX qurultayı ölkədə taxıl istehsalının artırılmasını bir vəzifə kimi qarşıya məqsəd qoymuşdu. 1957-ci ildə muxtar respublikanın zəhmətkeşləri 1955-ci ilə nisbətən taxıl istehsalını 54,5% artırmış, 10 min tona qədər taxıl istehsal edilmişdi. 1956-cı ildə dənli bitkilərin hər hektarından orta hesabla 5,5 sentner məhsul götürüldüyü halda, 1957-ci ildə məhsuldarlıq 8 sentnerə çatmışdı [224, vər.10].

Muxtar respublikada 1957-ci ildə buğda taxıl əkini sahələrinin 73,6 faizini əhatə edirdi ki, onun da əsas hissəsi payızlıq buğdanın payına düşürdü. Buğda əkini sahəsi demək olar ki, respublikanın bütün rayonlarında yayılmışdı. Məsələn, respublikada olan payızlıq buğda əkini sahəsinin 50 faizə qədəri təkcə Naxçıvan çayı hövzəsində yayılmışdır. Burada

buğda əkini sahələrinin belə yığcam yerləşməsi onunla izah olunurdu ki, Naxçıvan çayında yayın ikinci yarısında su ehtiyatı kəskin azaldığından, pambıq kimi qiymətli bitkinin inkişafı burada məhdudlaşır. Buğdanın vegetasiya dövrü (yayın birinci yarısında) isə çayda suyun kifayət qədər olması vaxta təsadüf etdiyindən bu bitkinin inkişafı üçün əlverişli şərait yaranırdı. Araşdırma nəticəsində məlum olmuşdu ki, 1957-ci ildə muxtar respublikanın rayonlarında payızlıq və yazlıq buğdanın əkin sahəsi bütün təsərrüfat dərəcəsində 25761 hektar olmuşdu ki, bunun da 12462 hektarı Naxçıvan rayonunda (Babək), 5932 hektarı Culfa rayonunda, 7367 hektarı isə Şərur rayonunda əkilirdi [177, s.48].

Qeyd etmək lazımdır ki, Arazboyu düzənlikdə buğdanın orta məhsuldarlığı aşağı və orta dağlıq qurşaqda alınan məhsuldarlıqdan bəzən bir neçə dəfə çox olurdu.

Əkin sahəsinin həcminə görə taxıl bitkiləri içərisində ikinci yeri arpa tuturdu. 1957-ci ildə buğdadan fərqli olaraq muxtar respublikada əsasən yazlıq arpa inkişaf etmişdir. Yazlıq arpa, demək olaer ki, muxtar respublikanın bütün kolxozlarında əkilirdi. Onun geniş yayılması əsas etibarilə bununla izah olunur ki, yazlıq arpa başqa taxıl bitkilərinə nisbətən quraqlıq sevən bitki olduğundan, o, suvarmanı az tələb edir. Buna görədə muxtar respublikanın hansı rayonunda inkişaf edirsə etsin, yazlıq arpa, demək olar ki, ya heç suvarılmayır, ya da olduqca çüzi miqdarda suvarılır. Bu bitkilərin əkin sahələrinin 70 faizə qədəri aşağı və orta dağlıq qurşaqda yayılmışdır. Arazboyu düzənlik kolxozlarında yazlıq arpanın dağlıq qurşağından fərqli olaraq yüksək məhsul verməsinə baxmayaraq, onun sahəsi burada az idi. Bu da onunla izah olunur ki, Arazboyu düzənlikdə əkin sahələrinin əsas hissəsi başqa qiymətli bitkilər üçün istifadə edildiyindən, yazlıq arpa sahəsini kenişləndirmək imkanı olduqca az idi. Burada yazlıq arpa yalnız qiymərli kənd təsərrüfatı bitkiləri inkişaf edə bilməyən sahələrdə becərilirdi.

1957-ci ildə muxtar respublikada illik taxıl tədarükü planı 102,8% yerinə yetirilmiş, taxılın məhsuldarlığı hər hektardan 2,95 sentner və yaxud 51% artmışdı. Lakin buna baxmayaraq taxılçılıq muxtar respublikada tələb olunan səviyyədə olmamışdır.

Naxçıvan MSSR-da 1958-ci ildə bütün təsərrüfat dərəcələrində 25053 kektar (payızlıq və yazlıq) buğda əkin sahəsi var idi ki, bu da 1940-cı illə müqayisədə 1773 hektar az idi [177, s.48].

Ümumiyyətlə, 50-ci illərdə muxtar respublikada taxılçılıq təsərrüfatının sürətli inkişafı təmin olunsa da ümumi məhsul istehsalı orta hesabla müharibədən əvvəlki səviyyəyə çatdırılmamış, hətta xeyli azalmışdı. Bunu aşaşıdakı rəqəmlərdən aydın görmək olar. Məsələn 1940-cı ildə muxtar respublikanın kolxozlarında 275528 sentner taxıl istehsal edildiyi halda, 1946-cı ildə 261102 sentner, 1950-ci ildə 222774 sentner, 1959-cu ildə isə 174925 sentner taxıl istehsal edilmişdi [312, vər.10].

Muxtar respublikada taxıl əkin sahələrinin azalmasının əsas səbəbi heç bir əsas olmadan taxıl əkini sahələrinin yerində texniki bitkilərin əkilməsi idi. Əgər 1950-ci ildə muxtar respublikada 36443 hektar dənli və paxlalı bitki əkilmişdirsə, bu rəqəm 1959-cu ildə 29431 hektara yenmişdir [177, s.47].

Taxılçılıq sahəsində belə vəziyyət Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin XXIV konfransında (1960-cı il 31 yanvar -1 fevral) kəskin tənqid edildi. Bu konfransdan sonra muxtar respublikada taxılçılıq təsərrüfatı yenidən inkişaf etdirilmiş, onun məhsuldarlığı artırılmış, istehsalı çoxaldılmışdı.

1960-1965-ci illərdə dənli bitkilərin inkişafını və məhsul istehsalını əks etdirən rəqəmlərin təhlili göstərir ki, sahə vahidinə görə çox az məhsul istehsal etmişdir. 60-cı illərdə muxtar respublikanın kolxozlarında mexanikləşdirmə səviyyəsinin yüksəldiyi, gübrə istehsalının və tədarükünün xeyli artdığı bir zamanda dənli və dənli paxlalı bitkilərdən 6-7

sentner məhsul götürülməsini normal hal hesab etmək olmaz. Bu vəziyyət muxtar respublikanın çörək balansına çox mənfi təsir göstərmişdir. Muxtar respublikada əmələ gəlmiş vəziyyəti aradan qaldırmaq üçün dənli və dənli paxlalı bitkilərin azalmış sahələri bərpa olunmalı və taxıl istehsalının artırılması nəzərdə tutulurdu.

Sov.İKP MK-nın mart (1965) plenumunun qərarlarında göstərildiyi kimi, heç bir elmi əsas olmadan bir bitkinin başqa bir becərmə üsulu ilə əvəz edilməsi kimi yolverilməz hallara, planlaşdırılma işində səhvlərə yol verilməsi və s. nəticə etibarı ilə dənli, paxlalı bitkilərin əkin sahələrinin və ümumi istehsalının azalmasına səbəb olmuşdu. Bəhs edilən dövrdə dənli və paxlalı bitkilərin ümumu sahəsinin 35,4%-i Naxçıvan (Babək), 27,3%-i Şərur, 17,6%-i Culfa, 11%-i Şahbuz və 8,7%-i Ordubad rayonunda yerləşmişdi [141, s.118]. Bunu aşağıdakı cədvəldən aydın görmək olar.

Naxçıvan MSSR-də dənli və paxlalı bitkilərin yerləşdirilməsi [141, s.119].

Cədvəl 2.3

| Göstəricilər | Naxçıvan | | Şərur | | Şahbuz | | Culfa | | Ordubad | | Nax.MSSR | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Mütləq rəqəmlə | %-lə | Mütləq rəqəmlə | %-lə | Mütləq rəqəmlə | %-lə | Mütləq rəqəmlə | %-lə | Mütləq rəqəmlə | %-lə | Mütləq rəqəmlə | %-lə |
| Cəmi sahə (hek) | 6572 | 35,4 | 5072 | 27,3 | 2040 | 11,0 | 3273 | 17,6 | 1620 | 8,7 | 18577 | 100 |
| Payızlıqlar | 5660 | 38,5 | 4143 | 28,2 | 1224 | 8,3 | 2466 | 16,8 | 1220 | 8,2 | 14713 | 100 |
| Yazlıqlar | 912 | 23,6 | 929 | 24,0 | 816 | 21,1 | 807 | 20,9 | 400 | 10,4 | 3864 | 100 |
| Payızlıqlardan: | | | | | | | | | | | | |
| Buğda | 4290 | 33,3 | 4014 | 31,2 | 1210 | 9,4 | 2272 | 17,6 | 1094 | 8,5 | 12880 | 100 |
| Arpa | 1370 | 74,8 | 129 | 7,0 | 14,0 | 0,8 | 194 | 10,6 | 126 | 6,8 | 1833 | 100 |
| Yazlıqlardan: | | | | | | | | | | | | |
| Buğda | 120 | 12,0 | 110 | 11,0 | 478 | 47,9 | 241 | 24,3 | 48 | 4,8 | 997 | 100 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Arpa** | **753** | **36,6** | **388** | **18,9** | **226** | **16,0** | **452,0** | **22,0** | **237** | **11,5** | **2056** | **100** |
| **Paxlalılar** | **18** | **3,3** | **201** | **36,4** | **112** | **20,3** | **114** | **20,5** | **108** | **19,5** | **553** | **100** |
| **Qarğıdalı** | **21** | **8,1** | **230** | **89,2** | **-** | **-** | **-** | **-** | **7** | **2,7** | **258** | **100** |
| **Cəmi buğda** | **4410** | **31,8** | **4124** | **29,7** | **1688** | **12,2** | **2513** | **18,1** | **1142** | **8,2** | **13877** | **100** |
| **Cəmi arpa** | **2123** | **51,9** | **517,0** | **12,6** | **240** | **5,9** | **646** | **18,3** | **363** | **11,3** | **3889** | **100** |

Muxtar respublikanın iqlim torpaq şəraiti burada həm payızlıq həm də yazlıq bitkilərin inkişafını təmin edirdi. Buna görə də ərazinin təbii-coğrafi xüsusiyyətlərini nəzərə alaraq 1965-ci ildə ümumi sahənin 79,2%-i payızda və 20,8%-i yazda əkilirdi. Payızlıqların 92,8%-ni buğda, 7,2%-ni arpa, yazlıqların isə 25,9%-ni buğda, 53,2%-ni arpa, 14,3%-ni paxlalı və 6,6%-ni dən üçün qarğıdalı təşkil edirdi.

1966-cı ildə iqlim və hava şəraitinin əlverişsiz keçməsinə baxmayaraq muxtar respublikanın kənd təsərrüfatı zəhmətkeşləri birinci dəfə olaraq taxıl istehsalı planını 115% yerinə yetirərək, hər hektardan 11 sentner məhsul götürüb 24791 ton taxıl istehsal etmişdilər ki, bu da 1965-ci ilə nisbətən 9050 ton artıq idi [241, vər.48].

XX əsrin 60-cı illərində muxtar respublikada dənli bitkilərlə yanaşı paxlalı bitkilər də, inkişaf etdirilirdi. Burada yaxşı inkişaf edən paxlalı bitkilərdən noxud, maş, mərci, lərgə, lobya və sair yetişdirilirdi. Çoxillik təcrübə göstərmişdi ki, dağətəyi və dağ təsərrüfatlarının taxıl istehsalında paxlalı bitkilərin rolu böyükdür. Paxlalı bitkilər təkcə qiymətli ərzaq məhsulu olmayıb, həm də böyük aqrotexniki əhəmiyyətə malikdir. Onlar öz kökləri ilə çoxlu azot və fosfor toplayaraq torpağı münbitləşdirir. Buna görə də paxlalı bitkilər altından çıxmış torpaqlarda əkilən başqa kənd təsərrüfatı bitkilərindən yüksək məhsul götürülür.

Muxtar respublikada əkin sahəsi içərisində paxlalı bitkilərə çox az yer verilməsi paxlalı dənin bir tərəfdən ərzaq məhsulu kimi tələbatın ödənilməsini, digər tərəfdən isə torpağın gübrələnməsi üçün təbii azotun toplanmasını tam sürətdə

təmin etmir. Bəhs edilən illərdə dən üçün qarğıdalı əkininin sahəsi xeyli azalmışdı.

Dənli bitkilər içərisində paxlalılar mühüm yer tuturdu. Onların ümumi sahəsi 528 hektar idi. Paxlalı bitkilər əsasən dağətəyi zonasında yetişdirilirdi. Burada torpaq iqlimi şəraitinin yaxşı olması noxud, mərcimək, lobya, yemlik paxlalı bitkiləri həm yazda, həm də payızda əkməyə imkan verirdi. Payızda əkilən noxudun hər hektarından 250-300 sentner yaşıl kütlə və ya 15-20 sentner quru dən götürülürdü. Noxud yığıldıqdan sonra onun yerində əkilən qarğıdalı hər hektardan 300-400 sentner sütül qıçalı silos kütləsi verirdi. Beləliklə, eyni sahədə bu əkinlərin hər hektarından il ərzində 125-150 sentner və daha çox yem vahidi götürülürdü ki, bu da 13 sentner mal əti və ya 17 ton süd istehsal olunmasını təmin edirdi [141, s.123].

Noxud vegetasiya dövrü ərzində torpağın hər hektarında 15-20 ton peyinə bərabər olan 70-100 kq azot toplayır və ondan sonra əkilən bitkilərin fosforla və kaliumla qidalanması şəraitini xeyli yaxşılaşdırır. Noxudun küləşində arpa və vələmirin küləşindən 2,5 dəfə çox azot, 1,5 dəfə çox fosfor turşusu və 1,2 dəfə çox kalium oksidi qalır. Noxud dənində orta hesabla 26%-ədək zülal, 52%-ədək nişasta, 4%-dən çox şəkər və taxıl bitkilərinin dənində olduğundan 2 dəfə çox azot vardır. Noxudun 1 kiloqramında 180 qram, arpanın 1 kiloqramında isə 73 qram zülal vardır. Noxud bitkisində çəmən otuna nisbətən zülal daha çoxdur. Əgər noxud bitkisində 13,1% zülal varsa, çəmən otunun tərkibində bu maddə cəmi 4,8%-dir. Noxud dəni ətdən, demək olar ki, 3 dəfə çox qidalıdır. Onun tərkibində zülal da ətinkindən çoxdur, hətta 26-31 faizə çatır. Bunlar göstərir ki, noxud paxlalı bitkilər içərisində mühüm yer tutur. Noxud quraqlığa, soyuğa və sairə davamlı, xüsusən yetişmə şəraitinə az tələbkar olması ilə fərqlənir.

1968-ci ildə muxtar respublikanın rayonlarında dənli və paxlalı bitkilərin inkişaf tarixinə nəzər saldıqda deyə bilərik ki,

muxtar respublikanın rayonları üzrə bütün təsərrüfat dərəcələrində dənli və dənli paxlalı bitkilərin əkin sahələri 1964-cü ilə aşağıdakı kimi olmuşdu. Şərur rayonunda 7662 hektar, Naxçıvan rayonunda (Babək) 11452 hektar, Ordubad rayonunda 2019 hektar, Şahbuz rayonunda 3255 hektar, Culfa rayonunda 4748 hektar olduğu halda, 1968-ci ildə Şərur rayonunda 6072 hektar, Naxçıvan rayonunda (Babək) 9358 hektar, Ordubad rayonunda 1916 hektar, Şahbuz rayonunda 2470 hektar, Culfa rayonunda isə 3618 hektar olmuşdu [169, s.41].

Əgər 1964-cü ildə muxtar respublikada bütün təsərrüfat dərəcələrində 29136 hektar dənli və dənli paxlalı bitkilər əkilirdisə bu rəqəm ilbə-il azalaraq 1968-ci ildə 23627 hektara çatmışdı [169, s.38].

Araşdırma nəticəsində aydın olmuşdu ki, muxtar respublikanın bütün rayonlarında bu sahəyə ciddi fikir verilmədiyindən 1960-1968-ci illərdə dənli və dənli paxlalı bitkilərin əkin sahələri azalmış, məhsuldarlıq aşağı düşmüşdü.

## 2.4. Pambıqçılığın və tütünçülüyün inkişafı.

Naxçıvan MSSR-da II Dünya müharibəsindən sonrakı illərdə pambıqçılıq yenidən bərpa və inkişaf etdirilmişdi. Pambıqçılıq Şərur və Naxçıvan rayonlarında yerləşdirilərək, bu rayonların kolxozlarında başlıca sahəni təşkil edirdi. Bütün pambıq əkini sahələrinin 70,5%-i Şərur rayonunda yerləşdirilmişdir [140, s.74]. Bu əsasən onunla izah olunur ki, pambıqçılığın inkişaf etdirilməsi suvarma sahələri ilə əlaqədardır. Naxçıvan rayonunda pambığın becərilməsi üçün əlverişli olan çoxlu şumlanan sahə olmasına baxmayaraq suvarma suları və atmosfer rutubətinin çatışmaması üzündən burada pambıq əkini sahələrini genişləndirmək imkanı yox idi. Rayonun susuz olması təkcə pambıq əkini sahələrinin məhdudlaşdırmaqla qalmayıb, onun məhsuldarlığına da mənfi təsir göstərirdi.

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin təşəbbüsü ilə müharibədən sonrakı dövrdə pambığın sürətli yüksəlişini nəzərdə tutan bir sıra qərarlar qəbul edilmişdi. Bu dövrdə suvarılan sahələrdən son dərəcə səmərəli istifadə edilməsinə və xüsusilə geridə qalan kolxozlarda pambığın məhsuldarlığının yüksəldilməsinə xüsusi fikir verildi. Həyata keçirilən tədbirlərlə əlaqədar olaraq pambıqçılıq rayonlarına traktorlar, kənd təsərrüfat maşınları və mineral gübrələr verilməsi xeyli yaxşılaşdırıldı.

Müharibədən sonrakı illərdə pambıqçılıq təsərrüfatında istehsal proseslərinin mexanikləşdirilməsi səviyyəsi xeyli yüksəlmişdi. Gübrədən istifadə olunması işi yaxşılaşdırılmış, yeni daha məhsuldar pambıq növlərinin əkin sahələri genişləndirilmişdi. Pambığın kvadrat yuva üsulu ilə səpilməsi və s. tədbirlər geniş miqyasda həyata keçirilməyə başlamışdı. Bütün bu tədbirlərin nəticəsidir ki, pambıq əkin sahələri genişləndiyi kimi onun məhsuldarlığı da ildən-ilə artırdı. Əgər muxtar respublikanın kolxozları 1930-cu ildə hər hektardan 3,9 sentner pambıq məhsulu götürmüşdülərsə, 40-cı illərdə bu rəqəm xeyli artmışdı. Belə ki, 1948-ci ildə hər hektardan 14,5 sentner məhsul götürülmüşdür [215, vər.43].

Pambıqçılığı bərpa və inkişaf etdirmək sahəsində hökumətin həyata keçirdiyi ən mühüm tədbirlərdən biri də pambıqçıları maddi və mənəvi cəhətdən həvəsləndirmək olmuşdur. SSRİ Nazirlər Sovetinin "Kolxoz və sovxozlarda pambıqçılığı daha da inkişaf etdirmək tədbirləri haqqında" 1949-cu il 4 fevral tarixli qərarı ilə pambığın tədarük qiyməti artırılmış, pambıqçılıq kolxozlarına satılan taxılın qiyməti xeyli aşağı salınmış, ikinci dəfə pambıq əkilən yerlərin hər hektarından 10 sentnerdən yuxarı götürülən pambıq məhsulu üçün 200 faiz əlavə mükafat vermək sistemi müəyyən edilmişdi.

Kolxozlara maliyyə yardımı göstərmək məqsədi ilə 1949-cu il pambıq məhsulu üçün verilən avans borcunu ödəmək

müddəti 1950-ci ilin pambıq məhsulu təhvili verilənə qədər uzadılmış, pambıq əkmək üçün yararlı torpaqlarda taxıl və s. bitki əkmək qadağan olmuşdu. Eyni zamanda respublika pambıq tədarük planını yerinə yetirdikdə dövlətə təhvil verilən pambığın hər tonu üçün bir manat, plandan əlavə verilən pambığın hər tonu üçün iki manat əlavə pul verilməsi nəzərdə tutulmuşdu.

Həyata keçirilən tədbirlər muxtar respublikada pambıqçılığın sürətli inkişaf etdirilməsinə imkan verdi. 1950-ci ildə pambıq əkin sahələri müharibədən əvvəlki səviyyəni 11,8% ötüb keçdi. Muxtar respublikada pambığın məhsuldarlığı 1940-cı ilə nisbətən, 1950-ci ildə 2,4 dəfə yüksək olmuşdu. Bütün bu tədbirlərin nəticəsində 1950-ci ildə muxtar respublikanın kolxozları hər hektardan 16,3 sentner pambıq məhsulu almışdılar [158, s.23].

1950-ci ildə muxtar respublika pambıqçıları dövlətə 17.916 ton pambıq təhvil vermişdilər ki, bu da 1948-ci ilə nisbətən 11.183 ton artıq idi. 1948-ci ildə respublika pambıqçıları pambıqdan 13 milyon 60 min 838 manat gəlir əldə etmişdilərsə, 1950-ci ildə pambıqdan alınan gəlir 56 milyon 862 min 258 manat olmuşdur ki, bu da 1948-ci ilə nisbətən 43 milyon 801 min 420 manat artıq idi [217, vər.43].

Muxtar respublika kolxozlarında 1950-ci ilə nisbətən 1951-ci ildə pambıq əkini 1400 hektar, 1952-ci ildə isə 1951-ci ilə nisbətən daha 500 hektar artaraq 9 min hektara çatmışdı [220, vər.11].

Bununla belə 1952-ci ildə ayrı-ayrı kolxozlarda və rayonlarda pambıqçılığın inkişafında ciddi nöqsanlar da var idi. Məsələn: Naxçıvan (Babək) rayonunun pambıqçıları planı 71,2% yerinə yetirməklə plan üzrə hər hektardan 19,5 sentner əvəzinə 13,8 sentner məhsul götürərək, 1300 ton az pambıq təhvil vermişdilər. Beləliklə, respublikamız pambığı 74,7% ödəməklə, plana görə hər hektardan 22,5 sentner əvəzinə, 16,4

sentner məhsul götürüb dövlətə 4915 ton pambıq borclu qalmışdı [220, vər.12].

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin həyata keçirdiyi tədbirlər nəticəsində beşinci beşilliyin birinci ilində bu geriliyə son qoyuldu. Ümumiyyətlə, 1952-ci ilə nisbətən 1953-cü ildə dövlətə 22.000 ton pambıq məhsulu təhvil verilmişdi. Hər hektardan 23,2 sentner məhsul götürülmüşdür [221. vər.108].

Sov.İKP MK-nın sentyabr (1953-cü il) plenumunun və Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin XX konfransının qərarlarını əməli işdə yerinə yetirən muxtar respublikanın pambıqçıları 1954-cü ildə də böyük müvəffəqiyyətlər qazanmışlar. Belə ki, 1954-cü ildə dövlət planını 105% yerinə yetirən muxtar respublikanın pambıqçıları tarlalarda bol məhsul yetirərək hər hektardan 22,9 sentner məhsul götürmüş, dövlətə 22213 ton pambıq vermişlər ki, bu da 1946-cı ildəkindən 7447 ton, 1950-ci ildəkindən 4203 ton çox idi. 1954-cü ildə muxtar respublikanın pambıq əkən kolxozları pambıqçılıqdan 62 milyon 373 min 245 manatdan çox gəlir əldə etmişdilər. Pambıqçılıqdan alınan gəlir muxtar respublika kolxozlarının ümumi gəlirinin 60%-ə qədərini təşkil etmişdi [222, vər.72-73].

Muxtar respublikanın kolxozları yüksək pambıq məhsulu götürülməsi üçün, bütün aqrotexniki tədbirlər kompleksini vaxtında və keyfiyyətli surətdə tətbiq etmiş, pambıqçılar arasında təbliğat işlərinin güclü aparılması, qabaqcıl təcrübənin yayılması və s. amillər nəticəsində nail olmuşlar.

Belə bir məsələni də qeyd etmək lazımdır ki, ayrı-ayrı kolxoz və briqadalarda pambığın məhsuldarlığının artırılması ilə yanaşı olaraq, onun əkin sahəsi də xeyli genişləndirilmişdi. Qabaqcıl kolxozlar böyük sahələrdən orta hesabla respublika və rayonlar üzrə yığıldığından 2-3 qat yüksək və sabit məhsul götürülməsinə nail olmuşlar. Belə ki, torpağın becərilməsi, əkilməsi, pambığa qulluq edilməsi, dondurma şumu keçiril-

məsi, əkin və becərmə işlərinin düzgün aparılması, pambığın məhsuldarlığının artırılmasında böyük əhəmiyyətə malikdir.

Muxtar respublikanın kolxozlarında hər il dondurma şumu sahələrinə çoxlu miqdarda üzvi və mineral gübrələr verilirdi. 1955-ci ildə bu sahələrə 1838 ton azot, 2828 ton superfosfat və 83510 ton müxtəlif üzvi gübrələr verilmişdir [140, s.78].

Pambığın inkişafını sürətləndirmək üçün 6700 hektar sahəyə birinci əlavə gübrə olaraq 797 ton azot, 820 ton fosfor, 6270 hektar sahəyə ikinci əlavə gübrə olaraq 695 ton azot, 5010 hektar sahəyə üçüncü əlavə gübrə olaraq 600 ton azot və 100 ton fosfor verilmişdir.

Muxtar respublikanın qabaqcıl kolxozları aqrobiologiya elminin nailiyyətlərini məharətlə tətbiq edərək, hər hansı bir iqlim şəraitində yüksək və sabit məhsul götürülməsinə nail olmuşdular. Qabaqcıl kolxozlarda əsas aqrotexniki tədbirlər bu kolxozların təbii iqtisadi şəraitinə uyğun olaraq tətbiq edilirdi.

Qabaqcıl kolxozlarda sahələrə mineral gübrələr üzvi gübrələrlə (çürümüş peyinlə) qarışdırılaraq verilirdi. Torpağa verilmiş mineral gübrələrdən pambığın maksimum istifadə edə bilməsini təmin etmək və beləliklə də daha yüksək məhsul götürmək məqsədilə qabaqcıl kolxozlar əlavə gübrələnməni geniş tətbiq edirdilər; belə ki, hər hektar pambıq əkin sahəsinə 1954-cü ildə 210,7 kq azot, 148,2 kq fosfor və 56, 6 kq kalium, 1955-ci ildə isə 260 kq azot, 156 kq fosfor və 64,4 kq kalium verilmişdir. Fosforun əsas hissəsi (60 %-i) əkindən qabaq, azot isə bütünlükdə əlavə gübrələnmə zamanı verilmişdir [140, s.81].

Muxtar respublikada karantin zərərvericilərinin əmələ gəlib yayılması ocaqları ləğv edildikdən sonra pambıq əkin sahələri yenidən bərpa edildi. Pambıqçılığın bərpa olunması və inkişaf etdirilməsi bir vəzifə olaraq qarşıda durdu. Müharibədən sonra əkin sahəsi və istehsalı xeyli artırıldı. 1940-cı ildə muxtar respublikada 9435 hektar pambıq əkin sahəsi olduğu

halda, 1950-cı ildə 7825 hektar, 1955-ci ildə isə 9705 hektara çatdırılmışdı [177, s.51]. Bu müharibədən sonrakı illərdə MTS-lərin ilbəil yeni texnika ilə təmin edilməsi, təsərrüfat tədbirlərinə küllü miqdarda əsaslı vəsait qoyulması, yeni xam torpaqların hesabına pambıq əkin sahələrinin genişləndirilməsi, yeni mütərəqqi aqrotexniki üsulların müntəzəm surətdə tətbiqi, su təsərrüfat sistemlərinin qaydaya düşməsi, habelə yüksək pambıq məhsulu götürən ustaların muxtar respublikada çoxalması və s. ilə xarakterizə olunur.

Muxtar respublikada pambıqçılığa olan maddi maraq prinsipinə uyğun olaraq, pambıqçılar 1956-cı ildə dövlətə illik pambıq təhvili planını 105,7% ödəmiş və hər hektardan 20,5 sentner əvəzinə 21,8 sentner, 1957-ci ildə isə dövlətə illik pambıq təhvili planı 103,8% ödənilmiş, hər hektardan 20,5 sentner əvəzinə, 21,6 sentner pambıq məhsulu toplanmışdır [224, vər.13].

Ölkədə pambıqçılığın inkişaf etdirilməsində dövlətin təşəbbüsü ilə 1958-ci il fevralın 18-də Moskvada keçirilmiş pambıqçıların Ümumittifaq müşavirəsinin çox böyük əhəmiyyəti olmuşdur. Müşavirəsində göstərilmişdir ki, kolxozlarda əmək düzgün təşkil edilərsə, yeni mütərəqqi aqrotexniki qaydalar düzgün həyata keçirilərsə, bütün pambıqçılıq rayonlarında geri qalmış kolxozlar irəlidə gedərlər sırasına nəinki çata bilərlər, hətta böyük göstəricilərə nail olarlar. "Pambıqçılığın vəziyyəti və onun daha da inkişaf etdirilməsi haqqında" müşavirə materiallarından və Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Pambıq istehsalını və tədarükünə maddi marağı daha da artırmaq tədbirləri haqqında" 1956-cı il 11 avqust tarixli qərardan ruhlanan muxtar respublikanın pambıqçıları 1959-cu ildə dövlətə 13580 ton pambıq satmış və dövlət planını 100,5% yerinə yetirmişdilər. Tədarük olunan pambığın 78% birinci və ikinci növ kimi qəbul edilmişdi [226, vər.29].

Muxtar respublikanın pambıqçıları 1957-ci ilə nisbətən 1959-cu ildə dövlətə 1000 ton, 1958-ci ildəkinə nisbətən isə

1720 ton çox pambıq satmışdılar. 1959-cu ildə muxtar respublikanın 33 pambıqəkən kolxozdan 19-u, 149 briqadadan 96-sı, 510 manqadan 361-i planı yerinə yetirmişdilər. Həmin il Şərur rayonunda 19 kolxozdan 12-i, 81 briqadadan 58-i, 332 manqadan 238-i, Naxçıvan rayonunda (Babək) 14 kolxozdan 7-i, 65 briqadadan 38-i, 188 manqadan 150-i öz planlarını yerinə yetirmişdilər [226, vər.30].

1959-cu ildə muxtar respublikanın kolxozları əmək məhsuldarlığını artırmaq və pambığın maya dəyərini aşağı salmaq sahəsində əkinin mütərəqqi üsullarla keçirilməsinin böyük əhəmiyyətə malik olduğunu nəzərə alaraq 2407 hektar sahədə çiyidi kvadrat-yuva üsulu ilə əkmişdilər. 3202 hektar sahədə pambıq kolları mexanikləşdirmə üsulu ilə seyrəldilmiş və əkin iki istiqamətdə becərilmişdir. Pambığın bu mütərəqqi üsulla becərilməsi həmin sahələrin hər hektarında məhsuldarlığın 3-4 sentner artmasını təmin etmişdir. Naxçıvan MSSR-da pambıqçılıq sahəsində görülən işlər nəticəsində 1959-cu ildə muxtar respublikanın pambıqçıları yüksək məhsul əldə edərək dövlətə pambıq satışı planını artıqlaması ilə yerinə yetirmişdilər. Beləliklə də dövlətə 13580 ton pambıq satılmışdır [158, s.24].

1959-ci ildə Şərur rayonunun məşhur pambıq ustalarından SSRİ Ali Sovetinin deputatı Bahar Talıbovanın manqası 10 hektar sahənin hər hektarından 40 sentner, Əbil Rzayevin manqası 18 hektar sahənin hər hektarından 33,7 sentner, Həşim İbrahimovun briqadası hər hektardan 31 sentner, Naxçıvan (Babək) rayonunun pambıqçısı Azərbaycan SSR Ali Sovetinin deputatı Rübabə Məmmədovanın manqası 12 hektar sahənin hər hektarından 50 sentner pambıq əldə etmişlər [226, vər.32].

1950-60-cı illərdə muxtar respublikanın pambıq ustalarından Bahar Talıbova, Adcoş Əliyeva, Fatma İmanquliyeva, Abdulla Məmmədov, Əli İsmayılov, Cəfərxan Abbasov və başqaları Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü [41].

Azərbaycan SSR-də olduğu kimi, Naxçıvan MR-də də pambığın məhsuldarlığının yüksəldiyi bir vaxtda 50-ci illərin sonu və 60-cı illərin əvvəllərində pambıq əkin sahələri azalmışdı. 1959-cu ildə muxtar respublikada pambığın məhsuldarlığı artırılsa da onun əkin sahəsi 1955-ci ildə 9700 hektar olduğu halda, 1959-cu ildə 5604 hektar sahədə pambıq əkilmiş, 4096 hektar pambıq əkin sahəsi azalmışdı.

Muxtar respublika kolxozçuları 1958-ci ildə hər hektardan 23,1 sentner məhsul götürdükləri halda, 1963-cü ildə isə hər hektardan 16,1 sentner pambıq məhsulu götürülmüşdü [177, s.58]. Qabaqcılların iş təcrübəsi göstərir ki, yaxşı becərmə şəraitində hər hektar pambıq əkin sahəsindən 35-40 sentner və daha çox məhsul götürmək mümkündür.

Muxtar respublikanın pambıqçıları fədakarlıqla çalışaraq dövlətə pambıq satışı planını artıqlaması ilə ödəmişdilər. 1965-ci ildə Naxçıvan (indiki Babək) rayonunun pambıqçıları rayon üzrə hər hektardan 19,0 sentner, Şərur rayonu pambıqçıları isə hər hektardan 21,0 sentner məhsul götürmüşdülər [168, s.196].

1965-ci ildə Şərur rayonunun pambıqçısı Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbova son 10 ildə becərdiyi 11-18 hektar sahənin hər hektarından 28-60 sentner yüksək keyfiyyətli pambıq yetişdirmişdir [141, s.127].

1966-cı ildə pambıq planının yerinə yetirilməsində muxtar respublika pambıqçılarının da zəhməti böyük olmuşdur. Belə ki, 1966-cı ildə respublika pambıqçıları əkilmiş 6177 hektar pambıq sahəsinin hər hektarından 20,2 sentner məhsul götürərək 12454 ton pambıq istehsal edib dövlətə satmışlar. Bu da 1965-ci ildəkindən 676 ton artıqdır [241, vər.48].

1960-cı illərdə muxtar respublikada pambıq əkin sahəsi xeyli azaldılmışdı. Bunun əsas səbəbi pambıq əkin sahəsində karantin (molitva güvəsi) zərərvericisinin geniş yayılması idi. Belə ki, əgər bütün təsərrüfat dərəcələrində Naxçıvan MSSR-da 1967-ci ildə 5913 hektar pambıq əkilirdisə, bu rəqəm 1968-ci ildə azalaraq 4922 hektar olmuşdu [168, s.179].

Şərur və Naxçıvan düzləri muxtar respublikanın əsas pambıqçılıq bazasını təşkil edirdi. 1970-ci ildə Şərur rayonunda 2701 hektar, Naxçıvan rayonunda isə 1528 hektar, cəmi 4229 hektar sahədə pambıq əkilmiş və orta hesabla hər hektardan 18,8 sentner məhsul götürülmüşdü [178, s.26-47].

Naxçıvan MSSR-da pambıqçılığın inkişafı üçün əlverişli iqlim şəraiti və münbit torpaqlar olmasına baxmayaraq muxtar respublikanın rayonlarda da hər il pambıq sahələri azalırdı. Pambıq əkin sahələrinin azalması ilə əlaqədar olaraq, 1960-cı illərin sonunda Naxçıvan MSSR-da tütünçülük və taxılçılıq mədəniyyəti daha sürətlə inkişaf etdirilmişdi. Buna görə XX əsrin 70-ci illərində Naxçıvanda pambıq əkini dayanmış, əvəzində üzüm və tütün sahələri çoxaldılmışdı.

Müharibədən sonrakı dövrdə tütünçülüyü bərpa və inkişaf etdirmək sahəsində bir sıra müvəffəqiyyətlər əldə edilmişdi. 1947-ci ildə muxtar respublikanın Qarabağlar, Xok, Şaxtaxtı, Qıvraq və başqa kolxozları tütünçülüklə məşğul olurdular. 1947-ci ildə tütünün məhsuldarlığı xeyli artırıldı. 1940-cı ildə hər hektardan 9.0 sentner tütün məhsulu götürüldüyü halda, bu rəqəm 1947-ci ildə 12,74 sentnerə, 1948-ci ildə isə 13 sentnerə çatdırıldı [215, vər.43].

1948-ci ildə Şərur rayonunun tütün əkən kolxozlarının 7 nəfər kolxozçusu yüksək tütün məhsulu götürdüklərinə görə 1949-cu ildə Sosialist Əməyi Qəhrəmanı kimi şərəfli bir ada layiq görülmüşdü. Onlardan B.C.Abbasova, N.B.Quliyeva, X.C.Vəliyeva, R.P.İsmayılov, H.M.Məmmədov, A.C.Tağıyev, H.C.Məmmədov və onların işini davam etdirən Sosialist Əməyi Qəhrəmanları İ.Əliyev, M.Eminov və başqalarını göstərmək olar [41].

1951-ci ildə muxtar respublika tütünçüləri plan üzrə hər hektardan 16 sentner əvəzinə 18 sentner məhsul əldə edərək, tütün təhvili planını 135% yerinə yetirmiş və plandan əlavə 700 sentner tütün təhvil vermişlər. Xok kənd kolxozçuları 40 hektar sahənin hər hektarından 19 sentner məhsul əldə etmişdilər.

Tütünçülük kolxozları əkdikləri 215 hektar sahədən bol məhsul götürmüşdülər [220, vər.14].

Beşinci beşillik illərində tütün əkin sahəsi 1950-ci ilə nisbətən demək olar ki, 80 faiz, Qarxun kənd kolxozunda isə təqribən 3 dəfə azalmışdı. 1955-ci ildə kolxozlarda tütünün əkin sahəsi müharibədən əvvəlki 1940-cı ildəkindən 1,5 dəfədən çox azalmışdı. Belə ki, 1940-cı ildə tütün əkin sahələri 550 hektar olduğu halda, bu rəqəm 1955-ci ildə 220 hektara enmişdi [312, vər.8].

Tütün əkin sahələrinin belə azalması respublikanın planlaşdırıcı orqanları tərəfindən pambıq əkininin planlaşdırılması nəticəsində baş vermişdi. Kolxozların maddi marağı nəzərə alınmamışdı.

Muxtar respublikanın kolxozları tütünün becərilməsindən pambığa nisbətən çox gəlir götürürdülər ki, bu da tütünün məhsuldarlığının yüksəldilməsində onların marağını artırırdı. Belə ki, 1953-ci ildə muxtar respublikada tütünün məhsuldarlığı hər hektardan 17,6 sentnerə çatmışdı [177, s.58].

1955-ci ildə Qıvraq kənd kolxozunda hər hektardan 26,6 sentner tütün məhsulu götürülmüşdü. Ayrı-ayrı briqada və manqalar yüksək aqrotexnikanın tətbiq edilməsi sayəsində daha yaxşı nəticələr əldə etmişlər. Xok kənd kolxozunda Sosialist Əməyi Qəhrəmanı H.Məmmədovun manqası, Qarabağlar kənd kolxozunada Sosialist Əməyi Qəhrəmanları X.Vəliyeva və H.Quliyevanın manqaları özlərinə təhkim edilmiş sahənin hər hektarından 30 sentnerdən artıq tütün məhsulu götürmüşlər [140, s.100].

1956-cı ildə Naxçıvan MSSR-də hər hektar tütün sahəsi təxminən 15200 manata qədər gəlir vermişdir. Həmin il bütün əkin sahələrinin 1,3 faizini əhatə edən tütündən 10,5 milyon manat pul gəliri əldə edilmişdir ki, bu da respublikada bütün kolxozların ümumi pul gəlirinin 12,5 faizini təşkil etmişdir [204, s.62].

Altıncı beşillikdə muxtar respublikada tütünçülüyün inkişafına xüsusi fikir verilməyə başlanmışdı. Belə ki, pambıq əkin sahələri azaldılmış tütün əkin sahələri yenidən artırılmışdı. Muxtar respublikanın dağətəyi və qismən də düzənlik zonalarında tütünçülütün artmasına xüsusi fikir verilmişdir. Bu vaxta qədər tütünçülüklə ancaq Şərur rayonunun 4 kolxozu məşğul olduğu halda 1956-cı ildən etibarən bu rayonun əlavə 15 kolxozu tütün əkməyə başlamışdır. Göstərilən kolxozlar 1956-cı təsərrüfat planında əkib becərdikləri tütün sahəsindən xeyli gəlir əldə etmişlər. Tütünün çox böyük gəlirli sahə olduğunu təcrübədə görən kolxozlar 1957-ci ildə daha artıq sahədə tütün əkməyi nəzərdə tutmuş və həmin il üçün tərtib etdikləri istehsal planlarına daxil etmişlər [140, s.35].

Bu vaxta qədər tütünçülüklə məşğul olmayan Culfa və Şahbuz rayonlarının dağətəyi kolxozları da tütün əkininə keçməyi məqsədəuyğun hesab etmişlər. Bu rayonların kolxozlarında 1956-cı ildə təcrübə məqsədilə əkilən tütün çox yaxşı nəticə vermiş və həmin kolxozların tütünçülüyə olan marağı artmışdır.

1956-cı ildə tütünçülük təsərrüfatının inkişafı sahəsində müəyyən işlər görülmüşdür. Muxtar respublikanın kolxozları tütün təhvil planını 1956-cı ildə 187%, 1957-ci ilin dekabr ayının 20-nə isə 151,5% yerinə yetirmişdir. 1956-cı ildə tütün əkinlərinin hər hektarından 8,05 sentner əvəzinə 15,1 sentner tütün götürülmüş, 1957-ci ilin dekabr ayının 20-dək hər hektardan 11,5 sentner əvəzinə 17,3 sentner tütün məhsulu götürülmüşdür [224, vər.16].

Tütün bitkisi sahəsinin genişləndirilməsi tütünçülüklə məşğul olan kolxozların iqtisadiyyatının möhkəmləndirilməsində çox böyük rol oynamışdır. Muxtar respublikada 1959-cu ildə tütün əkin sahələri 797 hektara çatdırılmışdı. Əkilən tütünün 664 hektarı Şərur rayonunda idi. Beləliklə, muxtar respublikanın kolxozlarında 1946-cı ildə 392 ton tütün tədarük

edildiyi halda, 1953-cü ildə 406 ton, 1959-cu ildə isə 1296 ton tütün tədarük edilmişdi [312, vər.8; 177, s.52-57].

Dövlətə satılan tütünün artırılması tütünçülük təmayülündə ixtisaslaşmış kolxozların ümumi pul gəlirini artırmış və kolxozçuların maddi maraqını yüksəltmişdir. Təbiidir ki, pul gəlirinin artırılması, öz növbəsində, ictimai fondların möhkəmlənməsinə, istehsal fəaliyyətinin yaxşılaşmasına müsbət təsir göstərmişdir. Dövlət bağlaşma üsulunun tətbiq olunması, xam tütün üçün standart və qiymətlər müəyyən edilməsi, tütün qurutma binaları tikməkdən ötrü dövlət tərəfindən kolxozlara kredit verilməsi, pul avansı buraxılması, kolxozların lazımi materiallarla və cins tütün toxumu ilə təchiz edilməsi və s. qısa müddətdə respublikada tütün əkini sahələrini genişləndirməyə imkan vermişdir. 1960-cı illərdə muxtar respublikanın Şahbuz, Culfa və Ordubad rayonlarında tütünçülüyün inkişaf etdirilməsinə ciddi fikir verilmişdi. Bəhs edilən illərdə respublikada 68 kolxozdan 17-si tütünçülüklə məşğul olurdu [141, s.131].

Naxçıvan MSSR-da 60-cı illərdə 5 böyük kolxoz tamamilə tütün istehsalına görə ixtisaslaşmışdı. Bu kolxozlarda "Samsun", "Trabzon" və "Dikqulaq" kimi yüksək keyfiyyətli tütün növləri beçərilirdi [203, s.94]. Əvvəllər tütün şitilləri açıq ləklərdə yetişdirilirdi, həmin illərdə tələb olunan tütün şitillərinin təqribən yarısı parniklərdə yetişdirilirdi ki, bu da tütünün əkilməsinə erkən başlayıb onun istehsalını qısa müddətdə qurtarmağa imkan verirdi. Faraş şitil yetişdirməkdən ötrü kolxozlarda tütün toxumunun qış qabağı parniklərdə əkilməsi də geniş tətbiq olunurdu. Dağətəyi kolxozlarda torpağın şumlanması, pərşum edilməsi, malalanması və torpağın şitil basdırmaq üçün hazırlanması işləri tamamilə mexanikləşdirilmişdir. Suvarma şırımları traktor kultivatorları ilə açılır ki, bu da cərgələrin düzxətli olmasını təmin edirdi.

1965-ci ildə muxtar respublikada tütünçülük təsərrüfatının inkişafına göstərilən diqqət nəticəsində, bütün təsərrüfat dərəcələrində məhsulun dövlət tərəfindən satın alınması 1964-

cü ildə 1943 ton olduğu halda, 1965-ci ildə 2513 tona çatdırılmışdır [177, s.57]. Məhsuldarlığın yüksəldilməsi adətən keyfiyyət göstəricisi olub, tütün əkən kolxozların iqtisadiyyatının möhkəmləndirilməsinə xidmət edirdi.

Naxçıvan şəraitində tütün şitilləri əvvəlcədən əl qüvvəsi ilə hazırlanmış suyığan kərdilərin üst səthinə əkilirdi. Bu ona görə belə edilirdi ki, şitillər arxlara dolmuş su ilə qidalana bilsin. Lakin belə kərdilərin düzəldilməsinə çoxlu əmək sərf olunurdu. Xüsusi kərdi hazırlayan alətlərin olmaması nəticəsində bütün işlər əl ilə görülürdü.

Tütünə gübrə vermək məsələsi də çox vacibdir Şərur rayonunun Qıvraq və Qarabağlar kənd kolxozları və onların qabaqcıl briqadaları yay fəslində tütün əkinlərinin hər bir hektarına 100-120 kq azot və 180-200 kq superfosfat verirdilər. Gübrələnmiş sahələrdə tütün yüksək keyfiyyətli bol məhsul verirdi.

Muxtar respublikada tütün istehsalını yalnız dağlıq və dağətəyi suvarılan torpaqlardan səmərəli istifadə etmək yolu ilə deyil, həm də dəmyə sahələrdə genişləndirmək artırmaq mümkündür. Bu zonada yerləşən bir sıra kolxozların təcrübəsi sübut emişdir ki, dəmyə torpaqlarda yaxşı əsaslı şum aparılıb, aqrotexniki qaydalara düzgün əməl edildikdə normal tütün yarpağı yetişdirilir. Naxçıvan MR-ın çoxdan tütün istehsalı ilə məşğul olan kolxozları ikinci tütün məhsulu yetişdirmək üsulundan geniş istifadə edib, hər hektardan əlavə olaraq 2-3 sentner məhsul götürürdülər [141, s.132].

XX əsrin 60-cı illərində Naxçıvan MSSR-da tütünün süni fermentasiyası ilə məşğul olan yeni sənaye sahələrinin yaradılması tütünçülüyün inkişafına çox müsbət təsir göstərmişdir. Tütünçülük yüksək rentabelli sahələrdən biri olmuşdur. Tütünçülük sahəsinin rentabelli olması nəticəsində 1960-65-ci illərdə orta hesabla hər sentnerdən 61,3 manat və ya hər hektardan 920 manat xalis gəlir götürülmüşdür.

## 2.5. Bağçılığın inkişaf etdirilməsi.

Naxçıvan ərazisində qədim zamanlardan inkişaf etdirilən kənd təsərrüfatı sahələrindən biri də üzümçülükdür. Muxtar respublikada 50-yə qədər texniki süfrə və kişmişi növləri vardır. Bunların əksəriyyəti yerli növlərdi. Krım "Maharac" Üzümçülük İnistitunun Naxçıvan təcrübə məntəqəsinin çoxillik müşahidələri nəticəsində meydana çıxarmışdır ki, öyrənilən 34 üzüm növündən 11-i texniki, 4-ü kişmişi, 7-si isə ən yaxşı süfrə növlərinə aiddir [204, s.69].

İkinci Dünya müharibəsinin kənd təsərrüfatına vurduğu ağır zərbə nəticəsində üzümçülük təsərrüfatı zəifləmiş, məhsuldarlıq aşağı düşmüşdü. Müharibədən sonra üzüm sahələrini bərpa və inkişaf etdirmək əsas vəzifə kimi qarşıda dururdu. Az vaxt ərzində bu sahə surətlə inkişaf etdirildi və diqqətəlayiq nəticələr əldə edildi.

Belə ki, 1947-ci ildə muxtar respublikanın kolxoz və sovxozlarında 1469 hektar, 1950-ci ildə 1527 hektar üzüm əkin sahəsi var idi [177, s.56]. Bu yüksəliş məhsuldarlığın artmasında da özünü göstərmişdi. Məsələn, 1940-cı ildə hər hektardan 36,4 sentner üzüm məhsulu götürüldüyü halda 1946-cı ildə 40,3 sentner, 1950-ci ildə isə 58,9 sentner üzüm məhsulu götürülmüşdü [140, s.120].

1948-ci ildə muxtar respublikanın kolxozları dövlətə 1947-ci ilə nisbətən 362 ton artıq üzüm vermişdilər. Əbrəqunus rayonunun Kırna kənd kolxozu 21 hektar sahənin hər hektarından 55 sentner plana qarşı 104 sentner üzüm götürmüşdü [215, vər.45].

Muxtar respublikada 1951-ci ildə 77 hektar sahəyə əlavə üzüm bağı əkilmişdi. Həmin ildə Şahbuz və Culfa rayonlarında üzüm bağlarının becərilməsi işi pis təşkil edilməmişdir. Bunun nəticəsində muxtar respublika üzrə 1951-ci ildə üzüm təhvili planı 152,4% yerinə yetirilərək dövlətə əlavə 717 ton üzüm verilmişdir [220, vər.14].

Muxtar respublikada 1956-cı ildə kolxozlarda üzümlüklərin ümumi sahəsi 1667 hektara bərabər olmuşdur ki, bunun da 1184 hektarı məhsul verən bağlar idi. Buranın yerli təbii şəraiti üzüm bitkisini ərazinin xeyli hissəsində inkişaf etdirmək üçün əlverişli şərait yaradırdı. Ona görə də 1956-cı ildə üzümlüklər Arazboyu düzənlikdə 700 metr yüksəklikdən başlayaraq, demək olar ki, bəhs edilən ildə respublika ərazisinin təxminən 50 faizini təşkil edən 2000 metrə qədər böyük bir sahədə inkişaf etdirilmişdir [204, s.68].

Muxtar respublikada 1950-ci illərdə üzümlüklərin orta məhsuldarlığı 30-40 sentnerə bərabər olmuşdu. Bu məhsuldarlıq Azərbaycanın əsas üzümçülük rayonlarına nisbətən dəfələrlə aşağı idi. Muxtar respublikada üzümçülük təsərrüfatının aşağı səviyyədə olması onunla izah olunur ki, çox xidmət tələb edən üzüm bitkisi uzun müddətdir ki, burada başlı-başına buraxılmışdı.

Ayrı-ayrı qurşaqlar üzrə üzümün məhsuldarlığı muxtar respublikada xeyli müxtəlifdir. Arazboyu düzənlik kolxozlarında (Şərur və Naxçıvan inzibati rayonlarında) üzümün orta məhsuldarlığı 5-10 sentnerdən artıq olmurdu. Bu, hər şeydən əvvəl onun nəticəsi idi ki, həmin kolxozlarda təsərrüfat rəhbərlərini əsasən pambıqçılıq maraqlandırırdı. Başqa təsərrüfat sahələri ilə yanaşı üzümçülüyə isə ikinci dərəcəli bir iş kimi baxırdılar. Belə bir zərərli hal son nəticədə çoxsahəli kolxoz təsərrüfatlarında bir sıra mühüm təsərrüfat sahələrinin aşağı məhsuldar olmasına gətirin çıxarırdı. Buna görə heç də təsadüfi deyil ki, Naxçıvan MSSR-in düzənlik kolxozları qədər üzüm sahəsi olan (400 hektara qədər) “Azərbaycan” sovxozu ildə dövlətə 8-10 min ton məhsul təhvil verməklə, bunun müqabilində 12-15 milyon manat (köhnə pulla) pul əldə etdiyi halda, muxtar respublikanın Arazboyu düzənlik kolxozları həmin miqdarda üzümlükdən, demək olar ki, nə bövlətə bir şey vermiş, nə də özləri gəlir götürmügdülər

1957-ci ildə muxtar respublika kolxozlarında cəmi 2005

hektar üzüm bağı var idi. Üzüm bağlarının 1184 hektarı məhsul verən bağlar idi. Lakin bu sahəyə qayğısızlıq göstərildiyindən, təsərrüfatın bu gəlirli sahəsinə lazımi fikir verilmədiyindən bu sahədə çox az gəlir əldə edilmişdi. 1956-cı ildə üzüm bağlarının hər hektarından 56 sentner əvəzinə 31,7 sentner, 1957-ci ildə isə hər hektardan 10 sentner məhsul götürülmüşdür. 1956-cı ildə dövlətə üzüm təhvil planı 113,9% yerinə yetirildiyi halda, 1957-ci ildə ancaq 26% yerinə yetirilmişdir [224, vər.23].

Bu nöqsanların aradan qaldırılmasında Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin və Naxçıvan MSSR Nazirlər Sovetinin "Meyvə bağlarının və üzümçülüyün əsaslı yüksəlişini təmin etmək, meyvə və üzüm istehsalını artırmaq əhalinin bu məhsullara və emaledici sənayeni xammalla daha yaxşı təmin etmək haqqında" /sentyabr 1957-ci il/ qərarının böyük əhəmiyyəti var idi. Həmin qərarda deyilirdi: "Meyvə bağlarına, üzümlüklərə qulluq edilməsi işi kökündən yaxşılaşdırılsın, meyvə və üzüm məhsulunun yaxın illərdə azı 1,5-2 dəfə artırmaq üçün bütün lazımi aqrotexniki tədbirlər görülsün, bağçılıq və üzümçülük briqadaları lazımi inventarlarla təchiz edilsin". Qərarda 1957-1965-ci illərdə Naxçıvan MSSR kolxozlarında 3 min hektar sahədə üzümlüklər salınması nəzərdə tutulurdu. Üzüm əkini sahələri rayonlar üzrə aşağıdakı qaydada bölüşdürülmüşdü. Naxçıvanda 600 hektar, Şərurda 1600 hektar, Culfada 300 hektar, Ordubadda 150 hektar, Şahbuzda isə 350 hektar sahədə üzüm əkilməli idi. Naxçıvan MSSR kolxozlarını üzüm əkin matrealları /tinglər/ ilə təchiz etmək üçün 1957-ci ildə 120 min ədəd, 1958-ci ildə isə 900 min ədəd tinglik tənək /şkolka/ əkilməsi nəzərdə tutulmuşdu.

Bu tədbirlərin nəticəsində 1959-cu ildə üzümlüklərin əkin sahəsi 363 hektar genişləndirildi, üzüm tədarük planı 115 faiz yerinə yetirildi və dövlətə 3972 ton üzüm satıldı [226, vər.43].

1960-cı ildən başlayaraq muxtar respublikada üzümçülük daha da inkişaf etdirilmiş və ixtisaslaşdırılmış üzümçülük

sovxozları yaradılmışdır. Üzümçülüyün yüksələn xətlə dinamik inkişafı, şərab, konyak və digər məhsulların istehsalının genişləndirilməsinə səbəb olmuşdu.

1962-ci ilin məlumatına əsasən muxtar respublikada 4069,5 hektar cəmi üzümlük, o cümlədən 1692,2 hektar bar verən üzüm bağları olmuşdur. Ümumi sahənin 2163,8 hektarı kolxozların, 1905,7 hektarı sovxozların öhdəsində idi. Üzümlüklərin 1906,3 hektarı və ya 46,8 faizini texniki, 374,8 hektarını və ya 9,3 faizini süfrə, kişmişi və 1788,3 hektarını və ya 43,9 faizini qarışıq üzüm sortları təşkil edirdi. Cəmi bağların 49,0 faizi bar verən üzümlüklər idi. Məlumatlara əsasən, bar verən üzümlüklərin hər hektarından orta məhsuldarlıq 21,3 sentner olmuşdu. O zaman üzümlüklə məşğul olan 42 kolxozdan 20 kolxoz 10 sentnerə qədər, 11 kolxoz 10 sentnerdən 20 sentnerə qədər, 6 kolxoz 20 sentnerdən 30 sentnerə qədər və 5 kolxoz 30 sentnerdən artıq məhsul götürmüşdü ki, bu da aşağı göstərici idi [34, s.110].

1964-cü ildən başlayaraq Azərbaycan və Naxçıvan şərabları beynəlxalq sərgilərdə və dequstasiyalarda dəfələrlə qızıl, gümüş medallara, fəxri diplomlara layiq görülmüşdü. Muxtar respublikada 1965-ci ildə 3357 ton üzüm istehsal edilib dövlətə satıldığı halda, 1966-cı ildə 8010 ton üzüm istehsal edilib dövlətə satılmışdı. Bu isə 1965-ci ildəkindən 4653 ton artıq idi [241, vər.48].

Üzümçülüyün muxtar respublikada inkişaf etdirilməsini təmin etmək məqsədilə aparılan tədbirlər nəticəsində üzümlüklərin sahəsi xeyli artmışdır. Əgər 1961-ci ildə muxtar respublikada cəmi 2591 hektar üzüm sahəsi var idisə, 1967-ci ildə üzüm sahələri 7221 hektara çatdırılmışdır. O cümlədən sovxozlarda 5555 hektar, kolxozlarda 1666 hektar olmuşdur. 1965-67-ci illər ərzində Şərur rayonunun üzümçülük sovxozlarında 2200 hektar, Naxçıvan (Babək) rayonundakı sovxozlarda 700 hektar və Culfa rayonundakı sovxozlarda 1000 hektar sahədə yeni üzümlüklər salınmışdır. 1961-ci ildə

bütün təsərrüfat dərəcələrində dövlətə 4116 ton üzüm satılmışdırsa, 1966-cı ildə dövlətə satılan üzüm 8080 ton olmuşdur [243, vər.4].

Qeyd etmək lazımdır ki, aşağı və orta dağlıq qurşaqda ayrı-ayrı kolxoz, manqa və briqadaların əldə etdiyi nailiyyətlər göstərir ki, üzümçülüyün məhsuldarlığının hər yerdə yüksəldilməsi üçün burada mövcud imkanlardan lazımı istifadə edilmirdi. Məsələ, Culfa rayonunda ayrı-ayrı kolxozlarda məhsuldarlıq 10 sentnerlə 80 sentner, Şahbuz rayonunda 15-20 sentnerlə 200 sentner arasında tərəddüd edirdi, halbuki bu kolxozların hamısı bir-birinin qonşuluğunda yerləşməklə, demək olar ki, eyni təbii-iqlim və suvarma şəraitinə malik idilər. Ümumiyyətlə, muxtar respublikada, o cümlədən aşağı və orta dağlıq qurşaqda üzümün aşağı məhsuldarlığı məhz o kolxozlarda müşahidə edilir ki, bəhs edilən illərdə orada üzümçülük briqada və manqaları olmamışdı. Mexanikləşmə və aqrotexniki nailiyyətlər üzümçülüyə tətbiq olunmamışdı. Ona görə də, 1960-cı illərdə muxtar respublikada üzümçülük zəif inkişaf etmişdi.

Naxçıvan Muxtar Respublikası meyvəçiliyin inkişafı ilə şöhrət tapmışdır. Meyvəçilik Azərbaycanın digər rayonlarında olduğu kimi, muxtar respublikada kənd təsərrüfatının mühüm sahələrindən birini təşkil edir. Bütün bunlarla yanaşı muxtar respublikada, xüsusilə Ordubad rayonunda meyvəçiliyin və bağçılığın inkişafı həmişə diqqət mərkəzində olmuşdu.

Muxtar respublikada bağların əsas hissəsi Ordubad rayonunda yayılmışdır. Burada bağçılıq tamamilə əmtəə xarakteri daşımaqla, onun meyvələri Naxçıvandan xeyli uzaqlarda özünə böyük şöhrət qazanmışdır. Yerli seleksiyaçılar Ordubadda "Şərəli", "Salamı", "Abtalıbı" kimi qiymətli çəyirdəkli meyvə növləri, məşhur "Kağızı" qoz növləri yetişdirmişdilər [204, s.30].

Ordubad rayonunda aparılmış elmi-tədqiqat işlərinin nəticəsində Qozun 13, Almanın 16, Armudun 11, Gilasın 11,

Gilənarın 6, Alçanın 5, Gavalının 16, Əriyin 17, Şaftalının 19 sortu aşkar edilmiş və hərtərəfli öyrənilmişdir.

Öyrənilmiş müxtəlif cinslərdən olan meyvə sortlarından təsərrüfat əhəmiyyətinə görə Qozun 6, Əriyin 4, Alçanın 64, Şaftalının 5, Alma və Armudun 6, Gavalının 6 sortu və sort formaları, Ordubad rayonu təsərrüfatları üçün daha perspektivli hesab edilməklə SSRİ Dövlət sort sınağında qəbul edilmişdir. Araşdırmalar nəticəsində aydın olmuşdur ki, göstərilən meyvə sortları və cinsləri yerli şəraitdə uyğunlaşması, xəstəlik və zərərvericilərə qarşı davamlı olması, yüksək keyfiyyəti və məhsuldarlığı ilə diqqəti cəlb edir. Özünün təbii-iqtisadi şəraitinə görə Ordubad rayonunun meyvəçiliklə məşğul olan ərazilərini 3 zonaya ayırmaq olar.

I. Arazboyu zona-bu zona dəniz səthi səviyyəsindən 600-800 m. hündürlükdə yerləşən təsərrüfatları əhatə edir. Bu zonada qoz meyvəli və çəyirdəkli meyvə cinsləri daha yaxşı böyüyüb inkişaf edir və yüksək məhsul verir.

II. Dağətəyi zona-buraya dəniz səviyyəsindən 850-1100 m. hündürlükdə yerləşən təsərrüfatlar daxildir. Burada bütün cinslərdən olan meyvə bitkiləri inkişaf edir və bol məhsul verir.

III. Dağlıq zona-buraya dəniz səthi səviyyəsindən 1100-1450 m. hündürlükdə yerləşən təsərrüfatlar daxildir. Bu zonada tumlu meyvələr üstünlük təşkil edir.

Muxtar respublikada təbii-iqlim şəraitinə tez uyğunlaşan yüksək keyfiyyətli və məhsuldar meyvə sortları olsa da meyvə istehsalını xeyli artırmaq üçün mövcud əlverişli şəraitdən yarıtmaz istifadə olunmuşdur. Meyvə bağlarının məhsuldarlığı 1940-cı ildə 22,8 sentner olduğu halda, 1946-cı ildə 23,2 sentner, 1950-ci ildə 24,0 sentner, 1955-ci ildə isə 29,1 sentner olmuşdur [140, s.109].

Muxtar respublikada olan meyvə bağlarından yüksək məhsuldarlıq almaq mümkün olmurdu. Ona görə ki, onun becərilməsi müharibə illərində başlı-başına buraxılmış, texnika

tətbiq edilməmiş, aqrotexniki tədbirlərdən az istifadə olunmuşdu.

Deməli, bu dövrdə bağların becərilməsində mexanikləşməni tətbiq etməklə sıradan çıxmaq üzrə olan meyvə bağlarını yenidən bərpa etmək, aqrotexniki qaydada xidməti gücləndirmək və meyvə bağlarının sahəsini artırmaq əsas vəzifə kimi qarşıda dururdu. Bu məqsədlə 1951-ci ildə muxtar respublikada 77 hektar əlavə meyvə bağı əkilmişdir [220, vər.14].

Sov.İKP MK-nın sentyabr (1953-cü il) plenumundan sonra kənd təsərrüfatının digər sahələri kimi bağçılığın da inkişafına diqqət gücləndi. Kolxozlarda 1954-1955-ci illərdə 127 hektar sahədə yeni meyvə bağları salındı ki, bunun da 34,6 hektarı Ordubad rayonunu payına düşmüşdü [223, vər.109].

Bağçılığa diqqət və qayğının artırılması nəticəsində 1956-cı ildə 1955-ci ilə nisbətən meyvənin məhsuldarlığı 4,3 sentner çoxalmışdı. 1956-1957-ci illərdə muxtar respublikanın kolxozlarında 85 hektar sahədə yeni meyvə bağı salınmışdı. Bununla birlikdə muxtar respublikada 973 hektar mövcud meyvə bağının 626 hektarı məhsul verən bağlar idi. 1957-ci ildə meyvə bağlarının hər hektarından 34 sentner əvəzində 12 sentner məhsul götürülmüşdür [224, vər.22].

Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin zəif olmasının səbəblərindən biri də odur ki, bağçılıqda manqa üsulu kolxozların hamısında tətbiq edilməmişdir. Bu mühüm vəzifələri yerinə yetirmək üçün muxtar respublika əməkçiləri var qüvvələri ilə çalışdılar ki, mövcud nöqsanları aradan qaldırıb, əmək məhsuldarlığının səviyyəsini respublika səviyyəsinə çatdırsınlar.

1958-ci ildə Ordubad rayonunun Dəstə kəndində meyvəçilik sovxozu təşkil edildi. Qeyd etmək lazımdır ki, 1956-1959-cu illərdə meyvəçilikdə ümumi məhsuldarlıq çoxalsa da meyvə istehsalının həcmi artan tələbatı tam ödəmirdi.

1960-cı illərdə Araz çayı sahillərindən başlamış dəniz səviyyəsindən 1600, hətta 2000 metr hündürlüyə qədər bütün ərazinin suvarıla bilən yerlərində bağlar salınmışdı. Kolxozlarda olan meyvə bağlarının ümumi sahəsi 1054 hektar, o cümlədən meyvə verən bağlar 630 hektar idi. Meyvə bağları başlıca olaraq Ordubad rayonu və qismən də Naxçıvan (Babək) rayonu ərazisində idi. Bu bağların 60 faizindən çoxunu ərik və şaftalı təşkil edirdi. Əsas meyvəçilik rayonu olan Ordubad kolxozlarının bağlarından və əhalinin həyətyanı sahələrindən konserv sənayesinə satılan məhsul tədarükat içərisində həlledici yer tuturdu. İşini nisbətən yaxşı təşkil edən Ordubad rayonunun Nərimanov adına kolxozu hər hektardan 48,5 sentner, M.Əzizbəyov adına kolxoz 32 sentner meyvə yığırdı [34, s.109].

Muxtar respublikada 1960-cı ildə 1021 hektar, 1962-ci ildə 1078 hektar, 1965-ci ildə isə 1086 hektar meyvə bağı olmuşdur. Bu bağların hər hektarından 1960-cı ildə 7,3 sentner, 1962-ci ildə 11,2 sentner, 1965-ci ildə isə 7,5 sentner məhsul əldə edilmişdir [141, s.142].

Meyvəçilik iqtisadi əhəmiyyətinə görə kənd təsərrüfatının ən gəlirli sahələrindən biridir. Təcrübə göstərir ki, eyni sahədən meyvə bağlarının verdiyi gəlir birillik bitkilərinkindən bir neçə dəfə çox olur. Meyvə və giləmeyvə iqtisadi faydasından başqa, insanın qidalanmasında da böyük əhəmiyyətə malikdir. Bağçılığın inkişaf etdirilməsində məqsəd əhalini yüksək keyfiyyətli meyvə ilə təmin etmək və pul gəlirini artırmaqdır.

Əsas meyvəçilik rayonu olan Ordubad kolxozlarının bağlarından və əhalinin həyatyanı sahələrindən konserv sənayesinə satılan məhsul ümumi tədarükün içərisində həlledici yer tuturdu. Ordubad konserv zavodu əsas etibarı ilə yerli meyvə istehsalına əsaslanırdı. 1965-ci ildə muxtar respublikada meyvəçiliyin vəziyyətinin təhlili göstərir ki, muxtar respublikanın bir çox kolxozlarında təsərrüfatın bu sahəsinə lazımınca fikir verilməmişdi. Yerli istehsala əsasən

Ordubad konserv zavodu xammal ilə lazımi qədər təmin olunmadığına görə zavod istehsal gücündən tam istifadə edə bilməmişdi.

**2.6. Heyvandarlıq və quşçuluğun inkişafı.**

İkinci Dünya müharibəsi illərində olduğu kimi, müharibədən sonrakı illərdə də kənd təsərrüfatının və onun xüsusi sahələrindən biri olan heyvandarlığı inkişaf etdirmək qarşıda duran mühüm vəzifələrdən biri idi. Bu vəzifələr də müharibədən sonrakı illərdə qəbul olunmuş dördüncü beşillikdə öz əksini tapmışdır.

Qeyd etmək olar ki, Naxçıvan MSSR Ali Sovetinin VII sessiyasında 1946-cı il sentyabrın 9-da “1946-1950-ci illərdə Naxçıvan MSSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan haqqında” qanun qəbul olunmuşdu. Bu qanunda qeyd edilmişdir ki, kənd təsərrüfatı istehsalının müharibədən əvvəlki səviyyəni ötüb keçmək, heyvandarlığı daha da inkişaf etdirmək kimi mühüm vəzifələr nəzərdə tutulmuşdu. Dördüncü beşillik planda qaramalın sayı 57,9% artırılmalı idi [356, 11 sentyabr 1946].

Muxtar respublikada otlaq sahələrinin azlığına, müəyyən təbii iqtisadi çətinliklərə, xüsusilə şirəli yemlərin azlığına baxmayaraq, müharibədən sonrakı illərdə dövlət planları, dördüncü beşilliyin qarşıya qoyduğu vəzifələr yerinə yetirilmişdir.

Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin 1947-ci il 4 fevral tarixli büro iclasının materiallarında deyilir: “Muxtar respublikanın fədakar heyvandarları müharibə illərində olduğu kimi, müharibədən sonra dövlət planını 1946-cı ildə qaramal üzrə 103,35% yerinə yetirmişdilər” [213, vər.48].

Bu illərdə muxtar respublikada iribuynuzlu heyvanların sayı II Dünya müharibəsindən əvvəlki ilə nisbətən xeyli artırılmışdır. Belə ki, 1940-cı ildə iribuynuzlu mal-qaranın sayı 18120 baş olduğu halda, 1946-cı ildə iribuynuzlu mal-qaranın

sayı 26168 başa, 1950-ci ildə isə iribuynuzlu mal-qaranın sayı 34362 başa çatdırılmışdır.

1948-ci ildə mal-qaranın artımı üzrə dövlət planı 104,65% yerinə yetirilmişdir. Bununla yanaşı 1947-ci ilə nisbətən 1948-ci ildə mal-qaranın tələf olması bir neçə dəfə artıq olmuşdur. Bu onunla izah olunur ki, 1948-ci ilin qışı çox uzun çəkdi. Həm qışlaq, həm də yaylaqlarda yem kifayət qədər olmadı. Həmin il heyvandarlıq məhsullarının artımı planı yerinə yetirilməmişdir. 1948-ci ildə hər inəkdən 376 litr süd alınmışdı. Halbu ki, 1947-ci ildə hər inəkdən 426 litr süd alınmışdır [215, vər.50].

1949-cu ildə Naxçıvan Vilayət Partiya təşkilatı ictimai heyvandarlığı sürətlə inkişaf etdirməyi başlıca vəzifə olaraq qarşıya qoymuş və onu yerinə yetirmək üçün bəzi tədbirlər həyata keçirmişdi. Nəticədə üçillik plan yerinə yetirilmiş və mühüm nailiyyətlər qazanılmışdı. Belə ki, 1951-ci ildə qaramalın sayı muxtar respublika kolxozlarında 43,1 minə çatdırılmışdı [177, s.63].

Naxçıvan MR-da heyvandarlığın əsas təsərrüfat sahəsi iribuynuzlu mal-qara və qoyunçuluqdur. 1946-cı ildə iribuynuzlu mal-qara bütün ictimai heyvandarlığın 53,2%-ni təşkil etdiyi halda, 1950-ci ildə isə 56,2%-ni təşkil etmişdir.

Muxtar respublikada məhsuldar mal-qara 1946-1950-ci illər ərzində istər respublika və ya istərsə də ayrı-ayrı rayonlar üzrə demək olar ki, müntəzəm surətdə artmışdır. Həmin dövrdə Şərur və Naxçıvan (indiki Babək) rayonlarında mal-qaranın sayı daha da sürətlə artmışdır. Belə ki, 1940-cı ildə Şərur rayonunda mal-qaranın sayı 100,0% olduğu halda, 1946-cı ildə 175,4%, 1950-ci ildə 148% olmuşdur. Naxçıvan (indiki Babək) rayonunda 1940-cı ildə 100,0%, 1946-cı ildə 155,9%, 1950-ci ildə 187,3% olmuşdu [140, s.136].

Naxçıvan MSSR kolxozlarında mal-qaranın sayı müharibədən sonrakı dövrdə daha da artırılmışdır. Bunun başlıca səbəbi xırda kolxozların iriləşməsi idi.

Xırda kolxozların iriləşməsi heyvandarlıq fermalarının böyüməsinə, onların ixtisaslı kadrlar ilə möhkəmləndirilməsinə, möhkəm yem bazasının yaradılmasına səbəb olmuşdur. İriləşmədən sonra kolxozlarda nümunəvi heyvandarlıq binalarının zoobaytar və süni mayalandırma məntəqələrinin, silos və s. binalarının təşkili genişlənmişdir. Bütün bu tədbirlər ayrı-ayrı kolxozlarda heyvanların sayını artırdı.

1946-1950-ci illərdə muxtar respublikada müvafiq olaraq satlıq heyvandarlıq məhsulları da artmışdır. Muxtar respublikanın kolxozlarında dövlətə 1940-cı ildə 594 ton süd və süd məhsulları satıldığı halda, 1950-ci ildə dövlətə 1375 ton süd və süd məhsulları satılmışdır [177, s.74].

1941-ci ildə muxtar respublikada bütün təsərrüfat dərəcələrində qaramalın sayı 42,8 min baş, o cümlədən kolxozlarda 22,8 min baş olduğu halda, 1951-ci ildə bütün təsərrüfat dərəcələrində qaramalın sayı 49,4 min baş, o cümlədən kolxozlarda 43,1 min baş olmuşdur [177, s.63]. Bu rəqəmlərdən aydın olur ki, müharibədən sonrakı illərdə ictimai təsərrüfata daha çox fikir verilmişdi.

Muxtar respublikanın bütün təsərrüfat dərəcələrində 1941-ci ildə 15,4 min baş inək və camış olduğu halda, 1951-ci ildə inək və camışların sayı 11,6 min baş olmuşdur. 1941-ci ildə muxtar respublikanın kolxozlarında 3,7 min baş inək və camış olduğu halda, 1951-ci ildə inək və camışların sayı 7,9 min başa çatdırılmışdı [177, s.64]. Muxtar respublikada inək və camışların sayının artırılmasına baxmayaraq, Naxçıvan, Şahbuz və Ordubad rayonlarında inək və camışlar respublikaya nisbətən yavaş sürətlə artmışdır. Bu onunla izah edilə bilər ki, həmin rayonlarda ət tədarükünə yararsız heyvanları kökəldib təhvil vermək əvəzinə çoxlu inək, camış və cavan düyə təhvil verilmişdi. Belə bir vəziyyət sürüdə məhsuldar mal-qaranın əsasını təşkil edən inəklərin sayının çoxalmasına mane olmuşdu.

Dördüncü beşillikdə inək və camışların sayca bir qədər

artmasına baxmayaraq, sürüdə onların tutduğu xüsusi çəki hələ olduqca aşağı idi. Sürüdə inək və camışların az olması, ictimai mal-qaranın öz təbii artım hesabına inkişafını ləngidirdi, süd məhsulu istehsalını azaldır və heyvandarlıqdan alınacaq gəliri aşağı salırdı.

Heyvandarlığın sürünün öz təbii artım hesabına inkişaf etməsini ləngidən başlıca səbəblərdən biri də dişi mal-qaranın qısır qalması idi. Respublikanın qabaqcıl rayonlarından biri olan Şərur rayonunda demək olar ki, heyvanların iki mindən biri qısır qalmışdı. Heyvandarlığı inkişaf etdirmək üçün əsas mənbə sürünün təbii artımıdır. Buna görə də alınmış balaları salamat saxlamaq birinci dərəcəli əhəmiyyətə malikdir. Lakin muxtar respublikanın bir sıra rayon və kolxozlarında mal-qaranın, xüsusilə cavan heyvanların saxlanmasında, onların yemlənməsində zoobaytar tədbirlərə riayət edilməməsi nəticəsində böyük itkiyə yol verilmişdi.

Müharibədən sonrakı illərdə muxtar respublikanın kolxoz fermalarında camışlar da inkişaf etdirilmişdi. Camış inəyə nisbətən yüksək məhsuldar, qulluq edilməyə və yemlənməyə az tələbkar, xəstəliyə qarşı davamlı heyvandır. Naxçıvan şəraitində camış inəyə nisbətən 1,5 dəfə artıq süd, 2 dəfədən çox ət verir. Camış südü öz qidalılığına görə yüksək keyfiyyətli və tərkibinə görə qida maddələrilə zəngindir. Camış südündən hazırlanan qatıq, qaymaq, şor qiymətli yeyinti məhsullarıdır. Camış südündən əhalinin çox sevdiyi Hollandiya pendiri də hazırlanır [140, s.142].

Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq İnstitutunun müəyyən etdiyinə görə yaxşı saxlandıqda və yemləndikdə camışlardan daha yüksək məhsul götürmək olar.

Camışçılıq isti iqlimi daha çox sevir. Bu heyvan yayın isti vaxtlarında bataqlıqlarda, göllərdə, münasib su axarlarında dincəlir. Camışçılıq Azərbaycanda ən çox aran və dağətəyi zonalarda inkişaf etdirilir. Heyvanların soyuğa dözümsüz olması ilə əlaqədar camış dağlıq yerlərdə çox az olur.

Qısabuynuzlu camış qrupu Qafqazda, o cümlədən Azərbaycanda geniş yayılmışdır. Düzənlik zonalarda camışların diri çəkisi 500 kq-a qədər olduğu halda, dağlıq yerlərdə onun diri çəkisi 400 kq-a yaxın olur. Azərbaycan camışları əsasən qara və boz rəngdə olur. Camışdan əsasən südlük, ətlik və qoşqu qüvvəsi kimi istifadə edilmişdir.

Bütün bunlar bir daha göstərir ki, camış öz məhsuldarlığına görə inəyə nisbətən böyük üstünlüyə malikdir. Buna görə də Azərbaycanın bu və ya digər rayonlarında olduğu kimi, muxtar respublikada da məhsullar mal-qaranın inkişaf etdirilməsində camışçılığın inkişafına xüsusi diqqət yetirilməlidir.

1951-ci ildə ictimai heyvandarlığı inkişaf etdirmək planı respublikada iribuynuzlu heyvanlar üzrə 88,2%, xırdabuynuzlu heyvanlar üzrə 96,7% yerinə yetirildiyi halda, 1952-ci ildə iribuynuzlu heyvanlar üzrə 98,4%, xırdabuynuzlu heyvanlar üzrə 130,3% yerinə yetirilmişdir [220, vər.15].

Mal-qaranın inkişafında olan nailiyyətlər muxtar respublikada 1953-cü il plenumundan sonra da inkişaf etmişdi. Belə ki, həmin illərdə heyvandarlığın inkişafı planı qaramal üzrə 103,6%, o cümlədən inək və camışlar üzrə 114,2% yerinə yetirilmişdi [221, vər.115].

Muxtar respublikada mal-qaranın sayını artırmaq və məhsuldarlığını yüksəltmək sahəsində 1953-cü ildə C.Məmmədquluzadə adına kolxozun heyvandarları bir sra müvəffəqiyyətlər əldə etdilər. Bəhs edilən ildə kolxozda qaramal üzrə ictimai heyvandarlığın planı 118% yerinə yetirilmişdi [356, 20 iyul 1954].

Heyvandarlıq təsərrüfatında müəyyən nailiyyətlərin olmasına baxmayaraq, Azərbaycan SSR-də olduğu kimi Naxçıvan MSSR-də mal-qaranın məhsuldarlığı tələb olunan səviyyədə olmamışdır. Belə ki, 1953-cü ildə muxtar respublikanın kolxozlarında mal-qaranın məhsuldarlığının artırılmasına lazımi diqqət yetirilmə-mişdir. Bunun nəticəsində

1953-cü ildə hər inəkdən orta hesabla 750 litr süd əvəzinə 377 litr süd alınmışdı. 1953-cü ilin sonunda muxtar respublikada inək və camışların sayı heyvandarlığın 23,8 faizini təşkil etmişdi [221, vər.117].

Keçmiş Sov.İKP MK-nın sentyabr (1953-cü il) plenumunda heyvandarlığın inkişaf etdirilməsi məsələsinə xüsusi diqqət yetirildi və heyvandarlıq sahəsində olan səhvlər və nöqsanlar tənqid edildi. Muxtar respublika heyvandarlarını səfərbər etməkdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi XX konfransının (1953-cü il 26-27 dekabr) böyük əhəmiyyəti oldu. Konfrans heyvandarlığın inkişafını qeyri-qənaətbəxş hesab edərək onu yaxşılaşdırmaq üçün konkret tədbirlər gördü. 1954-cü ildə muxtar respublikanın kolxozlarında iribuynuzlu mal-qaranın sayı 46682 başa, o cümlədən inək və camışların sayı 10906 başa çatdırıldı. Heyvandarlığın sayının artması ilə yanaşı məhsuldarlığı da artdı. Belə ki, hər inəkdən orta hesabla 415,3 litr süd sağıldı.

Mal-qaranın cinsini yaxşılaşdırmaq məqsədilə 1955-ci ildə muxtar respublikanın kolxozlarına 107 baş cins buğa və 250 baş cins düyə gətirilmişdi [222, vər.85].

Heyvandarlıq sahəsində görülən işlər nəticəsində 1956-cı ildə muxtar respublikada heyvandarlıq sahəsində bəzi naliyyətlər əldə edildi və nəticədə inək və camışların sayı mal-qaranın 23 faizini təşkil etmişdi [222, vər.86].

1957-ci ildə muxtar respublikanın kolxozlarında iribuynuzlu mal-qaranın sayı 43587 başa çatdırılmışdı. Hər inəkdən 1955-ci ildə 456 kq süd sağıldığı halda, 1957-ci il dekabrın 1-ə 660 kq süd sağılmışdır ki, bu da 1955-ci ilə nisbətən 204 kq artıq idi. Muxtar respublikanın kolxozları 1957-ci ildə planı birinci dəfə olaraq 11 ay içərisində yerinə yetirmişdilər [224, vər.26].

Naxçıvan MSSR-da heyvandarlıq təsərrüfatı istər II Dünya müharibəsi illərində, istərsə də müharibədən sonrakı illərdə xeyli artmışdır. Belə ki, muxtar respublikada bütün

məhsuldar mal-qaranın sayı 1941-ci ildə qaramal üzrə 42,8 min baş olduğu halda, 1959-cu ildə qaramalın sayı 58,0 min baş olmuşdur [177, s.63-64].

Muxtar respublikanın kolxozları Sov.İKP MK-nın dekabr (1959) plenumu və Azərbaycan Kommunist Partiyasının XXIV qurultayının qərarlarını rəhbər tutaraq heyvandarlığın gəlirli sahəsi olan camışçılığı inkişaf etdirməyi və bu sahədə buraxılan nöqsanları tezliklə düzəltməyə başlamışlar. Bu məqsədlə Naxçıvan kolxozlarında 20 camışçılıq ferması yaradılmışdır. Bu fermalarda 1959-cu ildə 865 baş camış olmuşdu [158, s.26-27].

Naxçıvan MSSR-də 1953-1965-ci illərdə bütün kateqoriyalar üzrə heyvandarlığın inkişaf dinamikasını təhlil edərkən görünür ki, iribuynuzlu heyvanların sayı 1965-ci ildə 1953-cü ilə nisbətən 10,2 min baş, o cümlədən inəklərin sayı 2 dəfə artmışdır [34, s.112].

Ümumiyyətlə, aparılan təhlillər onu göstərir ki, 1960-cı illərdə Naxçıvan Muxtar Respublikasında bütün təsərrüfat dərəcələrində iribuynuzlu heyvanların inkişafı xeyli yüksəldilmişdi.

1946-1950-ci illərdə muxtar respublikanın kolxozlarında heyvandarlığın inkişaf etdirilməsində və onların məhsuldarlığının yüksəldilməsində SSRİ Ali Soveti Rəyasət heyətinin heyvandarlıqda yüksək nəticələr əldə edən kənd təsərrüfatı qabaqcıllarına Sosialist Əməyi Qəhrəmanı adı verilməsi, heyvandarlıq sahəsində çalışan mütəxəssislər və rəhbər işçilərinin uzun müddət və qüsursuz işlədiklərinə görə mükafatlandırılması, orden və medallarla təltif edilməsi haqqındakı fərmanı böyük rol oynamışdır.

SSRİ Ali Soveti Rəyasət Heyətinin həmin fərmanına görə 1948-ci ildə muxtar respublikada qoyunçuluqda yüksək nəticələr əldə edən 100-dən artıq kolxozçu orden və medallarla təltif edilmiş və 8 kolxozçuya Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ad verilmişdir. Naxçıvan (indiki Babək) rayonundakı

Böyük duz və Sust kənd kolxozları qoyunçuluğun inkişafında yüksək göstəricilər əldə etmişdilər. Sust kənd kolxozunda 1947-ci ildə 2099 ana qoyunun 1200 başından 1500 quzu (hər yüz ana qoyundan orta hesabla 125 quzu), 999 başdan isə 920 quzu (hər 100 ana qoyundan 92 quzu) alınmışdı.

Həmin göstəricilərə və eləcə də quzuların hər birinin diri çəkisinin doğuma qədər 41,5 kq-a çatdırdıqlarına görə kolxoz sədri Qəzənfər Nağıyevə, ferma müdiri Qasım Hüseynova, baş çoban Nəbi Tamayevə Sosialist Əməyə Qəhrəmanı adı verilmişdir.

1948-ci ildə qoyunçuluq sahəsində Böyük Düz kolxozu da yüksək göstəricilərə nail olmuşdur. Kolxozun kolxozçuları (kolxoz sədri Əli Məmmədov, ferma müdiri Hüseyn Məmmədov, baş çoban Heydər Seyidov yoldaşlar) 1201 baş ana qoyundan 1489 baş yəni 123% quzu alıb yaylaqdan qayıdana qədər tamamilə salamat saxlamışlar. Kolxozun baş çobanı Heydər Seyidov ona təhkim olunmuş 600 baş ana qoyundan 755 yəni 125% quzu alıb hər qoyundan orta hesabla 2720 qram yun qırxmışdır [215, vər.51].

Qoyunçuluqda əldə edilmiş nailiyyətə görə Böyük Düz kolxozun sədri Əli Məmmədova, ferma müdiri Hüseyn Məmmədova, baş texnik Məmməd Cəfərova və baş çoban Mirheydər Seyidova, Şükür Əhmədova Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir [41].

Böyükdüz və Süst kəndi heyvandarlarının təcrübələri muxtar respublikada geniş yayılmışdır.

Muxtar respublikada 1948-ci ildə heyvandarlıq təsərrüfatının inkişafına çox ciddi fikir verilmişdir. Çünki bu təsərrüfat əhalinin iqtisadiyyatında çox mühüm rol oynayırdı. Ümumiyyətlə, bu illərdə heyvandarlığın inkişafında və məhsuldarlığının artırılması sahəsində muxtar respublika heyvandarları yeni əmək müvəffəqiyyətləri əldə etmişdilər. Heyvandarlığın inkişaf planı qoyun-keçilər üzrə 101,5 faiz yerinə yetirilmişdi [215, vər.50].

Belə ki, tədqiq olunan dövrdə aydın olmuşdu ki, 1947-ci ildə muxtar respublikanın kolxozlarında 178578 baş qoyun-keçi olduğu halda, 1948-ci ildə kolxozlarda 184006 baş qoyun-keçi olmuşdu [324, vər.36].

1950-ci ildə hər bir qoyundan orta hesabla 1940-cı ilə nisbətən iki dəfə artıq məhsul götürülmüşdür. Yun məhsuldarlığının artırmaq sahəsində Şahbuz rayonu kolxozları daha artıq müvəffəqiyyətlər əldə etmişdilər.

Naxçıvan MSSR kolxozlarında 1940-cı ildə yun istehsalı 686,3 sentner olduğu halda, 1946-cı ildə 1950,0 sentner, 1950-ci ildə isə 2511,4 sentner olmuşdur. Kolxozlarda müxtəlif heyvandarlıq sahələri yerli təsərrüfatların imkanlarına və təbii şəraitə müvafiq nisbətdə inkişaf etdirilirdi. Ayrı-ayrı heyvandarlıq sahələri xüsusilə II Dünya müharibəsindən əvvəlki ilə nisbətən xeyli artırılmışdı.

1951-ci ildə Naxçıvan MSSR-nin bütün rayonları üzrə Culfa rayonundan başqa heyvandarlığın artımı qoyun-keçilər üzrə 122,2% yerinə yetirilmişdi [217, vər.47].

1953-cü il plenumundan sonra Naxçıvan MSSR heyvandarları planı 1940-cı ilə nisbətən davarlar üzrə 259,9% yerinə yetirdilər [356, 28 iyun 1954].

Naxçıvan (Babək) rayonunun Nehrəm kəndinin heyvandarları 1953-cü ildə 2.580 ana qoyundan 2.618 baş quzu almışdılar. Böyükdüz kənd kolxozunda 800 ana qoyundan 876 baş, C.Məmmədquluzadə adına kolxozun heyvandarları isə 1.035 baş qoyundan 1.067 baş sağlam quzu götürmüşdülər.

Tədqiq olunan dövrdə məlum olmuşdu ki, Naxçıvan rayonunun (indiki Babək rayonu) C.Məmmədquluzadə adına kolxozunda heyvandarlıq sahəsində bir sra nailiyyətlər əldə edilmişdi. Belə ki, 1953-cü ildə heyvandarlığın inkişaf planı davarlar üzrə 147% yerinə yetirilmişdi. Yun tədarükü planı 251% yerinə yetirməklə planda nəzərdə tutulduğundan 3240 kiloqram artıq yun təhvil verilmişdi [356, 20 iyun 1954].

1953-cü ildə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi

XX konfransı heyvandarlıq sahəsində olan nöqsanları, xüsusilə məhsuldarlığın aşağı səviyyədə olmasını yaxşılaşdırmaq üçün tədbirlər gördü. 1953-cü ildə Naxçıvan MSSR kolxozlarında qoyun və keçilərin sayı 158,7 min başa çatdırıldı ki, bu da 1951-ci illə müqayisədə 22,2 min baş az idi [177, s.65].

Keyfiyyətli yun istehsal etmək üçün ilk növbədə yüksək keyfiyyətli yun verən qoyun cinslərini yetişdirmək lazımdır. İkincisi nəzərdə saxlanmalıdır ki, erkəklər ana qoyunlardan çox yun verir. Buna görədə çox yun istehsal etmək üçün axtalanmış erkəklərin saxlanmasını məsləhət görürlər. Yunun keyfiyyətinə qoyunların düzgün yemləndirilməsi və bəslənməsi, də səbəb olur.

1955-ci ildə muxtar respublikada qoyun və keçilərin sayı 196058 başa çatmış, yun istehsalı hər 100 hektar yararlı torpaq sahəsinə görə 194 kiloqram və ya 116% yerinə yetirilmişdi [222, vər.84].

Qoyunçuluğun cins tərkibini yaxşılaşdırmaq üçün 1955-ci ildə muxtar respublikanın kolxozlarına 232 baş cins törədici qoç gətirilmişdi. Bu isə muxtar respublikada qoyunçuluğun cinsinin yaxşılaşdırılmasında mühüm əhəmiyyətə malik olmuşdur. Həmin ildə hər yüz ana qoyundan 83,4% quzu alınmışdı [222, vər.85].

1955-ci ildə dövlət damazlıq ocağının (DDO) əhatə etdiyi kolxozlarda dövlətə yun tədarükü və satışı planı 112,4%, damazlıq fermalarında isə 141,3% yerinə yetirilmişdir. DDO-nun əhatə etdiyi bütün kolxozlarda hər 100 baş ana qoyundan 1955-ci ildə orta hesabla 87 baş quzu, damazlıq fermalarda isə 90 baş quzu alınmışdır. DDO-nun əhatə etdiyi kolxozlarda 11 əsas və 7 uyğunlaşdırılmış süni mayalandırma məntəqəsi var idi [140, s.150].

Muxtar respublikada qoyunçuluğa göstərilən qayğı nəticəsində 1957-ci ildə kolxozlarda 181460 baş qoyun mövcud olmuşdur. 1957-ci ildə qoyunların sayı 10 min baş və ya 9,4% artmş, qoyunlar üzrə plan 104% yerinə yetirilmişdir

[224, vər.25].

Sov.İKP MK-nın dekabr plenumu (1958) muxtar respublikada ictimai heyvandarlığın inkişafında son beş ildə olan nailiyyətlərə yekun vurmaqla, kolxoz və sovxozlarda ictimai heyvandarlığı surətlə inkişaf etdirmək əsasında ət, süd istehsalını hər vasitə ilə artırmaq kimi mühüm təxirəsalınmaz vəzifələr qarşıya qoymuşdu. Plenumun qarşıya qoymuş olduğu vəzifələri yerinə yetirən muxtar respublika heyvandarları 1959-cu ildə bütün təsərrüfat dərəcələrində davarların sayını 285,4 min başa çatdırmışdılar [177, s.59].

Muxtar respublika ərazisində 50-ci illərdən fərqli olaraq 1960-65-ci illərdə bütün təsərrüfat dərəcələrində davarların sayında hər il azalma müşahidə olunmuşdu. Bunun da başlıca səbəbi həmin illərdə yem ehtiyatlarının az olması və yem bitkilərinin az əkilməsi idi. Bəhs edilən illəri müharibədən sonrakı illərlə müqayisə etdikdə görərik ki, əgər II Dünya müharibəsindən sonra Naxçıvan MSSR kolxozlarında qoyunçuluğu inkişaf etdirmək üçün Ermənistan SSR-dən 70 min hektara qədər yaylaq sahəsi ayrılmışdısa, sonralar bu imkanlar məhdudlaşdırılmış və bu da qoyunçuluğun əvvəlki dövrə nisbətən sürətli inkişafına mane olmuşdu [34, s.115]. Bir faktı nəzərə çatdırmaq yerinə düşər ki, 1959-cu illə müqayisədə 1965-ci ildə muxtar respublika ərazisində bütün təsərrüfat dərəcələrində davarların baş sayı 61,5 min baş azalaraq 223,9 min baş olmuşdur [169, s.55].

Muxtar respublikada qoyunçuluğun inkişafına fikir verildiyindən, təsərrüfatın bu sahəsində 1966-cı ildə 1965-ci ilə nisbətən xeyli artım olmuşdur. Belə ki, 1966-cı ildə xırdabuynuzlu heyvanların sayı 7076 baş, yun istehsalı 22 ton artmışdır. Bunlarla yanaşı nöqsanlar da az olmamışdır. 1966-cı ildə xırdabuynuzlu heyvanlar üzrə plan 92% yerinə yetirilmiş, hər baş ana qoyundan 82 quzu əldə edilmişdir [241, vər.52].

Müharibədən sonrakı dövrdə dördüncü beşillikdə Naxçıvan MSSR-də ipəkçiliyin bərpa və daha da inkişaf etdirilməsi

vəzifəsi qarşıya qoyulmuşdur. Bu vəzifə müvəffəqiyyətlə yerinə yetirilmişdir. 1950-ci ildə müharibədən əvvəlki illərə nisbətən xeyli artıq barama məhsulu istehsal edilmişdir. Müharibədən sonrakı dövrdə ipəkçilik nəinki bərpa edilmiş, hətta müqayisə edilən dövrün səviyyəsini xeyli ötüb keçmişdir. 1946-cı ilə muxtar respublikada 1445 qutu barama olduğu halda, 1950-ci ildə 1760 qutu, 1955-ci ildə isə 1817 qutu barama olmuşdu [140, s.157]. Bunu aşağıdakı cədvəldən görmək olar.

Cədvəl 2.4.

Naxçıvan MSSR-də ipəkçiliyin inkişafı

| Rayonların adı | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1946 | | | 1950 | | | 1955 | | |
| | qutuların sayı | hər bir qutudan götürülmüş barama (kq) | ümumi məhsul (kq) | qutuların sayı | hər bir qutudan götürülmüş barama (kq) | ümumi məhsul (kq) | qutuların sayı | hər bir qutudan götürülmüş barama (kq) | ümumi məhsul (kq) |
| **Şərur** | **135** | **32,6** | **4401** | **240** | **39,1** | **9384** | **262** | **40,3** | **10558** |
| **Naxçıvan** | **200** | **38,4** | **7680** | **260** | **44,2** | **11492** | **285** | **46,0** | **13116** |
| **Ordubad** | **875** | **40,5** | **35437** | **950** | **51,8** | **49210** | **937** | **55,6** | **54098** |
| **Şahbuz** | **40** | **32,0** | **1280** | **45** | **35,6** | **1602** | **72** | **40,1** | **2887** |
| **Culfa** | **195** | **36,0** | **7020** | **265** | **50,0** | **13250** | **325** | **53,4** | **17355** |
| **Nax.MSSR** | **1445** | **33,6** | **56818** | **1760** | **48,2** | **84938** | **1817** | **53,9** | **98014** |

Yuxarıda verilmiş cədvəldən göründüyü kimi, İkinci Dünya müharibəsindən sonrakı illərdə Naxçıvan MSSR-də ipəkçilik sahəsində artım müşahidə olunmuşdur. Belə ki, əgər 1946-cı ildə muxtar respublika üzrə 56818 kq barama istehsal olunmuşdusa, bu rəqəm 1955-ci ildə artaraq 98014 kq-a çatdırılmışdı.

Naxçıvan MSSR-də istehsal edilən barama məhsulunun 55,2%-i ipəkçilik kombinatının yerləşdiyi Ordubad rayonu kolxozlarının payına düşürdü. Müharibədən sonrakı dövrdə ipəkçiliyin müntəzəm surətdə inkişafı yem bazasının genişlənməsi və tut bağlarında aqrotexniki tədbirlərin yaxşılaşdırılması ilə izah edilir.

Bu illərdə muxtar respublikada tut plantasiyaları xeyli artırılmış, yeni məhsuldar tut ağacları salınmış, barama toxumunun ibtidai üsulla dirildilməsi inkubatorla əvəz edilmişdir. Barama qurdlarının əsas yaz becərilməsilə yanaşı olaraq, eyni zamanda yay becərilməsi praktikasına da keçirilmişdir ki, bu da ipəkçilik təsərrüfatının faydalığını daha da artırmışdır.

1950-ci ildə görülən tədbirlər nəticəsində, muxtar respublika baramaçıları planı 113% yerinə yetirdilər. Dövlətə barama təhvilində Şahbuz rayonunun baramaçıları daha yüksək nəticə göstərərək planı 182% yerinə yetirmişdilər. 1951-ci ildə Naxçıvan MSSR-də hər qutudan 52,2% barama məhsulu götürülmüş və dövlət planı 100,6% yerinə yetirilmişdir [220, vər.14].

Lakin 1952-1953-cü illərdə kənd təsərrüfatının bu gəlirli sahəsində bir gerilik hiss olunur. Belə ki, barama planı 1952-ci ildə 79,7%, 1953-cü ildə isə 81,8% yerinə yetirilmişdi. 1953-cü ildə Ordubad rayonunun baramaçıları planı 94,2%, Culfa rayonu 80%, Naxçıvan rayonu (Babək) 64,5%, Şərur rayonu 56,6%, Şahbuz rayonu isə 75% yerinə yetirmişdi [221, vər.111]. Buna səbəb barama qurdları üçün kümxanaların həddindən artıq kiçik, qaranlıq, rütubətli yerlərdə yerləşdirilməsi,

möhkəm yem bazasının yaradılmaması, təbii fəlakət nəticəsində tut plantasiyalarının quruması, aqrotexniki xidmətin aşağı səviyyədə olması idi. Nəticədə 1940-cı ildə baramaçılar dövlətə 101 ton barama məhsulu satdıqları halda, 1953-cü ildə 73 ton, 1955-ci ildə isə 61 ton barama satmışlar [177, s.74].

1955-ci ildə muxtar respublikada barama qurdlarını yemləmək üçün bəzi kolxozlarda əlverişli şəraitin olmamasına baxmayaraq, Ordubad rayonunun bir sıra qabaqcıl kolxozları ipəkçilikdə, xüsusilə barama məhsulunun keyfiyyətinin yaxşılaşdırılmasında böyük müvəffəqiyyətlər əldə etmişlər. Bu dövrdə Ordubad rayonunun qabaqcıl kolxozlarında istehsal edilən baramanın 60% - dən çoxu I və II növə aid olmuşdu ki, bu da ipəkçilik sənayesinin xammal bazasını xeyli artırırdı. Hətta hesablamaya görə üçüncü növ və baraka gedən barama məhsulunu 10% azaltmaqla ipəkçilik sənayesinin xammalını əlavə olaraq 10 tonlarla artırmaq olar. Lakin muxtar respublikada bütün kolxozlar bu imkanlardan heç də tamamilə istifadə edə bilmirdilər [140, s.159].

Naxçıvan MSSR-də barama istehsalında yaranmış belə vəziyyət muxtar respublika baramaçılarının 1956-cı ilin aprelində keçirilmiş müşavirəsində kəskin tənqid olundu [356, 18 aprel 1956].

Qeyd etmək lazımdır ki, Naxçıvan MSSR-də 50-ci illərdə ipəkçilikdə hələ bir çox kolxozların malik olduğu imkanlardan tamamilə istifadə olunmurdu. Halbuki muxtar respublikanın kolxozları həmin illərdə barama məhsulunu artırmaq üçün geniş imkanlara malik idi. Barama məhsulunu çoxaltmaq üçün tut ağaclarına iki qat, müvafiq aqrotexnikanı tətbiq etməklə yem istehsalını 3-4 dəfə artırmaq olardı. Bir sra kolxozlar barama qurdlarını uzaq məsafələrdən gətirilmiş yarpaqlarla yemləyirdilər. Təcrübə göstərir ki, barama qurdlarının bu qayda ilə yemlənməsi məqsədəuyğun deyildir. Çünki uzaq məsafədən gətirilmiş yarpaqlar öz keyfiyyətini itirir və həmin yarpaqlarla yemlənən qurdlar xəstəliyə tutulur və tələf olurdu.

Buna görə də möhkəm yem bazası yaratmaq muxtar respublika kolxozlarının qarşısında mühüm bir vəzifə olaraq qalırdı.

1956-cı il müşavirəsindən sonra muxtar respublikada baramaçılığın inkişafına daha ciddi fikir verildi və dövlətə barama təhvili planı 1957-ci ildə 111,6% yerinə yetirildi. Ordubad rayonunun baramaçıları 1956-cı ildə planı 117,5%, 1957-ci ildə isə 122,1% yerinə yetirdilər. Ordubad rayonunun, Naxçıvan (Babək) rayonunun, Culfa rayonunun, Şərur rayonunun kolxozları hər qutudan orta hesabla 70-90 kq barama məhsulu əldə etdilər. Adlı-sanlı baramaçılardan A.Eyvazov hər qutudan 128 kq, M.Əsgərova 122 kq, D.Məmmədova 128 kq, S.Əhmədova 136 kq, İ.Rüstəmov 113 kq, Q.Fətəliyeva 112 kq, X.Bağırova 100,8 kq, Ə.Əliyev, Y.Zeynalov 91 kq barama əldə etmişdilər [224, vər.19].

Naxçıvan MSSR-də baramaçılar 1955-ci ildə 2 milyon 900 min manat pul gəliri əldə etmişdilərsə, 1956-cı ildə 3 milyon 184 min, 1957-ci ildə isə 3 milyon 900 min manat pul gəliri əldə etmişdilər. Muxtar respublika kolxozçuları 1959-cu ildə dövlətə 94,1 ton, yəni 1958-ci illə müqayisərə 140 sentner artıq barama satmış və illik planı 110,3% yerinə yetirmişdilər [226, vər.37].

Naxçıvan MSSR-də bütün təsərrüfat dərəcələri üzrə 1955-ci ildə 61 ton barama tədarük edildiyi halda, 1959-cu ildə 94 ton barama tədarük edilmişdir. Tədarük edilən barama 1955-ci ilə nisbətən 33 ton çox olsa da, müharibədən əvvəlki səviyyəyə çatmamışdı. Belə ki, 1940-cı ildə muxtar respublikada 101 ton barama tədarük edilmişdi. 1959-cu ildə muxtar respublikada barama tədarükü 1940-cı illə müqayisədə 7 ton az idi [177, s.74].

Müharibədən sonrakı illərdə muxtar respublikanın kolxozlarında arı ailəsinin inkişafına fikir verilmişdir. Nəticədə Naxçıvan MR kolxozlarında arı ailəsinin sayı aşağıdakı cədvəldə verilmişdir.

Naxçıvan MR kolxozlarında arı ailəsinin sayı (minlə) [177, s.69].

Cədvəl 2.5.

| İllər | Naxçıvan MR cəmi | O cümlədən | | |
|---|---|---|---|---|
| | | Naxçıvan | Culfa | Şərur |
| 1946 | 1,7 | 0,5 | 1,1 | 0,1 |
| 1947 | 2,5 | 0,5 | 1,9 | 0,1 |
| 1954 | 3,2 | 0,8 | 2,3 | 0,1 |
| 1955 | 3,0 | 0,7 | 2,2 | 0,1 |
| 1958 | 2,7 | 0,7 | 1,9 | 0,1 |
| 1961 | 2,3 | 0,7 | 1,5 | 0,1 |
| 1962 | 2,4 | 0,8 | 1,5 | 0,1 |
| 1963 | 2,4 | 0,8 | 1,5 | 0,1 |

Arıçılığın böyük təsərrüfat əhəmiyyəti vardır. O insanlar üçün qiymətli yeyinti məhsulu olan bal və sənaye üçün xammal-mum verir. Ümumiyyətlə, hər bir arı ailəsi ildə 40 kq-a qədər bal məhsulu verir. Şahbuz və Ordubad rayonlarının arıçılarının təcrübəsi göstərir ki, köçəri arıçılıq yolu ilə hər bir arı ailəsindən alınan bal məhsulunu 100 kq-a çatdırmaq olar.

II Dünya müharibəsindən sonrakı illərdə Naxçıvan MR kolxozlarında arı ailəsinin artımı (faizlə) [140, s.153].

Cədvəl 2.6.

| Rayonların adları | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 1950 | 1951 | 1952 | 1953 | 1955 |
| Şərur | 100,0 | 104,9 | 120,7 | 135,4 | 161,0 |
| Naxçıvan | 100,0 | 103,3 | 139,2 | 156,3 | 167,3 |
| Ordubad | 100,0 | 101,4 | 118,6 | 123,0 | 126,0 |
| Şahbuz | 100,0 | 103,9 | 117,3 | 122,2 | 125,1 |
| Culfa | 100,0 | 112,0 | 161,2 | 166,4 | 170,3 |
| Respublika üzrə | 100,0 | 104,1 | 127,3 | 133,1 | 137,6 |

Muxtar respublika kolxozlarında arıçılığın inkişafı 6-cı cədvəldə göstərilmişdir. Cədvəldən aydın görünür ki, muxtar respublikanın kolxozlarında arı ailəsinin inkişafı 1951-ci ildə 104,1 faiz olduğu halda, bu rəqəm 1955-ci ildə 137,6 faiz olmuşdur. Rayonlar içərisində Culfa rayonu fərqlənmişdir. Belə ki, Culfa rayonunun kolxozlarında arı ailəsinin artımı 1951-ci ildə 112,0 faiz olduğu halda, 1955-ci ildə 170,3 faiz olmuşdur.

Ümumiyyətlə, 1950-55-ci illərdə Culfa və Naxçıvan (Babək) rayonlarının kolxozlarında arıçılıq sahəsində artım daha surətli olmuşdur. Lakin bu artım respublikamızın iqtisadiyyatının tələbatını heç də tamamilə ödəmirdi. 1955-ci ildə Ordubad rayonunun Bist kəndində 570 arı ailəsinin hər birindən 50 kq bal məhsulu götürülmüşdü [140, s.153].

Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin 1956-cı il tarixli (1/1 saylı) məlumatına əsasən arıçılıq təsərrüfatları bu dövrdə həddindən artıq zəifləmiş, arı ailələri respublikada düzgün bölüşdürülməmiş və onun mövcud yem bazasından səmərəli istifadə edilməmiş, bunların nəticəsində isə məhsuldarlıq həddindən artıq zəif olmuşdur. Belə ki, 1956-cı ildə Naxçıvan MR kolxozlarında 3071 arı ailəsi mövcud olmuşdur ki, bunun da 321-i Naxçıvanda (Babəkdə), 54-ü Şərurda, 1637-si Ordubadda, 589-u Şahbuzda, 470-i Culfada olmuşdur [144, s.11].

Naxçıvan Muxtar Respublikasında inkişaf etdirilən heyvandarlıq sahələrindən biri də quşçuluqdur. Quşçuluq heyvandarlığın ən tezyetişən və gəlirli sahəsi olmaqla yüksək keyfiyyətli ət və yumurta məhsulları istehsalında, məhsulun maya dəyərinin aşağı olmasında mühüm rol oynayır.

Ev quşlarının təmiz ət çıxarı 79-80% olmaqla, əti qidalı və dadlı olur. Çolpaların döş ətində 91-92% zülal vardır, bunun yalnız 8%-i keyfiyyətsizdir. Ətin tərkibində yağın azlığı orqanizm tərəfindən yaxşı həzm edilməsinə səbəb olur. Buna görə də toyuq əti ən qiymətli pəhriz məhsulu sayılır. Kənd

təsərrüfatı quşları tezyetişən olduqları üçün, onlar istənilən diri çəkiyə qısa vaxtda çatırlar. Qabaqcıl təsərrüfatlarda ətlik üçün yetişdirilən broylerlərin (çolpaların) 70 günlükdə çəkiləri 1,2-1,5 kq olur. Hər kiloqram çəki üçün 2,5-3 kq yem vahidi sərf olunur. Hətta yumurtalıq istiqamətli ağ rus cinsindən olan çolpalar da, yaxşı şəraitdə saxlanıldıqda, 80-90 günlükdə 1,1-1,2 kq canlı kütləyə çatırlar [165, s.4].

Naxçıvan diyarında Birinci Dünya müharibəsindən sonra, quşçuluq sox az ancaq əhalinin şəxsi təsərrüfatlarında inkişaf etdirilmişdir. Ona görə də, 1930-40-cı illərdə quşçuluq təsərrüfatı burada heyvandarlıqda və eləcə də, kolxozların iqtisadiyyatında çox az yer tutmuşdur.

İkinci Dünya müharibəsindən sonra kənd təsərrüfatının bəzi sahələrində olduğu kimi, quşçuluq sahəsində də bəzi qərarlar qəbul edilmişdi. Azərbaycan SSR Xalq Komissarları Sovetinin 26 sentyabr 1945-ci il tarixli 942 nömrəli qərarına uyğun olaraq 1945-ci ildə Naxçıvan MSSR kolxozlarında Naxçıvan MSSR XKS ilə və Azərbaycan K(b) P MK-nın Naxçıvan vilayətinin 196 nömrəli 14 iyul tarixli qərarına əlavə olaraq Naxçıvan MSSR Xalq Komissarlar Soveti qərara almışdı.

1. Naxçıvan MSSR kolxozlarında 178 quşçuluq kolxoz fermasının təşkil edilməsi planı rayonlar üzrə əlavə edilmiş cədvəldəki kimi təsdiq edilsin.

2. Rayon İcrayyə Komitələrinə və rayon torpaq şöbə müdirlərinə bir vəzifə olaraq tapşırılsın ki, cədvəldəki planı kolxozlar arasında bölüşdürsünlər və dənli bitkilərin əkin sahələrindən asılı olaraq aşağıdakı minimum hesab ilə quşçuluq fermaları və quşları saxlasınlar.

a) Naxçıvan (Babək) və Şərur rayonlarında dənli bitkilərin bir hektar əkin sahəsi üçün bir baş yumurtlayan ev quşu.

b) Şahbuz, Əbrəqunus, Ordubad və Culfa rayonlarında dənli bitkilərin hər iki hektar əkin sahəsi üçün bir yumurtlayan ev quşu saxlasınlar.

3. Rayon İcrayyə komitələrinə və rayon torpaq şöbələrinə tapşırılsın ki, müəyyən edilən normalara uyğun olaraq quşçuluq fermaları təşkil etmək planın hər bir kolxoza çatdırsınlar və kolxozlardan cücə satın almaq və habelə toyuq basdırmaq yolu ilə 1946-cı ilin sonunadək bu planın yerinə yetirilməsini təmin etsinlər [315, vər.54].

Muxtar respublikanın kolxozlarında başlıca olaraq yerli cinsli toyuqlar inkişaf etdirilmişdir. Burada quşçuluğun inkişafı əsas etibarilə II Dünya müharibədən sonrakı dövrdə başlamışdır. Müharibədən sonra quşçuluq Şahbuz və Culfa rayonlarında daha sürətlə inkişaf etmişdir. Şərur və Naxçıvan rayonları respublikada ən iri taxılçılıq rayonları olmalarına baxmayaraq, burada quşçuluq başqa rayonlara nisbətən çox zəif inkişaf etmişdir [140, s.151].

Naxçıvan MSSR kolxozlarında 40-cı illərdə müxtəlif heyvandarlıq sahələri ilə yanaşı, quşçuluq da nisbətən inkişaf etdirilmişdir. 1940-cı ildə yumurta istehsalı 183,2 min ədəd olduğu halda, 1946-cı ildə 227,8 min ədəd, 1950-ci ildə 620,3 min ədəd olmuşdur. Ayrı-ayrı quşçuluq fermaları, xüsusilə II Dünya müharibəsindən əvvəlki ilə nisbətən xeyli artırılmışdır.

Dördüncü beşillik planında ev quşlarının sayı 3 dəfə artırılmalı idi. 1946-cı ilə nisbətən 1950-ci ildə az yumurta satılmasının başlıca səbəbi Naxçıvan MSSR-da quşların taun xəstəliyinə tutulması idi.

Muxtar respublikada 50-ci illərdə quşçuluqda olan geriliyi aradan qaldırmaq və quşçuluq təsərrüfatlarını daha da inkişaf etdirmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu.

1. Yaxın illərdə quşların sayını 2-3 dəfə artırmaq, taxılçılıq kolxozlarında iri quşçuluq fermaları təşkil etmək və

orada quşçuluğun intensiv surətdə inkişaf etdirilməsini təmin etmək. Suda üzən quşçuluğu daha geniş inkişaf etdirmək.

2. Naxçıvan inkubator stansiyasının işini kökündən dəyişmək və onun ildə 350-450 min yüksək məhsuldar cins cücə buraxıb, kolxoz və kolxozçulara satılmasını təmin etmək.

3. Məhsuldarlığı yüksəltmək üçün quşların yemlənməsini və onlara qulluq edilməsini yaxşılaşdırmaq və onları lazımi miqdarda quş damları ilə təmin etmək.

Muxtar respublikada quşçuluğu inkişaf etdirmək məqsədilə 1950-ci ildə inkubator stansiyası təşkil olunmuşdur. Həmin stansiya muxtar respublikanın bütün kolxozlarını lazımi miqdarda məhsuldar cins cücə ilə təmin edə bilərdi. Lakin bu imkandan səmərəli istifadə edilməmişdir [140, s.152].

1951-ci ildə muxtar respublika kolxozlarında quşçuluq sahəsində vəziyyət elə də ürək açan olmamışdı. Belə ki, Naxçıvan Vilayət Partiya Komitəsi, SSRİ Nazirlər Soveti və ÜİK(b)P MK-nın "Məhsul verən ictimai kolxoz və sovxoz heyvandarlığının inkişaf etdirilməsinin üçillik planı"nı qeyri qənaətbəxş yerinə yetirmişdi. Çünki muxtar respublikada quşçuluq sahəsində vəziyyət acınacaqlı olmuşdur, plan 20,8 faiz yerinə yetirilmişdi [217, vər.47].

Quşçuluğun inkişafında ən zəif cəhətlərdən biri onun məhsuldarlığının aşağı olmasıdır. 1955-ci ildə muxtar respublikanın kolxozlarından hər bir yumurtlayan toyuqdan, ildə planda nəzərdə tutulmuş 60 yumurtaya qarşı cəmi 37 yumurta götürülmüşdür. Şərur və Naxçıvan (Babək) rayonlarında məhsuldarlıq orta respublika səviyyəsindən nisbətən daha aşağı olmuşdu. Bunu birinci növbədə quşçuluğa lazımi fikir verilməməsilə izah etmək olar.

Muxtar respublikada böyük imkanlar olmasına baxmayaraq, burada quşçuluğun inkişafı nəzər diqqətdən kənarda qalmış və zəif inkişaf etmişdir. 1956-cı ildə muxtar respublika kolxozlarında cəmi 15 min müxtəlif quş var idi ki, bu da əvvəlki illərə nisbətən xeyli azdır [204, s.78].

Muxtar respublikada 50-ci illərdə quşçuluğun inkişafında, xüsusən yüksək məhsuldar hinduşqa (hind quşu) və suda üzən quşların inkişaf etdirilməsində, kolxozlarının zəngin imkanları istifadə edilməmiş qalırdı. Şərur rayonunda bir sıra kolxozlar hər il 1000 hektara qədər taxıl əkirdilər. Lakin quşçuluq ilə kifayət dərəcədə məşğul olmurdular. Buna görə də həmin kolxozlar hətta dövlətə yumurta planını belə ödəyə bilmirdilər və kənardan satın yumurta almağa məcbur olurdular.

Muxtar respublikada 1956-1957-ci ildə quşçuluğu inkişaf etdirmək məqsədilə 15 min başlıq 15 quş damı tikilib istifadəyə verilmişdir. Görülən tədbirlərə baxmayaraq, muxtar respublikanın kolxozlarında quşçuluqla pis məşğul olunmuşdu. 1957-ci ildə quşların inkişaf planı və yumurta planı yerinə yetirilməmişdi [224, vər.34].

Quşçuluq təsərrüfatından yüksək məhsul almaq üçün, ilk növbədə quşların yemləndirilməsi düzgün təşkil edilməlidir. Bunun üçün yemlərin stimullaşdırıcı müxtəlif əlavələrlə vitaminlər, antibiotiklər, mikroelementlər və qeyriləri ilə tamamlanması (zənginləşdirilməsi) zəruridir. Keyfiyyətli yemləmə nəticəsində məhsuldarlıq artır və istehsal olunan məhsulun maya dəyəri aşağı düşür.

1955-60-cı illərdə quşçuluğun inkişafına diqqət yetirilsə də quşların, xüsusilə qaz, ördək və hind toyuqlarının planda tutulmuş inkişafı da kifayətləndirici deyildir. Muxtar respublikada çoxlu miqdarda göllərin, çay və kanalların olması su quşlarının çoxaldılmasına dair beşillik plan tapşırıqlarının xeyli artırılması ilə yerinə yetirilməsinə imkan verirdi. Bunun nəticəsində hər toyuqdan alınan yumurtaların sayı 21,6% artmalı idi [140, s.38].

1965-ci ildə Naxçıvan MSSR-də quşçuluq sahəsində vəziyyət aşağıdakı kimi olmuşdur.

Cədvəl 2.7.

| Göstərici | Babək | Şərur | Şahbuz | Culfa | Ordu-bad | Nax. MSSR |
|---|---|---|---|---|---|---|
| Quşların sayı | 3940 | 5192 | 1532 | 1997 | 1779 | 14440 |
| Bir toyuqdan yumurta | 43 | 55 | 51 | 73 | 48 | 49 |
| Cəmi yumurta, min ədəd | 101,2 | 139,0 | 15,6 | 33,6 | 46,0 | 335,4 |
| 1000 ədəd yumurta maya dəyəri | 189,2 | 203,8 | 316,0 | 190 | 137,3 | 195,0 |
| Ət istehsalı, sentner | 6,0 | 3,2 | - | - | - | 9,2 |
| 1 sentner ətin maya dəyəri | 228,0 | 273,0 | - | - | - | 270,0 |
| Ümumi məhsulun dəyəri | 8003 | 9690 | 952 | 3463 | 3376 | 25471 |
| Ümumi məsrəf | 20544 | 29156 | 5855 | 6679 | 7350 | 69584 |
| Pul gəliri | 9165 | 9115 | 1040 | 3287 | 3313 | 25920 |

Ümumiyyətlə, cədvəldən göründüyü kimi 1965-ci ildə muxtar respublikada hər toyuqdan orta hesabla 49 yumurta götürüldükdə, quşçuluq rentabelli ola bilməz. Tədqiq olunan ildə muxtar respublikada 335,4 min yumurta istehsal edilmişdir. Halbuki, norma üzrə əhali üçün 31128 min yumurta tələb olunurdu. Hər toyuqdan yumurta istehsalının azlığı onun maya dəyərini bahalaşdırmışdır. Belə ki, 1000 ədəd yumurta-nın istehsalı rayonlar arasında ən azı 137,3 manatla ən çoxu

316,0 manat arasında olduğu halda, min ədəd yumurtanın satış qiyməti 60 manat olmuşdur.

Tədqiq olunan illərdə muxtar respublikada quş ətinin maya dəyəri çox yüksək olmuşdur. Quşçuluğun saxlanılmasına muxtar respublikada 69584 manat sərf edildiyi halda, bu sahədən götürülən pul gəliri 25920 manatdan artıq olmamışdır ki, bu da quşçuluğa qoyulan ümumi məsrəfin ancaq 37%-i qaytarmışdı [141, s.167].

Muxtar respublikada quşçuluğun inkişaf etdirilməsi üçün hər cür zəruri şəraitin olmasına baxmayaraq, bu sahəsinin inkişafına kifayət qədər fikir verilməmişdir. Nəticədə, 1966-cı ildə muxtar respublikanın rayonlarında quşların miqdarı azalmışdır. İri quşçuluq fermalarının təşkil olunması məsələsi kənd təsərrüfatı nazirliyinin və rayon rəhbərlərinin təqsiri üzündən təşkil edilməmişdir [241, vər.52].

1970-ci illərdə MSSR-də quşçuluğun da inkişafına fikir verilməyə başlandı. Heydər Əliyevin göstərişi ilə Naxçıvanda qabaqcıl texnologiyaya əsaslanan quşçuluq kompleksləri quraşdırıldı. Naxçıvan və Ordubadda yeni quşçuluq fermaları istifadəyə verildi.

Muxtar respublika kolxozlarında 1965-ci illə 1970-ci ili müqayisə etsək deyə bilərik ki əgər 1965-ci ildə muxtar respublika kolxozlarında 13,3 min quş var idisə, artıq quşçuluğa göstərilən qayğı nəticəsində 1970-ci ildə bu rəqəm artaraq 14,4 min olmuşdu [169, s.32].

1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da canlanma, dirçəliş yaratdı. Muxtar respublikada kənd təsərrüfatının maddi bazası möhkəmləndi. Əkin sahələrinin məhsuldarlığını artırmaq məqsədilə mədəni gübrələrin, bitkiləri xəstəlikdən və ziyanvericilərdən qoruyan kimyəvi vasitələrin tətbiqi genişlənməyə başladı.

Heydər Əliyev demişdir: “Azərbaycanın kənd təsərrüfatının zəngin potensial imkanlarından tamamilə istifadə etmək,

onun səmərəliliyinin daha da yüksəldilməsini, hər hektardan, hər maşının, hər ton gübrənin daha çox fayda verməsini təmin etmək bizim təxirəsalınmaz vəzifəmizdir” [53, s.18].

Beləliklə, XX əsrin 70-ci illərində xalqımızın ümummilli lideri Heydər Əliyevin qayğısı sayəsində muxtar respublikada kənd təsərrüfatının bütün sahələrində yüksək inkişaf və uğurlar əldə edilmişdir.

### 2.7. Müharibədən sonrakı dövrdə heyvandarlığın yem bazası.

Naxçıvan Muxtar Respublikasının təbii coğrafi şəraiti burada müxtəlif növ yem bitkilərinin yayılmasına səbəb olmuşdur. Ərazinin quraqlıq sevən çoxillik paxlalı və dənli paxlalı yem bitkiləri, habelə çəmən və otlaq bitkiləri ilə zəngin olması artıq sübut edilmişdir.

Heyvandarlığın maddi-texniki bazasında yemçilik mühüm rol oynayır və böyük əhəmiyyət kəsb edir. Demək olar ki, yem bazası heyvandarlığın inkişafının əsasını təşkil edir. Möhkəm yem bazası olmadan heyvandarlıq təsərrüfatı haqqında danışmaq olmaz, qarşıya qoyulmuş vəzifəni yerinə yetirmək mümkün deyil. Yemsiz heyvandarlıq təsərrüfatı yox deməkdir.

Muxtar respublikada 5500 hektara qədər təbii biçənək vardır ki, bunun da 237 hektarı Naxçıvanda (indiki Babək), 1085 hektarı Culfada, 1359 hektarı Şərurda, 1696 hektarı Şahbuzda, 1123 hektarı isə Ordubaddadır Naxçıvan MSSR-nin iqlim şəraitinin quraq olması və biçənəklərin süni surətdə suvarılması ilə əlaqədar olaraq onların məhsuldarlığı xeyli aşağıdır [205, s.76].

Naxçıvanda biçənəklərlə yanaşı muxtar respublikanın kolxozlarında 60503 hektar otlaqlar olmuşdur. Biçənək və otlaqlar rayonlar üzrə qeyri-bərabər surətdə yerləşdirilmişdir.

Naxçıvan MSSR Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə təbii biçənəklər və otlaqlar rayonlar üzrə aşağıdakı

kimi yerləşdirilmişdir. Təbii biçənəklər Şahbuz rayonunda, Naxçıvan rayonuna nisbətən 3,5 dəfə çox, Culfa rayonu ilə birlikdə bütün respublikaya nisbətən xeyli artıqdır. Şahbuz və Culfa rayonlarının otlaqları nisbətən çoxdur. Bu iki Şahbuz və Culfa rayonunda olan otlaqlar, respublikanın demək olar ki, başqa bütün rayonlarına bərabərdir [141, s.161].

Naxçıvan MSSR-də heyvandarlığın yem bazası təbii biçənəklərdən, otlaqlardan, taxıl, ot və s. əkilmiş sahələrdən ibarətdir. Möhkəm yem bazası yaratmadan heyvandarlıq sahəsində məhsuldarlığı yüksəltmək olmaz. Məsələn, Naxçıvan (Babək) rayonunda hər 100 baş mal-qaraya 5,3 hektar Şahbuz rayonunda isə 21,1 hektar təbii biçənəklər və otlaqlar düşür. Bir çox kolxozlarda təbii biçənəklərin azlığı ictimai mal-qaranın yemlə, otla kifayət qədər təmin etməyə imkan vermir. Etiraf etmək lazımdır ki, təbii biçənəklərin məhsuldarlığı burada olduqca aşağıdır.

Naxçıvan MSSR-də otlaqlar iki yerə qış və yay otlaqlarına bölünür. Qış otlaqları başlıca olaraq Arazyanı düzənliklərdə yerləşmişdir. Qış otlaqlarının məhsuldarlığı olduqca aşağıdır və isti yay aylarında demək olar ki, tamamilə quruyur. Yağmurlu illərdə otlaqların məhsuldarlığı xeyli yüksək olur. Buna görə də kolxozların heyvanları qışlaqlarda yaşıl yem ilə kifayət dərəcədə təmin edilmirlər. Təbii otlaqlarda məhsuldarlığın aşağı olması onlara lazımi qulluq edilməməsi və otlaqların yaxşılaşdırılmaması işinin aparılması ilə izah edilir. Gübrə vermək, az məhsuldar sahələri şumlamaq və həmin sahələrdə yem bitkiləri əkmək yolu ilə təbii biçənəklərin və otlaqların yaxşılaşdırılması Naxçıvan MSSR-in kolxozlarında qarşıda duran təxirəsalınmaz vəzifələrdən olmuşdu. Yay otlaqları əsas etibarı ilə Ordubad, Culfa, Şahbuz rayonlarının ərazisində yerləşdirilmişdir. Muxtar respublikanın yay otlaqları özünün yaxşı sıx otlu-sulu çəmənlikləri ilə məşhurdur.

II Dünya müharibədən sonrakı illərdə Naxçıvan MSSR-də təbii yem bazasının kifayət dərəcədə olmaması kolxozlarda

yem əkin dövriyyəsi təşkil etməyi tələb edirdi. Muxtar respublikada otlaq sahələrinin azlığına, müəyyən təbii-iqtisadi çətinliklərə, xüsusilə şirəli yemlərin azlığına baxmayaraq, müharibədən sonrakı illərdə də dövlət planları yerinə yetirilmişdi. Kolxozlarda ictimai heyvanlarının sayının artması ilə bərabər, onların yemə olan tələbatı nəzərə alınaraq əkin sahəsi də xeyli genişləndirilmişdir.

1946-1950-ci illərdə MR-nın kolxozlarında kökü meyvəli bitkilərdən başlıca olaraq yem çuğunduru, yem qarpızı, yem qabığı silos və qarğıdalı kimi qiymətli yem bitkilərindən demək olar ki, istifadə edilməmişdi.

Tədqiq olunan illərdə təbii biçənəklərdən, yonca, xaşa, şənbəllə və s. yem bitkilərindən istifadə edilmişdi. Pambıqçılıq kolxozlarında mal-qara pambığın əmtəələşdirilməsi qaydası ilə alınan pambıq jmıxı və çiyid tullantıları ilə də yemləndirilmişdir.

Dördüncü beşillik illərində muxtar respublikada çoxillik otlar içərisində ən çox yonca əkilirdi. Yonca güclü yem bitkisi olmaqla, pambıq bitkisinin əkin sahəsinə düzgün uyğunlaşdırılır və onun məhsuldarlığının yüksəlməsinə təsir edir. Buna görə də yoncanın əkin sahəsinin genişləndirilməsi həm heyvandarlığı, yem ilə təmin edir, həm də ondan sonra əkilən pambığın məhsuldarlığını daha da yüksəldirdi.

Muxtar respublikada əkilən qiymətli yem bitkilərindən biri də xaşadır. Xaşa Naxçıvan MSSR-də çoxdan bəri əkilir. 1946-1950-ci illərdə də onun aqrotexnikasını mənimsəyən kolxozlar böyük müvəffəqiyyətlər əldə etmişdilər. Kolxozlar xaşanı dondurma şumu aparılmış sahələrə əkirdilər. Bunun xüsusiyyətlərindən biri odur ki, onu daha tez, heç bir bitkinin səpini başlamazdan əvvəl səpmək olar. Xaşanın məhsuldarlığı yonca şənbəlinin məhsuldarlığı səviyyəsindədir. Xaşa əsasən muxtar respublikanın dağətəyi kolxozlarında əkilirdi.

Yem balansının təhlili göstərir ki, muxtar respublikanın kolxozları ən çox qaba yemlə təmin edilirdilər. Qaba yem,

regionunun 70-80 faizindən çoxunu təşkil edirdi. Şirəli yemlər tələbatı təmin etmirdi. Qüvvəli yem istehsalı da hələ tələbatı kəsirlə ödəyirdi.

Dördüncü beşillik illərində muxtar respublikada heyvandarlıqda ağır zəhmət tələb edən əmək proseslərinin mexanikləşdirilməsindən, MTS-in gücündən istifadə edilmişdir. Yem bazasının təşkilində və mal-qaranın yemlənməsində olan nöqsanların aradan qaldırılması, heyvanların sayının və onun məhsuldarlığının daha da artırılmasına səbəb olmuşdur.

1948-ci ildə muxtar respublikada yem hazırlığı planının 101,7% yerinə yetirilməsinə baxmayaraq qeyd etmək lazımdır ki, hazırlanmış 76329 ton yemdən 36332 ton yəni 47%-i ot təşkil etmişdir. Halbuki mal-qaranın tələbi ən azı 42200 ton olmalı idi [216, vər.50].

Azərbaycan SSR və MK-nın 30 mart 1951-ci il tarixli qərarları muxtar respublika heyvandarlarının qarşısında çox mühüm vəzifələr qoymuşdu. SSRİ Nazirlər Sovetinin qərarına əsasən iribuynuzlu mal-qaranın yaylaqlara köçürülməsi dayandırılmş. Heyvandarlıq üçün yem bazası və heyvanlar üçün binalar tikilməsi qarşıya məqsəd qoyulmuşdur. Çünki 1950-ci ildə 71 kolxozdan 26-sı yem toplanması planını tam ödəməmişdir. 80.686 ton ümumi qaba yemin 27 min tonu ot, qalanı isə saman olmuşdur. Şirəli yem hazırlığı yerinə yetirilməmişdir. Kökümeyvəli və silos bitkilərinin məhsuldarlığı aşağı olmuşdur. Hələ yazlıq yonca sahələrə əkilib qurtarmamışdı [218, vər.50].

Muxtar respublikada şəmbəllə, yem bitkisi kimi qədimdən inkişaf etdirilir 1955-ci ildə şəmbəllə bitkisinin əkin sahəsi son 20 il ərzində muxtar respublikada 370 hektardan 1300 hektara çatdırılmışdır. Şəmbəllənin vegetasiya müddəti 80-90 gün davam edir. Torpağı az olan rayonlarda bu qiymətli yem bitkisinin əkin sahəsini genişləndirmək lazımdır. Bunu hətta məhsulu yığılmış dənli bitkilərin əkin sahəsinə də əkmək olar [141, s.167].

Naxçıvan MR-da heyvanları yemlə təmin etmək üçün saman və bəlim kimi yem növlərindən də geniş istifadə edilmişdi. 1955-ci ilin məlumatına görə, tədarük edilən otların 88,6 faizini qaba, 9,7 faizini şirəli və 1,7 faizini isə qüvvəli yemlər təşkil etmişdir [205, s.76].

Muxtar respublikada 1956-cı ildə heyvandarlığın zəif inkişaf etməsi və aşağı məhsuldar olmasının əsas səbəbi mal-qaranın həm yaylaq, həm də qış düşərgə şəraitində yemlə lazımi qədər təmin edilməməsi idi. Məsələn, hətta iribuynuzlu mal-qaranı belə nəzərə almadan 50-ci illərdə muxtar respublikanın yay otlaqlarına 3-7 baş əvəzinə 10-13 baş xırdabuynuzlu mal-qara düşürdü. Yaylaqların bu cür yüklənməsinə baxmayaraq onlar başlı-başına buraxılmaqla, otlaqlardan heç də səmərəli istifadə edilməmişdi. Otlaqların məhsuldarlığını artırmaq və onlardan səmərəli istifadə edilməsində növbə ilə otarmağın təcrübədə özünü dəfələrlə doğrultmasına baxmayaraq, təssüflər olsun ki, bu üsul muxtar respublikanın otlaqlarında geniş yayılmamışdır.

İctimai heyvandarlığın inkişaf etdirilməsində, onun maddi-texniki bazasının möhkəmləndirilməsində, məhsuldarlığın yüksəldilməsində mal-qaranın düzgün yerləşdirilməsində və saxlanılmasında mexanikləşmənin mühüm əhəmiyyəti vardır. Bunun üçün lazımi avadanlıqlarla təmin edilmiş heyvandarlıq binaları olmalıdır. Heyvandarlığın sayca artırılması, onun məhsuldarlığının yüksəldilməsi və eləcə də sağlam olması bir çox hallarda məhz bundan asılıdır. Bu məqsədlə 1956-1957-ci illərdə heyvandarlığın surərtlə inkişaf etdirilməsi və məhsuldarlığının artırılması üçün yem bitkilərinin ümumi əkin sahəsi çoxaldılmış, heyvandarlıq fermalarında ağır zəhmət tələb edən işlər xeyli mexanikləşdirilmiş, mal-qaranın cinsi yaxıllaşdırılmış, fermalar üçün yeni binalar tikilmişdir. Həmin illərdə 3900 başlıq 39 iri buynuzlu tövləsi, 1800 başlıq 18 qoyun damı, 3300 tonnalıq 55 silos quyusu tikilib istifadəyə verilmişdir [225, vər.34].

Heyvandarlığa göstərilən dövlət qayğısı nəticəsində muxtar respublikada 1957-ci ildə süd tədarükü planı 100,5 faiz, yun planı 112,2 faiz, ət tədarükü planı 102,1 faiz yerinə yetirilmişdi [225, vər.28].

Bundan başqa fermada əmək prosesinin mexanikləşdirməklə, lazımi avadanlıqlarla təmin edilmiş heyvandarlıq binalarının olması mütləq lazımdır.

Heyvandarlığın maddi-texniki bazasının möhkəmləndirilməsində və inkişafında mal-qaranın, qoyunların və başqa kənd təsərrüfatı heyvanlarının muxtar respublikanın kolxozlarında, sovxozlarında, təsərrüfatarası müəssisələrdə cins və cins tərkibinin yaxşılaşdırılmasının da çox böyük əhəmiyyəti vardır.

Mal-qaranın cinsləşməsinin sürətləndirmək üçün muxtar respublikaya cins heyvanların gətirilməsini artırmaq, heyvanların cinsləşdirilməsi işini düzgün təşkil etmək ən mühüm məsələlərdəndir. Bütün bu tədbirlərin həyata keçirilməsi, heyvandarlıqda məhsuldarlığı yüksəltməyə kömək edən başlıca amillərdəndir.

Yem heyvandarlığın inkişaf etdirilməsində çox mühüm şərtdir. Heyvandarlığın inkişaf etdirilməsi və onun məhsuldarlığının artırılmasında möhkəm yem bazasının yaradılması və mal-qaranın müasir avadanlıqla təmin edilməsi binalarda saxlanılması, kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsinin mühüm amillərindən biri kimi mühüm əhəmiyyətə malikdir.

1960-cı illərdə muxtar respublikada yem istehsalını ixtisaslaşdırmaq və təmərküzləşdirmək, yem bitkiləri əkinlərinin becərilməsi işini yaxşılaşdırmaq, məhsuldarlığını yüksəltmək sahəsində az iş görülməmişdir. Hər bir zona üçün ən məhsuldar yem bitkiləri müəyyən edilmiş, təkrar əkinləri və ara əkinləri tətbiq olunmuşdur.

Muxtar respublikada yem bazasının yaradılması və möhkəmləndirilməsi, mal-qaranın yemlənmə üsullarının təkmilləşdirilməsi heyvandarlığın intensiv inkişafının əsas şərtləridir.

Bu məqsədlə 1964-cü ildə muxtar respublikada yem bitkilərinin əkin sahəsi bütün təsərrüfat dərəcələrində 6736 hektar olduğu halda, 1965-ci ildə artaraq 6981 hektar olmuşdur [169, s.38].

Heyvandarlığın yem bazasının möhkəmləndirilməsində tarla yemçiliyi, təbii biçənək və otlaqlar mühüm yer tutur. Bundan başqa, taxıl məhsullarından, ictimai-iaşə və bir sıra sənaye sahələrinin tullantılarından, qarışıq yemlərdən, zülallı-vitaminli mineral yem əlavələrindən geniş istifadə olunur. Bütün bunlar heyvandarlığın yem bazasını yaradır.

1970-ci ildə muxtar respublikada yem bitkilərinin əkin sahəsi artaraq bütün təsərrüfat kateqoriyaları üzrə 9,0 min hektar, o cümlədən silosluq qarğıdalı 1,5 min hektar, yemlik kökümeyvəlilər 0,2 min hektar, çoxillik otlar 6,6 min hektar olmuşdur. Bu da heyvandarlıq məhsullarının artmasına səbəb olmuşdur [182, s.86].

Təhlillər göstərir ki, otlaqların xüsusilə qış otlaqlarının məhsuldarlığını yüksəltmək üçün onların bitki örtüyünü zənginləşdirmək, az məhsuldar otlaqlarda intensiv yem istehsalı sahəsi yaratmaq lazımdır.

Bunu da qeyd etmək lazımdır ki, yem bazasının möhkəmləndirilməsi və yem rasionunun zülalla zənginləşdirilməsinə böyük əhəmiyyət kəsb edən paxla, noxud, çöl noxudu, soya kimi qiymətli bitkilərin inkişafına muxtar respublikada 70-ci illərdə lazımi diqqət yetirilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının XXIX qurultayında Azərbaycan KP Mərkəzi komitəsinin hesabat məruzəsində demişdi:

“...Yem heyvandarlığın intensivləşdirilməsində çox mühüm şərtdir. Bu sahədə müəyyən işlər görülmüşdür. Lakin həmin problem heç də tamamilə həll edilməmişdir. Kifayət qədər yem istehsal olunmur, zülalın çatışmaması üzündən yemin qida keyfiyyəti aşağı düşür. Yonca, silosluq qarğıdalı, kökümeyvəli bitkilər, dənli yem istehsalı xeyli artırılmalı, eyni

sahələrdə ikinci dəfə yemlik bitkilər əkmək üsulu daha geniş miqyasda tətbiq edilməli, yay və qış otlaqlarının, habelə süni otlaqların məhsuldarlığı xeyli yüksəldilməli, yem hazırlanması hər yerdə təşkil edilməlidir. Daha səmərəli yemlər - senaj, ot unu, dənəvərləşdirilmiş və briketləşdirilmiş yemlər istehsalı getdikcə artırılmalı, onları karbamidlə zənginləşdirmək üsulu geniş tətbiq olunmalıdır" [13, s.48].

Ümumiyyətlə, qeyd olunan nöqsanlara baxmayaraq, tarixən aqrar-kənd təsərrüfatı ölkəsi kimi tanınan Naxçıvanda kənd təsərrüfatını inkişaf etdirmək üçün çoxlu imkanlar vardır. Məhz bu baxımdan XX əsrin 70-ci illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyata keçirdiyi tədbirlər sayəsində, əhalini heyvandarlıq məhsulları ilə təmin etmək məqsədilə, muxtar respublikada heyvandarlığın yem və maddi-texniki bazası yenidən bərpa etdirilmişdir.

# III FƏSİL

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA XALQ TƏSƏRRÜFATININ VƏ MƏDƏNİYYƏTİN İNKİŞAFI (1946-1969-CU İLLƏR)

## 3.1. Muxtar respublikada xalq təsərrüfatının inkişafı.

Tarixi, iqtisadi və s. mənbələrdən aydın olur ki, İkinci Dünya müharibəsinin başlanması və gedişi, faşist işğalçılarının xaincəsinə hücumu sovet imperiyasının bütün iqtisadi regionları kimi, Azərbaycan Respublikasının və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının əməkçilərinin dinc həyat tərzini pozdu, onun xalq təsərrüfatının inkişafını müəyyən qədər ləngitmiş, iqtisadiyyatını müharibə dövrünün tələbləri əsasında qurmağı tələb etmişdi. Muxtar respublikada xalq təsərrüfatının maddi-texniki bazası xeyli zəifləmişdi.

Muxtar respublikada sənaye müəssələrinin istehsal gücü bir qədər azalmış, təcrübəli fəhlələr və mütəxəssislər ordu sıralarına getmişdilər. Kənd təsərrüfatı kadrlarının və işçi qüvvəsinin böyük bir hissəsi ordu sıralarına səfərbərliyə alınmışdı MTS-lərdən çoxlu traktorlar, avtomobil, iş atları cəbhəyə göndərilmiş, kolxoz və MTS-lərin sərəncamlarında olan kənd təsərrüfatı maşınları və alətlərin bir hissəsi köhnəlib sıradan çıxmışdı. Buna görə də müharibə illərində Naxçıvan MR-də ümumi əkin sahəsi xeyli azalmış, əkinçiliyin aqrar-texniki səviyyəsi aşağı düşmüş, kənd təsərrüfatı bitkilərinin və heyvandarlığın məhsuldarlığı azalmışdı.

Böyük öndər Heydər Əliyevin dediyi kimi, "1941-1945-ci illər Azərbaycan xalqının tarixində çox görkəmli yer tutur, xalqımızın tarixinin parlaq səhifələrindəndir...İkinci Dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır... Faşist üzərində qələbədən sonra xalqımızın

keçdiyi yol Azərbaycanın gələcək milli azadlığına, müstəqilliyinə gedən yol olmuşdur...” [7, s.5].

“Şərq qapısı” qəzetinin 11 sentyabr 1946-cı il sayında qayd edilib ki, İkinci Dünya müharibəsi başa çatdıqdan sonra muxtar respublika zəhmətkeşləri böyük əzmlə müharibənin vurduğu yaraları sağaltmağı, dağılmış, xalq təsərrüfatını bərpa və daha da inkişaf etdirməyi bir vəzifə olaraq qarşıya qoydular.

1946-cı il sentyabr ayının 9-da Naxçıvan MSSR Ali Sovetinin VII sessiyası “1946-1950-ci illərdə Naxçıvan MSSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair dördüncü beşillik plan haqqında Qanun” qəbul etdi.

Qəzetin 15 sentyabr 1946-cı il nömrəsində 1946-1950-ci illərdə SSRİ xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beş illik qanununa uyğun olaraq tərtib edilmiş Naxçıvan MSSR-nın beşillik planı muxtar respublikada çox böyük quruculuq və bərpa işləri görülməsini nəzərdə tutur.

Respublikanın sənayesi, xüsusən yerli sənaye sahəsində daha böyük iş görülməlidir. 1950-ci ildə 1,500 min ədəd kərpic, 1000 ton əhəng, 150 ədəd kiramit buraxılacaqdır. Kərpic zavodu tamamilə mexanikləşdiriləcəkdir. İstehsalı 2.500 min ədədə çatdırılacaqdır.

1946-cı il üçün respublikanın xalq təsərrüfatı plana müvafiq olaraq tərtib edilmiş və Naxçıvan MSSR Nazirlər Soveti tərəfindən mədaxil üzrə 38 milyon 591 min manat, məxaric üzrə 38 milyon 591 min manat miqdarında müəyyən edilmişdir ki, bu da 1945-ci büdcəsinə görə gəlirlər üzrə 3 milyon 97,7 min manat və ya 9 faiz, xərclər üzrə 6 milyon 865,1 min manat və ya 21, 6 faiz artıqdır.

“Şərq qapısı” qəzetinin 27 iyun 1947-ci il tarixli nömrəsində qeyd edilmişdi ki, muxtar respublikanın ipəkçi kolxozları bu il fədakar əmək sahəsində bol barama yetişdirməyə nail olmuşlar. Muxtar respublikada iyunun 25-ə dək 67.050 kq əvəzinə 68.635 kq barama tədarük edilmişdir. Respublikanın

Naxçıvan, Culfa, Şərur rayonları barama təhvilində qabaqçıl yer tutur.

Qəzetin 4 iyul 1947-ci il nömrəsində qeyd edilib ki, muxtar respublikanın ipəkçiləri iyunun 30-dək dövlətə 72.775 kq barama tədarük edərək illik planı 108,5% yerinə yetirmişlər. Barama təhvil planını vilayət ipək idarəsi 107,9% barama toxumu zavodu isə 110,1% ödəmişdir.

"Şərq qapısı" qəzetinin 20 iyul 1947-ci il nömrəsində yerli sənaye müəssisələrinin işinin kökündən yaxşılaşdırılması məsələlərindən bəhs edilmiş və qeyd edilmişdi ki, Naxçıvan MSSR Yerli Sənaye Nazirliyinin müəssisələri 856.200 manatlıq əvəzinə 956.400 manatlıq sənaye malı istehsal edərək yarım illik planı artıqlaması ilə yerinə yetirməyə müvafiq olmuşdur.

"Şərq qapısı" qəzetinin 25 avqust 1947-cı il tarixli nömrəsində Naxçıvan duz mədəni haqqında bildirilmişdir ki, yaşamaq üçün zəruri olan duz ən çox işlənən sənaye malıdır. Duz yalnız yaşayış üçün deyil, dövlətimizin müdafiə qüdrətinin yüksəldilməsində də böyük əhəmiyyətə malikdir.

Naxçıvan duzu özünün yüksək keyfiyyətinə görə ölkəmizdə məşhurdur. Naxçıvan duzundan nəinki Qafqazda, habelə ölkəmizin başqa yerlərində də istifadə edilir.

Duz mədəninin fəhlələri, mühəndis-texnik işçiləri və qulluqçuları 1947-ci ilin 6 ayında plandan artıq duz istehsal edərək yarım illik planı 101,9% yerinə yetirməyə müvafiq olmuşlar.

Duz mədənində istehsalın artırılmasına maneçilik törədən çox ciddi qüsurlar da vardır. Duz mədənində qanat yolunun qırılması adi şəkl almışdır. Təkcə iyul ayında qanat 6 dəfə qırılmış və ümumiyyətlə bir ayda 8 iş günü işləməşişdir. Bu isə gündə 300 ton əvəzinə ancaq 60-70 ton duz daşınmasına və tonlarla duzun yağış altında qalmasına səbəb olmuşdur.

Duz daşınmasında 11 avtomaşından ancaq biri saz işləyir. Bir avtomaşın işin öhdəsindən tək gələ bilmir. Mədəndə 5

dizeldən biri və 195 vaqonetkadan ancaq 52-si işləyir. Duz mədənində mədəni xidmətdə unudulmuşdur. Mədəndə klub və qiraətxana yoxdur.

Qəzetin 28 mart 1948-ci il nömrəsində Naxçıvan Vilayət Partiya fəallarının yığıncağı haqqında məlumat verilmişdi. 1948-ci il martın 26 da Naxçıvan Vilayət Partiya fəallarının yığıncağı olmuşdur. Fəallar yığıncaqda Azərbaycan K(b)P MK XXI Plenumunun yekunları və kənd təsərrüfatının inkişafına dair 1948-ci il dövlət planının yerinə yetirilməsini təmin etməkdə Naxçıvan partiya təşkilatlarının vəzifələri məsələsi müzakirə olundu.

ÜİK(b)P MK fevral Plenumunun tarixi qərarlarını həyata keçirərək Naxçıvan Vilayət Partiya təşkilatı respublikada keən il dövlətə pambıq təhvilinin 109,9%, tütün təhvilinin 177,5%, barama təhvilinin 111,7% və taxıl təhvilinin 107% ödənilməsinə müvəffəq olmuşlar. Bununla birlikdə 1947-ci il kənd təsərrüfatını yüksəltmək işində ciddi dönüş ili olmamışdır.

"Şərq qapısı" qəzetinin 5 noyabr 1948-cı il tarixli sayında muxtar respublika zəhmətkeşlərinin kənd təsərrüfatı məhsullarının illik təhvil planı haqqında məlumat verilmişdir: fədakar pambıqşılarımız bu il bildirkinə nisbətən 36.365 sentner artıq məhsul verərək illik planı noyabrın 3-də artıqlaması ilə ödəmişlər.

1948-ci ildə respublikamızın zəhmətkeşləri dövlətə taxıl təhvilini vaxtından 2 ay qabaq yerinə yetirib plandan əlavə 36.200 pud taxıl vermişlər. Baramaçılarımız isə keçən ilə nisbətən 172 sentner artıq barama təhvil verərək illik planı 105,3% ödəmişlər. Heyvandarlığın inkişafı planı qaramal üzrə 104,5%, davarlar üzrə 109,5% yerinə yetirilmişdir. MTS-lərimiz illik traktor işləri planını 113,5% ödəməyə müvaffiq olmuşlar.

Qəzetin 7 yanvar 1949-cu il tarixli nömrəsində bildirilmişdi ki, 1948-ci ildə muxtar respublikamızda kənd təsər-

rüfatının əkin sahələri xeyli genişləndirilmişdir. Pambıq, tütün üzüm və barama məhsuldarlığı əhəmiyyətli dərəcədə yüksəlmişdir. Dövlətə taxıl hazırlığı vaxtından 2 ay əvvəl yerinə yetirilmişdir. Naxçıvan zəhmətkeşləri istehsalatın nəhəng yüksəlişinə yeganə vasitə olan sosializm yarışının gücü ilə 1948-ci ildə 1947-ci ilə nisbətən 3.600 pud taxıl, 4100 ton pambıq, 362 ton üzüm, 17 ton barama, 217 ton tütün artıq vermişlər.

"Şərq qapısı" qəzetinin 3 aprel 1949-cu il tarixli nömrəsində qeyd edilmişdi. Muxtar respublikamız fərəhli günlər keçirir. Bir neçə gün bundan əvvəl respublikamızın 6 nəfər yüksək məhsul təhvil verən manqa başçısına Sosialist Əməyi Qəhrəmanı adı verilməsi, onun ardınca 150 nəfər kənd təsərrüfatı qabaqcıllarının SSRİ orden və medalları ilə təltif olunması haqqında SSRİ Ali Sovetinin Rəyasətinin fərmanı (14 mart 1949) Naxçıvan zəhmətkeşlərinin böyük əmək ruh yüksəkliyinə səbəb olmuşdur. 1) Lenin ordeni ilə 11 nəfər. 2) Qırmızı Əmək Bayrağı ordeni ilə 23 nəfər. 3) "Əmək igidliyinə görə" medalı ilə 58 nəfər. 4) "Əməkdə fərqləndiyinə görə " medalı ilə 58 nəfər.

Moskva 14 mart 1949-cu il.

Qəzetin 1 yanvar 1950-ci il tarixli nömrəsində yazılmışdır. 1949-cu təsərrüfat ili Naxçıvan MSSR-nın kolxoz kəndi adamlarının fədakar əmək və böyük tərəqqi ili olmuşdur. Keçən il kolxoz tarlalarında qabaqcıl sovet aqrotexniki tədbirlərin müvəffəqiyyətlə tətbiq edilməsi, sosializm yarışının yeni qüvvə ilə genişləndirilməsi və əmək intizamının daha da möhkəmləndirilməsi sayəsində məhsuldarlığı artırmaq işində böyük naliyyətlər əldə edilmişdir.

Naxçıvan pambıqçılarının 1949-cu ildəki əməyi xüsusilə fərqləndirici olmuşdur. Keçən il hər hektardan 22,4 sentner pambıq məhsulu əldə edilmiş, müharibədən əvvəlki 1940-cı ilə nisbətən hər hektar sahədə orta məhsuldarlıq13,4 sentner artırılmış və dövlətə plandan artıq 37850 sentner pambıq təhvil

verilmişdir. Naxçıvan (Babək) rayonundan Qəzənfər Əkbərov kolxozu hər hektardan 36,5 sentner pambıq götürüb illik planı 220% ödəmişdir.

Naxçıvan MSSR tütünçülərinin işi də fərqləndiricidir. Onlar tütün əkin sahələrinin hər hektarından 17,5 sentner məhsul götürərək illik planı 167% yerinə yetirmişlər. Şərur rayonundakı "Sosializm" kolxozu dövlətə tütün təhvili planlarını 185% ödəmişdir. Karl Marks kolxozu isə plandan artıq 3600 pud tütün təhvil vermişlər.

Muxtar respublika kolxozları taxılçılıq və baramaçılıq sahəsində də yaxşı qələbələr əldə etmişlər. Respublikada taxıl tədarükü planı vaxtından xeyli əvvəl və artıqlaması ilə ödənilmişdir. Baramaçılarımız dövlətə barama təhvilini 108% yerinə yetirmişlər.

Ordubad rayonundakı Nüsnüs kəndindəki kolxoz planı 153,2%, Əndəmic kəndindəki kolxoz isə 124% yerinə yetirmişdir.

1949-cu ildə Naxçıvan MSSR yerli sənaye müəssisəkləri nin fəhlələri, mühəndis-mexanik işçiləri və qulluqçuları müharibədən sonrakı 5 illiyin 4-cü ilini yüksək istehsalat qələbəsilə başa çatdırmışlar. Sənaye müəssisələri illik istehsalt planlarını 103,6% yerinə yetirdiklərini bu gün keçirdikləri iftixar hissi ilə bildirirlər.

Yerli sənaye xəttilə illik plan çiy kərpic üzrə 108%, bişmiş kərpic üzrə 109,4%, əhəng üzrə 108,7%, əhəng daşı 153%, qənnadı malı üzrə isə 147,7% yerinə yetirilmişdir.

Şərur rayon yerli sənaye kombinatı illik planı 143,6%, Naxçıvan şəhər yerli sənaye kombinatı 111,7%, Culfa rayon yerli sənaye kombinatı 101% ödəmişlər.

"Şərq qapısı" qəzetinin 17 avqust 1951-ci il tarixli nömrəsində qeyd edilib. Respublikamızın iqtisadiyyatında və xalq təsərrüfatının inkişafında üzümçülük və şərabçılığın böyük əhəmiyyəti vardır. Təsərrüfatın bu mühüm sahələrini genişləndirmək üçün dövlətimiz hərcür imkan yaratmışdır.

Respublikada şərab tresti və zavodları vasitəsilə üzüm tədarükü onun emalı 1950-ci ildə müharibədən əvvəlki səviyyəni 40% ötüb keçmişdir. 1950-ci ildə Naxçıvan şəhər tresti üzrə məhsul buraxılışı planı 168% yerinə yetirmişdir. Şərab tresti yerli sənayesini inkişaf etdirmək üçün vəsait gəliri hesabına büdcə planı 116% yerinə yetirilmişdir. Bütün sahələr üzrə xərclər çıxarıldıqdan sonra trestin 1.808.000 manat mənfəəti olmuşdur.

Naxçıvan şərab tresti vasitəsilə buraxılan konyak, araq, müxtəlif süfrə şərabları, şirin şərablar və s. məhsullar ölkəmizin hər yerində şöhrət qazanmışdır. Şərab istehsalını artırmaq və onun keyfiyyətini yaxşılaşdırmaq üçün trest və zavodlar nəzdində yeni laboratoriyalar təşkil edilir, müxtəlif aqreqatlar və cihazlar alınır, köhnə avadanlıqlar təmir edilir.

Trestin işçiləri xalis mala qənaət etmək və əmək məhsuldarlığını durmadan aşağı salırlar. Tresdə 1950-ci ildə əmək məhsuldarlığı 22%artırılmış, maya dəyəri6,3% aşağı salınmışdır.

Qəzetin 4 yanvar 1952-ci il tarixli nömrəsində yazılb. 1951-ci ildə respublikamızda dənli bitkilərin məhsuldarlığı əvvəlki illərə nisbətən çox artırılmış, kənd təsərrüfatı bitkiləri məhsullarının dövlət planı taxıl üzrə 112%, üzüm üzrə 145,9%, tütün üzrə 109% yerinə yetirilmişdir. Böyük nailiyyətlər zəhmətkeşlərin sosializm yarışını daha da genişləndirərək yüksək məhsul uğrunda aparılan gərgin mübarizədə qazanılmışdır.

“Şərq qapısı” qəzetinin 17 fevral 1952-ci il tarixli sayında muxtar respublikada su təsərrüfatı işi haqqında məlımat verilmişdi. Bildirilmişdi ki, 1952-ci ildə əkin sahələrini genişləndirmək, böyük sahələrdən yüksək pambıq, taxıl, tütün və s. kənd təsərrüfatı məhsulları götürülməsini məmin etmək üçün, bol su ehtiyatı yaratmaq haqqında Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K(b)P MK 1951-ci il noyabrın 1-dən 1952-ci il martın 1-dək su toplamaq dörd aylığı geçirməyi qərara almışdır.

Bu qərarda Naxçıvan MSSR-də olan “Yuxarı sovxoz” kanalını genişləndirmək, Şahbuz rayonundakı “Qarababa arx” kanalını təmir etmək, Naxçıvan (Babək) rayonundakı “Yeni Təzəkənd göl”, “Alagöz Məzrə”, “Güznüt gölü”, Ordubad rayonundakı “Dəstə göl” su anbarlarının tikilib başa çatdırılması, kəhriz və kanalların vaxtında təmir edilib qurtarılması xüsusilə göstərilmişdir.

Qəzetin 6 aprel 1952-ci il tarixli nömrəsində Babamlı mədən suyu zamodu haqqında məlumat verilmişdi. Naxçıvan MSSR çox böyük müalicə əhəmiyyətinə malik olan mədən suları ilə zəngindir. Bunların içərisində Badamlı mədən suyu mühüm yer tutur. 1948-ci ildə istehsalına başlanılmış Badamlı mədən suyu nəinki Azərbaycan respublikasında, habelə Sovet İttifaqının başqa yerlərində də geniş yayılmış və yüksək müalicə əhəmiyyətinə malik olduğuna görə şöhrət qazanmışdır.

Badamlı mədən suyu zavodunun kollektivi keçən il sosializm yarışını genişləndirərək istehsalat planını 160,9%, pərakəndə satış planını isə 210,3% yerinə yetirməyə nail olmuşlar. Moskva, Leninqrad, Bakı və b. şəhərlərə yüz min butulkalarla Badamlı mədən suyu göndərilmiş və bu sahədəki tapşırıq 154% ödənilmişdir. Zavodun fəhlələri məhsulun maya dəyərini hər butulkada 11,3 qəpik aşağı salmağa müvəffəq olmuşlar.

“Şərq qapısı” qəzetinin 29 avqust 1952-ci il tarixli nömrəsində qeyd edilib ki, Naxçıvan MSSR Ali Soveti Rəyasət heyəti 1952-ci ilin ikinci rübündə heyvandarlığın inkişafı üzrə dövlət planlarının və heyvandarlıq məhsulları təhvili üzrə öhdəçiliklərin yerinə yetirilməsi sahəsində respublika kənd Sovetlərinin sosializm yarışına yekun vurmuşdur. Naxçıvan MSSR Ali Soveti Rəyasət heyətinin keçici Qırmızı bayrağı yaxşı nəticələr əldə edən Ordubad rayonundakı Dırnıs kənd Sovetinə verilmişdir. Kənd Soveti iyulun 1-dən heyvandarlığın inkişafı planını atlar üzrə 122,5 faiz, qaramal üzrə 117,3 faiz, davarlar üzrə 116,7 faiz, arıçılıq üzrə 101 faiz yerinə

yetirmişdir. Sovetlikdə dövlətə heyvandarlıq məhsulları təhvili planları ət, süd, yumurta və brinza pendiri üzrə 100 faiz, dəri üzrə 282 faiz və yun üzrə 150 faiz ödənilmişdir.

Qəzetin 1 yanvar 1953-cü il tarixli nömrəsində yazılıb. Sov.İKP XIX qurultayının qarşıya qoyduğu böyük vəzifələrdən ruhlanan sovet adamları yeni beşillik planın ləyaqətlə yerinə yetirilməsi uğrunda fədakarlıqla mübarizə edirlər.

Bütün ölkəmizlə birlikdə Sovet Azərbaycanı və onun ayrılmaz hissəsi olan Naxçıvan MSSR zəhmətkeşləri də keçən 1952-ci ildə yeni görkəmli müvəffəqiyyətlər qazanmışlar. Muxtar respublikamız dövlətə pambıq təhvili planını 104,3 faiz, taxıl təhvili planını 121,1 faiz, üzüm təhvili planını 158 faiz, tütün təhvili planını 115,5 faiz, heyvandarlıq məhsulları təhvili planını ət üzrə 100 faiz, yun üzrə 120 faiz, yaö üzrə 119 faiz tərəvəz üzrə 105,3 faiz və s. yerinə yetirmişdir. Bütün bunlarla yanaşı 11-ci Naxçıvan dəmiryol distansiyasının kollektivi 1952-ci təsərrüfat yüksək göstəricilərlə başa çatdırdıqları raport verir. Kollektiv illik planı 122 faiz, o cümlədən orta təmir işləri tapşırıqlarını 220 faiz və binaların təmiri planını 200 faiz yerinə yetirmişdir.

Qəzetin 24 mart 1954-cü il tarixli sayında Şərur pambıqtəmizləmə zavobu haqqında yazılıb. 1951-1955-ci illərdə SSRİ-nin inkişafına dair beşinci beşillik planda göstərilir ki, çoxişlənən malllar istehsalının böyük sürətlə artması təmin edilsin. Yüngül sənaye və yeyinti sənaye məhsullarının istehsalı azı 70 faiz artırılsın. Bu məqsədlə zavodun kollektivi 1950-ci ildəkinə nisbətən 1951-ci ildə yüngül sənaye üçün 1.992 ton artıq mahlıc istehsal etmişdir. 1952-ci ildə 1951-ci ildəkindən 231 ton, 1553-cü ildə isə 1952-ci ildəkindən 1.343 ton artıq mahlıc buraxılmışdır.

“Şərq qapısı” qəzetinin 25 iyul 1954-cü il tarixli nömrəsində Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin Plenumu haqqında məlumat verilib. İyulun 22-də Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin dürdüncü Plenumu

olmuşdur.plenum 1954-cü ildə yaz əkininin yekunları, əkinlərə qulluq edilməsi kənd təsərrüfatı məhsullarının yığımı və tədarükü planlarının yerinə yetirilməsinin təmin edilməsi haqqında Sov.İKP MK-nın iyun Plenumu qərarının yerinə yetirilməsində Naxçıvan partiya təşkilatının yaxın vəzifələri haqqında məsələ müzakirə edilmişdir.

Muxtar respublikanın partiya, sovet və kənd təsərrüfatı təşkilatları təsərrüfatın bütün sahələrini əsaslı sürətdə yüksəltmək haqqında Sov.İKP MK-nın sentyabr, fevral-mart Plenumlarının qərarlarını həyata keçirməyə başlayaraq kolxozların, MTS-lərin işini bir qədər yaxşılaşdırmışlar.

Bu il yazda keçən ildəkindən xeyli artıq yazlıq bitkiləri əkilmişdir. Muxtar respublikanın kolxozları yazlıq bitkilər əkini planlarını 114,6 faiz, texniki bitkilərin əkini planını 103 faiz yerinə yetirmişlər. Beləliklə 1954-cü ildə 1953-cü ildəkinə nisbətən 30 faiz artıq dənli, 3 faiz artıq texniki, 6,5 faiz artıq tərəvəz bitkiləri əkilmişdir. Bu il tütün tarlaları keçən ilə nisbətən 50 hektar artırılmışdır.

Qəzetin 2 fevral 1955-ci il tarixli nömrəsində muxtar respublikada sənaye müəssisələrinin işinin hərtərəfli yaxşılaşdırılması haqqında məlumat verilmişdir. Bildirilmişdi ki, 1954-cü ilin istehsalat planını Naxçıvan MSSR Ərzaq Malları Sənaye Nazirliyi 103,1 faiz, tikinti üçün dağı istehsal edən karxana 103 faiz, asfalt zavodu 130 faiz, Naxçıvan şəhərindəki “Mebelçi” arteli 106,1 faiz, Naxçıvan şərab tresti 110,5 faiz, Naxçıvan duz mədəni 106 faiz, Ordubad sənaye kombinatı 110 faiz, Naxçıvan şəhər sənaye kombinatı 101,1 faiz ödəmişlər.

Bununla yanaşı olaraq bir sıra sənaye müəssisələri istehsalat tapşırıqlarını yerinə yetirməyərək 1954-cü il planlarını kəsir içərisində qoymuşlar. Məsələn, Ordubad konserv zavodu illik planı 96,5 faiz, Şərur pambıq zavodu 93,2 faiz və Şərur rayon sənaye kombinatı 66,8 faiz yerinə yetirmişdir. Bununla yanaşı Naxçıvan şərab trestində 77.200

əvəzinə 66.700 butulka quru çaxır, 1.700 əvəzinə 1.200 dekalitr spirt istehsal olunmuşdur.

İstehsal planlarının kəsir içərisində buraxılması onunla izah oluna bilər ki, sənaye müəssisələrinin idarə başçıları daxili resurslardan düzgün istifadə edilməsinə fikir vermir, planın yerinə yetirilməsi üçün lazım olan əsas məsələləri unudur, bəzi hallarda təsərrüfatsızlığa yol verirlər.

Beşinci beşillik illərində keçirilən qabaqcıl taxılçıların, pambıqçıların, üzümçülərin, heyvandarların, kənd təsərrüfatı mütəxəssislərinin respublika müşavirələri və fəallar yığıncaqlarında kənd təsərrüfatı inkişafının ən mühüm məsələləri müzakirə olunmuş, nöqsanlar göstərilmiş, yüksək məhsul əldə etmək üçün əməli tədbirlər edilmiş, qabaqcıl təcrübələrdən istifadə etməyin səmərəli nəticələr verdiyi göstərilmişdi. Kənd təsərrüfatının inkişafı və məhsuldarlığının yüksəldilməsi uğrunda mübarizəyə həsr olunmuş bu müşavirə və yığıncaqların mühüm əhəmiyyəti olmuşdur.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasının zəhmətkeşləri 1951-1955-ci illərdə təsərrüfatı dinc quruculuq illərinin tələbləri əsasında yenidən qurmuş, sənaye, kənd təsərrüfatı və mədəniyyəti inkişaf etdirmək, dövlət plan və tapşırıqlarını yerinə yetirmək, muxtar respublika iqtisadiyyatının inkişafında mühüm nailiyyətlər qazanmışlar.

"Şərq qapısı" qəzetinin 11 fevral 1956-cı il tarixli nömrəsində qeyd edilib. Naxçıvan muxtar respublikasının zəhmətkeşləri 1955-ci ildə təsərrqüfat və mədəni quruculuq sahəsində bir sıra müvəffəqiyyətlər əldə etmişlər. Naxçıvan MSSR-nin sənaye müəssisələrinin ümumi məhsul buraxılışı planı 1955-ci ildə 107,6 faiz yerinə yetirilmişdir. Keçən il plandan əlavə 13 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir.

Şərur pambıqtəmizləyən zavodu. Naxçıvan şərab birliyi, Ordubad ipək fabrikası dövlət planlarını artıqlaması ilə ödəmiş,

maya dəyərini aşağı salmış, əmək məhsuldarlığını xeyli artırmışlar.

Lakin bəzi müəssisələr yaxşı işləməmişlər. Duz mədəni 1955-ci ildə milyon 67 min manatlıq az məhsul vermişdir. Naxçıvan yerli sənaye kombinatı plandan 55 min manatlıq az məhsul buraxmışdır.

Naxçıvan MSSR-nin 1955-ci il Dövlət büdcəsi, Naxçıvan MSSR Ali Soveti tərəfindən mədaxil məxarcindən 190,5 min manat artıq olması şərtilə, mədaxil üzrə 56 milyon 906,5 min manat məbləğində və məxaric üzrə 56 milyon 716 min manat məbləğində təsdiq edilmişdi. Muxtar respublikamızın Dövlət büdcəsi mədaxil üzrə 57 milyon 515,5 min manat məbləğində və ya 101,2 faizə, məxaric üzrə 57 milyon 466 min 800 manat və ya 98,7 faiz yerinə yetirilmiş, mədaxil məxaricdən 48, 7 min manat artıq olmuşdur.

"Şərq qapısı" qəzetinin 8  fevral 1957-ci il tarixli sayında muxtar respublikanın 33 illiyi münasibətilə kənd təsərrüfatı sahəsindəki uğurlardan yazılıb. Respublikamızda əsas texniki bitki olan pambığın məhsuldarlığı 1956-cı ildə 1955-ci ilə nisbətən hektarda 4,2 sentner artırılmış və pambıq təhvili planı 105,3 faiz yerinə yetirilmişdir.

Naxçıvan Muxtar Respublikasında tütünçülüyün inkişafı üçün böyük imkanlar vardır. Keçən təsərrüfat ilində tütün əkinləri hahəsi 3,5 dəfə genişləndirilmiş, məhsuldarlığı isə xeyli artırılmışdır. Dövlətə tütün təhvili planı 187 faiz yerinə yetirilmişdir. Respublikada dənli bitkilərin məhsuldarlığını artırmaq sahəsində də xeyli iş görülmüşdür. 1956-cı ildə dənli bitkilərin məhsuldarlığı 1955-ci ilə nisbətən xeyli çoxalmış və 99.290 sentner artıq taxıl götürülmüşdür. Naxçıvan kolxozlarında meyvə və üzüm bağlarında məhsuldarlığı artırmaq üçün 1956-cı ildə 400 hektardan artıq üzüm və meyvə bağı salınmışdır.

Respublikamızda ictimai mal-qaranın inkişafı sahəsində bir sıra müvəffəqiyyətlər əldə edilmişdir. Belə ki, 1940-cı ilə

nisbətən qaramalın sayı 120 faiz, qoyunların sayı 200 faiz artırılmışdır. Respublikamızın 20-dən artıq kənd təsərrüfatı qabaqcılı Sosialist Əməyi Qəhrəmanı adını almışdır.

Qəzetin 15 avqust 1958-ci il tarixli nömrəsində Naxçıvan MSSR-da xalq təsərrüfatının inkişafına dair Statistika İdarəsinin məlumatı verilmişdir. Naxşıvan Naxçıvan MSSR zəhmətkeşləri Sov.İKP XX qurultayı qərarlarını həyata keçirərək xalq təsərrüfatının inkişaf etdirilməsi sahəsində bir sıra müvəffəqiyyətlər qazanmışlar. Sənaye müəssisələri ümumi məhsul istehsalına dair 1958-ci ilin birinci yarısına dair planı 103 faiz, o cümlədən Azərbaycan SSR Xalq Təsərrüfatı Şurası tabeliyində olan sənaye müəssisələri üzrə 100 faiz, ittifaq-respublika tabeliyində olan müəssisələr üzrə 105 faiz, yerli tabelikdə olan müəssisələr üzrə 110 faiz yerinə yetirmişlər.

Naxçıvan MSSR-də 1958-ci ilin birinci yarısında kolxozlara verilmiş dövlıt planı üzrə payızlıq dənli bitkilər əkini 100,5 faiz tütün əkini 125 faiz, pambıq əkini 113 faiz, qarğıdalı əkini 112 faiz yerinə yetirilmişdir.

Naxçıvan MSSR-də 1957-ci ilin birinci yarısına nisbətən 1958-ci ilin birinci yarısında qaramal 410 baş, yaxud 8 faiz, donuzlar 251 baş, yaxud 26,3 faiz, qoyunlar 7.086 baş, yaxud 3,3 artmışdır. Inək və camışlar isə 471 baş, yaxud 4,7 faiz azalmışdır.

1958-ci ilin birinci yarısında Naxçıvan MSSR-də kapital qoyuluşunun həcmi 1957-ci ilin birinci yarısına nisbətən artmışdır.

Naxçıvan MSSR-də 1958-ci ilin birinci yarısında kapital qoyuluşuplanı 67 faiz yerinə yetirilmişdir. Planı respublika tabeliyində olan müəssisələr 82 faiz, yerli tabelikdə olan müəssisələr 64 faiz, xalq təsərrüfatı şurası tabeliyində olan müəssisələr 54 faiz yerinə yetirmişlər.

"Şərq qapısı" qəzetinin 7 noyabr 1959-ci il tarixli nömrəsində Naxçıvan MSSR Ali Sovetinin Rəyasət heyəti Naxçıvan (Babək) rayonundakı Stalin adına kolxozun briqadiri

Cəbrayıl Vəliyevə və Şərur rayonundakı M.Hüseynzadə adına kolxozun manqa başçısı Bahar Talıbovaya Naxçıvan MSSR-nin “Pambıq ustası”adını vermişdir.

Qəzetin 3 fevral 1960-cı il tarixli nömrəsində Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin hesabatı verilmişdir. Məlumat verilmişdir ki, 1959-cu ildə məhsul istehsalı Naxçıvan MSSR Yerli Sənaye Nazirliyi müəssisələri 101,5 faiz, Naxçıvan şərab trestinin müəssisələri 105,1 faiz, Ordubad konserva zavodu 107,1 faiz, Badamlı mədən suyu zavodu 101 faiz, Ordubad ipək fabriki 101,3 faiz, Gümüşlü mədəni 110,5 faiz, Parağaçay mədəni 114 faiz, Naxçıvan Duz mədəni 116,5 faiz yerinə yetirmişlər.

1959-cu ildə respublika kolxozları dövlətə 13 min 580 ton pambıq sataraq planı 100,05 faiz yerinə yetirmişlər. 1959-cu ildə 1958-ci ildəkinə nisbətən dövlətə 1.720 ton çox pambıq satılmışdır. Respublikada tütün satışı planı 1959-cu ildə 115 faiz yerinə yetirilmişdir. 1959-cu ildə tütünçülük təsərrüfatından 15.986 min manat gəlir əldə edilmişdir.

1959-cu ildə taxıl istehsalı 1958-ci ildəkinə nisbətən Ordubad rayonunda 292 ton, Şahbuz rayonunda 533 ton, Culfa rayonunda 666 ton azalmışdır. Taxıl əkini planı Ordubad rayonunda 75 faiz, Şahbuz rayonunda 80 faiz, Naxçıvan (Babək) rayonunda 85 faiz yerinə yetirilmişdir.

“Şərq qapısı” qəzetin 11 mart 1960-cı il tarixli nömrəsində yazılıb. SSRİ Ali Sovetinin Rəyasət Heyəti 7 mart 1960-cı il tarixli Fərmanı ilə əməkdə görkəmli nailiyyətlər əldə etdiklərinə və çox səmərəli ictimai fəaliyyət göstərdiklərinə görə, Beynəlxalq Qadınlar Gününün 50 illiyi münasibəti ilə qadınlardan bir qrupuna Lenin ordeni və “Oraq və Çəkic” qızıl medalı verilməklə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. Bu qadənların arasında Noraşen (Şərur) rayonundakı Mehdi Hüseynzadə adına kolxozun manqabaşçısı Bahar Məhərrəm qızı Talıbova da vardır.

“Şərq qapısı” qəzetin 17 oktyabr 1961-cı il tarixli nömrəsində qeyd edilib. 1961-ci ildə Naxçıvan şəhərində avtomobil təmiri sexi, tikiş fabriki, süd zavodu, Bakı radio zavodunun filialı yaradılmışdır. 1.000 nömrəlik avtomat telefon stansiyası istifadəyə verilmişdir. Keçən il muxtar respublikanın sənaye müəssisələri 1959-cu ilə nisbətən pul ilə 17,2 milyon manatlıq məhsul buraxmışlar. Muxtar respublikanın 50 kəndinə yüksək voltlu elektrik xətti çəkilmişdir. 10 milyon kubmetr su tutumu olan Uzunoba gölü istifadəyə verilmişdir.

Qəzetin 27 oktyabr 1961-ci il tarixli nömrəsində qeyd edilib. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi və Naxçıvan MSSR Nazirlər Soveti 1961-ci il oktyabrın kinci ongünlüyündə pambıq məhsulunun müvəffəqiyyətlə yığılması və dövlətə satılması uğrunda muxtar respublikanın pambıqçılıq kolxozlarının sosializm yarışının yekunlarını müzakirə edərək qərara almışlar:

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin və Naxçıvan MSSR Nazirlər Sovetinin keçici Qırmızı bayrağı oktyabrın ikinci ongünlüyündə dövlətə illik planın 10,47 faizi qədər, mövsümün əvvəlindən isə 85,16 faizi qədər pambıq satan Naxçıvan (Babək) rayonundakı H.Aslanov adına kolxoza verilsin.

“Şərq qapısı” qəzetin 19 yanvar 1962-ci il tarixli nömrəsində 1962-ci il üçün Naxçıvan MSSR xalq təsərrüfatının inkişafı planı və Dövlət büdcəsi haqqında məlumat verilib. Bildirilib ki, muxtar respublikamızın sənaye və kənd təsərrüfatı işçiləri yeddiilliyin üçüncü ilini müvəffəqiyyətlə başa çatdırmışlar. Keçən il 1960-cı ilə nisbətən 857 min manatlıq sənaye məhsulları istehsal edilmişdir. Naxçıvan MSSR-in 1961-ci il Dövlət büdcəsi mədaxil üzrə 109 faiz, məxaric üzrə 93 faiz ödənilmişdir.

Naxçıvan MSSR Yerli Sənaye Nazirliyinin müəssisələri 1961-ci ildə ümumi məhsul istehsalı planını 100,3 faiz,

əmtəəlik məhsul istehsalı tapşırıqlarını isə 101 faiz yerinə yetirmişlər. Nazirlik üzrə istehsal onunan məhsulun maya dəyəri 2,5 faiz aşağı salınmışdır.

Bütün bunlarla yanaşı nazirliyin işində bir sıra nöqsanlara da yol verilmişdir. Belə ki, 7 əsas növ məhsuldan cəmi 3 növ üzrə plan yerinə yetirilmişdir. Naxçıvan inşaat materialları kombinatı 750 min ədəd kərpic, 775 ton əhəng və 574 ton gəc az istehsal etmişdir.

1961-ci ildə texnika birliyinin xətti ilə kolxozlara 54 traktor, 16 kombayn, 52 yük avtomaşını, 21 pambıqyığan maşın və sair satılmışdır. Bundan başqa cari təsərrüfat ilində 2.000 hektar sahədə qarğıdalı kvadrat-yuva üsulu ilə əkilmişdir. Naxçıvan (Babək) rayonunda 2, Şərur rayonunda 1, Şahbuz rayonunda 1 və Culfa rayonunda 1 kolxozda heyvandarlıq təsərrüfatında işlər mexanikləşdirilmişdir.

Qəzetin 5 yanvar 1963-cü il nömrəsində, 30 dekabr 1962-ci il tarixdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin plenumu haqqında məlumat verilmişdi. Plenumda bildirilmişdi ki, yeddiilliyin dörd ili ərzində muxtar respublikanın sənayesində ümumi məhsul istehsalı 41,7 faiz artmış, bir sıra sənaye müəssisələri işə salınmışdır. Ordubad konserv zavodu, ipək fabriki, Naxçıvan ət kombinatı, duz mədəni, Gümüşlü dağ mədəni illik planları vaxtından əvvəl yerinə yetirmişlər.

Lakin muxtar respublikanın sənaye müəssisələrinin işində ciddi nöqsanlar da mövcuddur. Bu nöqsanların nəticəsidir ki, muxtar respublikanın sənaye müəssisələri 1962-ci ilin 11 aylıq ümumi məhsul buraxılışı planını 93,3 faiz yerinə yetirmişlər. Yerli Sənaye Nazirliyinin müəssisələrində 8 əsas növ məhsuldan yalnız 2 növü üzrə 11 aylıq plan ödənilmiş, əhaliyə məişət xidməti sahəsində tapşırıq isə 32 faiz kəsirdə qalmışdır. Naxçıvan şərab tresti 11 aylıq planı 85,4 faiz yerinə yetirmişdir. Badamlı mineral suları zavodunun yarıtmaz işləməsi muxtar respublikada sənaye planlarının yerinə yetirilməsinə mənfi təsir göstərmişdir.

1962-ci ildə əsaslı tikinti üzrə 11 aylıq plan 73,4 faiz yerinə yetirilmiş və 1,9 milyon manat vəsaitdən istifadə edilməmişdir.

1962-ci ildə pambıq əkini sahələrini genişləndirmək və məhsuldarlığı artırmaq üçün tədbirlər görülməsinə baxmayaraq Şərur və Naxçıvan (Babək) rayonlarının bir sıra kolxozları yeddiillik planda nəzərdə tutulmuş səviyyədən xeyli geri qaldılar. Nəticədə muxtar respublika dövlətə pambıq satışına dair illik planı yerinə yetirə bilmədi. Muxtar respublikanın əksər kolxozlarında mal-qaranın və davarların sayı azalmış, onun məhsuldarlığı xeyli aşağı düşmüşdür.

"Şərq qapısı" qəzetin 17 yanvar 1964-cü il tarixli nömrəsində Naxçıvan MSSR Ali Sovetinin ikinci sessiyası haqqındaq məlumat verilib. Sessiyada bildirilib ki, yeddiilliyin beş ili muxtar respublikada sosialist iqtisadiyyatının daha artıq tərəqqi etməsi illəri olmuşdur. zəhmətkeşlərimiz özlərinin fədakar əməyi ilə xalq təsərrüfatının inkişaf etdirilməsində bir sıra görkəmli müvəffəqiyyətlər qazanmışlar.

1959-1963-cü illərdə sənayenin ümumi məhsulu 37,5 faiz artmışdır. Bu müddətdə illik orta artım 7,5 faiz olmuşdur. 1963-cü ildə respublika tabeliyində olan sənaye müəssisələrinin ümumi məhsulu 1958-ci ilə nisbətən 2 milyon 500 min manat yaxud 69,8 faiz çoxalmışdır. 1963-cü ildə muxtar respublikada 1958-ci ilə nisbətən tökmə çuğun 2,4 dəfə, üzüm şərabı istehsalı 3,4 dəfə, konyak istehsalı 6,4 dəfə, ipək mahlıcı istehsalı 1,6 dəfə, Badamlı mineral suyu istehsalı 2 dəfə daş duz istehsalı 1,8 dəfə, pendir istehsalı 2,9 dəfə və s. artmışdır. Bu illər ərzində muxtar respublikanın xalq təsərrüfatına 25,1 milyon manat və ya əvvəlki beş ildəkinə (1954-1958-ci illər) nisbətən 1,3 dəfə çox kapital qoyulmuşdur.

Kənd təsərrüfatını əsaslı surətdə yüksəltmək sahəsində də bir sıra tədbirlər görülmüşdür. Naxçıvan MSSR kolxoz və sovxozları 1963-cü ildə kənd təsərrüfatı məhsullarının satışı tapşırıqlarını taxıl üzrə 193 faiz, barama üzrə 107,2 faiz, ət üzrə

101,3 faiz, südü 102,9 faiz, yunu 114,2 faiz, yumurtanı isə 107,1 faiz yerinə yetirərək dövlətə plandan əlavə 3.183 ton taxıl, 5,6 ton barama, 207,6 ton süd, 55,6 ton yun satmışlar.

Ümumiyyətlə, 1960-cı illərdə Naxcıvan Muxtar Sovet Sosialist Respublikasında mexanikləşdirilmiş iri kənd təsərrufatı yaradılmış, kənd təsərrufatı istehsalının ümumi həcmi xeyli artmış, kolxoz və sovxozların maddi-texniki bazası möhkəmləndirilmis, əkinçilik məhsullarının bütün əsas sahələrinin məhsuldarlıgı və tədarükü çoxalmış, heyvandarlıq məhsulları istehsalı artmışdır. Nəticədə vahid aqrar-sənaye kompleksi kimi guclü potensial yaradılmış, su təsərrufatı və meliorasiyanın inkişafına ciddi fikir verilmiş, kənd təsərrufatı ozünun yüksək zirvəsini fəth etmişdi.

Qəzetin 17 fevral 1965-ci il tarixli nömrəsində Naxçıvan MSSR Statistika İdarəsinin məlumatı verilmişdir. Məlumatda deyilir: Naxçıvan MSSR zəhmətkeşləri yeddiilliyin altıncı ilində iqtisadiyyatı inkişaf etdirmək, xalqın güzəranını və mədəni səviyyəsini yüksəltmək sahəsində yeni müvəffəqiyyətlər əldə etmişlər.

1963-cü ilə nisbətən ümumi məhsulun istehsalı bütünlüklə muxtar respublika üzrə 6 faiz artmışdır. 1964-cü ildə ümumi məhsul istehsalı planını Parağaçay filiz mədəni, Şərur pambıqtəmizləmə zavodu, Naxçıvan çörək zavodu, Naxçıvan ət kombinatı, Naxçıvan mebel fabriki, Ordubad konserv zavodu, Naxçıvan şərab tresti, tikiş fabriki və Naxçıvan mətbəəsi artıqlaması ilə yerinə yetirmişlər.

1964-cü ildə muxtar respublikada bütün kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 45,9 min hektar, bundan dənli bitkilərin əkin sahəsi isə 29,1 min hektar olmuşdur. Tarla zəhmətkeşlərinin fədakar əməyi sayəsində respublikada dövlətə bitkiçilik məhsullarının satışı planları pambıq üzrə 109 faiz, meyvə üzrə 130 faiz, barama üzrə 100,1 faiz, dənli bitkilər üzrə 108 faiz yerinə yetirmişdir. Keçən ilə nisbətən dövlətə 3.915 ton artıq pambıq, 505 ton artıq tütün, 1,884 ton artıq meyvə

satılmışdır. 1963-1964-cü illərin qışının sərt keçməsi heyvandarlığın inkişafına və heyvandarlıq məhsulları istehsalının artırılmasına pis təsir göstərmiş, bununla əlaqədar olaraq ət, süd, yun məhsullarının tədarükü planı yerinə yetirilməmişdir.

"Şərq qapısı" qəzetinin 7 yanvar 1966-cı il tarixli nömrəsində Naxçıvan MSSR xalq təsərrüfatının inkişafına dair dövlət planı və 1965-ci ildə Naxçıvan MSSR xalq təsərrüfatının ilk yekunları haqqında məlumat verilib. Bildirilib ki, ölkəmizin hər yerində olduğu kimi muxtar respublikamızda da xalq təsərrüfatının inkişafı sahəsində görkəmli müvəffəqiyyətlər qazanılmışdır. Sənayemiz 1965-ci ilin planına 101,6 faiz əməl etmiş və tapşırıqdan əlavə 176,7 min manatlıq məhsul istehsal etmişdir.

1965-ci ildə muxtar respublikanın xalq təsərrüfatına 5 milyon 850 min manat, o cümlədən Nazirlər Sovetinin tabeliyində olan obyektlərin tikintisinə 2 milyon 100 min manat kapital qoyulmuşdur.

Muxtar respublikamızın kənd təsərrüfatı zəhmətkeşləri dövlətə 11 min 500 ton əvəzinə 11.774 ton pambıq satmış, taxıl, barama, meyvə, yun, yumurta satışı tapşırıqlarına artıqlaması ilə əməl etmişdir.

Qəzetin 20 yanvar 1967-ci il tarixli nömrəsində, 1966-cı ildə Naxçıvan MSSR-nin xalq təsərrüfatı planlarının əsas yekunları haqqında, Naxçıvan MSSR Nazirlıər Soveti Dövlət Plan Komissiyasının sədri Y.M.Nəbiyevin məruzəsində deyilir. Muxtar respublikamızın zəhmətkeşləri partiyanın XXIII qurultayının, habelə Sov.İKP MK mart və sentyabr (1965-ci il), may (1966-cı il) plenumlarının qərarlarından ruhlanaraq keçən il xalq təsərrüfatının inkişafına dair əsas tapşırıqları müvəffəqiyyətlə yerinə yetirmişlər. Respublikamızın sənayesi 1966-cı il planını 103 faiz ödəmiş və tapşırıqdan əlavə 365 min manatlıq çox məhsul istehsal etmişdir. Ümumi məhsul istehsalı 1965-ci ilə nisbətən 32,1 faiz çox olmuşdur.

1966-cı ildə muxtar respublikanın xalq təsərrüfatına 8 milyon 414 min manat və ya 1965-ci ilə nisbətən 11,3 faiz, o cümlədən Nazirlər Sovetinin tabeliyində olan obyektlərin tikintisinə 2 milyon 229 min manat kapital qoyulmuşdur.

Muxtar respublikanın fədakar pambıqçıları keçən il 6.177 hektar əkin sahəsinin hər hektarından 20,2 sentner məhsul götürmüş və dövlətə "ağ qızıl" satışı planını 105,5 faiz yerinə yetirmişlər. Bundan başqa dövlətə taxıl, üzüm, ət, süd, yun, yumurta, barama satışı tapşırıqlarına artıqlaması ilə əməl olunmuşdur. Respublikanın kolxoz və sovxozları 1965-ci ilə nisbətən 1966-cı ildə dövlətə 430 ton çox süd, 26,7 ton çox, yun, 2.429 ton çox üzüm, 779 ton çox pambıq, 662 ton çox taxıl satmışlar.

"Şərq qapısı" qəzetinin 18 iyul 1968-ci il tarixli sayında, Naxçıvan şəhər Partiya Komitəsinin plenumu haqqında məlumat verilmişdi. Plenumda kolxoz və sovxozların iqtisadiyyat cəhətdən möhkəmləndirilməsinin əməli yolları, tarla işlərinin sürətləndirilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və dövlətə satılmasının vaxtında yerinə yetirilməsini təmin edəcək konkret tədbirlər müəyyən edilmişdir.

Qəzetin 10 sentyabr 1968-ci il tarixli nömrəsində muxtar respublikada sənaye planlarının yerinə yeririlməsi haqqında məlumat verilmişdir. Bildirilmişdir ki, muxtar respublikanın sənaye müəssisələri və tikinti təşkilatlarında vəziyyət bütünlükdə yaxşı deyildir. Belə ki, sənaye müəssisələri məhsul istehsalı və satışı planlarını yerinə yetirməmiş, tikinti planı isə muxtar respublika üzrə xeyli kəsirdə qalmışdır. Məhz buna görə də həmin məsələ bu günlərdə keçirilən vilayət partiya komitəsinin büro iclasında müzakirə edilmişdir. Büroda sənaye və tikinti təşkilatlarının başçıları, partiya təşkilatları, şəhər və rayon partiya komitələrinin katibləri, icraiyyə komitələrinin sədrləri, nazirlik və respublika tabeliyində olan idarələrin rəhbərləri və s. iştirak etmişlər.

Yığıncaqda Naxçıvan MSSR məişət xidməti nazirinin çıxışından aydın oldu ki, nazirlikdə dövlət planları xeyli kəsirdədir. Bunun səbəbi odur ki, nazirlik tabeliyində olan müəssisələr üçün lazımi matereallları vaxtında ala bilmir. Müəssisələrdə ixtisaslı kadrlar azlıq təşkil edir. 5 nömrəli Naxçıvan tikinti tresti bu ilin 8 ayında keçən ilin müvafiq dövründəkinə nisbətən 246 min manatlıq artıq iş görmüşdür. Buna baxmayaraq trest üzrə 8 aylıq plana 64, 1 faiz əməl edilmişdir.

Naxçıvan Sovxoz-Şərab Trestinin rəisi çıxışında bildirdi ki, trest üzrə məhsul istehsalı planı 72,3 faiz satış planı 68 faiz yerinə yetirilmişdir.

Badamlı mədən suları zavodu muxtar respublikanın iri sənaye müəssisələrindən biridir. Bu il burada 40 milyon butulka mədən suyu istehsal etmək nəzərdə tutulmuşdur. Doğrudur, görülın işin sürəti bildirkinə nisbətən xeyli artıqdır. Lakin zavod 8 aylıq plana əməl etməmişdir. Zavodun direktoru bildirmişdi ki, bunun bir səbəbi zavodun rəhbərliyindədir. Digər səbəbi budur ki, istehsal olunan məhsulu daşımaq üçün nəqliyyat çatışmır. Məhsulu saxlamaq üçün zavodda yer yoxdur. Zavod tələb olunan boş butulkanı vaxtında ala bilmir. Suya vurulan qaz Bakı və Yerevan şəhərlərindən gətirildiyindən işin sürətinə pis təsir göstərir.

"Şərq qapısı" qəzetinin 6 fevral 1969-cu il nömrəsində Naxçıvan MSSR-də xalq təsərrüfatının inkişafına dair dövlət planının yerinə yetirilməsi yekunları haqqında Naxçıvan MSSR Statistika İdarəsinin məlumatı verilmişdir. Məlumata əsasən 1968-ci ildə muxtar respublika sənayesinin məhsul satışı planı 99,6 faiz yerinə yetirilmişdir. Sənaye məhsulunun istehsal həcminin artım sürəti 107 faiz olmuşdur.

1968-ci ildə məhsul satışı planını Parağaçay filiz mədəni, baramaaçan fabrik, tikiş fabriki, yerli istehsal sənaye kombinatı, elektrotexnika zavodu, çörək zavodu, tütün fermentasiya

zavodu, avto təmir zavodu və sair müəssisələr artıqlaması ilə yerinə yetirmişlər.

1968-ci ildə dövlətə taxıl, süd, yumurta, meyvə satışına dair planlar artıqlaması ilə yerinə yetirilmişdir. 1967-ci ildəkinə nisbətən dövlətə 433 ton ət, 440 ton tərəvəz, 392 ton tütün, 3 ton barama və 304 min ədəd yumurta satılmışdır. Bununla belə dövlətə ət, üzüm, yun və tərəvəz satışı planları yerinə yetirilməmişdir.

"Şərq qapısı" qəzetinin 8 fevral 1970-ci il sayında Naxçıvan MSSR-də xalq təsərrüfatının inkişafına dair dövlət planının yerinə yetirilməsi haqqında statistika idarəsinin məlumatı dərc edilmişdir. Məlumatda qeyd edilmişdi ki, 1969-cu ildə muxtar respublika sənayesinin satışı planı 102 faiz yerinə yetirilmişdi, tapşırıqdan əlavə 759 min manatlıq məhsul satılmışdır.

1969-cu ildə məhsul satışı planını Parağaçay filiz mədəni, Gümüşlü filiz mədəni, tikiş fabriki, yerli istehsal sənaye kombinatı, elektrotexnika, tütün fermentasiya və çörək zavodları, mebel fabriki, baş yağ-pendir və pambıqtəmizləmə zavodları, Naxçıvan Sovxoz-Şərab Tresti və sair müəssisələr artıqlaması ilə yerinə yetirmişlər. Ən yeni texnika ilə təchiz olunmuş Paragaçay Dag-Mədən sənaye müssisəsi ildən-ilə istehsal gücünü artırmışdı. 1969-cu ildə məhsul satış planı 111 faiz yerinə yetirilmiş, məhsulun artım sürəti 1968-ci ilə nisbətən 110 faiz artmısdı. Həmin il Gumuslu Dag-Mədən sənaye müəssisəsində məhsul satış planı 102 faiz yerinə yetirilmisdi. İstehsalın artım surəti 1968-ci ilə nisbətən 80 faiz olmuşdu.

1969-cu ildə kənd təsərrüfatı məhsulları üzrə dövlətə süd, yumurta, barama, meyvə, taxıl, tütün, pambıqvə üzüm satışına dair planlar artıqlaması ilə yerinə yetirilmişdir.

1968-ci ildəkinə nisbətən dövlətə 98 ton süd, 82,9 min ədəd yumurta, 357 ton meyvə, 2 ton barama, 1,080 ton taxıl, 11,536 ton üzüm, 251 ton tütün çox satmışlar. Bununla belə dövlətə ət, yun, tərəvəzsatışı planı yerinə yetirilmişdir. Bəhs

edilən illərdə kənd təsərrüfatının maddi-texniki bazası möhkəmlənməkdə davam etmişdi. Əvvəlki illərə nisbətən kənd təsərrüfatına kapital qoyuluşu 21 faiz artmışdır. Mənfəətlə işləyən təsərrüfatların sayı çoxalmış, bəzi kolxoz və sovxozlarda kənd təsərrüfatı məhsullarının əsas növlərinin maya dəyəri aşağı salınmış, kolxozların ümumi gəliri keçən ilə nisbətən 10 faiz artmışdır.

Bununla birlikdə kolxoz və sovxozların işində nöqsanlar da olmuşdur. Bir sra kolxoz və sovxozlarda kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı aşağıdır. Xüsusilə heyvandarlıq məhsullarının istüehsalı ləng artır. İstehsal olunan məhsulların maya dəyəri hələ də yüksəkdir.

1969-cu ildə muxtar respublikada kənd təsərrüfatının müasir texnika ilə təchizatı davam etdirilmişdir. Keçən ildə şərti traktor hesabı ilə 156 traktor, o cümlədən 70 şərti şum traktoru, 43 yük maşını, 24 ədəd taxılyığan kombayn, 5 yun qırxan maşın, 11 ton mineral gübrə kolxoz və sovxozlara satılmışdır.

1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi və qətiyyətli fəaliyyəti ilə Naxçıvan MSSR-in xalq təsərrüfatının inkişafında da əsaslı dönüş baş verdi. Muxtar respublikanın kənd təsərrüfatı yenidən quruldu, onun maddi-texniki bazası möhkəmləndirildi.

Heydər Əliyev Azərbaycan Kommunist Partiyasına rəhbərlik etdiyi ilk aylarda respublikanın bütün rayonlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında ən yüksək inkişaf mərhələsinin əsasını qoydu. Bunu belə bir fakt da təsdiq edir ki, səkkizinci beşilliyin əvvəlki üç ilində - 1966-1968-ci illərdə Naxçıvanın iqtisadiyyatına cəmi 91 milyon manat və ya hər il 30,3 milyon manat kapital qoyulduğu halda, 1969-1970-ci illərdə kapital qoyuluşu 105 milyon manat və ya hər il orta hesabla 52,5 milyon manata çatdırılmışdı [90, s.48].

1970-ci ildən başlayaraq Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatının planlaşdırılmasında buraxılmış çatışmamazlıqların aradan qaldırılması üçün işlər aparılmağa başlandı. Qeyri rentabelli, yüksək maya dəyərinə malik pambıqçılıq Naxçıvan MSSR-də yüksək məhsuldarlığa malik üzümçülük və tütünçülüklə əvəz edildi. Bu ideyanın əsas təşəbbüskarı məhz Heydər Əliyev oldu.

### 3.2. Muxtar respublika zəhmətkeşlərinin gəlirlərinin artması, ticarət və ictimai iaşə.

Keçmiş sosializm cəmiyyətində ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi ölkəmizdə əhalinin bütün ictimai qruplarının həyat səviyyəsinin daha sürətlə yüksəldilməsi üçün real şərait və imkanlar yaratmışdır. Xalqın həyat səviyyəsinin yüksəldilməsi proqramında əhalinin maddi rifahını yaxşılaşdırmaq, təhsil səviyyəsini yüksəltmək, tibbi xidmət göstəricilərini yaxşılaşdırmaq, şəhər və kənd əhalisinin həyat səviyyəsini bir-birinə yaxınlaşdırmaq kimi çox mühüm sosial-iqtisadi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Həmin proqramdan irəli gələn ən mühüm iqtisadi tədbirlərdən biri əhalinin real gəlirlərini müntəzəm surətdə artırmaqdır. Real gəlir xalqın həyat səviyyəsini və onun yüksəldilməsini müəyyən edən göstəricilər sistemində həlledici yer tutur. Dövlət əhalinin pul gəliri və natural gəlirinin ildən-ilə artırılmasına qayşı göstərməklə bərabər, həm də onlara geniş miqyasda pulsuz xidmətdən istifadə etmək üçün əlverişlişərait yaratmışdır. Bunlar təhsil, tərbiyə, səhiyyə, idman, mədəni-maarif, əyləncə-istirahət ocaqlarında göstərilən pulsuz xidmətlər, qocaların, şikəstlərin, uşaqların körpələr evlərində, uşaq baxçalarında saxlanması, sanatoriyalara göndərilməsi və s. ibarətdir.

Muxtar respublikanın kolxozlarında pul gəlirləri İkinci Dünya müharibəsindən sonrakı illərdə xeyli artmış, bölünməz fondlar çoxalmışdır. Belə ki, Naxçıvan MSSR kolxozlarının pul gəliri 1946-cı ildə 35569 min manat, 1959-cu ildə isə

104435 min manata çatmışdır [311, vər.11]. Kolxoz ictimai təsərrüfatlarının inkişaf etdirilməsi nəticəsində həmin dövrdə kolxozçuların əməyinə verilən pulun miqdarı da xeyli artırılmışdı. Belə ki, 1946-cı ildə 3 manat 41 qəpik verildiyi halda, 1959-cu ildə isə 6 manat 20 qəpik verilmişdir [313, vər.12].

Tədqiq olunan illərdə Naxçıvan MSSR-də bölünməz fondlar da çoxalmışdı. Məsələn, kolxozların bölünməz fondu 1946-cı ildə 101874 min manat, 1959-cu ildə isə 202481 olmuşdur [34, vər.13].

Həmin dövrdə bir neçə xırda kolxozların birləşdirilməsi onların təşkilar-təsərrüfatca möhkəmləndirilməsi, onların pul gəlirlərinin daha da artmasına səbəb olmuşdur. Belə ki, 1953-cü ildə respublikada kolxozların pul gəliri 91 milyon 664 min manat olduğu halda, 1959-cu ildə 104435 min manata çatmışdır [222, vər.68].

Kolxozların real gəlirlərinin artması kolxozçuların da real gəlirlərinin çoxalmasına səbəb olmuşdur. Məsələn, 1953-cü ildə kolxozçuların əmək günlərinə 35,7 milyon manat vəsait bölünmüşdürsə, 1959-cu ildə bu rəqəm 71,4 milyon manata çatmışdır [226, vər.72].

Kolxozçuların əməyinə verilən haqq onların maddi marağının artırılması yolu ilə kolxoz ictimai təsərrüfatının inkişafında və səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır. Sov.İKP-nın XXV qurultayında əməyə görə kolxozçulara verilən haqqın artırılması əhəmiyyətindən bəhs edilərək göstərilmişdir: "Belə bir siyasətdən məqsəd, yalnız zəhmətkeşlərin istehlakını planlı surətdə artırmaqdan ibarət deyildir, həm də əmək haqqının və əməyə görə kolxozçulara ödənilən haqqın həvəsləndirici rolunu gücləndirməkdən, istehsalın son nəticələrindən və onun səmərəliliyinin yüksəldilməsindən bunları daha çox asılı etməkdən ibarətdir" [344, s.131]. Deməli, xalqın həyat səviyyəsinin yüksəldilməsi həmişə dövlətin iqtisadi strategiyasının ən başlıca məqsədi olmuş və olmaqdadır.

Tədqiq olunan dövrdə fəhlə və qulluqçulara nisbətən kolxozçuların gəlirlərinin daha sürətlə artması bütün ölkədə olduğu kimi Naxçıvan MSSR-də olmuş, kənd əhalisinin həyat səviyyəsinin şəhər əhalisinin həyat səviyyəsinə yaxınlaşdırmaq kimi sosial-iqtisadi və tarixi vəzifələrin həyata keçirilməsinə xeyli kömək etmişdir. Sov.İKP-nin XXV qurultayının materiallarında deyilir ki, "kənd təsərrüfatı istehsalının sənayeləşdirilməsini sürətləndirmək və kənddə mədəni-məişət xidmətini yaxşılaşdırmaq əsasında şəhər və kənd əhalisinin həyat səviyyəsinin və şəraitinin bir-birinə daha da yaxınlaşdırılması, şəhərlə kənd arasında ictimai-iqtisadi və mədəni-məişət fərqlərinin ardıcıl surətdə aradan qaldırılması təmin edilsin" [344, s.179].

Keçmiş sosializm cəmiyyətində Sov.İKP və Sovet dövləti xalqın rifahını yüksəltmək, gəlirlərini artırmaq üçün kompleks tədbirlər hazırlamış və həyata keçirmişdir. Sov.İKP MK-nın sentyabr /1953-cü il/ plenumundan sonrakı illərdə kənd təsərrüfatı məhsulllarının dövlətə tədarük və satış qiymətləri yüksəldilmiş, kolxozlara satılan materialların qiyməti aşağı salınmış, gəlir vergisi azalmış güzəştlər edilmiş, pensiya təminatları yaxşılaşmış və i.a. Bütün bunlar muxtar respublika zəhmətkeşlərinin maddi rifahının yaxşılaşmasına və pul gəlirlərinin artmasına imkan vermişdir.

Naxçıvan MSSR-də əhalinin güzəranının yaxşılaşması və pul gəlirinin çoxalması ilə əlaqədar olaraq əhalinin əmanət kassalarına qoyduğu pulun müvafiq miqdarı da artmışdır. Məsələn, 1951-ci ildə əmanətlərin sayı 4493, əmanət kassalarında əmanətlərin qalığı 257 min manat, əmanətlərin orta məbləği 11050, əmanət kassasında əmanətlərin qalığı 1170 min manat, əmanətlərin orta məbləği 106 manata çatmışdı [177, s.28].

Tədqiq olunan illərdə əmanət kassalarının şəbəkəsi də xeyli artmışdır. Belə ki, 1951-ci ildə muxtar respublikada 13 əmanət kassası olduğu halda, 1955-ci ildə əmanət kassalarının

sayı 16-ya, 1960-cı ildə 26-ya [177, s.28]. 1965-ci ildə 47-ə, 1970-ci ildə isə bu rəqəm 48-ə çatmdırılmışdır [169, s.24].

Muxtar respublikada əmanət kassalarında əmanətlərin miqdarının çoxalması və əmanət kassalarının şəbəkəsinin belə artması bilavasitə xalqın maddi-rifahı halının yüksəlməsi ilə bağlıdır.

Sov.İKP XXVI qurultayının sənədlərində xidmət sahələrinin dövlət quruculuğunda rolu yaxın dövr üçün onun konkret vəzifələri və inkişaf yolları müəyyən edilmişdir.

Əhaliyə xidmət göstərən belə sahələrdən biri də ticarət və ictimai iaşədir Sov.İKP XXVI qurultayı ölkədə pərakəndə ticarət şəbəkəsinin genişləndirilməsini və kooperativ ticarətin maddi-texniki bazasının möhkəmləndirilməsini, ticarətin idarə olunmasının təşkilinin təkmilləşdirilməsini və əhaliyə ticarət xidmətinin səviyyəsini yüksəltməyi, ticarətin müvəqqəti formalarını hər vasitə ilə inkişaf etdirməyin vacib olduğunu göstərmişdir.

İkinci Dünya müharibəsindən sonrakı dövrdə ölkəmizin müxtəlif iqtisadi rayonları kimi, Naxçıvan MSSR-də də ticarətin təşkili və inkişafında mühüm irəliləyiş olmuşdur. Kohnə koma-mağazalar, yöndəmsiz çayxanalar, yeməkxanalar, müasir tipli layihələr əsasında tikilmiş ticarət müəssisələrində yerləşdirildi. Bun aşağıdakı rəqəmlərdən aydın görmək olar. Belə ki, pərakəndə ticarət ictimai iaşə müəssisələrinin sayı 1945-ci ildə 332, 1950-ci ildə 460, 1960-cı ildə 500 [177, s.108], 1965-ci ildə 681, 1970-ci ildə isə 791 olmuşdur [177, s.108].

Göründüyü kimi, tədqiq olunan dövrdə Naxçıvan MSSR-də dövlət və kooperativ ticarətində pərakəndə ticarət və iaşə müəssisələrinin sayı sürətlə artmışdır. Bu prosesi dövlət və kooperativ ticatətində pərakəndə mal dövriyyəsində də görmək olar. Belə ki, pərakəndə mal dövriyyəsi 1945-ci ildə 3061 min manat, olduğu halda, 1950-ci ildə 13430 min manata, 1960-cı ildə 23588 min manata [177, s.107], 1965-ci ildə 31593 min

manata, 1970-ci ildə isə 52760 min manata çatmışdır [169, s.109],

1945-1950-ci illərdən fərqli olaraq, 1955-1970-ci illərdə ticarət və ictimai iaşənin maddi-texniki bazası möhkəmləndirilmiş, mağazaların, anbarların, buzxanaların və s. digər yerlərin şəbəkəsi genişləndirilmiş, əhaliyə xidmət xeyli yaxşılaşdırılmışdır.

Kənd əhalisinin mədəni-məişət və təsərrüfat malllarına olan tələbatın ödənilməsinə xüsusi diqqət yetirilmişdi. Bu məqsədlə sənaye və ərzaq mallarına olan ehtiyacı ödəmək üçün kənd ticarət sistemlərinin geniş şəbəkəsi yarandı. Artıq dördüncü beşilliyin sonunda muxtar respublikanın 217 kəndinin hamısında mağaza və dükan fəaliyyət göstərmişdi [177, s.7].

1954-cü ilin may ayında Naxçıvan MSSR Kooperativlər İttifaqının V qurultayı oldu. Qurultay göstərdi ki, 1948-ci ildən 1954-cü ilin yanvar ayınadək payçıların sayı 5228 nəfər artmış, əmtəə dövriyyəsi planı 1948-ci ildə 102,1%, 1950-ci ildə 104,3%, 1953-cü ildə isə 106,1% yerinə yetirilmişdi. Kooperativlər İttifaqı sistemi üzrə 1953-cü ildə kolxozlara və kolxozçulara 1948-ci ildəkinə nisbətən 6 dəfə çox tikinti materialı satılmışdı. 11 yeni ictimai-iaşə müəssisələri yaradılmışdır [356, 15 may 1954]. Bununla yanaşı olaraq dövlət və kooperativ ticarətinin inkişafında qüsurlara da yol verilmiş, gündəlik tələbat duyulan, bazarlarda kifayət qədər olan malların ticarətində fasilələrə yol verilmiş, alıcılara xidmət mədəniyyəti aşağı olmuşdu.

Naxçıvan MSSR Kooperativlər İttifaqının V qurultayının qarşıya qoymuş olduğu vəzifələri yerinə yetirən muxtar respublika ticarət iaşələri ticarətin inkişafına ciddi fikir vermişdi. Məhz bunun nəticəsində 1960-cı ildə dövlət və kooperativ ticarəti üzrə pərakəndə mal dövriyyəsi 103,4% yerinə yetirilmiş və yaxud 20174 min manata çatdırılmışdı [177, s.107]. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində və rayon mərkəzlərində yeni mağazalar, kioskalar, mal saxlama anbar-

larının şəbəkəsi genişləndirilmiş, ticarət qaydalarının pozulması xeyli azaldılmış, əhalinin alıcılığı yaxşılaşdırılmış. Kənd yerləri isə bu cəhətdən nisbətən geri qalırdı.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi şəhər və rayon mərkəzlərində olduğu kimi, kənd yerlərində də ticarətin təşkilinə böyük əhəmiyyət vermişdir.

Zəhmətkeşlərin maddi-mədəni rifahının yüksəldilməsində ictimai iaşənin də rolu böyükdür. Sov.İKP proqramında deyilir: "İctimai iaşə şəbəkəsinin, o cümlədən müəssisələr, idarələr və böyük evlər yanında yeməkxanaları, əhalinin tələbatını tamamilə ödəyəcək dərəcədə genişləndirməyə xüsusi diqqət verilməlidir [345, s.88].

Naxçıvan Vilayət Partiya Komitəsi bu göstərişi rəhbər tutaraq muxtar respublikada ictimai iaşənin təşkilinə böyük əhəmiyyət vermişdir.

Tədqiq olunan illərdə əhalinin məişətində ictimai iaşənin əhəmiyyəti xeyli artmışdı. Azərbaycan SSR-də olduğu kimi, Naxçıvan MSSR-də də ictimai iaşə müəssisələrinin pərakəndə əmtəə dövriyyəsinə aid rəqəmlər göstərir ki, İkinci Dünya müharibəsindən sonrakı illərdə onun həcmi xeyli artmışdır. Yeməkxanaların, kafelərin, restoranların, çayxanaların, və s. şəbəkəsi ildən-ilə genişləndirilmişdi. 1945-1970-ci illərdə muxtar respublikada ictimai iaşə müəssisələrinin sayı xeyli artmışdır. Bu dövrdə respublikada ictimai iaşə müəssisələrinin sayı 120-dən 319-a çatmışdır [177, s.108; 169, s.110].

Muxtar respublikada ictimai iaşə müəssisələrinin sayının çoxalması bunlarda əmtəə dövriyyəsinin həcminin də artmasına səbəb olmuşdur. Belə ki, ictimai iaşə dövriyyəsi /müvafiq illərdəki qiymətlərdə/ 1945-ci ildə 449 min manat olduğu halda, 1960-cı ildə 3414 min manata [177, s.107]. 1965-ci ildə 3584 min manata, 1970-ci ildə isə 5204 min manata çatmışdır [169, s.109]. Belə bir meyl iqtisadi cəhətdən səmərəlidir.

Bunu da qeyd etmək olar ki, ictimai iaşə müəssisələrinin əksəriyyəti şəhər və rayon mərkəzlərində yerləşirdi. Bir çox

yeməkxana və kafedə xörəklərin çeşidi bir olur və keyfiyyəti insanların tələblərini ödəmirdi. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi bu sahədəki nöqsanların aradan qaldırılması məqsədilə mühüm tədbirlər gördü və yerli partiya, sovet, həmkarlar təşkilatı qarşısında belə bir vəzifə qoydu ki, kəndlərdə ictimai iaşə müəssisələrinin sayının artırılması qayğısına qalsınlar.

Muxtar respublikanın rayonları ilə birlikdə ayrı-ayrı kolxozlarda da yeməkxanalar, bufetlər və çayxanalar təşkil edildi. Bu proses şəhər və kənd əhalisinin yaşayış səviyyələri arasındakı mühüm fərqlərin aradan qaldırılmasına təsir göstərir.

Tədqiq olunan illərdə ictimai iaşə sahəsində görülən tədbirlər nəticəsində muxtar respublika zəhmətkeşlərinin mədəni şəraiti əsaslı surətdə dəyişilmişdir. Muxtar respublika əhalisi, xüsusilə qadınlar ictimai vəzifələrin yerinə yetirilməsinə, uşaqların tərbiyəsinə daha çox vaxt ayırmaq, öz istirahətlərini daha yaxşı təşkil etmək imkanı əldə etmişlər. Bu dövlətin Naxçıvan MSSR zəhmətkeşlərinə göstərdiyi böyük qayğının parlaq təcəssümüdür.

### 3.3. Muxtar respublika əhalisinin sosial təminatı və mənzil şəraiti.

Xalqın həyat səviyyəsinin yüksəldilməsində sosial təminat çox böyük əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi insan əmək qabiliyyətinə malik olduğu dövrdə cəmiyyət üçün, onun ümumi rifahı naminə çalışır. O, öz əmək qabiliyyətini itirdikdə isə cəmiyyət onun üçün işləyir, ona maddi və mənəvi kömək göstərir. Keçmiş SSRİ Konstitusiyasının 43-cü maddəsində deyilirdi: “SSRİ vətəndaşları qocaldıqda, xəstələndikdə, əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə maddi təminat hüququna malikdirlər.

Bu hüquq fəhlələrin, qulluqçuların və kolxozçuların sosial sığortası ilə, əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinətlərlə, yaşa, əlilliyə və ailə başçısını itirməyə görə

dövlət və kolxozlar hesabına pensiyalar verilməsi: əmək qabiliyyətini qismən itirmiş vətəndaşların işə düzəlməsi ilə, qocalara əlillərə qayğı göstərilməsi ilə, sosial təminatın başqa formaları ilə təmin olunur”.

İkinci Dünya müharibəsindən sonra Naxçıvan MSSR-də də sosial təminatdan istifadə olunmuşdur. Muxtar respublika zəhmətkeşlərinə pensiya və başqa yardım verilməklə yanaşı, təminatın bir çox növlərinin də istifadəsinə xüsusi diqqət verilmişdi. Habelə onlara yenidən peşə öyrədilməsi, işə düzəldilməsi, sanatoriyalara, istirahət evlərinə, uşaq müəssisələrinə pulsuz və güzəştlərlə ptyovkalar verilməsi, evlərinin təmir olunması və s.tədbirlər görülmüşdür.

Azərbaycan KP XXIX qurultayının materiallarında deyilir: “Respublika hökuməti xalqın maddi və mədəni həyat səviyyəsinin xeyli yüksəldilməsini təmin etmək vəzifələrini yerinə yetirərək yaxşı nəticələr əldə etmişdir. İndiyədək heç bir vaxt respublikada zəhmətkeşlərin həyatını yaxşılaşdırmaq sahəsində bu qədər böyük konret tədbirlər həyata keçirilməmişdir” [13, s.63].

Naxçıvan MSSR zəhmətkeşləri; xüsusilə İkinci Dünya müharibəsində iştirak etmiş əsgərlər və onların ailələri öz həyatlarında bu bəhrələrdən dolğun şəkildə istifadə etmişlər. Muxtar respublikada əsgər ailələrinə qayğını əks etdirən faktlara nəzər salaq.

Naxçıvan MSSR Sosial Təminat Nazirliyi 1946-cı ildə əsgər ailələrindən 947 nəfərini işə düzəltmiş, 440 əsgər ailəsinə 109679 manat bir dəfəlik dövlət yardımı vermiş, 2890 nəfərə dövlət hesabına 17575 dəst geyim paltarı, 6762 nəfərə 120803 kq taxıl və s. ərzaq məhsullları vermişdi. 1946-cı ildə hərbi qulluqçu ailələri dövlət qiymətilə çoxişlənən sənaye malları və yanacaqla təmin edilmişdi. 1565 nəfərə 4027 cüt ayaqqabı, 273 nəfərə 1099 kubmetr odun, 661 nəfərin mal-qarasına qış üçün 2070 sentner ot və saman, 282 nəfərə 9139 metr parça, 1455 nəfərə 1003 kq qənnadı malı, xeyli sabun, tütün və s. yardım

edilmişdi. Hərbi qulluqçu uşaqlarından 1552 nəfəri uşaq evlərinə və bağçalara düzəldilmişdi. 219 ailənin yaşayış binaları əsaslı təmir edilmiş və 16 ailə yeni mənzilə köçürülmüşdü. Kolxozlarda hərbi qulluqçu ailələri üçün xüsusi əkin sahələri ayrılmışdı [356, 25 dekabr 1946].

Muxtar respublikada 1947-ci ildə 1345 nəfər İkinci Dünya müharibəsi əlili var idi. Dövlətin qayğısı sayəsində müharibə əlillərinə 1947-ci ildə 46720 manat yardım edilmiş, 1482436 manat pensiya verilmişdi. Əlillərə ticarət təşkilatlarından 578 kq yağ, yarma, 853 kq şirniyyat, 1751 kq ət, 439 ədəd geyim paltarı, 204 cüt ayaqqabı, 44 pud duz, 650 bağlama çay və s. məhsulları verilmişdir [310, vər.25]. Yenə həmin ildə hərbi qulluqçu ailələrinə 79630 manat köməklik göstərilmiş, 1651.556 manat yardım edilmiş və 2271.835 manat isə pensiya verilmişdir [310, vər.27].

Müharibədə həlak olmuş hərbi qulluqçu ailələrinə bir dəfəlik 5466 manat pul, 422 ədəd geyim paltarı, 134 cüt ayaqqabı, 171 nəfərə 4271 kq taxıl verilmiş, 15 nəfər ailənin evi təmir olunmuş, 15 ailəyə yaşayış evi, 300 ailəyə 70 hektar torpaq sahəsi verilmiş və digər güzəştlər edilmişdir [310, vər.26].

Dördüncü beşilliyin son iki ilində 1949-1950-ci illərdə İkinci Dünya müharibəsi əlillərinə, həlak olmuş döyüşçülərin və hərbi qulluqçuların ailələrinə 12 milyon 50 min 921 manat təqaüd verilmiş və yardım edilmişdi. Bundan əlavə kolxozçuların yardım kassalarından 55,5 ton taxıl, 6667 manat pul yardım edilmişdi. 172 ailənin evləri təmir olunmuş, 386 nəfər işə düzəldilmiş, 42 nəfər sanotoriya müalicəsinə və istirahət evlərinə göndərilmişdir [217, vər.39].

Naxçıvan MSSR-də çoxuşaqlı və tək analara 1946-cı ildə 2569343 manat yardım verildiyi halda 1950-ci ildə bu rəqəm 3201619 manata çatmışdı [308, vər.31].

"Təqaüdçülərə veriləsi dövlət güzəştlərinin Naxçıvan MSSR-də vəziyyəti haqqında" Naxçıvan MSSR Nazirlər Sove-

tinin 1952-ci il 14 mart tarixli qərarında deyilir: “Muxtar respublika təqaüdçülərinə SSRİ Nazirlər Sovetinin 1948-ci il və Naxçıvan MSSR Nazirlər Sovetinin 1951-ci il 28 aprel tarixli qərarları əsasında böyük məbləğdə dövlət güzəştləri verilmiş, 1408 nəfər əlil ailə kənd təsərrüfatı vergisindən, 829 nəfər əlil ailə dövlət tədarükündən azad edilmişdir [275, vər.55].

1957-ci ildə muxtar respublika kolxozlarında 104 ictimailəşdirilmiş yardım kassası təşkil edilmişdi. Bu kassalar 1957-ci ilin sonuna əmək qabiliyyətini itirmiş qocalara və əlillərə 186 min 350 kq taxıl, 530 min 300 manat pul yardım edilmişdir [316, vər.34].

Azərbaycan SSR Nazirlər Sovetinin 22 avqust 1957-ci il tarixli qərarına görə təbii fəlakətdən zərər çəkən 29 rayona 1400000 manatlıq köməklik edilmişdir. Bu məbləğin 2400.0 min manatı Naxçıvan MSSR-in əməkçilərinə verilmişdir [8, v.94]. Bundan əlavə ehtiyacı olan ailələr üçün 200 ton taxıl, 650 kubmetr taxta-şalban ayrılmış və verilmişdi [317, vər.95]

1957-ci ilin noyabr ayında olan məlumata görə, muxtar respublikada təqaüd alanların sayı 5396 nəfərə çatmışdı. Onlara təyin edilmiş təqaüdlərin miqdarı 1187186 manat olmuşdur [318, vər.97]. Naxçıvan MSSR-də çoxuşaqlı və tək analara 1950-ci ildə 337,7 min manat müavinət verildiyi halda, 1960-cı ildə 926,6 min manat [177, s.135], 1970-ci ildə isə 1001,2 min manat müavinət verilmişdir [169, s.122].

Bu rəqəmlər onu göstərir ki, Naxçıvan MSSR-də zəhmətkeşlər dövlət qayğısı ilə əhatə olunmuşlar. Bu qayğı onların həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynamışdır.

Cəmiyyətin həyat səviyyəsinin yüksəldilməsində mənzil məsələsi mühüm yer tutur. Yaxşı mənzil şəraiti əhalinin mədəni-texniki səviyyəsinin yüksəldilməsinə, onların iş qabiliyyətinin artırılmasına və sağlamlığının möhkəmləndirilməsinə böyük təsir göstərir. Buna görə də əhalinin abad mənzilə

tələbatının ödənilməsi dövlətin həmişə diqqət mərkəzində olmuşdur.

İkinci Dünya müharibəsi xalq təsərrüfatının bütün sahələri kimi ölkəmizdə mənzil tikintisinə də ağır zərbə vurmuş, mənzil tikinfisini ləngitmişdir.

Bu dövrdə qarşıda duran ən vacib məsələ əhalinin mənzilə olan tələbatını ödəmək üçün geniş mənzillər şəbəkəsi yaratmaq idi. Ona görə də 50-ci illərin əvvəllərindən başlayaraq mənzil tikintisi sürətlə artmağa başladı. Bu zaman Naxçıvan Muxtar Respublikasında əksər hallarda standart az mərtəbəli evlər inşa edilirdi. "Tikintini sənayeləşdirmək, keyfiyyətini yaxşılaşdırmaq və dəyərini azaltmaq sahəsində tədbirlər haqqında" Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1955-ci il 23 avqust tarixli qərarından sonra Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında yaşayış evlərinin kütləvi tikintisində bir çox standart layihələr tətbiq olunmağa başlandı [203, s.139].

Müharibədən sonrakı illərdə ölkəmiz başdan-başa mənzil tikintisi meydanına çevrilmişdir. Mənzil tikintisini sürətləndirmək məqsədilə tikintinin güclü sənaye bazası yaradılmış, yeni tipli layihə üzrə tikilməsi və mənzil tikintisinin yeni mütərəqqi metodları geniş tətbiq olunmuşdu. Tədqiq edilən illərdə Naxçıvan MSSR-də dövlət və kooperativ müəssisələri, şəhər əhalisi tərəfindən tikilib istifadəyə verilmiş mənzil tikintisi xeyli inkişaf etmişdir. Məsələn, 1955-ci ildə dövlət kooperativ müəssisələri, şəhər əhalisi tərəfindən tikilib istifadəyə verilən mənzil fondu 16,8 min kv.metr olduğu halda, bu rəqəm 1960-cı ildə artaraq 33,3 min kv.metr olmuşdur [177, s.90].

Bütün bunlarla yanaşı 1946-1960-cı illərdə Naxçıvan MSSR xalq təsərrüfatı planında mənzil tikintisinə, abadlıq işlərinə külli miqdarda dövlət vəsaitinin ayrılmasına baxmayaraq, obyektiv və subyektiv səbəblər nəticəsindən bu mühüm məsələ tam həll edilməmiş, dövlət vəsaitindən çox az istifadə edil-

mişdir. Nəticədə muxtar respublikada mənzil tikintisi planı bir qayda olaraq yerinə yetirilməmişdir. Mənzil tikintisində yaranmış nöqsanlar Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin XXI /1955-ci il/ və XXIII /1958-ci il/ konfranslarında müzakirə edilmiş, mövcud nöqsanları aradan qaldırmaq üçün qərarlar qəbul edilmişdir. Lakin sonrakı illərdə Naxçıvan MSSR-nin şəhər və kəndlərində mənzil tikintisi geniş vüsət almışdır. Bu isə muxtar respublika əhalisinin həyat səviyyəsinin yüksəldilməsinə çox mühüm təsir göstərmişdir.

Muxtar respublikada 1955-1970-ci illərdə dövlət, kooperativ və şəhər əhalisindən fərqli olaraq, kolxozçular və kənd ziyalıları tərəfindən tikilib istifadəyə verilən mənzil fondları çox idi. Belə ki, 1955-ci ildə kolxozçular və kənd ziyalıları tərəfindən tikilib istifadəyə verilən mənzil fondu 47,3 min kv.metr olduğu halda, 1960-cı ildə 59,8 min kv.metrə, 1970-ci ildə 48,8 min kv metrə çatdırılmışdır [169, s.92].

Muxtar respublikada dövlət kooperativ müəssisələri tərəfindən yaşayış evlərinin tikilməsi işi 1970-ci ildə də, xeyli artmış 58,8 min kv.metrə yüksəlmişdi [169, s.92]. Bunun başlıca səbəbi Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda syasi hakimiyyətə gəlməsi və Naxçıvana göstərmiş olduğu qayğı idi.

### 3.4. Təhsilin inkişafı.

Hər bir millətin gələcəyini təhsil müəyyən edir. Millət təhsillə irəli gedir, milli şuru artırır, intelektual potensialı yüksəlir. Tarixən hansı millət təhsilə böyük əhəmiyyət vermişdisə, o millət daha çox inkişaf etmiş və irəli getmişdi. Təsadüfi deyil ki, xalqımızın maarifçiləri, mütəfəkkirləri əhalinin savadlanmasına, təhsilli olmasına xüsusi əhəmiyyət vermiş, bu istiqamətdə böyük fəaliyyət göstərmişlər.

İkinci Dünya müharibəsinin başlanması muxtar respublikanın bütün sahələrində olduğu kimi, maarif sistemini də ciddi sınaqlar qarşısında qoydu. Muxtar respublikada çalışan 771

nəfər müəllimdən 570-i cəbhəyə göndərildi. Müharibə təhsil müəssisələrinin maddi-texniki bazasına ağır zərbə vurdu.

İkinci Dünya müharibəsindən sonra Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da təhsilə, maarifə həmişə diqqət yetirilmiş, qayğı göstərilmişdi. Naxçıvanda təhsil şəbəkəsinin tədris-maddi bazasını möhkəmləndirmək, məktəbləri pedaqoji kadrlarla təmin etmək, təlim və tərbiyə sistemini yaxşılaşdırmaq, tədrisin səviyyəsini yüksəltmək üçün mühüm əməli tədbirlərin həyata keçirilməsi bir vəzifə kimi qarşıya məqsəd qoyulmuşdur.

Müharibədən sonra muxtar respublikada məktəblərin pedaqoji kadrlarla təmin edilməsində ciddi problemlər qalmaqda idi. Məktəblərdə çalışan müəllimlərin əksəriyyətinin ali pedaqoji təhsili yox idi, onların metodiki hazırlığında ciddi qüsurlar var idi. Buna görə də bütün respublikada olduğu kimi, muxtar respublikada da müəllimlərin qiyabi yolla ali təhsil alması praktikası yayılmışdı. 1948-ci ildə Azərbaycan Qiyabi Pedaqoji İnstitutunda muxtar respublikadan 52 nəfər müəllim oxuyurdu. Lakin onların dərs planlarını yerinə yetirmə faizi çox aşağı olub, cəmi 36,5% təşkil edirdi [45, s.54].

Müharibədən sonra dördüncü beşillikdə (1946-1950-ci illər), eləcə də 1950-1970-ci illərdə iqtisadiyyatın bərpası, təsərrüfat və mədəni quruculuqda, sosial inkişaf planlarının yerinə yetirilməsində əldə edilmiş nəticələr Naxçıvan MR-da maarifçiliyin inkişafına öz təsirini göstərmişdi.

Muxtar respublikada təhsilin inkişafı üçün ilk növbədə məktəb şəbəkələrini bərpa və inkişaf etdirməsinə də çox ciddi fikir verilmişdi.

Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: "Məktəb insanın dünyagörüşünün bünövrəsini qoyur, onun xarekterini formalaşdırır, ideya dayaqlarının, mənəvi və əxlaqi dayaqlarının təməli yaradılır. Məktəbin təsiri altında... Əməyə məhəbbət, yüksək mənəviyyat, vətənpərvərlik və beynəlmiləlçilik kimi zəruri keyfiyyətlər tərbiyə edilir" [51, s.15].

Təhsilin inkişafını təmin edən mühüm amillərdən biri bu sahəyə ayrılan dövlət vəsaitinin ilbəil artırılması idi. Belə ki, 1945-ci ildə Naxçıvan MSSR-in yerli büdcəsi üzrə maarif xərcləri 1580,0 min manat təşkil etmişdi, 1950-ci ildə bu rəqəm 2678,5 min manata, 1960-cı ildə 3884,7 min manata [177, s.123], 1965-ci ildə 7528,6 min manata, 1970-ci ildə isə 11282,0 min manata çatdırılmışdı [169, s.124].

Təhsilə ayrılan dövlət vəsaitinin əsas hissəsi yeni məktəb binalarının tikintisinə, əmək haqqının artırılmasına, tədris müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, məktəblər üçün yeni avadanlıq və tədris ləvazimatı, dərslik və dərs vəsaitlərinin alınmasına xərclənirdi. Bu sahəyə ayrılan büdcə vəsaitinin ildəil artırılmaslına baxmayaraq, muxtar respublikanın məktəblərinin müasir avadanlıq və dərs vəsaitləri ilə təminatı hələ də müasir tələblər səviyyəsində deyildi [45, s.52].

1945-1970-ci illərdə Naxçıvan MSSR-da ümumtəhsil məktəblərinin şəbəkəsi genişlənmiş, onların quruluşunda mühüm dəyişiklik baş vermişdi. Belə ki, 1945-1946-cı tədris ilində muxtar respublikada 176 ümumtəhsil məktəbi var idisə (fəhlə, kəndli - gənclər məktəbləri və yaşlılar məktəblərindən başqa; məktəblərin 10-u şəhərdə, 166-sı kənddə yerləşirdi), 1950-1951-ci ildə onların sayı 185-ə (onların 12-si şəhərdə, 173-ü kənddə yerləşirdi), 1959-1960-cı ildə 197-yə (17 şəhərdə, 180 kənddə) [177, s.111-112], 1964-1965-ci ildə 204-ə (onların 17-si şəhərdə, 187-si kənddə yerləşirdi), 1969-1970-ci ildə isə 211-ə (onların 17-si şəhərdə, 192-si kənddə) çatdırılmışdı. Bu illərdə məktəblərdə şagird kontigenti də xeyli artmışdı. 1945-1946-cı tədris ilində Naxçıvan MSSR-nin ümumtəhsil məktəblərində təhsil alanların sayı 21198 nəfər olduğu halda, bu rəqəm 1950-1951-ci tədris ilində 25093 nəfərə, 1959-1960-cı tədris ilində 25180 nəfərə çatmışdı [177, s.111].

Ümumtəhsil məktəblərinin quruluşunda 1945-1946-cı illərdə məktəblərin sayı 70 idisə, 1950-1951-ci ildə onların sayı 79, 1959-1960-cı illərdə 78-ə çatdırılmışdı. Yeddiillik və səkkizillik məktəblərin sayı 1945-1946-cı illərdə 77 olduğu halda, bu rəqəm 1950-1951-ci illərdə 75, 1959-1960-cı tədris ilində 73 [177, s.113],1964-1965-ci ildə 82, 1969-1970-ci ildə isə 88 olmuşdu [169, s.114]. Naxçıvan MSSR-da yeddillik və səkkizillik məktəb şəbəkəsinin azalmasının səbəbi ümum orta məktəb şəbəkəsinin genişləndirilməsi ilə əlaqədar idi. Qeyd etmək olar ki, 1945-1946-cı ildə muxtar respublikada 29 orta məktəb olduğu halda, bu rəqəm artaraq 1950-1951-ci tədris ilində 31, 1959-1960-cı tədris ilində 46, 1964-1965-ci tədris ilində 46, 1969-1970-ci ildə isə artaraq 67-yə çatmışdı, o cümlədən orta məktəbdə təhsil alan şagirdlərin sayı da dəyişmişdi. Belə ki, 1945-1946-cı illərdə muxtar respublikanın orta ümumtəhsil məktəblərində oxuyan şagirdlərin sayı 9091 nəfər olduğu halda, 1950-1951-ci ildə 11876 nəfər, 1959-1960-cı ildə 15852 nəfər, 1964-1965-ci ildə 22616 nəfər, 1969-1970-ci ildə isə 36905 nəfər olmuşdu [177, s.113-114; 169, s.114].

1959-1960-cı dərs ilində Naxçıvan MSSR-də politexniki və əmək təlimini yaxşılaşdırmaq məqsədi ilə 250 min manatlıq yeni avadanlıq alınmış və 18 məktəb yanında emalatxana üçün bina tikilmişdir. Muxtar respublikanın məktəbləri üçün 250 min manatlıq kabinə və laboratoriya cihazları, 110 min manatlıq tədris ləvazimatı, 600 min manatlıq yumşaq və bərk inventar alınmışdı [31, s.57].

Gənclərin istehsalatdan ayrılmadan təhsil almalarında fəhlə və kəndli gənclər məktəblərinin və qiyabi məktəblərin (yaşlılar məktəblərinin) roluna da muxtar respublikada xüsusi diqqət yetirilirdi. Bu dövrdə muxtar respublikada bu tip məktəblərin geniş şəbəkəsi yaradılmışdı. 1951-1952-ci dərs ilində 46 belə məktəbdə 1010 nəfər, 1959-1960-cı dərs ilində 33 məktəbdə 1483 nəfər təhsil alırdı. İstehsalatda çalışan gəncləri ümumtəhsil məktəblərinə cəlb etmək üçün sonrakı

illərdə də müəyyən addımlar atılmışdı. Belə ki, 1962-1963-cü dərs ilində 55 məktəbdə 2295 nəfər təhsil alırdı [177, s.116].

Muxtar respublikada 60-cı illərin ikinci yarısında maarif müəssisələrinin maddi-texniki bazasınınn artırılması sahəsində ciddi addımlar atıldı. 1966-1970-ci illərdə maarifin ehtiyaclarına 40,9 mln. Manat ayrıldı ki, bu da 1942-ci ilə nisbətən 10 dəfə çox idi. Həmin illərdə kapital qoyuluşu hesabına 4300 yerlik 5 yeni məktəb tikilmiş, 4780 yerlik 26 məktəb təmir edilmiş, kolxozların hesabına 2900 yerlik 40 məktəb binası tikilmişdi. Şahbuz rayonunda 36 sinif otağı, 4 məktəb binası, Culfa rayonunda 22 sinif otağı və 2 şagird emalatxanası, Ordubad rayonunda isə 50 sinif otağı və 4 məktəb binası tikilmişdi. Digər mənbələr hesabına 12500 şagird yerlik 500 sinif otağı, emalatxanalar və yardımçı binalar tikilmişdi. Bütövlükdə 1959-1965-ci illərdə 7750 şagird yerlik 35 məktəb binası, 18840 şagird yerlik 628 sinif otağı, 1966-1970-ci illərdə isə 13420 şagird yerlik 43 məktəb, 16410 yerlik 547 sinif otağı tikilmişdi [45, s.54].

Göstərilən illərdə muxtar respublikada tibb, pedaqoji, kənd təsərrüfatı texnikumları və digər xüsusi orta ixtisas məktəbləri də fəaliyyət göstərmişdi. 1946-cı ildə burada fəaliyyət göstərən 3 texnikum və orta ixtisas məktəblərində 649 nəfər təhsil alırdısa, sonralar təhsilin inkişafı sabit durumda olmamışdı. Həmin illərdə orta təhsilli mütəxəssislərin sayı ilbəil azalmışır və artmışdı. Bu muxtar respublikada aparılmış planlaşdırma ilə əlaqədardır. Belə ki, 1959-1960-cı ildə 2 texnikumda cəmi 274 nəfər tələbə təhsil alırdısa, 1970-ci ildə 3 orta ixtisas məktəbində təhsil alanların sayı 1070 nəfərə çatmışdı [177, s.117; 182, s.66].

Qeyd etmək olar ki, muxtar respublikada 1946-1960-cı illərdə fəaliyyət göstərən texnikumları və digər xüsusi orta ixtisas məktəblərini 1449 nəfər mütəxəssis bitirmişdi.

Naxçıvan MSSR-da yeni tipli təlim-tərbiyə ocaqları olan internat məktəbləridə fəaliyyət göstərmişdi. “İnternat-məktəb-

ləri yeni tipli təlim-tərbiyyə ocağı olmaq etibarı ilə yeni insanın yetişdirilməsində, təhsilin istehsalatla birləşdirilməsində yüksək nümunə göstərmişlər. Ölkədə internat-məktəblərində uşaqların dərin bilik, düzgün tərbiyə almaları, əmək vərdişləri qazanmaları və məzmunlu istirahət edə bilmələri üçün hər cür imkan yaradıldı" [31, s.63].

İmkansız ailələrdən olan uşaqların təlim-tərbiyyəsini və təhsil almaq imkanlarını genişləndirmək üçün 1958-ci ildə Ordubadda, 1959-cu ildə Şahbuzda internat məktəbləri açıldı [45, s.56]. 1958-1959-cu dərs ilində muxtar respublikada şagird şəbəkəsi 100 nəfər olan Əbrəqunus internat məktəbidə fəaliyyətə başladı [307, vər.45].

1957-1958-ci dərs ilində muxtar respublikada 500 şagirdi əhatə edən 16 məktəbyanı internat şəbəkəsi yaradıldı [46, s.8]. Bunların bir çoxunda o cümlədən Çayşahbuz, Əbrəqunus orta məktəblərinin yanında yerləşən internatlarda şagirdlərin sayı ildən-ilə artırılmışdı. Şagirdlərin mədəni-məişət şəraitlərinin yaxşılaşdırılması sahəsində xeyli işlər görüldü. Lakin Culfa rayonunun Əbrəqunus, Noraşen (indiki Şərur) rayonunun Tumaslı, Şahbuz rayonunun Kükü və sair orta məktəbləri yanındakı internatlar dövrün tələbatına cavab vermirdilər. Demək olar ki, bu internatlar sərbəst ayrı binalarda yerləşdirilmiş, maddi-texniki bazası və sosial-iqtisadi şəraiti zəif idi.

Buna görə də bəhs edilən illərdə muxtar respublikada internatlara şagird qəbulu planı ödənilməmişdir. Məktəbyanı internatlarda otaqların çatışmadıqlarına görə şagirdlər onlar üçün ayrılmış otaqlarda həm yatır, həm xörək yeyir, həm də dərs hazırlayırdılar. Şəhər rayon, qəsəbə və kənd sovetləri icraiyyə komitələrivə maarif orqanları rəhbərlərinin bu nöqsanlarla razılaşmalarının nəticələri idi ki, 1959-cu ildə muxtar respublikanın xalq təsərrüfat planında 17 məktəbyanı internatda nəzərdə tutulmuş 500 şagird əvəzinə 401 nəfər cəlb edilmiş, dövlət planı kəsirlə yerinə yetirilmişdir. [307, vər.46].

1950-60-cı illərdə muxtar respublikada məktəbəqədər uşaq müəssisələrinin işinə də ciddi fikir verilirdi. Çünki xalq maarifinin başlıca sahəsi olan məktəbəqədər tərbiyə müəssisələri uşaqların hərtərəfli inkişaf etdirilməsində və onların məktəbdə oxumaq üçün hazırlanmasında böyük rol oynayır. Əgər məktəb xalq mədəniyyətinin və maarifin bünövrəsidirsə, məktəbəqədər tərbiyə müəssisələri həmin bünövrənin müvəffəqiyyətlə qurulması üçün zəmin yaradır [81, s.14].

Məktəbəqədər tərbiyə müəssələri uşaqların məktəbdə təhsil almağa hazırlanmasını təmin edir, onlarda istehsalatda və ictimai həyatda fəal iştirak etmək üçün real imkanlar yaradır.

Məktəbəqədər tərbiyə müəssisələrinə uşaqlar valideyinlərinin və ya qəyyumların arzusu ilə qəbul edilirlər. Ümumi və xüsusi körpə evləri, uşaq bağçaları və digər məktəblər tərbiyə müəssisələrinin vəzifəsi ilə sıx əməkdaşlıq şəraitində uşaqları hərtərəfli ahəngdar surətdə inkişaf etdirməkdən və tərbiyələndirməkdən, habelə onların cansağlığını qorumaqdan və möhkəmləndirməkdən ibarətdir.

Məktəbəqədər yaşlı uşaqlara qayğı, onların ictimai tərbiyəsi, sağlamlığının mühafizəsi, uşaqların tərbiyəsində ailəyə, xüsusən çoxuşaqlı ailəyə hər cəhətdən kömək göstərilməsi həmişə dövlətin diqqət mərkəzində olmuşdu.

Belə ki, 1950-ci ildə muxtar respublikada 20 uşaq baxçası olduğu halda, bu rəqəm 1960-cı ildə 22 olmuşdur. 1950-ci ildə uşaq baxçalarında uşaqların sayı 350 nəfər olduğu halda, 1960-cı ildə uşaqların sayı 594 nəfərə çatmışdı. 1950-ci ildə uşaq baxçalarında uşaqların tərbiyəsi ilə 40 nəfər tərbiyəçi məşğul olurdusa, bu rəqəm 1960-cı ildə 57-yə çatmışdı. Hətta, sonrakı illərdə daha da çoxalmışdı. 1963-cü ildə uşaq baxçalarının sayı 27, onlardakı uşaqların sayı 993 nəfər, tərbiyəçilərin sayı 87 nəfərə çatmışdı [177, s.136].

50-60-cı illərdə muxtar respublikada körpələr evləri də fəaliyyət göstərmişdi. Bu zaman uşaq baxçalarından fərqli olaraq daimi körpələr evlərinin və oraya cəlb olunan körpələrin

sayı artmışdı. 1950-ci ildə muxtar respublikada daimi körpələr evinin sayı 14, onlardakı körpələrin sayı 375 nəfər olduğu halda, 1960-cı ildə 14 körpə evlərində körpələrin sayı 430 nəfərə çatmışdı [177, s.137]. Muxtar respublikada bu artıma baxmayaraq, uşaqların təlim-tərbiyə və təhsilə hazırlanmasında çox mühüm rol oynayan uşaq tərbiyə müəssisələrinin işi hələ günün tələbi səviyyəsinə yüksəlməmiş və cavab vermirdi.

1963-cü ildə 27 baxçada 993 uşaq tərbiyə alırdı, tərbiyəçilərin sayı isə 87 nəfər idi. 1970-ci ildə uşaq müəssisələrinin sayı 65 (onların 40-ı kənd yerlərində), orada tərbiyə alan uşaqların sayı isə iki dəfədən çox artaraq 2531-ə çatmışdı. Eyni zamanda mərkəzi pioner və məktəblilər evi, müəllimlər evi, pioner evi, gənc texniklər stansiyası, uşaq parkıvə s.fəaliyyətə başlamışdır [45, s.56].

Müharibədən sonrakı illərdə Naxçıvan MSSR ümumtəhsil məktəblərinin yüksək ixtisaslı kadrlarla təmin edilməsi işi də xeyli yüksəlmiş, müəllimlərin tərkibində mühüm kəmiyyət və keyfiyyət dəyişiklikləri də olmuşdur. 1945-1946-cı dərs ilində muxtar respublikanın ümumtəhsil məktəblərində 936 nəfər müəllim var idisə, 1950-1951-ci dərs ilində onların sayı 1255 nəfərə, 1959-1960-cı dərs ilində 1984 nəfərə [177, s.111], 1964-1965-ci ildə 2580 nəfərə, 1969-1970-ci dərs ilində isə 3066 nəfərə çatmışdı [169, s.113].

40-cı illərin ikinci yarısı 50-ci illərdə muxtar respublikada məktəblərin pedaqoji kadrlarla təmin edilməsində ciddi problemlər qalmaqda idi. Məktəblərdə fəaliyyət göstərən müəllimlərin əksəriyyətinin ali pedaqoji təhsili yox idi. Onların metodiki hazırlığında ciddi qüsurlar var idi. Buna görə də muxtar respublikada müəllimlərin qiyabi yolla təhsil alması praktikası yayılmışdı. 1948-ci ildə Azərbaycan Qiyabi Pedaqoji İnistitutunda muxtar respublikadan 52 nəfər müəllim oxuyurdu. Bu iş sonrakı illərdə də davam etdirilmişdi.

Göstərilən dövrdə muxtar respublikada məktəblərin pedoqoji kadrlarla təmin edilməsində Azərbaycan SSR-nin ali

məktəbləri, Naxçıvan ikiillik müəllimlər inistitutu və Ordubad pedoqoji məktəbinin mühüm rolu olmuşdu.

Müharibədən sonrakı dövrdə Naxçıvan MSSR-nin ibtidai, natamam orta və orta məktəblərinə pedaqoji kadrlara olan kəskin ehtiyacının ödənilməsində, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnistitutunun da mühüm xidmətləri olmuşdur. İnistitutu bitirmiş məzunların əksəriyyəti Naxçıvan MSSR-nin kəndlərində pedaqoji fəaliyyətə başlamış, ictimai-siyasi həyatda fəal iştirak etmişdilər. Müəllimlər inistitutunu əyani bitirən məzunlarla yanaşı, 1944-cü ildə inistitutun qiyabi şöbəsinin də fəaliyyətə başlaması məktəb-lərdə çalışan orta və natamam orta təhsilli müəllimlərin öz təhsilini davam etdirmələrinə şərait yaratmışdı. Bu isə öz növbəsində məktəblərin kadr problemlərini aradan qaldırmağa kömək etmişdi. Tarix üzrə fəlsəfə doktoru V.Məmmədovun hesablamasına görə inistitut mövcud olduğu dövrdə 1159 nəfər (onlardan 381 nəfəri qadın idi) bitirmişdir [157, s.103].

Naxçıvan Müəllimlər inistitutunun məzunlarının bir çoxu sonralar öz təhsillərini Azərbaycanın ali məktəblərində davam etdirmiş, onların arasından Azərbaycanın görkəmli elm və mədəniyyət numayəndələri, ictimai-siyasi və dövlət xadimləri çıxmışdır. 1939-1954-cü illərdə fəaliyyətinə baxmayaraq, Naxçıvan Müəllimlər inistitutu Azərbaycanda və Naxçıvanda ictimai-siyasi fikrin, maarifin və mədəniyyətin inkişafında mühüm rol oynamış, onun yetirmələri xalqımızın bir neçə nəslinin tərbiyəsində və maariflənməsində xidmətlər göstər-mişlər.

Tədqiq olunan illərdə Naxçıvan MSSR məktəblərində dərs deyən müəllimlərdən, xalq maarifi sahəsindəki xüsusi xidmətlərinə və qüsursuz işlərinə görə 20 nəfərə Azərbaycan SSR-in, 71 nəfərinə isə Naxçıvan MSSR-in əməkdar məktəb müəllimi fəxri adı verilmişdir. Bu müəllimlərdən Murad Tutayuq, Cəfər Imanov, İdris Səlimov, Nuriyyə Qafarova, Tatyana Kvasina, Məsudə Nuriyeva və onlarla başqaları

özlərinin bütün bilik və bacarıqlarını gənc nəslin Vətənə sədaqət, xalqa məhəbbət ruhunda tərbiyə edilməsi işinə sərf etmişlər [158, s.37-38].

Naxçıvan xalq maarifinin 40 ildə keçdiyi inkişaf yolunu və qazanılmış nailiyyətləri nəzərdən keçirərkən ilk təksillərini bu məktəblərdə almış görkəmli alim və sənətkarların adını iftixar hissi ilə çəkirik. Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti, akademik Yusif Məmmədəliyev, iqtisad elimləri doktoru Bəhmən Axundov, iqtisad elimləri doktoru Əliqulu Fərəcov, fəlsəfə elimləri doktoru Mehbalı Qasımov, tarix elimləri doktoru, akademik Şirəli Məmmədov, fizika-riyaziyyat elimləri doktoru akademik Həsən Abdullayev, filologiya elimləri doktoru Əziz Şərif, Əli Sultanlı, biologiya elimləri doktoru, akademik Müzəffər Abutalıbov, onlarla elimlər namizədləri və başqa elm, incəsənət xadimləri Naxçıvan zəhmətkeşlərinin yetirmələridir [158, s.39].

Qeyd etmək olar ki, 60-cı illərdə keçmiş Sovetlər birliyində ali təhsil ocağı olmayan yeganə muxtar respublika Naxçıvan idi. Buna görə də, 60-cı illərdə Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi Hacağa İbrahimov, Vilayət Partiya Komitəsinin üçüncü katibi Qənbər Qurbanov, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyyətinin sədri Səkinə xanım Əliyeva, Naxçıvan MSSR Nazirlər Sovetinin sədri Ramazan İsmayılov, onun birinci müavini Səfəralı Babayev və başqaları Naxçıvanda ali məktəb açılması işinə çox ciddi yanaşırdılar. Çünki Naxçıvanda ali məktəbin açılması diyarın mədəni-iqtisadi inkişafı üçün çox vacib idi. Universitetdə xalq təsərrüfatının bütün sahələri üçün kadırlar hazırlamaq mümkün idi.

Naxçıvanda məktəb sisteminin inkişafı, məktəblərin və şagird kontingentinin artması ixtisaslı müəllim kadrlara ehtiyacı daha da artırdı. Naxçıvan ziyalıları, alimləri mütəmadi olaraq mətbuat səhifələrində səlahiyyətli orqanlar qarşısında

Naxçıvanda ali pedaqoji təhsil ocağının açılması məsələsini qaldırdılar.

1966-cı ilin iyun ayında SSRİ Ali Sovetinə növbəti seçkilər keçirilirdi. Seçkilərdən sonra Mərkəz Naxçıvanda ali məktəb açılmasına razılıq vermişdi. 1967-ci ilin aprel ayında Naxçıvanda Azərbaycan Pedaqoji İnstitutunun filialının açılacağı haqqında qərar qəbul edildi [369, s.22].

APİ-nin prorektoru dos. M.S.Tahirli Naxçıvana gəldi, filial üçün bina müəyyənləşdirdi. Kadr məsələsi də müzakirə olundu. O zamanlar müəssisələrə kadr təyin edəndə Mərkəzi Komitə ilə razılaşırdılar. Azərbaycan MK və Naxçıvan Vilayət Partiya Komitəsinin razılığı ilə 1941-47-ci illərdə Naxçıvan MSSR Maarif Komissarı, Naxçıvan MSSR Ali Soveti Ryasət Heyyətinin katibi, Naxçıvan "Bilik" cəmiyyətinin sədri kimi mühüm vəzifələrdə işləmiş, dövlətçilik təcrübəsinə malik olan, tarix elmləri namizədi, dos. Əli Əliyevin Naxçıvan Filialında direktor işləməsinə etiraz olmamşdı. Bunu nəzərə alan APİ-nin rektoru Şövqi Ağayev 27 avqust 1967-cil il tarixdə yenicə təşkil olunmuş APİ-nin Naxçıvan filialına dosent Əli Əliyevi direktor vəzifəsinə təyin edib əmr vermişdi [369, s.22].

1967-ci il sentyabrn 1-də APİ-nin Naxçıvan filialı öz qapılarını tələbələrin üzünə açdı və fəaliyyətə başladı. 1967-ci ilin sentyabr aynda fəaliyyətə başlamış Naxçıvan filialına Azərbaycan dili və ədəbiyyat, tarix və riyaziyyat ixtisasları üzrə cəmi 105 nəfər tələbə qəbul olunmuşdur. 105 nəfər tələbə və 3 nəfər müəllimlə (tarix elmləri namizədi, dosent Əli Əliyev, filologiya elmləri namizədi dosent Yavuz Axundov, Mahmud Mahmudov) fəaliyyətə başlayan Azərbaycan Dövlət Pedaqoji İnstitunun Naxçıvan filialı (indiki Naxçıvan Dövlət Universiteti) Naxçıvanın təhsil tarixində xüsusi bir mərhələnin əsasını qoydu. Azərbaycan dili və ədəbiyyatı, tarix və riyaziyyat ixtisasları ilə fəaliyyətə başlayan bu təhsil müəssisəsində 1968-ci ildə kitabxana yaradıldı, riyaziyyat ixtisasının qiyabi şöbəsi təşkil olundu. 1969-cu ildə Azərbaycan dili və ədəbiy-

yat, tarix ixtisaslarının da qiyabi şöbələri açıldı, 1970-ci ildə bu ixtisasların sırasına coğrafiya da əlavə olundu. 1967-ci ildə filiala 105, 1968-ci ildə 132, 1969-cu ildə 173, 1970-ci ildə 208 tələbə qəbul olunmuşdu [203, s.120-121].

1969-cu ildə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyiə gəlməsi ilə Azərbaycan tarixində əsl dönüş mərhələsi oldu. Azərbaycanın, o cümlədən Naxçıvanın tarixində, iqtisadi, siyasi, mədəni inkişafında canlanma, tərəqqi dövrü başlandı.

### 3.5. Səhiyyənin inkişafı.

Bütün elmlər kimi tibb tarixinin də Azərbaycan xalqının tarixində özünəməxsus yeri vardır. Tibb tarixi ilə tanış olmadan təbabəti dərindən öyrənmək mümkün deyildir. Tibb tarixində təbabətin keçmişi dərindən öyrənilir ki, onun hazırkı mərhələsini yaxşı dərk etmək mümkün olsun və gələcəyi proqnozlaşdırmağa imkan yaratsın.

Tibb tarixi elm və mədəniyyətin ümumi tarixinin bir hissəsi olub, elmi fikirlərin məntiqinin və inkişafının keçmişini və indiki vəziyyətini əks etdirir və tibb nəzəriyyəsi və səhiyyənin inkişafının gələcəyini qabaqcadan görməyə imkan verir. Buna görə İkinci Dünya müharibəsindən sonra Naxçıvan Muxtar Respublikasında səhiyyə sahələrinin inkişafının öyrənilməsi mühüm yerlərdən birini tutur.

İkinci Dünya müharibəsindən sonra bütün sahələrdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasının səhiyyəsində də çətinliklər var idi. 1946-cı ilin mart ayında SSRİ Ali Soveti dördüncü beşillikdə 1946-1950-ci illərə aid bərpa və xalq təsərrüfatının inkişaf planını qəbul etdi.

Naxçıvan MSSR-i üzrə səhiyyə planında nəzərdə tutulmuşdur ki, 1950-ci ildə xəstəxanalarda çarpayıların sayı 1940-cı ildəki 399-dan 735-ə, daimi uşaq yaslilərində yerlərin sayı 247-dən 351-ə, feldşer – ambulator məntəqələrinin sayı 60-dan 107-yə, sanitar – epidemioloji stansiyaların sayı 1-dən 4-ə,

qadın və uşaq məsləhətxanalarının sayı isə 3-dən 7-yə və s. çatdırılsın.

1947-ci ildə muxtar respublikada 97 nəfər həkim işləyib, onlardan terapevt 36 nəfər, cərrah 5 nəfər, göz həkimi 3 nəfər, mama – ginekoloq 5 nəfər, rentgenoloq 2 nəfər, diş həkimi 6 nəfər, uşaq həkimi 8 nəfər, nevropatoloq 2 nəfər, otorino-larinqoloq 1 nəfər, epidemioloq 2 nəfər, sanitar həkimi 10 nəfər, malyarioloq 6 nəfər, veneroloq 5 nəfər, bakterioloq 1 nəfər olmuşdur [42, s.58].

Müharibədən sonra muxtar respublikanın səhiyyə orqan-larının əsas vəzifəsi nəinki, səhiyyənin şəbəkəsini artırmaq, habelə tibbi xidmətin keyfiyyətini ixtisaslaşdırılmış növ xidmətini inkişaf etdirməklə təmin etməkdən ibarət idi. Bu ərəfədə Naxçıvan şəhər poliklinikası respublika xəstəxanası ilə, Ordubad şəhər poliklinikası Ordubad şəhər xəstəxanası ilə, Culfa şəhər poliklinikası Culfa şəhər xəstəxanası ilə, Naxçıvan şəhər uşaq poliklinikası Naxçıvan şəhər uşaq xəstəxanası ilə birləşdirildi. Birləşmiş xəstəxanalarda xəstələrin müalicəsini yaxşılaşdırmaq və diaqnozun keyfiyyətini qaldırmaq məqsədilə diaqnostik laboratoriya, fizioterapevtik və rentgen kabinələri təşkil olundu**.**

1946-cı ilin mart ayında Xalq Səhiyyə Komissarlığı nazirliyə çevrildi. 1946-cı ilin martında əhaliyə onkoloji xidmət göstərmək üçün Naxçıvan şəhər poliklinikasının nəzdində onkoloji kabinet açılır. Respublika xəstəxanasının ümumi çarpayılarının hesabına 20 çarpayı onkoloji xəstələr üçün ayrılır.

Bir vaxtdan sonra (may 1947) Ordubad şəhər, Şərur rayon xəstəxanalarında hər birində 5 çarpayı olmaqla onkoprofilaktik çarpayı ayrılır, bu rayonların poliklinikalarında isə onkoprofilaktik kabinetlər təşkil edilir [164, s.93].

Müharibədən sonra muxtar respublikada onkoloji dispanserin rəhbərliyi altında respublikanın rayon və kənd xəstəxanaları xənçəng xəstəliyinin erkən formasını aşkara

çıxartmaq məqsədilə əhalinin kütləvi profilaktik müayinəsini aparmağa başladılar. Respublikada vərəm xəstəliyinə qarşı mübarizə tədbirlərini genişləndirmək məqsədilə Ordubad, Culfa və Şərur rayonlarına hərəsinə 5 vərəm çarpayısı ayrıldı.

İkinci Dünya müharibədən sonrakı illərdə Naxçıvan MSSR-də tibb müəssələrinin şəbəkəsi xeyli genişləndirilmiş, xəstəxanaların mərkəzləşdirilməsi sahəsində çox iş görülmüşdür. Müharibədən sonra sanitar – epidemioloji stansiyalarda işləyən həkimlərin sayı 1945-ci ilə nisbətən demək olar ki, 4 dəfə artmışdı. Həmin xəstəxanalarda yüksək ixtisaslı mütəxəssislər: sanitar həkimlər, epidemioloqlar, bakterioloqlar, parazitoloqlar və başqaları işləyirdilər. Habelə burada işləyən orta tibb işçilərinin də sayı xeyli artmışdı. Muxtar respublikada 1950-ci ildə 27 xəstəxana, 100 feldşer – mama məntəqəsi, 139 həkim, 471 orta tibb işçisi fəaliyyət göstərmişdir [203, s.83].

Müharibədən sonrakı illərdə muxtar respublikada dəri-zöhrəvi xəstəlikləri də geniş yayılmışdır. 1947-ci ildə 38 təzə sifilis, 32 süzənək qeydə alınmış, 1946-cı ildə isə 48 təzə sifilis, 63 süzənək və 1 yumşaq şankr aşkar edilmişdi. Respublikada ümumi yoluxma zamanı 635 keçəllik aşkar edilmişdi. Keçəllərin müalicəsində əsas çətinlik rentgen kabinetlərinin müntəzəm işləməməsi olmuşdu. 1947-ci ildə 3 nəfər cüzamlı xəstə aşkar edilərək Bakı şəhərinə göndərilmişdir [42, s.60].

1947-ci ildə respublikanın əhalisinin 40%-i, 1952-ci ildə isə 70%-i göbələk xəstəliyinə görə müayinə edilmişdi. Aşkar olunan xəstələr müalicəyə cəlb edilmişdilər. Zöhrəvi xəstəliklərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi nəticəsində 1952-ci ildə sifilisin aktiv forması kəskin aşağı düşmüşdü. 1946-cı ilə nisbətən xəstəlik demək olar ki, 4 dəfə azalmışdı [164, s.94].

1949-cu ilin dekabrında respublika birləşmiş xəstəxanasının poliklinika şöbəsində bədən tərbiyəsi kabineti açılmışdı, bir qədər sonra (avqust 1950-ci il) bu kabinet bədən tərbiyəsi

dispanserinə çevrilmişdi.

1949-50-ci illərdə muxtar respublikada tibb müəssisələrinin şəbəkəsi inkişaf etdi və böyüdü. Xəstəxanalar və onlarda olan çarpayıların sayı artdı. 1949-cu ildə muxtar respublikada 3 traxoma dispanseri, 4 göz xəstəlikləri kabinəsi, 30 traxoma məntəqəsi; bu müəssələrdə işləyən 6 mütəxəssis göz həkimi, 46 orta təhsilli traxoma işçiləri var idi. 1949-cu ildə Culfa rayonunda 1 traxoma dispanseri, Şərur rayonunda isə bir göz xəstəlikləri kabinəsi təşkil edilmişdir [305, vər.9].

Muxtar respublikada 1949-cu ilin 8 ayı ərzində 36881 nəfər əhali traxoma xəstəliyi üzrə tibbi müayinədən keçirilərək, hesaba alınan traxomalı xəstələrin 2030 nəfəri müalicəyə cəlb olunmuşdur. Onlardan 1073 nəfəri tamamilə sağalmışdır. Bütün bunlara baxmayaraq, kənd yerlərində xüsusilə traxoma xəstəliklərinin kök saldığı yerlərdə (Nehrəm, Yaycı, Dəstə, Cəhri, Nüsnüs, Dəmirçi) və sairə kəndlərdə bu iş istənilən səviyyədə olmamışdır [305, vər.10].

1950-60-cı illərdə səhiyyə kənd yerlərində intensiv inkişaf etdi. Müalicə – profilaktika şəbəkəsi ilbəil artdı, kənddə həkimlərin sayı çoxaldı, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyəti yaxşılaşdı, rayon xəstəxanaları möhkəmləndi, kənd əhalisinə tibbi xidmətin ixtisaslaşdırılmış növü təkmilləşdi. Rayon xəstəxanaları təşkilatı mərkəz kimi əhaliyə ixtisaslaşdırılmış tibbi xidmətin geniş surətdə göstərilməsini təmin etməklə, kənd sahə xəstəxanalarının müalicə – profilaktika işlərinə, həm də rəhbərlik edirdi.

Respublika xəstəxanası təşkilatı – metodik mərkəz kimi bir tərəfdən rayon xəstəxanalarının işinin keyfiyyətinin qaldırılmasına, o biri tərəfdən kənd əhalisinə yüksək ixtisaslı müalicə göstərilməsinə yaxından köməklik edirdi. Muxtar respublikanın rayonlarından kənd əhalisinə tibbi köməyi yaxınlaşdırmaq üçün vaxtaşırı ixtisaslaşdırılmış briqadalar kəndlərə göndərilirdi. Briqadaların tərkibində terapevt, cərrah, veneroloq, sanitar həkim, ginekoloq, göz həkimi və başqaları olurdu.

Müharibədən sonrakı illərdə Naxçıvan MSSR-də müalicə – profilaktika şəbəkəsi, tibbi kadrlar və səhiyyənin büdcəsi durmadan artdı. 1953-cü ildə 1946-cı ilə nisbətən xəstəxanaların sayı 2,1 dəfə, onlarda olan çarpayıların sayı 1,4 dəfə, xüsusən ixtisaslaşdırılmış çarpayıların sayı artmışdır. 1953-cü ildə həkimlərin sayı 1946-cı ildəkinə nisbətən 2,4 dəfə, orta tibb işçilərinin sayı 2,5 dəfə artmışdır. Səhiyyənin material texniki bazası möhkəmlənmişdir. Tibb obyektləri (xəstəxanalar, uşaq yasliləri və s.) tikilmişdi, səhiyyə büdcəsi 1953-cü ildə 1946-cı ilə nisbətən 2 dəfə artmışdı [164, s.103].

Bəhs edilən illərdə tibb işçilərinin ixtisaslaşması və təkmilləşməsinə də daim diqqət verilirdi. Orta tibb işçilərini təkrar hazırlamaq üçün qısa müddətli kurslar təşkil edilmişdir. Naxçıvan MSSR-i səhiyyə orqanları müharibə illərindən sonra ana və uşaqların mühafizəsinin yaxşılaşması üçün geniş tədbirlər həyata keçirmişdilər.

Belə dəyişiklik tibbi yardımın, xüsusən uşaqlara və qadınlara göstərilən köməyin yaxşılaşdırılmasına səbəb olmuşdu. 1954-cü ildə muxtar respublikada 34 xəstəxana, 6 səhiyyə epidemik stansiyası, 6 qızdırma ilə mübarizə stansiyası, 54 feldşer – mama məntəqəsi fəaliyyət göstərmişdir [42, s.76].

Bundan başqa Naxçıvan uşaq xəstəxanasında ixtisaslaşdırılmış kabinələr: burun-qulaq-boğaz, nevroloji, dəri və göz xəstəlikləri – təşkil edilmişdir. Uşaqlara göstərilən müalicə – profilaktika xidmətini daha da yaxşılaşdırmaq məqsədilə rayon uşaq məsləhətxanalarında çalışan həkim – pediatrlar ambulatoriyada böyük yaşlı uşaqları qəbul etməyə başlamış və bütün yaşlardan olan uşaqlara stasionarda xidmət etmişdilər. Həkim ginekoloqlar hamilə və xəstə qadınlara qadın məsləhətxanalarında qəbul təşkil etmiş, həmçinin doğum şöbələrində işləyərək ginekoloji xəstələrə stasionarda kömək göstərmişdilər [164, s.99].

1954-cü ildə muxtar respublikada qızdırma və göbələk xəstəliklərinin hələ də tam ləğv edilməməsi, traxoma xəstə-

liklərinin xeyli olmasına baxmayaraq, bu xəstəliklərə qarşı tədbirlərin günün tələblərinə uyğun qurulmadığı bildilirdi.

Müharibə illərindən sonra sanitar – epidemioloji stansiyalar qarşısında çox vacib məsələlər dururdu: yoluxucu xəstəlikləri kəskin aşağı salmaq, yoluxucu xəstələrin hamısını xəstəxanaya cəlb etmək, yeyinti kommunal və uşaq müəssisələri üzərində ciddi sanitar nəzarəti aparmaq və profilaktik tədbirlərin geniş miqyasda aparılmasına nail olmaq və s.

Bu illər ərzində Naxçıvan MSSR-də sanitar – epidemioloji stansiyalar şəbəkəsi böyüdü və möhkəmləndi. Sanitar – epidemioloji stansiyaların sayı 2-dən 6-ya çatdı. Beləliklə, 1953-cü ildə respublikanın bütün rayonlarında sanitar – epidemioloji stansiyalar, onların nəzdində sanitar – bakterioloji laboratoriyalar fəaliyyət göstərirdi. Rayon sanitar – epidemioloji stansiyalar kompleks tədbirlər həyata keçirməyə başladılar.

1954-cü ilin fevral ayında Naxçıvan şəhər birləşmiş xəstəxanası 105 çarpayılıq, o cümlədən şöbələr üzrə: terapiya – 40, cərrahiyyə – 40, ginekologiya – 10, yoluxucu – 15 çarpayılıq olmuşdur.

Naxçıvan MSSR Nazirlər Sovetinin “Respublika əhalisinin, müalicə – profilaktika müəssisələrinin dərman, sanitariya və gigiyena əşyaları ilə təchiz edilməsinin yaxşılaşdırılması tədbirləri haqqında” 24 yanvar 1955-ci il tarixli 17 saylı qərarına əsasən muxtar respublikada aptek şəbəkəsinin işi xeyli yaxşılaşmışdı. Həmin ildə Parağaçay mədənində, Cəhri və Əznəbürd (Çalxanqala) kəndlərində aptek məntəqələri açılmışdır [42, s.77].

XX əsrin 50-60-cı illərində muxtar respublikada səhiyyə ocaqlarının sayı sürətlə artmağa başladı. Əhaliyə səhiyyə xidmətində diqqətəlayiq uğurlar qazanıldı. Malyariyaya qarşı tədbirlər nəticəsində 1958-ci ildə muxtar respublikada bu xəstəliyin kökü kəsildi [196, s.132].

1959-cu ildə muxtar respublikada 40 xəstəxana var idi. Xəstəxanalardan 24-ü kənd yerlərində yerləşirdi. Həmin illərdə

muxtar respublikanın Nehrəm, Cəhri, Mahmudkənd, Çənnəb, Parağa, Çalxanqala, Qarabağlar, Düdəngə, Qıvraq, Vənənd, Bist və başqa kəndlərdə xəstəxanalar açılşışdı.

Tibb məntəqələrinin sayı artdıqca çarpayılarının da sayı artırdı. 1950-ci ildə xəstəxanalarda 657 çarpayı olduğu halda (hərbi xəstəxanalardan başqa) bu rəqəm 1959-cu ildə 885-ə çatdırıldı.1950-ci ildə kənd xəstəxanalarında 187, 1959-cu ildə isə 285 çarpayı vardı [177, s.128]. qadın xəstəxanalarında çarpayıların sayı 1950-ci ildə 69, 1969-cu ildə isə artaraq 110-a yüksəlmişdi. Uşaq və qadın məsləhətxanalarının sayı 1950-ci ildə 6 olduğu halda, 1959-cu ildə də 6 olaraq qalırdı [177, s.129-130].

Muxtar respublikada tibb müəssələr şəbəkəsinin artması burada çalışan həkim və orta tibb işçilərinin sayının xeyli artmasına səbəb olmuşdur. Belə ki, həkimlərin sayı (hərbi qulluqçulardan başqa) 1950-ci ildə 139 nəfər, 1959-cu ildə isə 175 nəfər idi. Orta tibb işçilərinin sayı (hərbi qulluqçulardan başqa) 1950-ci ildə 471, 1959-cu ildə isə 923 nəfər olmuşdu [177, s.131-132].

Səhiyyənin gələcəkdə daha da inkişaf etdirilməsi üçün böyük əhəmiyyət kəsb edən qərarlardan biri də Sov.İKP Mərkəzi Komitəsinin və SSRİ Nazirlər Sovetinin 14 yanvar 1960-cı il 58№-li “SSRİ-də əhaliyə tibbi xidmət göstərilməsini və əhalinin can sağlığının qorunmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında” kı qərarı oldu. Bu qərara əsasən Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsi və Naxçıvan MSSR-i Nazirlər Soveti 6 iyul 1960-cı il 75/110№-li eyni qərar qəbul etdi. Qərara əsasən Naxçıvan MSSR-də tədbirlər işlənib hazırlandı. Bunlara tibb müəssisələrinin genişləndirilməsi, müalicə – profilaktika müəssisələrinin tikilməsi tempinin sürətləndirilməsi və keyfiyyətinin yüksəldilməsi və həmin müəssisələrin avadanlıqla təchiz olunması, bir sıra yoluxucu xəstəliklərin (difteriya, poliomielit, traxoma) ləğv edilməsi, qarın yatalağı, bağırsaq infeksiyaları, brusselloz və digər

xəstəliklərlə xəstələnmə hallarının kəskin sürətdə azaldılması və s. tədbirlər aiddir. Bu qərar habelə, zəhmətkeşlərin can sağlığının qorunması işində əhalinin özfəaliyyətinin yeni inkişafı üçün zəmin yaratdı. 1960-cı ildə muxtar respublikanın tibb sahəsində xeyli iş görülmüşdü. Bəhs edilən ildə əhaliyə 41 xəstəxana, 129 feldşer – mama məntəqəsi, 178 həkim, 968 orta tibb işçisi xidmət göstərmişdir [203, s.83].

1960-cı illərdə muxtar respublikada aptek şəbəkəsi də çox inkişaf etmişdir. Burada Azərbaycan SSR Baş Apteklər İdarəsinin Naxçıvan rayonlararası şöbəsi təşkil edilmişdir. 1962-ci ildə muxtar respublikada 14 aptek, 50-yə yaxın aptek məntəqəsi, analitik laboratoriya, sanitariya – gigiyena mağazaları və başqaları fəaliyyət göstərmişdir.

Naxçıvan MSSR-də xalq təsərrüfatının yeddiillik planına uyğun olaraq, muxtar respublikada 1959-1965-ci illərdə səhiyyənin inkişafına aid yeddiillik plan tərtib olundu. Planda gələcəkdə tibb müəssisələrinin, xəstəxana çarpayılarının sayını artırmaq, uşaq və qadın məsləhətxanalarının, uşaq xəstəxanalarının şəbəkəsini genişləndirmək, xəstəxanaların tikintisi üçün vəsaiti artırmaq və s. nəzərdə tutulurdu. 1953-1965-ci illərdə muxtar respublikada əhaliyə ambulator – profilaktika köməyi göstərən müəssisələrin sayı artdı. Əgər 1953-cü ildə tibb müəssisələrinin sayı 36 (onlardan 16 şəhərdə, 20 kənd yerlərində) olmuşdursa, 1965-ci ildə onların sayı 50-yə (21 və 29) qədər artmışdır. Ambulator – poliklinika müəssisələrinin artması ilə yanaşı, ambulator tibbi yardımın həcmi şəhərlərdə olduğu kimi, kənd yerlərində də nəzərə çarpacaq dərəcədə artmışdı [42, s.77; 164, s.106].

1950-1960-cı illərdə respublikanın rayonlarında (Şərur rayonunun İbadulla, Püsyan, Qarxun kəndləri; Culfa rayonunun Dizə kəndi) kolxozlar tərəfindən birtipli kolxoz doğum evləri tikilmişdir. Artıq qadınların əksər hissəsi uşaqları bu doğum evlərində dünyaya gətirməyə başladılar. Rayonda dünyaya gələn uşaqlar xidməti məsləhətxanada, doğum evin-

dən çıxandan sonra, birinci üç gündə həkim potranajı ilə əhatə olunurdular. Bununla belə, 1965-ci ildə kənd yerlərində ümumi çarpayı fondundan və doğum çarpayılarından qeyri-qənaətbəxş istifadə olunmuşdur.

1953-1965-ci illərdə muxtar respublikada sanitar – epidemioloji stansiyalar malyariya stansiyaları ilə birləşdirilərək iriləşdi. Bundan sonra sanitar – epidemioloji stansiyalar daha da kompleks şəkildə tədbirləri müvəffəqiyyətlə həyata keçirməyə başladılar. İllər keçdikcə aydın oldu ki, dövlət sanitar müfəttişliyi və sanitar – epidemioloji stansiyalar arasında əlaqə və razılıq mövcud olmadığına görə, xəbərdar edici və cari sanitar nəzarətinin arasında uyğunsuzluq əmələ gəlir, bu isə sanitar – epidemiya əleyhinə tədbirlərin kompleks şəkildə, tələb olunan qaydada həyata keçirilməsini təmin etmirdi [164, s.113].

Tədqiq edilən illərdə Naxçıvan MSSR-nin səhiyyə büdcəsi ilbəil artmışdır. 1965-ci ildə səhiyyə büdcəsi 1953-cü ilə nisbətən demək olar ki, 2 dəfə çox olmuşdur. Hər il sərmayənin artırılması tibb müəssisələrini yeni aparatlarla, alətlərlə, avtomaşınlarla təchiz etməyə imkan vermiş, mövcud tibb müəssisələrinin əsaslı təmir edilməsinə və yeni xəstəxanaların tikilməsinə şərait yaratmışdır. Naxçıvan şəhərində 30 yerlik yasli – baxça, 100 çarpayılıq vərəm əleyhinə dispanser tikilib istifadəyə verilmiş, 100 çarpayılıq doğum evinin tikintisi qurtarmaq ərəfəsində olmuşdur.

Naxçıvan MSSR-də tibb müəssisələri şəbəkəsinin artması orta tibb işçilərinin çoxalmasına səbəb olmuşdur. Muxtar respublikada orta tibb işçiləri əsasən Naxçıvan tibb məktəbi tərəfindən hazırlanırdı. Tibb məktəbi 30 il ərzində (1931-1961) 1300 nəfərdən çox orta tibb işçisi hazırlamışdı. 1957-ci ildə Naxçıvan tibb məktəbini 53 nəfər tələbə bitirmişdi. Bunlardan 22 nəfəri mamaçalıq ixtisası üzrə, 31 nəfəri isə feldşer şöbəsi üzrə ixtisasa yiyələnmişdi. Tibb məktəbini bitirənlərdən 5 nəfərinə əlaçılıq diplomu verilmişdir ki, bunlardan da 3 nəfəri

N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna göndərilmişdir [306, vər.6].

1956-1965-ci illərdə muxtar respublikada 184 həkim və 389 orta tibb işçisi öz ixtisasını artırmışdır. Bütün bunlara baxmayaraq XX əsrin 60-cı illərində muxtar respublikanın səhiyyəsində çətinliklər qalmaqda idi. Bəhs edilən illərdə muxtar respublikada yerləşən xəstəxanalar, ambulatoriyalar, laboratoriyalar və apteklər əhaliyə lazımi xidmət göstərməkdən xeyli geri qalırdı.

Beləliklə, əldə olunmuş sənədlərdən məlum olmuşdur ki, 1969-cu ildə Heydər Əiyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə bütün sahələrdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasının səhiyyə sahəsində də uğurlar əldə edilmişdir. Heydər Əliyev həmin dövrdə əhalinin sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə xüsusi fikir verirdi. Onun rəhbərliyi altında Azərbaycanda həyata keçirilən tədbirlərin nəticəsində bu sahədə əhəmiyyətli uğurlar əldə edilmişdi. Müalicə profilaktika müəssisələrinin elmi – praktik mərkəzlərinin şəbəkəsi genişləndirilmiş, respublikada çoxlu sayda qadın məsləhətxanaları, uşaq poliklinikaları və ambulatoriyaları yaradılmış, həkimlərin və tibb işçilərinin sayı artmışdı. Respublika rəhbərliyinin göstərişlərinə uyğun olaraq, Naxçıvan Vilayət Partiya Komitəsi və muxtar respublika hökuməti burada səhiyyə xidmətinin səviyyəsini yüksəltmək üçün bir sıra qərarlar qəbul etmişdi. Bu qərarlar sırasında Naxçıvan VPK-nın "Naxçıvan MSSR-də əhaliyə səhiyyə xidmətinin vəziyyəti və onun yaxşılaşdırılması tədbirləri haqqında" 5 avqust 1970-ci il tarixli qərarı göstərmək olar [135, s.142].

1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafına yönəldilmiş vəsaitlərin həcmi əhəmiyyətli dərəcədə artırılmış, səhiyyə obyektlərinin tikintisi genişləndirilmiş, əhaliyə tibbi xidmət işi yaxşılaşdırılmışdır.

1970-ci ildə Naxçıvan şəhərində bütün ixtisaslardan olan həkimlərin sayı 162, orta tibb işçilərinin sayı 545 nəfər, əhalinin hər 10000 nəfərinə düşən həkimlərin sayı 48, orta tibb işçilərinin sayı 161 nəfər, xəstəxana çarpayılarının sayı isə 793 ədəd olmuşdur [182, s.98]. 1970-ci ildə muxtar respublikada 53 xəstəxana (hərbi xəstəxanadan başqa), 150 feldşer – mama məntəqəsi, 262 həkim, 1435 orta tibb işçisi xidmət göstərmişdir [203, s.83].

### 3.6. Mədəni-maarif işlərinin genişlənməsi.

Ölkədə əhalinin mədəni-məişət səviyyəsinin yüksəldilməsində mədəni-maarif müəssisələri - kitabxanalar, klublar, kino-teatr, mətbuat, radio və s. mühüm rol oynayır. Bəhs olunan illərdə Azərbaycan hökuməti insanların ideya-siyasi tərbiyə işinin səviyyəsini yüksəltmək üçün bir sıra mühüm tədbirlər müəyyən edərək həyata keçirmişdir. Bu tədbirlər təbliğat və təşviqat, insanların ideya tərbiyəsi, zəhmətkeşlər arasında kütləv-siyasi iş, mətbuat, radio, kino-teatrların fəaliyyəti, ədəbiyyat, incəsənət və muzeylərin daha da inkişaf etdirilməsi, elm və xalq maarifinin inkişafı və sair məsələlərə aid olunmuşdur.

Azərbaycan hökumətinin bilavasitə rəhbərliyi altında Naxçıvan MSSR-ə mədəni-maarif müəssisələrinin inkişafına xüsusi diqqət verilmiş, Azərbaycab KP Naxçıvan Vilayət Komitəsinin, yerli partiya, həmkarlar ittifaqları və gənc fəalların, ziyalıların köməyi ilə bu sahədə müvəffəqiyyətlər edilmişdir. İkinci Dünya müharibəsindən sonra keçən dövr ərzində kütləvi kitabxanaların, klub idarələri və muzeylərin, mətbuat, nəşriyyat, kino-teatr kütləvi-siyasi tərbiyə vasitələrinin fəaliyyəti, təsir gücü daha da artmış və genişlənmişdir.

Bəhs edilən illərdə hökumət əhalinin savadlanmasına, kütləvi kitabxanalardan istifadə etməsinə böyük əhəmiyyət verərək ölkədə kitabxanaların çoxalmasına, onların kitab fondu ilə təmin edilməsinə xüsusi diqqət yetirmişdir. 1945-ci ildə

muxtar respublikada 44 kütləvi kitabxana var idisə, 1950-ci ildə onların sayı 154-ə çatdırılmışdır. 1945-ci ildə muxtar respublika kitabxanalarının ümumi fondu 57,8 min nüsxədən ibarət idisə, 1950-ci ildə 145,5 min nüsxəyə çatdırılmışdır [177, s.119].

Muxtar respublikada kitabxana işlərinin inkişaf və canlanmasında SSRi Nazirlər Sovetinin “Əhali arasında kitab satışının vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında” 1950-ci il 6 aprel tarixli qərarı, həmin məsələ üzrə Azərbaycan SSR Nazirlər Sovetinin 1950-ci il 25 may və Naxçıvan MSSR Nazirlər Sovetinin 1952-ci il 7 mart tarixli qərarlarının çox böyük əhəmiyyəti olmuşdur.

Sov.İKP MK-nın “Kitabxanaların işi və onun yaxşılaşdırılması tədbirləri haqqında” 1959-cu il 22 oktyabr tarixli qərarından sonra muxtar respublikada kütləvi kitabxanaların işləri daha da canlanmış və yaxşılaşmışdır.

Əgər 1960-cı ildə muxtar respublikada 135 kütləvi titabxana olduğu halda, 1965-ci ildə kitabxanaların sayı 154-ə, 1970-ci ildə isə 232-ə çatdırılmışdır. 1960-cı ildə bu kitabxanalardan 121-i kənd yerlərində yerləşirdisə, 1970-ci ildə bu kitabxanalardan 210-u kənd yerlərində idi. Tədqiq edilən dövrdə kütləvi kitabxanaların ümumi fondu xeyli artmışdır. 1960-cı ildə muxtar respublikanın kitabxanalarında kitab fondu 595,9 min nüsxəyə [177, s.119], 1965-ci ildə 869,5 min nüsxəyə, 1970-ci ildə isə 1285,9 nüsxəyə çatdırılmışdır [169, s.119].

Ölkə iqtisadiyyatının inkişafı əsasında maddi həyat şəraitinin yaxşılaşması ilə yanaşı əhalinin şüur səviyyəsi, mədəniyyəti də yükçəlir, formalaşır və inkişaf edir. Əhalinin asudə vaxtlarının səmərəli təşkilində, mədəniyyətinin yüksəlişində klublar da mühüm rol oynayır. Klublar əhalinin kamilləşməsində böyük rol oynayır.

Naxçıvan MSSR-də 1946-cı ildə 118 klub müəssisəsi olduğu halda, 1960-cı ildə 122-ə [177, s.120], 1970-cu ildə isə onların sayı 166-a çatdırılmışdı [169, s.119]. Bu klubların çoxu

birtipli layihələr əsasında tikilmişdi. Belə klubların tamaşa salonları, bədii özfaliyyət dərnəkləri üçün xüsusi otaqları, kino qurğuları, qiraət salonları və s. var idi. Lakin muxtar respublikada kulubların apardığı mədəni-kütləvi işlərin səviyyəsi hələ lazımi dərəcədə deyildi, günün tələblərindən geri qalırdı. Bir çox klublarda, xüsusilə kənd klublarında və mədəniyyət evlərində bədii özfaliyyət dərnəkləri zəif fəaliyyət göstərirdi. Buna səbəb klublarda peşəkar kadrlar demək olar ki, çox az idi. Bədii özfəaliyyət dərnəkləri bu işə səriştəsi az olan, onun mahiyyətini kifayət qədər başa düşməyən adamlara tapşırılmışdı.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi, Naxçıvan MSSR Nazirlər Soveti, Naxçıvan MSSR mədəniyyət naziri və başqa təşkilatlar mövcud vəziyyəti aradan qaldırmaq üçün bir sıra tədbirlər həyata keçirdilər. Görülən tədbirlərdən biri əhalinin mədəniyyət ocaqlarının gücündən və imkanlarından daha səmərəli istifadə etmək və onları ixtisaslı kadrlarla təchiz etməkdən ibarət idi.

1946-1969-cu illərdə muxtar respublikanın mədəni-maarif müəssisələrinin ixtisaslı işçilərlə təmin olunmasına xüsusi diqqət verildi. Nəticədə mədəni-maarif ocaqlarının işində dönüş yaradıldı.

Mədəniyyətin inkişafında kino mühüm rol oynayır. Dövlət quruculuğunun vəzifələrinə uyğun olaraq hökumətin ən kütləvi idioloji tərbiyə vasitələrindən biri olan kinonun təsir dairəsi də ölkəmizdə olduqca genişlənmişdir. Kinonun yeni insanın mənəvi inkişafında, onun formalaşmasında rolu böyükdür. Bunu nəzərə alaraq ölkəmizin hər yerində, habelə Naxçıvan MSSR-də də kino şəbəkəsinin genişləndirilməsinə, əhaliyə kino xidmətlərinin əsaslı şəkildə yaxşılaşması işinə böyük diqqət verilmişdir. 1955-ci ildə burada 7922 seans kino verildiyi halda [309, vər.10], bu rəqəm 1959-cu ildə 31348-ə çatdırılmışdır [226, vər.137].

1955-ci ildə muxtar respublikada 36 kino qurğusu olduğu halda, 1960-cı ildə 68 kino qurğusu [177, s.121], 1965-ci ildə 104 kino qurğusu, 1970-ci ildə isə 131 kino qurğusu fəaliyyət göstərmişdi [169, s.120].

İkinci Dünya müharibəsindən sonra muxtar respublikanın xalq təssərrüfatının bütün sahələrində o cümlədən mədəniyyət və incəsənət sahəsində də böyük işlər görülməyə başlandı. İdioloji işin bütün başqa sahələri kimi, teatrda fəal və ən təsirli incəsənət sahələrindən biridir. Müharibədən sonra insanların formalaşmasında teatrın rolu əhəmiyyəti müstəsna dərəcədə artır.

1945-ci ildən sonra Naxçıvan teatrı öz repertuarında "Məlik Məmməd", "Günəşə doğru", "Xırs quldurbasan", "Qaçaq Nəbi", "Bahar suları", "12-ci gecə", "Hacı Qara", "Otello" və başqa əsərlər əsas yer tutmuşdur.

1946-cı ilin iyul ayında Naxçıvan teatrının aktyorları tərəfindən Əyyub Abbasovun "Məlik Məmməd" mənsum dramı İ.Həmzəyevin rejissorluğu ilə tamaşaya qoyulmuşdur. Bu tamaşada rollarda: İ.Həmzəyev (Məlik Məmməd), [2]Səməd Mövləvi (Vəzir), Lalə xanım (Padşahın arvadı), Ə.Haqverdiyev (Dombagöz), Ə.Məmmədov (Məlik Əhməd), F.Əlixanova (Səfər), X.Qazıyeva (Gövhər), Z.Həmzəyeva (Yaqut), Y.Haqverdiyev (Məlik Cümşüd), M.Əkbərov (Daş heykəl Əmrah) və başqaları gözəl obrazlar yaratmışlar [356, 6 iyul 1946].

1946-cı ildə Azərbaycan səhnəsinin görkəmli ustaları Naxçıvana gəlmişdilər. Bunların gəlişi ilə əlaqədar 11 avqust 1946-cı il tarixli "Şərq qapısı" qəzeti yazırdı: Azərbaycan SSR Xalq aktirisası Mərziyyə xanım Davudova, Azərbaycan SSR Xalq artisti Sidqi Ruhulla və əməkdar artist Əli Zeynalov Naxçıvan şəhərinə gəlmişdir.

Onların iştirakı ilə M.F.Axundov adına Naxçıvan dram teatrında "Vaqif", "Aydın", "Qaçaq Nəbi" və s. əsərlər tamaşaya qoyulacaqdır [356, 11 avqust 1946].

Naxçıvan dövlət dram teatrı 1946-cı il mövsümünü M.F.Axundovun "Xırs quldurbasan" əsəri ilə açmışdır. Qeyd edək ki, M.F.Axundovun bədii yaradıcılığında bu əsər mühüm yer tutmuşdur. Ölməz dramaturqun komediyadan yavaş-yavaş dramaya keçməsi meylini göstərir. Bu cəhətdən "Xırs quldurbasan" diqqətə layiqdir. Quruluşçu rejissoru Səməd Mövləvi, rəssamları Şamil Qazıyev və Əyyub Hüseynov, musiqi tərtibçisi Səfər Rəcəbli olan bu tamaşada baş rolları Əyyub Haqverdiyev və Zəroş Həmzəyeva ifa edirdilər. Tamaşa haqqında "Şərq qapısı" qəzetində dərc olunmuş resenziyasında Əziz Şərif yazıb: "Naxçıvan Teatrının öz mövsümünü bu əsərlə (tamaşa ilə – Ə.Q.) açması onun öz fəaliyyətinə ciddiyyətlə yanaşdığını və üzərinə məsul vəzifələr götürməkdən qorxmadığını isbat edir. Tamaşa teatr heyətinin əsər üzərində diqqətlə işlədiyini və onu dərindən öyrəndiyini göstərir" [357, s.93].

Azərbaycan İncəsənət İşləri İdarəsinin 13 yanvar 1947-ci il tarixli 38 nömrəli əmrinə əsasən Naxçıvan dövlət dram teatrı özünün daxili əmri ilə 1947-ci ilin repertuarına aşağıdakı yeni əsərlərin tamaşaya qoyulmasını müəyyənləşdirmişdir. Onlardan "Praqanın şabalıd ağacları", "Sevil", "Şah Abbas" və "Fərhad və Şirin" göstərmək olar. Həmçinin 1947-ci ilin repertuarına təkrar əsərlərdən "Xırs quldurbasan", "Vaqif", "Aydın", "Namus", "Məlik Məmməd", "Qız qalası", "İki ağanın bir nökəri", "Otello", "Qaçaq Nəbi", "Eşq və İntiqam" və "Günahsız müqəssirlər" əsərlərinin qoyulması göstərilmişdir [291, vər.4].

1947-ci ildə M.F.Axundov və M.S.Ordubadi adına Dövlət Dram Teatrı kollektivinin gücü ilə 422 tamaşa göstərilmişdir. Bu tamaşalara 43600 nəfər tamaşaçı baxmışdır. Dövlət Mahnı və Rəqs ansambılının gücü ilə muxtar respublikanın kolxozlarında 144 konsert verilmişdirki, burada da 24500 nəfər tamaşaçı iştirak etmişdir [214, vər.13].

Naxçıvan teatrının yaradıcı heyyəti 1948-ci ilin may ayında "Leyli və Məcnun", "Durna" və "Aşıq Qərib" pyeslərini tamaşaya qoymuşdular.

23 may 1948-ci il tarixli "Şərq qapısı" qəzetində H.İbrahimovun "Leyli və Məcnun" əsərinin resenziyasında göstərilir ki, bu tamaşanın quruluşcu rejissoru Səməd Mövləvi olmuş və həmin tamaşada rolları: S.Mövləvi (Məcnun), F.Əlixanova (Leyli), X.Qazıyeva (Leylinin anası), Q.Məmmədova (Məcnunun anası), R.İsfəndiyarov (Məcnunun anası), M.Quliyev (Leylinin anası), M.H.Mirişli (Nofəl), Ə.Haqverdiyev (İbn Səlam) və başqaları bu tamaşada iştirak etmişdir [356, 23 may 1948].

1948-ci ilin iyul ayında Naxçıvan dövlət dram teatrının yaradıcı heyyəti tərəfindən 23 iyulda Cəfər Cabbarlının "Almas" əsəri tamaşaya qoyulmuşdur. Bu tamaşanın quruluşcu rejissoru S.Mövləvi olmuşdur. Rollarda: R.Ağayeva (Almas), Ə.Həsənzadə (Şərif), R.Hacıyev (Barat), K.Hüseynov (Hacı Əhməd), R.İsfəndiyarlı (Aftil), Ə.Qardaşbəyov (Baloğlan), Ə.Hüseynov (Fuad), X.Qazıyeva (Fatmanisə), R.Cəfərxanova (Almasın anası), S.Mövləvi (Ocaqqulu), Ə.Haqverdiyev (Mirzə Səməndər), Ə.Məmmədov (İbad) və M.H.Mirişli (Balarza) oynamışdır [356, 25 iyul 1948].

1948-ci ilin avqust ayında Naxçııvan dövlət dram teatrının yaradıcı heyyəti Şərur rayonunun kolxozçularına getmişdir. Bu qastrolla bağlı 20 avqust 1948-ci il tarixli "Şərq qapısı" qəzeti özünün xəbərlər bölməsində yazırdı: "Pambıqçı kolxozçulara bədii xidmət göstərmək məqsədilə M.F.Axundov adına Naxçıvan dövlət dram teatrının yaradıcı kollektivi Şərur rayonunun kolxozlarına getmişdir. İndiyədək onlar 4 kolxozda "Durna" musiqili komediyasını tamaşaya qoymuşlar" [356, 20 avqust 1948].

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin 800 illiyi münasibətilə gənc şair-dramaturq İslam Səfərlinin qələmə aldığı "Xeyir və Şər" mənzum pyesi Naxçıvan Dövlət Dram

Teatrının da 1948-1949-cu il mövsümü üçün tamaşaya hazırlanır. "Xeyir və Şər" tamaşasının hazırlığı haqqında "Şərq qapısı" qəzetində ayrılmış xüsusi səhifədə rejissor-aktyor İ.Musayevin "Xeyirxah qüvvələrin simvolu", teatrın direktoru Ə.Haqverdiyevin"Yeni mövsümü "Xeyir və Şər"lə açacağıq", aktyorlardan R.Ağayevanın "Gülxar surəti", F.Əlixanovanın "Humanist qız", M.Quliyevin "Şər qüvvələrin başçısı" adlı məqalələri verilmişdir [356, 1 iyun 1948].

Lakin 1948-ci ilin sentyabrında teatrın yeni mövsümü "Xeyir və Şər"lə açılmır. Müəyyən səbəblər üzündən tamaşanın hazırlığı hətta ilin sonunadək başa çatdırılmır.

Quruluşçu rejissoru İsa Musayev, rəssamı Məmməd Qasımov, musiqi tərtibçisi Məmməd Ələkbərov olan bu tamaşanın premyerası 1950-ci il yanvarın 21-də olmuşdur.

Naxçıvan dövlət dram teatrı 1950-1951-ci il mövsümündə S.Vurğunun "Xanlar", Şekspirin "12-ci gecə", C.Məmmədquluzadənin "Ölülər", C.Cabbarlının "Od gəlini", M.H.Təhmasibin "Çiçəklənən arzular", H.İbrahimovun "Torpaq təslim olmur", Mlyarovskinin "Sehirli küpə", C.Cabbarlının "Od gəlini" əsərlərini tamaşaya qoymuşdur.

Teatr 1950-1951-ci il mövsümünü C.Cabbarlının "Od gəlini" dramı ilə açmışdır. Bu tamaşanın quruluşcu rejissoru S.Mövləvi və bədii tərtibatçı rəssam Əsgər Əsgərov, İsa Musayev (Elxan), Zəroş Həmzəyeva (Solmaz), Əyyub Haqverdiyev (Aqşin), Səməd Mövləvi (Əbu Ubeyd), Kazım Hüseynov (Altun bəy) və başqaları oynamışdır [286, vər.21].

Yerli müəlliflərdən Hüseyn İbrahimovun İkinci Dünya müharibəsindən sonrakı dirçəliş dövründə Azərbaycan kəndindəki quruculuqdan bəhs edən "Torpaq təslim olur" adlı pyesi əsasında hazırlanmış eyniadlı tamaşanın 1951-ci il noyabrın 27-də premyerası olmuşdur. Tamaşanın quruluşçu rejissoru İbrahim Həmzəyev, rəssamı Şəmil Mustafayev, musiqi tərtibçisi Məmməd Ələkbərov idi. Təəccüblüdür ki, L.Hüseynzadə

və N.Nazim tərəfindən yazılmış resenziya üç ay sonra "Şərq qapısı" qəzetində dərc edilib.

XX əsrin 50-ci illərində Naxçıvan MSSR-nin Dövlət Dram Teatrının və Mahnı və Rəqs ansambıllarının kollektivləri yalnız muxtar respublikanın əhalisi qarşısında deyil, Azərbaycan SSR-in Qazax, Tovuz, Şəmkir, Yevlax, Mingəçevir, Ağdam və başqa rayonlarında müvəffəqiyyətlə çıxış etmişdir [80, s.34].

1953-cü ilin iyul ayının 29-da Naxçıvan teatr səhnəsində teatrın aktyorları tərəfindən C.Cabbarlının "Od gəlini" əsərini tamaşaya qoyulmuş və tamaşaçılar tərəfindən çox yüksək qarşılanmışdır [294, vər.65].

Naxçıvan dövlət dram teatrının 1953-1954-cü il mövsümündə biri də S.Rəhmanın "Toy" komediyası idi. Teatrın afişasında "Toy" komediyasının quruluşunu Səməd Mövləvi, baş rollarda: M.H.Mirişli (Kərəmov), Z.Həmzəyeva (Zalxa), K.Hüseynov (Dəmirçi Musa), R.Cəfərxanova (Zinyət), Ə.Haqverdiyev (Şeyda), Ə.Məmmədov (Suxay) oynamış və baş rejissorluğu İ.Həmzəyev etmişdir. Afişanın axırında göstərilirdi ki, "Nişanlı qız" və "Xərçənglər" hazırlanır [289, vər.1, 4].

1954-cü il yanvar ayının 11-də S.Mövləvinin quruluşunda "Toy", aprel ayının 28-də isə İ.Həmzəyevin quruluşunda "Nişanlı qız" tamaşalarının premyerası olmuşdur. 1954-cü ilin may ayında S.Rəhmanın "Nişanlı qız" komediyası tamaşaya qoyulmuşdur.

Mətbuatdan aydın olur ki, "Nişanlı qız" tamaşası daha rəğbətlə qarşılanmışdır. Komediyanın məişət janrında yazılmasına baxmayaraq, rejissor ona sosial motivlər də əlavə etmişdi. İ.Həmzəyevin kəskin ictimai çalarları tamaşanın məzmun dərinliyinin gücləndirilməsinə xidmət edirdi.

Məhz bu baxımdan N.Quliyev "Şərq qapısı" qəzetindəki resenziyasında qeyd etmişdi ki: "Quruluşçu rejissor İbrahim Həmzəyev maraqla baxılan tamaşa yarada bilmişdir. Gənc

rəssam Mustafa Məmmədov tərəfindən verilən bədii tərtibat da müvəffəqiyyətlidir" [356, 30 may 1954].

Burada bir müqayisəni qeyd etmək yerinə düşər ki, Naxçıvan Dövlət Dram Teatrı 1953-cü il ərzində cəmi 3 yeni tamaşa hazırlayıb təhvil vermişdisə, 1954-cü ildə öz tarixində ilk dəfə olaraq 9 yeni tamaşa təqdim etməklə çox məhsuldar və səmərəli fəaliyyət dövrü yaşamışdır [357, s.94].

3 noyabr 1954-cü il tarixli "Şərq qapısı" qəzeti "Teatrımız yeni mövsüm qarşısında" başlıqda teatrın direktoru M.Hüseynov yazır: "M.F.Axundov adına Naxçıvan dövlət dram teatrı noyabr ayının 7-də yeni mövsümü açır".

Teatr kollektivi yeni mövsümdə Ə.Haqverdiyevin "Pəri cadu", M.Əlizadənin "Toy kimindir", İ.Əfəndiyevin "Atayevlər ailəsində" əsərlərini tamaşaya qoyacaqdır. Həmçinin 1954-1955-ci il mövsümündə gürcü dramaturqu Barataşvilinin "Cırcırama", M.Y.Lermantovun "Maskarad", S.Rüstəmin "Burada mənəm, Bağdadda kor xəlifə", gənc dramaturq İ.Səfərlinin "Ağ xalatlı qız" və Şekspirin "12-ci gecə" əsərlərini tamaşaya qoymağı nəzərdə tutmuşdur. Bundan başqa kollektivimiz S.Vurğunun "Vaqif", "Fərhad və Şirin", C.Cabbarlının "Od gəlini", Əyyub Abbasovun "Məlik Məmməd" əsərlərini yeni quruluşda tamaşaya qoyacaqdır.

Kollektivimiz 1954-cü ildə S.Rəhmanın "Toy", "Nişanlı qız", S.Mixalkovun "Xərçənglər" və başqa əsərlərinin tamaşasına müvəffəqiyyətlə keçirmiş, hazırda ispan dramaturqu Lone De Veqanın "Seviliya ulduzu" faciəsi üzərində işləyir. Tamaşanın quruluşcu rejissoru İ.Həmzəyev və bədii tərtibatçı rəssam M.Qasımovdur. Tamaşanın əsas rollarından Azərbaycan SSR əməkdar artistlərindən İ.Musayev, S.Mövləvi, Ə.Haqverdiyev, Naxçıvan MSSR əməkdar artistlərindən K.Hüseynov, R.İsfəndiyarlı, Z.Həmzəyeva, R.Cəfərxanova, artistlərdən Ş.Bağırova, M.Quliyev və başqaları çıxış edəcəklər.

Biz yeni mövsümü Mirzə İbrahimovun "Həyat" pyesi ilə açacağıq [356, 3 noyabr 1954].

Naxçıvan dövlət dram teatrının 24 noyabr tarixli əmri ilə 1954-1955-ci ilin repertuarında olan Ə.Haqverdiyevin "Pəri cadu" əsərinin oynanılması haqqında əmr verilmiş və bu tamaşada rollar aşağıdakı kimi bölünmüşdür: Pəri rolunu-Roza Cəfərxanova, Səlimə rolunu-Pakizə Məmmədova, Hafizə rolunu-Firuzə Əlixanova, Şamama rolunu-Xədicə Qazıyeva, Qurban rolunu-Səməd Mövləvi, Çoban rolunu-Əyyub Məmmədov, Qulluqçu rolunu-Sürəyya Qurbanova, 2-ci əcinnə rolunu-Səfər Niftəliyevə tapşırılmışdır. Bu tamaşanın quruluşcu rejissoru İ.Həmzəyevə həvalə edilmişdir [295, vər.4].

20 dekabr 1954-cü ilin dekabrında C.Cabbrlının 20 illiyinin qeyd edilməsi münasibətilə "Od gəlini" əsəri yeni quruluşda tamaşaya qoyulması üçün dram teatrın əmri olur və bu əsərin tamaşaya qoyulması üçün rejissorluğu Səməd Mövləviyə, bədii tərtibatı isə rəssam Məmməd Qasımova tapşırılmışdır [295, vər.6].

1954-cü ilin dekabrın 24-25-də Naxçıvan teatrında C.Cabbarlının "Solğun çiçəklər" əsəri tamaşaya qoyulmuşdur. Bu tamaşanın quruluşcu rejissoru İbrahim Həmzəyev, rollarda: Əyyub Məmmədov (Bəhram), Zəroş Həmzəyeva (Sara), Xədicə Qazıyeva (Gülnisə), Roza Cəfərxanova (Pəri), Kazım Hüseynov (Əbdül), Əsəd Abutalıbov (Axund Fərəculla), Ə.Qardaşbəyov (Molla Möhsün), Yusif Haqverdiyev (Qurban) və başqaları tamaşada məzmunlu obrazlar yaratmışlar [356, 26 dekabr 1954].

1955-ci il repertuarı tamamilə klassik və müasir milli dramaturgiya nümunələrindən –"Arşın malalan" və "Ər və arvad" (Ü.Hacıbəyov), "Hacı Qəmbər" (N.Vəzirov), "Pəri cadu" (Ə.Haqverdiyev), "Atayevlər ailəsi" (İ.Əfəndiyev), "Göz həkimi" (İ.Səfərli) və "Çiçəkli dağ" (M.Təhmasib) əsərlərindən təşkil olunmuşdu.

1955-ci il mart ayının 14-də ilk tamaşası göstərilən "Atayevlər ailəsi" haqqında olan resenziyada aktyorlardan İ.Musayevin, M.Mirişlinin, R.Cəfərxanovanın, F.Əlixano-

vanın. K.Hüseynovun ifaları yüksək qiymətləndirilib, bəzi aktyorların isə qüsurlu oyunu qeyd olunub. Resenziyanın müəllifi Məmməd Əkbərovun fikrincə "İlyas Əfəndiyevin "Atayevlər ailəsi" dramının tamaşaya qoyulması və əsasən, müvəffəqiyyət qazanması kollektivin, xüsusilə gənc rejissor Əli Hüseynovun, habelə rəssam Məmməd Qasımovun yaradıcılıq işində irəliyə doğru bir addımdır" [356, 27 mart 1955].

Yeri gəlmişkən məxsusi vurğulamaq lazımdır ki, 1954-1957-ci illər teatrın baş rəssamı M.Qasımov üçün də ən məhsuldar və uğurlu yaradıcılıq illəri sayılır. Belə ki, Naxçıvan Teatrında bu dörd il ərzində hazırlanan 27 tamaşanın hamısının quruluşçu rəssamı məhz o olmuşdur.

İslam Səfərlinin "Göz həkimi" pyesinə 1955-ci ildə məhz Naxçıvanda ilk səhnə həyatı verilir. Tamaşaya quruluş vermək üçün Naxçıvana ezam olunan tanınmış rejissor Səftər Turabov (sonralar Azərbaycan SSR əməkdar incəsənət xadimi) həmin ayın 20-dən məşqlərə başlayır. Bədii quruluş teatrın baş rəssamı M.Qasımova, əsərin qəhrəmanı İradə obrazı isə gənc aktyor, Naxçıvan MSSR Əməkdar artisti (sonralar Xalq artisti) Roza Cəfərxanovaya həvalə olunur.

1955-ci ilin 28 mart tarixində İ.Səfərlinin "Göz həkimi" əsəri tamaşaya qoyulur. Bu tamaşanın quruluşcu rejissoru Səftər Turabov, bədii tərtibatçı rəssam Məmməd Qasımov, rollarda: Roza Cəfərxanova (İradə), İsa Musayev (Şahbazov), İbrahim Həmzəyev (Rauf), Sofiya İsmayılova (Nərminə), Firuzə Əlixanova (İvanova), Məmməd Quliyev (İvanov), Səməd Mövləvi (Usta Fərəc), Əyyub Məmmədov (Talıbov), Əyyub Haqverdiyev (Həsən ağa), Pakizə Məmmədova (Gülər), Xədicə Qazıyeva (Lyuba),Yusif Haqverdiyev (Əmirəli) və başqaları oynamışdır [295, vər.13].

"Göz həkimi" tamaşası haqqında şair-teatrşünas Adil Babayevin yazdığı resenziyanı "Şərq qapısı" qəzeti 1955-ci il 11 may tarixli nömrəsində dərc etdi. Maraqlıdır ki, A.Babayev bir il sonra Bakıda hazırlanmış tamaşaya da resenziya yazmış

və bu da "Ədəbiyyat və incəsənət" qəzetinin 1956-cı il 26 mart tarixli nömrəsində çap olunmuşdu [357, s.95].

21-22 mart 1956-cı il tarixdə Naxçıvan teatrının yaradıcı kollektivi Şahbuz rayonunda olmuş və rayon zəhmətkeşlərinə Ə.Abbasovun "Məlik Məmməd" pyesini göstərmişdir. Tamaşa rayon zəhmətkeşləri tərəfindən böyük maraqla qarşılanmışdır [356, 23 mart 1956].

11 may 1956-cı il tarixli "Şərq qapısı" qəzetində Azərbaycan SSR əməkdar artisti İsa Musayevin "Səməd Vurğunun əsərləri Naxçıvan səhnəsində" başlıqlı kiçik həcmli yazısı dərc edilmişdir. İsa Musayev yazır ki, …S.Vurğunun "Vaqif" pyesi Naxçıvan səhnəsində ilk dəfə 1938-ci ildə "Fərhad və Şirin" pyesi ilə 1943-cü ildə tamaşaya qoyulmuşdur. "Vaqif" pyesi Naxçıvan səhnəsində 300 dəfədən artıq göstərilmişdir.

S.Vurğunun dram əsərləri M.F.Axundov adına Naxçıvan dövlət dram teatrı artistlərinin sənətkarlıq cəhətdən inkişaf edib püxtələşmələrinə xeyli kömək etmişdir.

Mən şair-dramaturqun "Vaqif" pyesində əvvəllər Eldarın, sonralar Vaqifin "Fərhad və Şirin" pyesində isə Fərhadın sürətlərini yaratmışam. Bu obrazların şəxsi mənəviyyatı, onların mübarizliyi, poetik bir yüksəkliyə qaldırılmış, şəxsi aləmi bir incəsənət işcisi olaraq mənim inkişafıma və sənətkarlı nöqteyi-nəzərindən irəli getməyimə xeyli kömək göstərmişdir.

Biz incəsənət işçiləri yaradıcılığımızın və teatrlarımızın inkişaf etməsi yolunda S.Vurğunun göstərdiyi böyük xidmətə minnətdarıq [356, 11 may 1956].

1956-cı il may ayının 20-də, Əli Hüseynovun quruluşunda tamaşaçılara təqdim olunan, Cabbar Məcnunbəyovun müasir mövzulu, mənəvi dəyərləri tərənnüm edən "İldırım" tamaşası barədə H.İbrahimov "Şərq qapısı" qəzetində qeyd etmişdir ki: "Bir sıra nöqsanlarına baxmayaraq, həm quruluş, həm də bədii tərtibat əsərin ümumi ideyası ilə yaxşı əlaqələndirilmişdir" [356, 3 iyun 1956].

“Şərq qapısı” qəzetinin 1956-cı il 10 avqust tarixli nömrəsində dərc olunmuş “Səməd Vurğunun əsərləri Naxçıvan Teatrında” adlı məqaləsində İsa Musayev 1939-1951-ci illərdə dramaturqun bu səhnədə hazırlanmış pyeslərini yada salır.

1957-ci ilin mayında teatrın yaradıcı kollektivi Ordubad şəhərində olmuşdur. Teatrın aktyorları H.Cavidin “Şeyx Sənan” və S.Vurğunun “Fərhad və Şirin” pyeslərindən ibarət 4 tamaşa göstərmişdir. Bu tamaşalara 1400 nəfər tamaşaçı baxmışdır  [356, 31 may 1957].

Həmçinin yaz tarla işlərinin genişləndirirlməsi ilə əlaqədar 1957-ci ilin mayında teatrın yaradıcı kollektivi Culfa rayonunda olaraq rayon zəhmətkeşlərinə H.Cavidin “Şeyx Sənan”, S.Rüstəmovun “Durna” və İ.Səfərlinin “Göz həkimi”əsərlərini tamaşaya qoymuşdur [356, 22 may 1956].

1958-ci ilin may ayının 15-16-da Naxçıvan şəhərində Azərbaycan Yazıçılar İttifaqı idarə heyyətinin geniş plenumu keçirilmişdir. Plenumda M.F.Axundov adına Naxçıvan dövlət dram teatrının direktoru İ.Həmzəyev çıxışında demişdir: Naxçıvan teatrının tarixi yerli yazıçıların yaradıcılığı ilə bağlıdır. Hələ inqilabdan əvvəl bu teatrda Eynalı bəy Sultanovun “Tatarka” adlı əsəri tamaşaya qoyulmuşdur. Biz yazıçılardan M.Nəsirlinin “Azadlıq günəşi”, Ə.Abbasovun “Bədbəxt ailə”, N.Hacıyevin “Polad”, Ə.Abbasquluyevin “Günəş doğur”, Ə.Məftunun “Sevənlər”, H.İbrahimovun “Torpaq təslim olur” əsərlərini müvəffəqiyyətlə tamaşaya qoymuşuq.

Naxçıvan teatrı öz repertuarını yeni yazılmış olan bir sıra əsərləri daxil etmişdir. Biz yerli yaradıcı qüvvələrdən Süleyman Əliyevin “İki ananın bir oğlu” və Əliyar Əliyevin “Vicdan əzabı” adlı əsərlərini tamaşaya qoymağı nəzərdə tutmuşuq. İndi həmin əsərlərin üzərində müəlliflər ilə birgə işləyirik.

Naxçıvan teatrının yaradıcı kollektivinə yazıçılarımızın köməyi vacibdir [356, 18 may 1958].

Teatr 1959-1960-cı il mövsümünü oktyabr ayında “Sahil əməliyyatı” dramı ilə açmışdır. Bu tamaşanın quruluşcu

rejissoru İ.Həmzəyev, bədii tərtibatı M.Məmmədov vermişdir. Rollarda: İsa Musayev (Lubavin-polkovnik), İ.Həmzəyev (Oqtay Çingizov-mayor), Əkrəm Əliyev (Saşa Danisov-leytenant), Mirzə Əkbərov, Yusif Haqverdiyev (Cabbarov-kapitan), Məmməd Quliyev (Səlim Əzimov), Pakizə Məmmədova (Zərifə), Mirzə Əkbərov (Makkinalad), İbrahim Məmmədov (Roberd-taborçu), Aydın Şahsuvarov (Nikizin-Plotr Neçepurenko kestepoçu), Xədicə Qazıyeva (Yelena Mixayilovna), Zəroş Həmzəyeva (Freyleyn Lyuza), İslam Əliyev (Villi), Rza İsfəndiyarlı (Otto), Asya Ağayeva (Berpa Karlova), Sidiqə İsmayılova (İnqa), Mirhəsən Mirişli (Vitin Berq), Əkbər Qardaşbəyov (Veslya Kakaryov), Əyyub Haqverdiyev (Çolaq Ağalar), Roza Cəfərxanova (Volqova), Fikrət Qasımov (Starşina), Əsgər Əsgərov (Şofer), Hümbət Mehdiyev (Doktor), Kazım Hüseynov (Komendant), Abbas Xəlilov (Leytenant) və Sürəyya Qurbanova (Katibə) rollarında oynamışlar [289, vər.4].

1960-cı il aprel ayının 4-də Naxçıvan Teatrının görkəmli aktyoru və rejissoru Səməd (Əbdülsəməd) Mövləvinin anadan olmasının 60 illiyi təntənəli yubiley mərasimi ilə qeyd olunub. Bu münasibətlə "Şərq qapısı" qəzetində sənətkar haqqında onun səhnə dostu İsa Musayevin portret məqaləsi, şair Rəsul Rzanın, yazıçı Əli Vəliyevin, filologiya elmləri doktoru Əziz Şərifin təbrikləri, Əliyar Yusiflinin "Yaradacaqsan" şeiri dərc edilib [356, 14 may 1960].

Azərbaycan teatrın incəsənət sahəsindəki görkəmli xidmətlərinə görə Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyyəti 24 may 1960-cı il tarixli fərmanı ilə İsa Həsən oğlu Musayevə, Səməd Məhəmməd oğlu Mövləviyə Azərbaycan SSR xalq artisti və Firuzə Məmmədqulu qızı Əlixanova isə əməkdar artist adı verilmişdir [303, vər.17].

14 oktyabr 1960-cı il tarixli "Şərq qapısı" qəzeti "Teatrımız yeni mövsümdə" başlıqlı yazıda M.F.Axundov adına Naxçıvan Dövlət Dram teatrının direktoru və baş rejis-

soru Azərbaycan SSR əməkdar artisti İ.Həmzəyev yoldaşla müsahibə almışdır. İ.Həmzəyev müsahibəsində demişdir: “Teatrımız bu il noyabrın 1-də yeni mövsümə başlayacaqdır. Mövsümü İslam Səfərlinin “Ana ürəyi” pyesi ilə açacağıq. İndi kollektivimiz tamaşanın son məşqlərini aparır. Əsərin baş rollarında Azərbaycan SSR əməkdar artisti F.Əlixanova, Naxçıvan MSSR əməkdar artistləri Z.Həmzəyeva, R.Cəfərxanova, X.Qazıyeva, M.Quliyev və artist Ə.Məmmədov çıxış edəcəklər” [356, 14 oktyabr 1960].

İ.Həmzəyevin qeyd etdiyi kimi teatr 1 noyabr 1960-cı il tarixdə mövsümü “Ana ürəyi” pyesi ilə açdı. Bu tamaşa haqqında yazıçı M.Ə.Tarverdiyev 6 noyabr 1960-cı il tarixli “Şərq qapısı” qəzetində verdiyi resenziyasında yazırdı: …Naxçıvan tamaşaçıları çox haqlı olaraq həmyerlimiz müəllif İslam Səfərlinin dönə-dönə səhnəyə çağırıb ona əl çalırlar, çünki onlar bu tərbiyəvi əsərə baxdıqca ondan mənəvi qida alırlar, gözəl həyati nəticələr çıxarırlar.

Bəzi qüsurlarına baxmayaraq artistlər obrazların daxili aləminə girə bilmişlər. Biz bunu tamaşanın gedişində daha aydın görürük. Azərbaycan SSR əməkdar artisti Firuzə Əlixanova-Məleykə xanım, Naxçıvan MSSR əməkdar artisti Zəroş Həmzəyeva-Sevgili, Naxçıvan MSSR əməkdar artisti Məmməd Quliyev-Valeh Mənsur, Naxçıvan MSSR əməkdar artisti Roza Cəfərxanova-İncə, artist Əyyub Məmmədov-Yusif Şəfa, Naxçıvan MSSR əməkdar artisti Xədicə Qazıyeva-Salatın, pioner qız K.Ağayeva-Xatirə, Aydın Şahsuvarov-Əliş, Fikrət Qasımov-poçtalyon, İbrahim Məmmədov-milis leytenantı rollarında məharətlə çıxış edirlər.

Rəssam Məmməd Qasımov əsərə gözəl bədii tərtibat vermişdir [356, 6 noyabr 1960].

1962-ci ildən dahi Hüseyn Cavidin 80 illik yubileyi respublika miqyasında geniş və təntənəli şəkildə qeyd olunmağa başladı. Digər teatrlar kimi Naxçıvan Dövlət Dram Teatrı da Cavid dramaturgiyasına müraciət edərək onun “Səyavuş”

pyesini öz repertuarına daxil etmişdi. İlin əvvəlindən məşqlərinə başlanmış bu tamaşanın premyerası may ayının 18-də olmuşdur. İ.Həmzəyevin quruluşunda hazırlanan “Səyavuş”un rəssamı M.Qasımov, bəstəkarı M.Məmmədov idi.

“Şərq qapısı” qəzetində Məşkur Əkbər tərəfindən yazılmış resenziyada, ümumilikdə, “Səyavuş” tamaşası teatrın növbəti yaradıcılıq uğuru kimi qiymətləndirilsə də, baş rolun hər iki ifaçısının (İsa Musayev və Əyyub Məmmədov) oyunlarında qüsurların olduğu vurğulanmış, digər aktyorların – Kazım Hüseynovun (Keykavus), Məmməd Quliyevin (Rüstəm Zal), İldırım Cabbarovun (Əfrasiyab), Əkbər Qardaşbəyovun (Gərşivəz), Aydın Şahsuvarovun (iki rolda – Vəzir və Tus) oyunları daha yüksək dəyərləndirilmişdir [356, 21 mart 1962].

1963-cü il aprel ayının 24-də teatrda müəllifi Hüseyn Razi, quruluşçu rejissoru İ.Həmzəyev, rəssamı M.Qasımov, bəstəkarı Rəşid Məmmədov olan “Odlu diyar” tamaşasının premyerası oldu.

“Şərq qapısı” qəzetində Müzəffər Nəsirlinin yazdığı resenziyada pyesin dil səlisliyi, yumorun təbii axıcılığı, konfliktin kəskinliyi məxsusi vurğulanıb və göstərilib ki, quruluşçu rejissor İbrahim Həmzəyev “gözəl səhnə mizanları qurmuş, yaradıcı kollektivlə səmərəli işləmişdir. Proloqun bir qədər yorucu, kütləvi səhnələrin səthiliyi müstəsna hesab edilərsə, demək olar ki, tamaşa üzərində rejissor ciddi işləmişdir” [356, 2 iyun 1963].

Naxçıvan Dövlət Dram teatrının 28 noyabr 1963-cü il tarixli əmri ilə S.Ələsgərovun “Hardasan ay subaylıq” musiqili komediyasının tamaşaya hazırlanması haqda əmr verilmişdir. Əsərin tamaşaya hazırlanması quruluşçu rejissor Vəli Babayevə tapşırılmışdır. Rollar isə aşağıdakı kimi bölünmüşdür: Qüdrət Səda rolunda-Mirhəsən Mirişli, Rəşid rolunda-Əkbər Qardaşbəyov, Ayna rolunda-Sofiya Hüseynova, Gülyanaq rolunda-Firuzə Əlixanova, Novruzqulu rolunda-İbrahim Məmmədov, Nora rolunda-Roza Cəfərxanova və başqaları ifa etmiş-

dir. Həmin əmrdən aydın olur ki, bu tamaşa 20 dekabr 1963-cü ildə səhnəyə qoyulmuşdur [302, vər.41-42].

1964-cü ildə Naxçıvan Teatrının tarixində çox mühüm və əlamətdar bir hadisə olur. Teatr həmin ilin oktyabr ayında şəhərin mərkəzində inşa olunmuş yeni, üçmərtəbəli, əzəmətli binaya köçürülür. Arxitektor H.Məcidovun müəllifi olduğu bu möhtəşəm yeni teatr binası beş ilə ərsəyə gəlmişdir. Üçmərtəbəli lojaları və amfiteatrı ilə birlikdə 600 nəfərlik tamaşa salonu, fırlanan "dairə"yə, orkestr "xəndəyi"nə və hər cür işıq və ştanqet sisteminə malik səhnəsi, 20-dən artıq qrim otağı, dekorasiya, emalatxana və sexlər üçün geniş otaqları, böyük foyeləri olan teatrın bu yeni binası kollektivi yeni yaradıcılıq uğurlarına ruhlandırır. Yeni binanın xarici və daxili görünüşünü əks etdirən fotoşəkillər 1964-cü ilin sentyabr-oktyabr aylarında "Şərq qapısı" qəzetinin 4-cü səhifəsində verilmişdi [357, s.97].

1964-cü ildə görkəmli yazıçı və dramaturq Cəlil Məmmədquluzadənin anadan olmasının 100 illiyi qeyd olundu. Bu münasibətlə Naxçıvan teatrına böyük ədibin adı verildi, həmçinin onun "Anamın kitabı" əsərinin tamaşaya qoyulması qərara alındı. Həmin ildə görkəmli rejissor Baxşı Qələndərlinin rejissor kimi dəvət olunması Naxçıvan teatrında sənət iqliminin güclənməsinə, tamaşaların bədii məziyyətlərinin artırılmasına güclü təkan verdi [203, s.132].

Teatrın yeni binasının rəsmi açılışı 1964-cü il oktyabr ayının 15-də oldu. Həmin gün burada respublikanın, o cümlədən muxtar respublikanın ən yüksək səviyyəli rəhbərliyinin, həmçinin fəxri qonaqların və yerli ictimaiyyət nümayəndələrinin iştirakı ilə Naxçıvan MSSR-in 40 illiyi münasibətilə təntənəli yubiley mərasimi keçirildi. Mərasim Azərbaycan və muxtar respublika incəsənət ustalarının iştirak etdiyi böyük bayram konsertilə yekunlaşdı.

Teatrın 1965-ci ilin birinci yarısı üçün repertuarına A.Ostrovskinin "Cehizsiz qız", M.Əlizadənin "İki könül bir

olsa", G.Fiqeyredonun "Ezop", M.İbrahimovun "Yaxşı adam", G.Mdivaninin "Konsulu oğurladılar", S.Əliyevin "Mən onu axtarıram" və s. əsərlər salınır. Fiqeryedonun "Ezop" əsəri İ.Cabbarovun rejissorluğu ilə muvəffəqiyyətlə tamaşaya qoyulur [194, s.141].

1965-ci il Naxçıvan Teatrının tarixində və ümumiyyətlə, muxtar respublikanın mədəni həyatında ən unudulmaz illərdən biri olmuşdur. Həmin il iyun ayının 14-dən 21-dək respublikamızın paytaxtında "Bakıda Naxçıvan MSSR mədəniyyət həftəsi" keçirilmişdir. Muxtar respublikanın şair və yazıçıları, musiqi kollektivlərilə yanaşı Naxçıvan Dövlət Musiqili Dram Teatrı da paytaxt ictimaiyyəti qarşısında üç tamaşa ilə ("Odlu diyar", "Məhsəti" və "Sahil əməliyyatı") yaradıcılıq hesabatı vermişdir.

1966-cı ildə Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Dövlət Mədəniyyət və İncəsənət Universitetinin) rejissorluq fakültəsini bitirən, həmin vaxtdan ilk naxçıvanlı ali təhsil almış rejissor kimi Naxçıvan DMD Teatrında fəaliyyətə başlayan Vəli Babayev bu səhnədə özünün diplom işi kimi "Konsulu oğurladılar" tamaşasına quruluş verdi. Məşhur gürcü dramaturqu Georgi Mdivaninin İtaliya həyatından bəhs edən bu komediyasında italiyalı gənclərin həyat tərzini, qayğılarını, onları narahat edən siyasi problemlərin əsas kökünü üzə çıxararaq daha qabarıq təsvir etməyə çalışmış gənc rejissor, demək olar ki, buna müvəffəq ola bilmişdi [357, s.98].

Quruluşçu rəssamı M.Qasımov, bəstəkarı Bakıdan dəvət olunmuş Leonid Vaynşteyn, rejissor assistenti Tariyel Qasımov (indi Azərbaycan DGT teatrının aktyoru, xalq artisti) olan tamaşanın premyerası noyabrın 6-da olmuşdur. Gənc rejissorun diplom rəhbəri Rza Sarabski tamaşanı müsbət qəbul edərək onun teatrdakı ilk işindən məmnun qaldığını bildirmişdi.

"Şərq qapısı"nda dərc olunmuş resenziyadan məlum olur ki: "Georgi Mdivaninin "Konsulu oğurladılar" dramının (komediyasının –Ə.Q.) tamaşasına quruluş vermiş istedadlı və

müasir düşüncəli gənc rejissor Vəli Babayev yaradıcı kollektivlə səmərəli işləyərək maraqlı tamaşa yaratmışdır. Rəssam Məmməd Qasımovun verdiyi bədii tərtibat (bədii quruluş – Ə.Q.) sadə və məzmunludur...”.

Azərbaycan Dovlət Musiqili Komediya Teatrı 1966-cı ilin iyun ayında Naxçıvana qastrola gəlir. Teatr Naxçıvanda olduğu muddətdə M.Əlizadənin “Altı qızın biri pəri”, “Səndən mənə yar olmaz”, Ş.Qurbanovun “Olmadı elə, oldu belə”, N.Gəncəlinin “Ev bizim, sirr bizim”, S.Rustəmin “Durna” əsərlərini nümayiş etdirir. Tamaşalarda Azərbaycanın SSR xalq artisti Lutfəli Abdullayev, əməkdar artistlər-İmamverdi Bağırov, Nəsibə Zeynalova, Bəşir Səfəroğlu, Şəfiqə Qasımova, artistlər-Roza Əliyeva, Səyavuş Aslanov, Lutfiyyə Səfərova, Mobil Əhmədov, Nəcibə Behbudova, Hacıbaba Bağırov, Əzizağa Qasımov, Zəhra Zülalova, Şeyda Əhmədova, Qasım Zeynalov, İslam Şərifov, Məmmədsadıq Nuriyev, Dadaş Kazımov və başqaları məharətlə çıxış edirlər [194, s.141].

Naxçıvan teatrnın 4 mart 1967-ci il tarixli əmrində Hüseyn İbrahimovun “İtirilən sağlıq” əsərinin hazırlanması və bu əsərin quruluşçu rejissoru Baxşı Qələndərli, rəssam Məmməd Qasımova, bəstəkar Məmməd Ələkbərova və rejissor asisenti Tofiq Mövləviyə tapşırılmışdır. Əmrdə rollar aşağıdakı kimi bölünmüşdür: Xoşqədəm rolunda-Tamara Məmmədova, Cabir rolunda-Əkbər Qardaşbəyov, Gülmalıyev rolunda-Mirhəsən Mirişli, Mələk rolunda-Zəroş Həmzəyeva, Nizam rolunda-Tofiq Mövləvi, Simuzər rolunda-Sofiya Hüseynova, Müqəddəs rolunda-İbrahim Məmmədov, Məmiş rolunda-Əyyub Haqverdiyev, Püstə rolunda-Fruzə Əlixanova, Təranə rolunda-Pakizə Məmmədova, Səməndər kişi rolunda-Məmməd Quliyev və Keşməkeşli oğlan rolunda-Əyyub Məmmədovun oynayacağı göstərilmişdir. Bu əsərin 25 aprel 1967-ci il tarixdə istismara buraxılması göstərilsə də 10 mayda bu əsər tamaşaya qoyulmuşdur  [299, vər.9].

1967-1968-ci illər mövsümündə Naxçıvan Teatrında hadisəyə çevrilən daha bir tamaşa hazırlanıb təqdim olundu. Bu, məşhur sovet dramaturqu Boris Lavrenyovun "Tarmar" dramı idi. Artıq monumental tamaşalar müəllifi kimi tanınan baş rejissor Baxşı Qələndərli əsərə Naxçıvan səhnəsində "Hücum" adı ilə quruluş verdi. Pyesi dilimizə Əbdülkərim İmamzadə çevirmişdi. Tamaşanın quruluşçu rəssamı M.Qasımov, bəstəkarı M.Məmmədov olmuşdur. "Hücum" tamaşasının premyerası 1967-ci il noyabr ayının 7-də olmuş və ilk tamaşada muxtar respublikanın bütün rəhbərliyi iştirak etmişdi.

Tamaşa haqqında rejissor Vəli Babayevin "Şərq qapısı" qəzetinin 1967-ci il 19 noyabr tarixli nömrəsində dərc olunmuş resenziyasında oxuyuruq: "Hücum" ("Tarmar" – Ə.Q.) pyesi ölkəmizin müxtəlif teatrlarında dəfələrlə tamaşaya qoyulmuş və uzun illər repertuarda qalmışdır. Bu əsər haqqında görkəmli ədəbiyyatşünasların və incəsənət xadimlərinin fikirləri vardır. Buna görə də Naxçıvan Teatrının kollektivi "Hücum"u tamaşaya qoymaqla cəsarətli addım atmış və tamaşaçıların rəğbətini qazanan yaradıcılıq işi görmüşdür. Tamaşanın quruluşçu rejissoru, əməkdar incəsənət xadimi Baxşı Qələndərli yaradıcı kollektivlə çox səmərəli işləmiş, yubileyə layiq bir tamaşa yaratmışdır" [357, s.99].

"Şərq qapısı" qəzetinin 1968-ci il 27 dekabr tarixli nömrəsində görkəmli teatrşünas Cabir Səfərovun "Rejissor tamaşanın müəllifidir" başlıqlı resenziyası dərc olunub. Resenziya həmin il mayın 25-də premyerası olmuş "Yarımçıq şəkil" tamaşası haqqındadır. Müəllif yazır: "Əslən naxçıvanlı olan dramaturq Adil Babayev ilk peşəkar təhsilli rəssam, Naxçıvanda doğulmuş Bəhruz Kəngərlinin həyatını əks etdirən maraqlı pyes yazıb. Quruluşçu rejissor Baxşı Qələndərli dramaturq fikrinə sadiq qalaraq Bəhruzun həyatını yeniliyə, işığa doğru can atan insanların mübarizəsi kimi mənalandırmışdır."

1968-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilk dəfə olaraq (sovet dövründə) Türkiyə dramaturgiyasına müraciət etdi. Bu əsər Nazim Hikmətin Vera Tulyakova ilə birlikdə qələmə aldığı “Kor padşah” pyesi idi. Tamaşanın quruluşçu rejissoru Vəli Babayev, quruluşçu rəssamı Məmməd Qasımov, bəstəkarı Şəfiqə Axundova olmuşdur. Pyesi dilimizə teatrşünas Cabir Səfərov çevirmişdi. Kor padşah rolunda Aydın Şahsuvarov çıxış edirdi. Onun oyunu barədə “Şərq qapısı” qəzetində dərc olunmuş resenziyada oxuyuruq: “Biz Aydın Şahsuvarovu yaxşı gələcəyi olan bir artist kimi tanıyırıq. Aydın kor padşah surətində bu inamı daha da doğrultmuşdur. O, ətrafındakı yaltaqlarla danışarkən, göz yaşı axıdarkən və ya oğlundan şikayətlənərkən çox təbii və realdır. Onun hərəkətlərində artıqlıq, səsində sünilik yoxdur” [356, 28 yanvar 1969].

Bu illərdə geniş yaradıcılıq imkanlarına malik olan Naxçıvan teatrı maraqlı tamaşaları ilə xalq kutlələrini teatr sənəti ilə yaxından tanış edir, ciddi yaradıcılıq axtarışları apararaq aktyor sənətini urəkdən sevən gəncləri öz ətrafına toplayır. Gürcüstan Respublikasının şəhər və rayonlarında (1969) qastrolda olur. Məzmunlu tamaşalarına gorə Gürcüstan SSR Mədəniyyət Nazirliyinin, Teatr Cəmiyyətinin fəxri fərmanlarına laiq görülür.

1969-cu ildə Naxçıvan teatrının repertuarında ciddi dəyişiklik edildi. Bu isə gənclərin səmərəli işləmələrinə səbəb oldu. Zemfira Əliyeva, Vaqif Əsədov, Nizami Həmzəyev, Nazir Əliyev, Munəvvvər Əliyeva, Qurban Ələkbərov, Tofiq Movləvi, İsgəndər Abdullayev, Məmməd Humbətov və digərlər gənclər C.Cabbarlının “Solğun cicəklər”, S.Vurğunun “Vaqif”, İ.Əfəndiyevin “Məhv olmuş gundəliklər”, B.Vahabzadənin “Yağışdan sonra”, Ə.Nesinin “Toros canavarı” əsərlərinin muvəffəqiyyətli alınmasında xüsusi rol oynamışdılar. Onlar teatra yeni nəfəs, yeni həyat gətirdilər [194, s.143].

Naxçıvan teatrının yaradıcı kollektivi 1970-ci ildə Azərbaycanın Şəki, Zaqatala, Balakən, Qax, Oğuz rayon və

kəndlərində qastrol səfərlərində olmuş və qastrol səfərlərdə öz repertuarını “Kor padşah”, “Bahar qız”, “Yarımçıq şəkil”, “Hücum”, “Vaqif”, “Mehmanxana sahibəsi” və s. əsərlərini yüksək səviyyədə nümayiş etmişlər. [288, vər.29].

Tədqiq edilən illərdə Naxçıvan teatrı özünün repertuarının rəngarəngliyi ilə diqqəti cəlb edir. Burada Azərbaycan dramaturgiyasının ən gözəl səhnə əsərləri tamaşaya qoyulmuş və tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.

İdioloji işin bütün sahələri kimi, radio da zəhmətkeşlərin tərbiyə edilməsində, ölkənin mədəni simasının, əhalinin məişətinin dəyişilməsində mühüm rol oynayır.

İkinci Dünya müharibəsindən sonrakı illərdə muxtar respublikada radio qurğularının sayı ildən-ilə artır. Yalnız 1946-1959-cu illərdə əhaliyə 1012 radioqəbuledici satılmışdır. Bütün bunlar muxtar respublika əhalisinin məişətində yenilikdir, onların mənəvi inkişafı üçün qüdrətli vəsaitdir. 1959-cu ildə Naxçıvan MSSR-də 5 radiotranslyasiya qovuşağı fəaliyyət göstərirdi ki, bunlar da 120 mindən çox radio nöqtəsinə xidmət edirdi.

1956-cı ildə muxtar respublikada 7767 radio qovşağı olduğu halda, 1968-ci ildə muxtar respublikada 18000 radio qovşağı xidmət göstərmişdir [90, s.99].

Hökumətin idioloji qüvvələri sırasında mətbuat, xüsusilə görkəmli yer tutur. Ölkəmizin zəhmətkeşlərinin mənəvi səviyyəsinin və şüurluluğunun yüksəldilməsi ilə əlaqədar olaraq mətbuat – qəzet, jurnal, kitab nəşri getdikcə daha böyük sürətlə inkişaf etmiş və genişlənmişdir. Muxtar respublikada qəzetlərin tirajı xeyli artmışdır. 1945-cı ildə qəzetlərin tirajı cəmi 7,1 min nüsxə idisə, 1960-cı ildə 10,0 minə [177, s.122]. 1965-ci ildə 11,0, minə, 1970-ci ildə isə 26,5 min nüsxəyə çatmışdır [169, s.120].

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi xalq kütlələrinin mədəni səviyyəsinin yüksəldilməsində kütləvi təbliğat vasitələrinin fəaliyyətinə böyük diqqət vermiş, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, Naxçıvan MSSR Ali Sovetinin

və Nazirlər Sovetinin orqanı olan "Şərq qapısı" qəzeti və 5 rayon "Ordubad işçisi", "Zərbəçi heyvandar", "Sovet Culfası, "Sosialist maldarlığı", "Pambığa doğru" qəzetləri hökumətin rəhbərliyi altında tədqiq olunan illərdə zəhmətkeşlərin nailiyyətlərinə və mühüm vəzifələrin həyata keçirilməsinə xeyliköməklik göstərmişdir. Dərc olunan materialların təsir qüvvəsi yüksəlmişdir. Muxtar respublikanın və ölkənin müxtəlif hadisələrlə zəngin olan həyatını daha operativ işıqlandırmışdı. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, muxtar respublika rayon təşkilatlarının əməli fəaliyyətlərinin əsaslı sürətdə yenidən qurulması, nöqsanları aradan qaldırmaq uğrunda mübarizə, əmək adamlarının nailiyyətləri, muxtar respublikanın ictimai-siyasi fəaliyyətinin ahəngi və başqa məsələlər muxtar respublika mətbuatında öz layiqli yerini tapmışdır.

Bəhs edilən illərdə muxtar respublikada əhalinin mədəni həyat səviyyəsinin yüksəldilməsində mədəni-maarif müəssisələri – kitabxanalar, kulublar, kino-teatrlar, radio, mətbuat və sair siyasi kütləvi işlər mühüm rol oynamışdı.

# NƏTİCƏ

Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında ümumilli liderimiz Heydər Əliyevin 5 fevral 1999-cu il tarixli fərmanında deyildiyi kimi: “Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir.

Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesləri gedir” [192, s.3].

Naxçıvan Muxtar Respublikası Azərbaycan tarixində həmişə özünəməxsus yer tutmuş, gərgin sosial-iqtisadi və siyasi-hərbi durumda səciyyələnən kəskin təzadlı zaman kəsiyini əhatə edən mürəkkəb dövrü yaşamış, Azərbaycanın vahid tərkib hissəsi kimi, tarixi inkişaf prosesində müqəddaratını həll etmiş, özünün əbədi yolunu davam etdirərək iqtisadiyyatın, kənd təsərrüfatının, təhsilinin, səhiyyəsinin, mədəniyyətinin inkişafında nailiyyətlər qazanmışdır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında 1946-1969-cu illərdə sosial-iqtisadi mə mədəni inkişaf tarixini tədqiq edən zaman qarşıya qoyulan məqsəd müəyyən boşluğu doldurmaqla yanaşı, aşağıdakı nəticələrə və ümumiləşdirmələrə gəlməyə imkan verir.

1946-1969-cu illərdə Azərbaycan SSR-də olduğu kimi Naxçıvan MSSR-in də xalq təsərrüfatının hər bir sahəsinin inkişafında ciddi irəliləyiş oldu.

İkinci Dünya müharibəsindən sonrakı illərdə həyata keçirilmiş tədbirlər nəticəsində Naxçıvan MR-in sənayesi 30-40-cı illərə nisbətən çox yüksək dərəcədə inkişaf etmişdir. Bu müddət ərzində muxtar respublikada bir sıra yeni sənaye müəssisələri yaradılmış, köhnələr isə yenidən qurularaq isti-

fadəyə verilmişdir. Bu sənaye müəssisələrindən: Naxçıvan, Ordubad şəhərləri ilə yanaşı Şərur, Culfa, Şahbuz rayonlarında yeni sənaye müəssisələri tikildi. Şərur rayonunda elektrik şəbəkələri, Gümüşlü qurğuşun-sink mədəni, mərmər fabriki, Ordubad rayonunda Parağaçay molibden mədəni, Naxçıvan şəhərində çörək zavodu, ət-süd kombinatı, tikiş, mebel fabrikləri, Şahbuz rayonunda Badamlı mineral sular zavodu, Babək rayonunda tikinti sənaye müəssisələrinin, şərab, "Barjom" tipli "Sirab" mineral sular zavodu və s. müəssisələrin yaradılması Naxçıvan MR iqtisadiyyatının inkişadfında böyük rol oynadı.

1950-1960-cı illərdə Naxçıvan Muxtar Respublikasında yeni sənaye müəssisələrinin yaradılması və köhnə müəssisələrin bərpası nəticəsində muxtar respublikada sənaye məhsulu istehsalı 1951-1955-ci illərdə daha sürətlə (Azərbaycanda 45%, Naxçıvan MR-də 87%) artdı [205, s.24].

1956-1965-ci illərdə yeni sənaye müəssisələrinin yaradılması ilə əlaqədar olaraq 1965-ci ildə Naxçıvan MR sənaye müəssisələri 40 adda məhsul istehsal etmişdi. Buna baxmayaraq, Naxçıvan iqtisadiyyatının 1956-1965-ci illərdəki inkişafı çox ziddiyyətli, natamam xarakter daşımışdır. Belə ki, həmin illərdə Naxçıvan Muxtar Respublikasının sənayesində bir sıra irəliləyişlər baş versə də, 1954-cü ilin dekabrında "1955-1960-cı illərdə Naxçıvan MR-də kənd təsərrüfatının daha da inkişaf etdirilməsi haqqında" Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan KP MK tərəfindən qəbul edilmiş xüsusi qərar vaxtında və lazımi səviyyədə yerinə yetirilməmişdir. Beləliklə, 1956-1965-ci illərdə muxtar respublikada kənd təsərrüfatı xammalı emal edən və bu əsasda inkişafına böyük imkanlar olan ənənəvi sənaye sahələrinə diqqət olduqca azalmışdır. Nəticədə, sənaye məhsulu istehsalının həcmi 1956-1960-cı illərdə cəmi 6%, 1961-1965-ci illərdə 8%, 1956-1965-ci illərdə cəmi 14% artmışdı [205, s.26].

Qeyd etmək olar ki, 60-cı illərin ikinci yarısında Naxçıvan iqtisadiyyatı Azərbaycanın bir çox regionlarına nisbətən

aşağı inkişaf səviyyəsində olmuş, sənaye məhsulunun artım sürətinə görə o, həm də 50-ci illərin ikinci yarısında və 60-cı illərin əvvəllərində Naxçıvan iqtisadiyyatının yenidən tənəzzülə və durğunluğa düşməsinin bir çox obyektiv və subyektiv səbəbləri olmuşdu.

Bunlardan birini ümummilli liderimiz Heydər Əliyev 1998-ci il yanvar ayının 14-də Naxçıvan Muxtar Respublikasının konstitusiya layihəsini müzakirə edərkən açıqlamış və demişdi: "Azərbaycanın rəhbərləri tərəfindən Naxçıvana daim ögey münasibət göstərilmişdir" [9, 17 yanvar 1998, №13].

Əvvəlki illərdə olduğu kimi, 50-60-cı illərdə də erməni millətçilərinin törətdiyi fitnəkarlıqlar Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına, xüsusilə aqrar sənaye kompleksinin inkişafına mənfi təsir etmiş və sovet rəhbərliyi tərəfindən bunların qarşısı alınmamışdı.

Moskvada SSRİ Dövlət Plan Komitəsində yerləşən ermənilər Naxçıvanın sənaye müəssisələrinin guya perspektivi yoxdur deyə, onları məhv etməyə çalışmışdılar. Hətta ermənilər Bakı-İrəvan dəmir yolunun Ermənistan ərazisindən keçən hissəsində hərəkəti dayandırmaqla Naxçıvan MR-in iqtisadiyyatının inkişafına xüsusilə ağır zərbələr vurmuşdular.

Qeyd etmək olar ki, 1969-cu ilə qədər muxtar respublikaya münasibətdə mərkəzi hakimiyyətin yeritdiyi siyasət regionu Azərbaycandan təcrid etmək məqsədi güdmüşdü. Bu dövrdə təbii sərvətlərlə zəngin olan Naxçıvan diyarında məhsuldar qüvvələrin inkişafı bilərəkdən ləngidilirdi. Bu siyasətin kökündə ermənilərin, onların havadarlarının məkrli niyyətləri dayanırdı. Qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində Azərbaycanın əsas ərazisindən təcrid edilən Naxçıvanı iqtisadi cəhətdən zəif olan regiona çevirmək və bu yolla əhalini ata-baba torpaqlarından didərgin salmaq, boşalan torpaqları Ermənistana vermək, Naxçıvanı Ermənistan ərazisinə birləşdirməkdən ibarət idi. Hələ o vaxt

Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi sayəsində bu məkrli niyyətlərin qarşısı alındı.

1950-1960-cı illərdə Naxçıvan MR-də əldə edilmiş bir sıra uğurlara baxmayaraq, bəzi obyektiv və subyektiv səbəblər üzündən muxtar respublika iqtisadiyyatının bir çox sahələrində - həm sənayedə, həm də kənd təsərrüfatında mənfi meyllər özünü göstərməyə başladı. Naxçıvan MR-in inkişafı getdikcə ləngidi. Bu əhalinin sosial vəziyyətinə mənfi təsir göstərdi. İstehsalın, o cümlədən sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, əmək məhsuldarlığının artım sürətinə görə Naxçıvan Muxtar Respublikası keçmiş SSRİ-nin tərkibində olan muxtar respublikalar səviyyəsindən geri qalırdı. Bu gerilik getdikcə artırdı. Kənd təsərrüfatı xüsusilə ağır vəziyyətə düşmüşdü. Bu isə sənaye müəssisələrinin xammala olan tələbatını vaxtında ödəyə bilmirdi. Naxçıvan Muxtar Respublikasının belə ağır vəziyyətə düşdüyü bir zamanda Azərbaycan rəhbərliyində mühüm dəyişiklik baş verdi.

Azərbaycan KP Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilən pleniumda Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçildi. Azərbaycanın müasir tarixində, 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Xalqın böyük təəssübkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramını həyata keçirməyə başladı.

1969-cu il avqustun 5-də Heydər Əliyev Azərbaycan KP MK Pleniumunda çıxış edərək, respublikanın iqtisadiyyatını dərin və hərtərəfli təhlil etdi, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu qeyd etdi və onları aradan qaldırmaq yollarını göstərdi.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafında əsas dönüş ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlməsi və misilsiz

fəaliyyəti ilə bağlıdır. Heydər Əliyev ilk günlərdən Azərbaycanın bütün regionları kimi, Naxçıvan MR-in də sosial-iqtisadi inkişafının ən yüksək mərhələsinin əsasını qoydu.

Nəticə onu göstərir ki, tarixən aqrar diyar olan Naxçıvanda əkinçilik və maldarlıq təsərrüfatı inkişaf etdirilmişdi. Bunu muxtar respublika ərazisində aparılmış elmi tədqiqatlar və araşdırmalar bir daha təsdiq edir. Muxtar respublikanın iqtisadi həyatının əsasını kənd təsərrüfatı təşkil edir. Taxılçılıq, pambıqçılıq, tütünçülük, üzümçülük, meyvəçilik, tərəvəzçilik, ipəkçilik, heyvandarlıq, yem bitkiləri kənd təsərrüfatının əsas sahələri olmuşdur.

Muxtar respublika kənd təsərrüfatının iqtisadiyyatında mühüm yer tutan pambıqçılıq II Dünya müharibəsi illərində mühüm çətinliklərlə qarşılaşmışdır. Belə ki, pambığı becərmək üçün kənd təsərrüfatı alətləri çatmır, zərərvericilərə qarşı mübarizə və sair çox azlıq təşkil edirdi. Bu isə pambıqçılığın əkin sahəsinin və ümumi məhsulunun aşağı düşməsinə səbəb oldu. Buna görə də 1942-ci ildə Naxçıvan MSSR-də kənd təsərrüfatının gəlirli sahəsi olan pambığın əkin sahəsi xeyli azalmış, hətta hökumətin qərarı ilə dayandırılmışdı. Müharibənin tələbinə uyğun olaraq, pambıq əkin sahəsinin yerində 5000 hektar sahədə gənəgərçək texniki bitkisi əkilmişdi [325, vər.23].

İkinci Dünya müharibəsinin gedişi zamanı keçmiş sovet dövlətinin 1942-ci ilin martın 3-də “kolxoz və sovxozlarda cavan malların qorunması və mal-qaranın sayının artırılması haqqında” qərarına uyğun olaraq, muxtar respublikanın heyvandarları müharibə dövrünün çətinliklərinə baxmayaraq, səylə çalışmışlar. Naxçıvan MSSR-də bütün təsərrüfat dərəcələri üzrə mal-qaranın sayı 1940-cı ildə 42676 baş olduğu halda, 1941-ci ildə 42745 baş, 1942-ci ilin sonunda onların sayı 43673 başa çatdırılmışdır. O cümlədən 1940-ci ildə davarların sayı 161108 baş olduğu halda, bu rəqəm 1941-ci ildə 162684 başa, 1942-ci ildə 174258 başa, 1944-cü ildə isə 189143 başa çatmışdır.

Muxtar respublikanın kolxozlarında mal-qaranın sayı 1941-ci ildə 24926 baş olduğu halda, 1942-ci ildə 26067 baş, 1943-cü ildə 28628 baş, 1944-cü ildə 31668 baş, 1945-ci ildə 32600 başa çatdırılmışdır. Davarların sayı 1941-ci ildə 86968 baş olduğu halda, 1945-ci ildə 132539 baş olmuşdur [325, vər.25].

Müharibə illərində Naxçıvan MSSR-də mal-qaranın və davarların sayının artması ilə əlaqədar olaraq, onun məhsuldarlığı da artşışdır. Muxtar respublikanın ferma işçiləri böyük vətənpərvərlik hissi ilə çalışaraq ölkəyə və orduya çoxlu heyvandarlıq məhsulları vermişdilər. Ordu fonduna verilən ət 1944-cü ildə 845 sentnerdən 1945-ci ildə 2423 sentnerə çatdırılmışdır [43, s.9].

Yuxarıdakı fakt və rəqəmlərdən aydın olur ki, müharibənin dəhşətləri muxtar respublika kənd təsərrüfatının inkişafını dayandıra bilməmişdir. Kənd təsərrüfatı zəhmətkeşləri düşmən üzərində qələbə üçün bütün qüvvələrini sərf etmişlər. Müharibə illərində qarşıya çıxan çətinlikləri ciddi səy və zəhmət bahasına aradan qaldıraraq, cəbhəni və arxanı zəruri kənd təsərrüfatı məhsulları ilə təmin etmək işindəki müvəffəqiyyətlərə görə Naxçıvan MSSR zəhmətkeşləri Azərbaycan K(b)P MK-nın və Azərbaycan SSR XKS-nin Keçici Qırmızı bayrağına, 1-ci dərəcəli pul mükafatına və ÜİK(b)P MK-nın təşəkkürünə layiq görülmüşdür.

Məlum olduğu kimi, Naxçıvan qədim əkinçilik diyarıdır. Keçmişdə taxılçılıq Naxçıvanın kənd təsərrüfatında əsas yer tutmasına baxmayaraq, 1950-1958-cı illərdə satılıq taxıl istehsalı çox aşağı səviyyədə olmuşdur.

İkinci Dünya müharibəsi illərində taxıla olan ciddi tələbat nəticəsində texniki və yem bitkilərinin sahələri xeyli azalmış, muxtar respublikada taxıl əkin sahələri daha da artırılmışdır. Müharibədən sonrakı illərdə isə texniki və yem bitkilərinin əkin sahələri bir qədər artmışdır. Nəticədə taxıl bitkilərinin (payızlıq və yazlıq) kolxozlarda əkin sahələri azalmışdır. Belə

ki, 1950-ci ildə 35527 hektar olduğu halda, 1958-ci ildə 31727 hektara enmişdir [177, s.47].

Muxtar respublikanın ümumi əkin sahəsində taxıl bitkiləri mövqeyinin belə dəyişməsi muxtar respublikada taxıl istehsalının azalmasına səbəb olmuşdur. 1950-ci ildən fərqli olaraq, 1958-ci ildə taxıl əkin sahəsindən 3800 hektar azaldıb, onun yerində heç bir əsas olmadan başqa bitki əkilmişdi.

İkinci Dünya müharibəsindən sonrakı illərdə texniki bitkilərin əkin sahəsi xeyli genişləndirilmiş, məhsuldarlığı artmışdı. Müxtar respublikada pambıq əkin sahəsi 1946-cı ildə 3530 hektar olduğu halda, 1958-ci ildə 6434 hektara çatdırılmışdır [348, vər.8]. Satlıq pambıq istehsalı 1946-cı ildə 4766 tondan, 1958-ci ildə 11774 tona, hər hektardan əldə edilən məhsuldarlıq 3,5 sentnerdən 18,3 sentnerə yüksəlmişdi.

Müharibədən sonrakı illərdə üzümçülük və meyvəçilik muxtar respublikanın emal edən sənaye müəssisələrinin xammal mənbəyi olduğuna görə, bu bitkilərin əkin sahələrinin genişləndirilməsinə şərait yaradılmışdır.

Naxçıvan Muxtar Respublikasında heyvandarlıq istər II Dünya müharibəsinə qədər və istərsə də müharibədən sonra kənd təsərrüfatının əsas sahələrindən biri olub, muxtar respublikanın kənd təsərrüfatında mühüm rol oynamışdır.

Muxtar respublikanın heyvandarları Vətən qarşısında öz borclarına şərəflə əməl edərək, ictimai heyvandarlığın inkişaf etdirilməsinə, məhsuldarlığın yüksəldilməsinə və yeni yem bazasının təşkilində mühüm nailiyyətlər qazanmışdılar.

Məlum olduğu kimi, 50-60-cı illərdə Azərbaycan SSR-in iqtisadiyyatı, xüsusilə kənd təsərrüfatı ciddi surətdə geri qalırdı. İqtisadiyyatın bütün əsas göstəriciləri üzrə respublikamız müttəfiq respublikalar arasında axırıncı yerlərdən birini tuturdu. Buna səbəb bir çox illər ərzində respublikanın kənd təsərrüfatına rəhbərlik işində təşkilatı və aqrotexniki sahələr üzrə ciddi qüsurlara yol verilməsi idi. Eyni zamanda, kənd təsərrüfatı problemlərinin həlli elmi zəminə əsaslanmışdı. Belə

ki, hətta taxıl bitkiləri, çəltik, dənlik, qarğıdalı əkin sahələri əsassız olaraq azaldılmışdır. Bir sıra təsərrüfatlarda quşçuluq, donuzçuluq, qoyunçuluq fermaları ləğv edilmişdir. Naxçıvan MSSR-in də kənd təsərrüfatında bu qüsurlar öz əksini tapırdı.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə bu özbaşınalıqların qarşısı alındı. 1969-cu ilin avqust plenumu xalq təsərrüfatına rəhbərlikdə, partiya təşkilatlarının təşkilatçılıq və ideoloji işində olan nöqsanları və qüsurları aşkara çıxartdı. Onları aradan qaldırmaq, bütün sahələrdə dövlət intizamını möhkəmləndirmək məqsədilə səmərəli tədbirlər müəyyənləşdirdi və həyata keçirdi.

Azərbaycan SSR-də, o cümlədən də Naxçıvan MSSR-da kənd təsərrüfatının sürətlə inkişafına və yüksəldilməsinə dair Azərbaycan KP MK-nın avqust (1969-cu il) və sonrakı plenumları, "Azərbaycan SSR kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1970-ci il 23 iyul tarixli qərarların çox böyük əhəmiyyəti olmuşdur [346, 21 mart 1985].

İkinci Dünya müharibəsindən sonrakı illərdə muxtar respublikanın mədəni inkişafında qazanılmış uğurlar həm də təhsil sisteminin yenidən qurulmasında, inkişafında özünü göstərdi. Mədəniyyət sahəsinə ayrılan dövlət vəsaitinin artırılması, məktəblərin maddi texniki bazasının yenilənməsi, yeni müəllimlər nəslinin formalaşması təhsil sahəsində ciddi dəyişikliklərə gətirib çıxardı. 1951-ci ildə muxtar respublikada yeddiillik, təhsilə keçilməsi başa çatdırılmışdır. Eyni zamanda ümumi orta təhsilə keçilməsi xeyli inkişaf etdirilmişdir.

SSRİ Ali Sovetinin "Məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi və ölkədə xalq maarifi sisteminin daha da inkişaf etdirilməsi haqqında" 1959-cu il tarixli qanunu əsasında Naxçıvan MSSR-də səkkizillik ümumi təhsilə keçilməyə başlandı. Bu qanunun müvəffəqiyyətlə həyata keçirilməsində Azərbaycan müəllimlərinin IV qurultayının qərarlarının mü-

hüm əhəmiyyəti oldu. Artıq 1962-ci ildə Naxçıvan MSSR-də səkkizillik ümumtəhsil problemi həll edildi [176, s.75].

1961-və 1962-ci illərdə Naxçıvann MSSR-də məktəblərin yanında 207 əlavə sinif otaqları, 1 orta, 2 səkkizillik, 13 ibtidai məktəb binası tikilib istifadəyə verilmişdiki, bunun da nəticəsində 1963-cü ildə 78 məktəb birnövbəli məşğələ sisteminə keçmişdir.

1964-1965-ci dərs ilində Naxçıvan MSSR-də 3.785 şagird yeri olan 142 sinif otağı tikilib istifadəyə verilmişdi [31, s.57].

Naxçıvan MSSR-də 1970-71-ci dərs ilində 205 gündüz ümumtəhsil məktəbləri fəaliyyət göstərmişdir. Ümumi orta təhsilə keçilməsi ilə əlaqədar olaraq məktəblərin tipində ciddi dəyişikliklər baş vermişdir.

1970-71-ci dərs ilində muxtar respublikada 50 ibtidai, 84 səkkizillik və 71 orta məktəb fəaliyyət göstərmişdir. Bu məktəblərdə 1970-71-ci illərdə 57157 nəfər təhsil almışdır [176, s.76].

Təhsil sahəsində çalışan ixtisaslı kadrların, eyni zamanda şagirdlərin kəmiyyətində də dəyişikliklər müşahidə olundu. muxtar respublikanın müəllim kadrları ilə təmin olunmasında Naxçıvanda və Ordubad rayonunda pedaqoji texnikumlar, Naxçıvan Müəllimlər İnstitutu və 1967-ci ildə fəaliyyətə başlayan Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı çox mühüm rol oynadı. Bəhs edilən illərdə muxtar respublikada 218 ümumtəhsil məktəbi, 65 uşaq bağçası, məktəbdənkənar 18 uşaq müəssisəsi, 8 peşə-texniki məktəbi 4 texnikum fəaliyyət göstərmişdir [18, s.155].

Azərbaycan təhsili özünün əsl inkişafını ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rərbərlik etdiyi dövrdə tapdı. Heydər Əliyevin siyasi rəhbərliyinin ilk illərindən təhsil, maarif dövlət siyasətinin ən mühüm sahəsinə çevrildi. Azərbaycanda elm, mədəniyyət, təhsil sahəsi əsl inkişaf dövrünü yaşadı. Heydər Əliyevin vurğuladığı kimi, “sözün əsl mənasında

Azərbaycan məktəbi məhz iyirminci əsrdə yaranmışdır. Azərbaycan dilində, xalqımızın öz ana dilində uşaqlara, gənclərə təhsil verən və millətimizi təhsilləndirən məktəb yaranıbdır. Biz bu gün malik olduğumuz iqtisadi və siyasi potensiala, təhsil potensialına görə o dövrdə yaranaraq inkişaf etmiş təhsil sisteminə borcluyuq".

Heydər Əliyev Azərbaycanı dirçəltməklə və yeni Azərbaycan yaratmaqla yanaşı, həm də onun gələcəyini düşünürdü. O, gənclərə çox böyük diqqət yetirirdi. Kadr korpusunun istedadlı gənclər hesabına təzələnməsi əvvəllər görünməmiş sürətlə gedirdi.

Bu mənada "Naxçıvan Dövlət Universitetinin bu gün mövcud olması Naxçıvanda min illər bundan öncə elmin, mədəniyyətin varlığının inkişafının məntiqi nəticəsidir".

Naxçıvan Dövlət Universitetinin keçdiyi yola nəzər salarkən belə bir qənaətə gəlmək olar ki, muxtar respublikanın bu gününü, onun elmini, mədəniyyətini, mənəvi-psixoloji durumunu, bir sözlə bütövlükdə yaşadığımız ictimai mühiti, əsası 1967-ci ildə qoyulmuş Naxçıvan Dövlət Universitetindən ayrılıqda təsəvvür etmək olmaz. Təhsilə və elmə yiyələnməyin vacibliyini vurğulayan Heydər Əliyev göstərirdi ki, bizim gənclərimizin vəzifəsi təhsil almaq və müasir tələblərə uyğun olan səviyyəyə qalxmaqdır. Gənclərimizin qarşısında duran əsas vəzifələrdən birinin də mənəvi tərbiyə məsələsinin olduğunu qeyd edən ümummilli lider gəncləri ümumbəşəri dəyərləri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini dərindən mənimsəməyə çağırmış və göstərmişdi ki, milli dəyərlərimizi, dilimizi, dinimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.

Ulu öndər öz çıxışında vətənpərvərlik məfhumunun mahiyyətini belə açıb göstərirdi: "...Vətənpərvərlik çox geniş məna daşıyır. Vətənpərvərlik təkcə o deyil ki, gedib Vətəni silahla mühafizə edəsən. İnsan gərək həyatının hər bir dövründə, fəaliyyətinin bütün sahələrində öz Vətəninin, ölkəsinin

qayğısı ilə yaşasın, onun həm iqtisadiyyatının, həm siyasətinin, həm də mədəniyyətinin qayğısı ilə yaşasın. Bunlar hamısı vətənpərvərlikdən doğan bir şeydir. Vətənpərvər insan öz mədəniyyətinin də, iqtisadiyyatının da, öz dilinin də, təhsilinin də inkişaf etməsini istəyir, xalqının rifah halının yüksəklərə qaldırılmasını istəyir. Bütün bunlar vətənpərvərlik məvhumuna daxil olan anlayışlardır...”.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni həyatında çiçəklənmə dövrü başladı. Muxtar respublikada mədəni tərəqqinin, təhsilin, elmin, incəsənətin, mətbuatın inkişafında Heydər Əliyevin diqqət və qayğısı nəticəsində yeni nailiyyətlər əldə olundu.

1946-1969-cu illərdə muxtar respublikada zəhmətkeşlərin cansağlığına böyük qayğı göstərilmişdi. Bəhs edilən illərdə burada 25300 çarpayılıq 48 xəstəxana, 141 feldşer-mama məntəqəsi, 7 saniter-epidemioloji stansiya, 2 təcili yardım stansiyası, 39 poliklinika  ambulatoriya və qadın məsləhətxanası fəaliyyət göstərirdi ki, bunlarda da 659 həkim, 2120 orta tibb işçisi çalışırdı. Beləliklə, hər on min nəfər əhaliyə 25,0 həkim, 80,4 nəfər orta tibb işçisi düşürdü [18, s.148].

Bəhs edilən illərdə muxtar respublikada səhiyyənin inkişafında xeyli irəliləyiş olmuş, tibb müəssisələri müasir avadanlıqlarla təmin edilmişdir. Tədqiq olunan illərdə dövlətin göstərişi ilə tibb işçilərinin aparmış olduğu sanitar-epidemiya və müalicə-profilaktik tədbirlər nəticəsində, difektiya, traxoma, dəri-zöhrəvi, poliomielit, angilastomidoz, kəskin bağırsaq xəstəlikləri və s. azalmış, taun, çiçək, maliyariya, qara yara, difteriya və s. xəstəliklər tamamilə ləğv edilmişdir.

Bu nailiyyətlərlə yanaşı muxtar respublika səhiyyəsinin inkişafında müəyyən nöqsanlar da olmuşdur. Bəhs edilən illərdə səhiyyənin inkişafı üçün müəyyən edilmiş vəsait tam xərclənməmiş, müalicə-profilaktika müalicələri lazımi avadan-

lıqlarla, yüksək ixtisaslı kadrlarla təmin edilməmiş, müalicə müəssisələrinə verilən dərmanlar və ərzaq məhsulları vaxtında çatdırılmamışdır.

İkinci Dünya müharibəsindən sonrakı illərdə Azərbaycan SSR-də olduğu kimi, Naxçıvan MSSR-də inkişaf etmiş, xalq təsərrüfatının inkişafı ilə əlaqədar olaraq çoxlu mədəni-maarif ocaqları: kütləvi kitabxanalar, klublar, kino-teatrlar, mədəniyyət sarayları, mədəniyyət evləri, uşaq musiqi məktəbləri, muzeylər, müasir mehmanxana, istirahət parkları və s fəaliyyət göstərmişdir. Lakin dövrün tələblərinə uyğun olaraq bu müəssisələrdə inkişaf ürək açan səviyyədə olmamışdır. Yalnız 1969-cu ildən sonda Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi ilə muxtar respublikada fəaliyyət göstərən mədəniyyət sahələrində mühüm işlər görüldü və böyük uğurlar əldə edildi.

Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasında yeni ali təhsil, mədəniyyət ocaqları yarandı. Təhsil müəssisələrinin şəbəkəsi genişləndirildi, maddi-texniki bazası daha da gücləndirildi və kadr potensialı artırıldı. Muxtar respublikada Naxçıvan Özəl Universiteti, Naxçıvan Müəllimlər İnistitutu yarandı, Naxçıvan Dövlət Universitetinin fəaliyyəti daha da artaraq, xalqımızın maariflənməsində və muxtar respublikanı kadrla təmin edilməsində, xüsusi xidmətlər göstərir.

Muxtar respublikada hərbi litsey, qızlar litseyi, musiqi məktəbləri və sair təhsil ocaqları yaranmış, fəaliyyətlərini genişləndirmişdilər. Bütün bunlar ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev muxtar respublikanın sosial-iqtisadi problemlərinə daim diqqət yetirmiş, bölgədə vəziyyətlə yerindəcə tanış olmaq üçün prezidentliyi dövründə beş dəfə Naxçıvana səfər etmişdi. Onun diqqət və qayğısı sayəsində Naxçıvan Muxtar Respublikasında mədəniyyət, elm və təhsil sistemi yenidən dirçəlməyəvə sürətlə inkişaf etməyə başlamışdı. Ulu öndər Heydər Əliyev muxtar

respublikada milli-mənəvi dəyərlərimizin qorunması və təbliğinə böyük diqqət verirdi.

Ölkə prezidenti İlham Əliyevin rəhbərliyi dövründə də mədəniyyətin, təhsilin, elmin, incəsənətin inkişaf etdirilməsi sahəsində mühüm tədbirlər görülmüşdür ki, bunun da nəticəsində Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında da mədəniyyət, təhsil özünün inkişafının ən yüksək mərhələsinə çatdı. Azərbaycan təhsil sistemi qısa zamanda dünya təhsil sisteminə inteqrasiya etdi, dünyəvi dəyərləri özündə əks etdirdi, yeni təlim metodlarının tətbiqi nəticəsində ölkəmizdə təhsil sistemi çiçəklənmə dövrünü yaşayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 5 oktyabr 2010-cu il tarixdə Naxçıvana səfəri çərçivəsində ziyalılarla görüşündəki nitqində demişdir: "Bizim siyasətimizin əsas istiqaməti bundan ibarətdir ki, Azərbaycanda insan kapitalına qoyulan sərmayə gündən-günə artsın. Bu yeni orta məktəblərin, ali məktəblərin yaradılması bir məqsədi güdür ki, Azərbaycanda təhsilin səviyyəsi bizi qane edən səviyyəyə qalxsın. Bunu etmək üçün əlbətdə ki, məktəb tikintisi də, təhsilin keyfiyyətinin yaxşılaşdırılması da lazımdır... Eyni zamanda, təhsilin keyfiyyətinin artırılması məsələsi bu gün diqqət mərkəzindədir" [356, 6 oktyabr 2010].

Azərbaycan Respublikasının Prezidentinin böyük diqqət və qayğısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun gündəlik nəzarəti və qayğısı ilə Naxçıvanda mədəni quruculuq sistemi müasir çağırışlara cavab verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan MR-in 85 illiyinə həsr edilmiş təntənəli mərasimdə demişdir: "Əgər ümummilli liderimiz ötən əsrin 70-ci illərində geridə qalmış aqrar Azərbaycan Respublikasını müttəfiq respublikalar içərisində lider respublikaya çevirdisə, bu gün bu siyasi kursun davamçısı hörmətli İlham Əliyev Azərbaycanı lider dövlətə çevirdi. Göstərilən diqqət və qayğının nəticəsidir ki, ötən beş il ərzində muxtar respublikada

ümumi daxili məhsul (ÜDM) istehsalının həcmi 3,5 dəfədən çox artaraq 232 milyon manatdan 796 milyon manata çatmışdır" [9, 15 avqust 2009].

Aparılan təhlillər və araşdırmalar sosial-iqtisadi proseslərin nəticəsi göstərir ki, Naxçıvan MR-da kənd təsərrüfatının sürətli inkişaf tempini qoruyub saxlamaq üçün potensial imkanlardan lazımınca istifadə edilir. Bütün bunların nəticəsi olaraq, muxtar respublikada kənd təsərrüfatının güclü maddi-texniki baza formalaşmış, yeni təsərrüfat formaları yaranmış, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə məhsul istehsalının səviyyəsi dəfələrlə artmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir. Bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir. Burada gedən işlər məni çox sevindirir. Mən əminəm ki, bu gözəl ənənələr gələcək illərdə də davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır" [95, s.3].

Ümummilli lider Heydər Əliyevin strategiyasını davam etdirən ölkə prezidenti cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi altında muxtar respublikada onlarla, yüzlərlə sənaye müəssisələri, istirahət parkları, xəstəxanalar, mədəni-maarif ocaqları, məktəblər, stadionlar və sair müəssisələr tikilmiş, tarixi abidələr bərpa olunaraq istifadəyə verilmişdi.

Məktəb tikintisinə xüsusi əhəmiyyət verən ulu öndər Heydər Əliyev demişdi: "İnsan təhsilinin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır". Bu təhsilə, maarifə ümummilli lider Heydər Əliyevin məhəbbətinin, qayğısının və himayəsinin ən vacib nümunəsi sayılmalıdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATLAR


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2017, 92 s.
2. Azərbaycan Respublikası 1991-2001-ci illərdə. Bakı: XXI əsr Yeni Nəşrlər evi, 2001, 280 s.
3. Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər), Tərtib edən. T.Əhmədov. Bakı: "Nurlar" nəşriyyatı. Poliqrafiya mərkəzi. 2004, 160 s.
4. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı: Azərdəmiryolbang ASC, 2009, 156 s.
5. Azərbaycan tarixi: Yeddi cilddə. V c., Bakı: Elm, 2008, 693 s.
6. Azərbaycan tarixi: Yeddi cilddə. VI c., Bakı: Elm, 2008, 567 s.
7. Azərbaycan tarixi: Yeddi cilddə. VII c., Bakı: Elm, 2008, 608 s.
8. Azərbaycan tarixində Naxçıvan. (S.Məmmədov, İ.Bağırovun redaktorluğu ilə). Bakı: ADPU-nun mətbəəsi, 1996, 142 s.
9. "Azərbaycan" qəzeti.
10. "Azərbaycan qadını" jurnalı.
11. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı: Azərnəşr, 1964, 818 s.
12. Azərbaycan KP XXVIII qurultayının matrealları. Bakı: Azərnəşr, 1971, 103 s.

13. Azərbaycan KP XXIX qurultayının materialları. Bakı: Azərnəşr, 1976, 190 s.
14. Azərbaycan KP XXX qurultayının materialları. Bakı: Azərnəşr, 1981, 266 s.
15. Azərbaycan SSR EA. İqtisadiyyat İnstitutunun əsərləri. VI c. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1960, 176 s.
16. Azərbaycan SSR-nin Xalq təsərrüfatı SSRİ-nin 50 illiyi qarşısında statistikanın yubiley külliyyatı. Bakı: Azərnəşr, 1972, 288 s.
17. Azərbaycan SSR-nin Xalq təsərrüfatı SSRİ-nin yaradılmasının 60 illiyinə (SSRİ-nin 60 illik yubileyinə həsr olunmuş statistik məcmuə). Bakı: Azərnəşr, 1982, 352 s.
18. Azərbaycan SSR Naxçıvan Muxtar Sovet Sosialist Respublikası 60 ildə (60 illik yubileyə həsr olunmuş statistik məcmuə). Bakı: Azərnəşr, 1984, 180 s.
19. Azərbaycan SSR-nin Xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində (Ə.Mahmudov və Q.Əbdülsəlimzadənin redaktorluğu ilə). Bakı: Elm, 1985, 188 s.
20. Abbasov T.A. Kənd təsərrüfatının resurs potensialı və ondan səmərəli istifadənin regional problemləri. Bakı: Elm, 2002, 188 s.
21. Axundov Ş.Ə. Kənd təsərrüfatının material-texniki təchizatı. Bakı: Azərnəşr, 1984, 136 s.
22. Axundov Ş.Ə. Kənd təsərrüfatının maddi-texniki təminatı. Bakı: Azərnəşr, 1985, 151 s.

23. Axundov Ə.B. Naxçıvan MSSR-in mineral suları və onların müalicəvi əhəmiyyəti. Bakı: “Bilik” cəmiyyəti. 1981, 36 s.
24. Allahverdiyev R.K. Azərbaycanda üzümçülüyün inkişafı məsələləri. Bakı: Azərnəşr, 1960, 187 s.
25. Alıyev İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi. Bakı: Elm, 2003, 315 s.
26. Alıyev İ.H. Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların keyfiyyətcə səmərəli aparılması. Bakı: Nurlan, 2004, 110 s.
27. Alıyev İ.H. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı: Elm, 2006, 380 s.
28. ASE 10 cilddə, VII c. (Baş redaktor Quliyev C.B.). Bakı: “Qızıl Şərq” mətbəəsi, 1983, 624 s.
29. Aslanov S.R. Sovet Azərbaycanı sənaye Respublikasıdır. Bakı: “Maarif” nəşriyyatı, 1971, 276 s.
30. Atnur İ.E. Muxtariyyat ərəfəsində Naxçıvan. Naxçıvan: NDU, “Qeyrət” nəşriyyatı, 1999, 442 s.
31. Atakişiyev A.M. Geniş kommunuzm quruculuğu dövründə Azərbaycan SSR-nin mədəniyyəti. ADU-nun nəşriyyatı, Bakı, 1971, 281 s.
32. Babayev S.Y. Qədim diyarın təbiəti. Bakı: Azərnəşr, 1970. 210 s.
33. Babayev T.A. Bal tutan barmaq yalar. Bakı: Azərnəşr, 1992, 65 s.
34. Bağırov E.A. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı. Bakı: “Avropa”, 2015, 332 s.

35. Bağırov F.A. Tarixin yaddaşı. Bakı: AzTV-nun mətbəəsi, 2009, 420 s.
36. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşmasında rolu. Naxçıvan: NDU-nun Qeyrət nəşriyyatı, 2014, 129 s.
37. Behbudov H.Ə. Azərbaycanın yemçilik təsərrüfatı. Bakı: Azərnəşr, 1991, 232 s.
38. Bünyadov T.Ə. Azərbaycanda əkinçiliyin inkişaf tarixinə dair. Bakı: Azərbaycan SSR. EA. Nəşriyyatı, 1964, 152 s.
39. Bünyadov T.Ə. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı: Elm, 1969, 187 s.
40. Cavadov Q.C. Əkinçilik mədəniyyətimizin sorağı ilə. Bakı: "Azərnəşr", 1990, 168 s.
41. Cəfərov A.H., Hüseynov A.Y. "Əmək ulduzları" 4 seriyadan ibarət /bülleten/, 20 sentyabr, 10,16,17 noyabr, Naxçıvan mətbəəsi, Naxçıvan: 1978-ci il.
42. Cəfərov.T. Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafı. Bakı: 1999, 312 s.
43. Cəfərov F.A. Naxçıvan İkinci Dünya müharibəsi illərində. Bakı: "Elm və təhsil", 2015, 300 s.
44. Cəfərov F.A., Hüseynov X.A. Naxçıvan Muxtar Respublikasında mədəni quruculuğun inkişaf tarixindən (1920-1945-ci illər). Naxçıvan "Əcəmi" NPB, 2021, 312 s.
45. Cəfərov H.R. Naxçıvanda təhsil: İnkişaf yolu və imkanları. Bakı: "Elm və təhsil", 2011, 343 s.

46. Dördüncü çağırış Naxçıvan MSSR Ali Sovetinin iclasları (VII sessiya). Stenoqrafik hesabat. Bakı: Azərnəşr. 1959.
47. Dördüncü çağırış Naxçıvan MSSR Ali Sovetinin iclasları (VI sessiya) 17 fevral 1958-ci il. Stenoqrafik hesabat. Bakı: Azərnəşr. 1958. 80 s.
48. Dövlət Müstəqilliyimizdə Heydər Əliyev amili. (Buraxılışa məsul. F.Ağamalı). Bakı: OSCAR NPM, 2003, 272 s.
49. "Elm və həyat" jurnalı.
50. Əliyev H.Ə. Sovet Azərbaycanı 50 ildə. Bakı: "Kommunist" nəşriyyatının mətbəəsi.1970. 82 s.
51. Əliyev H.Ə. Möhkəm ideyalı hərtərəfli inkişaf etmiş kommunizm qurucuları tərbiyə etməli. Bakı: 1978.
52. Əliyev H.Ə. Təsərrüfatlararası kooperasiya və aqrar-sənaye inteqrasiyası əsasında kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılmasını və təmərküzləşdirilməsini daha da inkişaf etdirmək sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında. Bakı: Azərnəşr, 1978, 55 s.
53. Əliyev H.Ə. Azərbaycan SSR kənd təsərrüfatının və bütün iqtisadiyyatının daha dinamik inkişafını təmin etməli. Bakı: Azərnəşr, 1979, 154 s.
54. Əliyev H.Ə. Azərbaycan SSR-nin və Azərbaycan KP-nin 60 illiyi. Bakı: 1980, 52 s.
55. Əliyev H.Ə. Azərbaycan KP XXX qurultayında hesabat məruzəsi. Bakı: Azərnəşr, 1981, 218 s.

56. Əliyev H.Ə. Sovet Azərbaycanı. Bakı: Azərnəşr, 1981, 118 s.
57. Əliyev H.Ə. Qoy ədalət zəfər çalsın. Naxçıvan: “Əcəmi”, 2007, 48 s.
58. Əliyev H.Ə. Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə dövlət Komissiyasının iclasında yekun nitqi. “Xalq” qəzeti, Bakı. 1999. 11 fevral № 36.
59. Əliyev H.Ə. Naxçıvan MR-in təşkil olmasının 75 illik təntənəli yubiley iclasında nitqi. “Azərbaycan” qəzeti, Bakı. 1999. 14 oktyabr № 236.
60. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı: “Əcəmi”, 2001, 190 s.
61. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 46 ciliddə, 22-ci cild. Bakı: Azərnəşr, 2007, 528 s.
62. Əliyev İ.H. Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı. Bakı: Elm, 2001, 310 s.
63. Əliyev İ.H. Biz hər şeyə nail olacağıq. Bakı: Oskar, 2003, 252 s.
64. Əliyev İ.H. Heç bir təzyiq məni öz yolumdan çəkindirə bilməz. Bakı: Oskar, 2003, 220 s.
65. Əliyev İ.H. Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyi münasibəti ilə təntənəli mərasimdə nitqi, “Şərq qapısı” qəzeti, Naxçıvan, 2004, 16 may, № 59.
66. Əliyev İ.H. İnkişaf-Məqsədimizdir. Birinci kitab Bakı: Azərnəşr, 2008, 424 s.
67. Əliyev İ.H. İnkişaf-Məqsədimizdir. İkinci kitab, Bakı: Azərnəşr, 2009, 432 s.

68. Əliyev İ.H. İnkişaf-Məqsədimizdir. Dördüncü kitab, Bakı: Azərnəşr, 2009, 400 s.
69. Əliyev İ.H. İnkişaf-Məqsədimizdir. Beşinci kitab, Bakı: Azərnəşr, 2010, 392 s.
70. Əliyev İ.H. İnkişaf-Məqsədimizdir. Səkkizinci kitab, Bakı: Azərnəşr, 2011, 408 s.
71. Əhmədov İ.V. Kənd təsərrüfatının idarə edilməsi. Bakı: Elm, 2006, 220 s.
72. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında, Bakı: Elm, 2005, 312 s.
73. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: "Şaban", 2008, 452 s.
74. Əhmədov N.H. Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf. Bakı: "Elm və Təhsil", 2010, 148 s.
75. Əhmədov N.H. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə. Naxçıvan: "Əcəmi" NPB, 2015, 272 s.
76. Əhmədov N.H. Sürətlə inkişaf edən və modernləşən Naxçıvan İqtisadiyyatı: "Əcəmi" NPB, 2019, 384 s.
77. Əliyev A.Ə. İnkişaf etmiş sosializmdə kolxozçuların həyat səviyyəsinin yüksəldilməsi problemləri. Bakı: Azərnəşr, 1980, 128 s.
78. Əliyev A.Ə., Qasımov Ə.C. Naxçıvan Muxtar Respublikası: nailiyyətlər və problemlər (I cild). Bakı: "Azərbaycan" nəşriyyatı, 2001, 284 s.

79. Əliyev A.Ə., Qasımov Ə.C. Naxçıvan Muxtar Respublikası: nailiyyətlər və problemlər (II cild). Bakı: “Azərbaycan” nəşriyyatı, 2001, 264 s.
80. Əliyev Ə. Naxçıvan MSSR-in mədəni inkişafı Bakı: 1960.
81. Əliyev Ə., Rəsulov M. “Təhsil hüququ”, “Maarif” nəşriyyatı, Bakı: 1980.
82. Əliyev Q.S. Naxçıvanın zəngin təbiəti. Bakı: Adiloğlu, 2010, 211 s.
83. Əmirov R., Hacıyev S. Naxçıvan Muxtar Respublikasının müasir torpaq xəritəsinin əkinçilik sistemində rolu. Naxçıvan: Əcəmi, 2013, 176 s.
84. Əsədov E., Tahirov Ə., Hüseynov H. Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişaf tarixi, müasir vəziyyəti və perspektivləri, Azərbaycan Zooloqlar Cəmiyyətinin əsərləri, II cild (məqalələr toplusu). Bakı: Elm, 2010, s. 272-277.
85. Əyyubov Ə.S. Azərbaycan SSR-nin aqroiqlim ehtiyatları və onlardan kənd təsərrüfatında istifadə edilməsi. Bakı: ADN, 1981, 79 s.
86. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində. Tarix elm. dokt. diss. Avtoreferatı. Bakı: “Elm”, 1999, 65 s.
87. Hacıyev İ.M., Məmmədov Ş.A. Naxçıvan və naxçıvanlılar. Bakı: Elm, 2001, 280 s.
88. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inki-

şafı (1991-2011-ci illər). Naxçıvan: "Əcəmi" NPB, 2011, 272 s.
89. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı (1995-2019-cu illər). Naxçıvan: "Əcəmi" NPB, 2020, 224 s.
90. Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası - 90. Naxçıvan: "Əcəmi" NPB, 2014, 184 s.
91. Hacıyev S.Ə. Naxçıvan Muxtar Respublikası torpaqlarının eko-coğrafi şəraiti. Bakı: MBM, 2009, 108 s.
92. Hacıyev S.Ə. Naxçıvan Muxtar Respublikası torpaqlarının ekoloji qiymətləndirilməsi. Bakı: MBM, 2010, 295 s.
93. Hacıyev Y.Z. Azərbaycan kənd təsərrüfatının intensivləşməsi yolları. Bakı: Azərnəşr, 1964, 67 s.
94. Heyvandarlıq (I hissə). Gəncə: "Gəncə Poliqrafiya", 2011, 320 s.
95. Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan: "Əcəmi" NPB, 2010, 279 s.
96. Həbibbəyli İ.Ə., Vəliyev Z., Talıbov T. Naxçıvan diyarının mineral suları. Naxçıvan: NDU-nun "Qeyrət" nəşriyyatı, 2000, 12 s.
97. Hüseynova İ.M. Müstəqilliyimizin təminatçısı. Bakı: BDU-nun nəşriyyatı, 2003, 328 s.
98. Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: "Təhsil", 2004, 472 s.
99. Hüseynov A.Y., Cəfərov H.R., Hacıyev İ.M. Bilsin ana torpaq. Bakı: Bilik cəmiyyəti, 1991, 54 s.

100. Hüseynov A.Y. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası müharibədən sonra sosializm quruculuğu dövründə (1946-1958-ci illər). Tarix elm. nam. diss. Avtoreferatı. Bakı: 1987, 23 s.
101. Hüseynov X.A. Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı (1950-2004-cü illər). Bakı: ADPU-nun mətbəəsi, 2012, 160 s.
102. Hüseynov İ.X. Azərbaycan KP Naxçıvan vilayət təşkilatının kənd təsərrüfatını inkişaf etdirmək uğrunda mübarizəsi (1953-1958-ci illər). Tarix elm. nam. diss. Avtoreferatı. Bakı: 1965, 24 s.
103. “Xalq qəzeti”.
104. Hüseynov X.A. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı (1924-2014-cü illər). Naxçıvan: “Əcəmi” NPB, 2016, 352 s.
105. İbrahimova N.H. Regionda aqrar sahənin istehsal-iqtisadi əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri. Naxçıvan: İdeya, 2011, 124 s.
106. İbrahimov İ.H. Aqrar islahatlar iqtisadiyyatının aktual problemləri. Bakı: Səda, 2002, 219 s.
107. İbrahimov İ.H. Aqrar islahatları və sahibkarlığın inkişafı. Bakı: Səda, 2005, 220 s.
108. İsayev E.S. Böyük ipək yolu və Naxçıvan Bakı: “Elm və təhsil”, 2012, 214 s.
109. İsayev E.S. V-XV əsrlərdə beynəlxalq ticarət və Azərbaycan. Naxçıvan: “Əcəmi”, 2012, 87 s.
110. İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı: “Qızıl şərq”, 1960, 240 s.

111. İsmayılov R., Şirinov E. Naxçıvan bir məktəbdir. Bakı: "Nurlan", 2007, 230 s.
112. İvanov R.N. Basqın. Naxçıvan: "Əcəmi" NPB, 2013, 464 s.
113. İsmayılov Ə.N. Azərbaycanda tütünçülük. Bakı: Azərnəşr, 1968, 123 s.
114. 2000-2005-ci ildə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: "Əcəmi" NPB, 2006, 70 s.
115. 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2011, 96 s.
116. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2015, 71 s.
117. 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2016, 71 s.
118. "Kənd Həyatı", jurnalı
119. "Kommunist" qəzeti
120. Kəngərli İ.İ. 1981-1990-cı illərdə Naxçıvan Muxtar Respublikasında ka drların hazırlanması, seçilməsi vəyerləşdirilməsi. Tarix.elm.nam.disse. Avtoreferatı. Bakı: 1992, 22 s.
121. Kələntərov M. Elektrik enerjisinin kənd həyatında tətbiqi. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1955, 116 s.

122. Köçərli T. Naxçıvan Uğurlar və tarixi həqiqətlər. Bakı: Təknur, 2005, 170 s.
123. Qasımov D.P. Üzümçünün stolüstü kitabı. Bakı: Azərnəşr: 1978, 301 s.
124. Qaffarov T.B. Azərbaycan Respublikası əsrə bərabər. On il, 1991-2001-ci illər. Bakı: "Tural-E", 2001, 325 s.
125. Qasımov Ə.C. Sosialist kənd təsərrüfatının iqtisadiyyatı. Bakı: "Maarif" nəşriyyatı, 1968, 320 s.
126. Qasımov Ə.C. İctimai heyvandarlığın iqtisadiyyatı. Bakı: Maarif" nəşriyyatı, 1972, 377 s.
127. Qasımov M. Mənim sənət yolum. Naxçıvan teatrı. Tərtib edənləri: F.Xəlilov, F. Cəfərov. Naxçıvan: "Əcəmi" NPB, 2014.
128. Qəhrəmanov Ə., İbrahimov S., Cəfərov F. Naxçıvan teatrının səlnaməsi. Naxçıvan: "Əcəmi" NPB, 2010, 736 s.
129. Qəhrəmanov Ə. Naxçıvan bəstəkarlıq məktəbində Məmməd Ələkbərovun yeri //AMEA NB xəbərləri. 2013, №3.
130. Quliyev N. Naxçıvan musiqi mədəniyyəti tarixindən (XX əsr). Bakı: Elm, 1999, 140 s.
131. Quliyeva Y. Naxçıvanda musiqi kollektivlərinin yaradılması tarixindən. AMEA Naxçıvan Bölməsinin Xəbərləri. 2009, №3.
132. Quliyeva Y. Azərbaycan bəstəkarlıq məktəbinin naxçıvanlı nümayəndələri. AMEA Naxçıvan Bölməsinin Xəbərləri. 2010, №1.

133. Quliyeva E.A. Aqrar iqtisadiyyat. (Dərslik). Bakı: "Kooperasiya", 2015, 320 s.
134. Qasımlı V. İqtisadi modernizasiya. Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: 2014, 311 s.
135. Qasımov Ə.Q. Heydər Əliyevin tərəqqi strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80 ci illəri). Bakı: Təhsil, 2009, 412 s.
136. Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Bakı: "Turxan" NPB, 2013, 264 s.
137. Qayğı dolu ömür yolu. Naxçıvan: "Əcəmi" NPB, 2006, 168 s.
138. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Məsləhətçi və buraxılışa məsul Vasif Talıbov. Bakı: "Azərbaycan" nəşriyyatı, 2008. 840 s.
139. Qədim Naxçıvanda bayram. Naxçıvan Muxtar Respublikası-75. Bakı: Azərnəşr, 1999, 287 s.
140. Qəhramanov R.C. Naxçıvan MSSR-də kənd təsərrüfatı və onun inkişaf etdirilməsi yolları. Bakı: Elmlər Akademiyası nəşriyyatı. 1957, 216 s.
141. Qəhramanov R.C. Naxçıvan MSSR-də kənd təsərrüfatının yerləşdirilməsi və ixtisaslaşdırılması. Bakı: Azərnəşr, 1967, 194 s.
142. Qəndilov S.T. Coşqun yüksəliş illərində. Bakı: 1984, 180 s.
143. Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı. Bakı: Azərnəşr, 1984, 136 s.

144. Quliyev Ə.M. Azərbaycanın bal verən bitkiləri. Bakı: Azərnəşr, 1958, 333 s.
145. Quliyev M.İ. Yüksəliş yollarında. Azərbaycan partiya təşkilatının tikintinin inkişafı sahəsində fəaliyyəti (1970-1980-ci illər). Bakı: Azərnəşr. 1983, 182 s.
146. Quliyev V., Talıbov T. Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası. Naxçıvan: "Əcəmi" NPB, 2012, 586 s.
147. Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, 328 s.
148. Məmmədov Z.S. Naxçıvanın təbii sərvətləri. Bakı: "Azərnəşr", 1993, 44 s.
149. Mollayev İ.A. Naxçıvan MSSR-də maarifin inkişafı. Bakı: "Bilik" cəmiyyəti, 1983.
150. Mehdizadə M.M. Azərbaycanda sovet məktəbi tarixi üzrə oçerklər. Bakı: 1959.
151. Mədətov Q.Ə. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1968, 187 s.
152. Məhərrəmov S.H. Müalicə-profilaktika məqsədi ilə qoyunların mədə-bağırsaq nematodozlarına qarşı anthelmint bitkilərin və onların kimyəvi preparatlarla qarışığının işlədilməsinə dair təkliflər. Bakı: Mütərcim. 2010, 28 s.
153. Məhərrəmov S.H., Məmmədli T.B., İbadullayeva S.C. Naxçıvan Muxtar Respublikasının dağlıq ərazi-

lərinin yem bitkiləri (müxtəlif otlar). Bakı: Elm və Təhsil, 2015, 222 s.
154. Məlikov F.Ə. Qoyunçuluq. Bakı: Azərnəşr, 1953, 350 s.
155. Məmmədov A.İ. Kənd təsərrüfatının iqtisadiyyatı. Bakı: “Maarif” nəşriyyatı, 1992, 372 s.
156. Məmmədli T.B. Arazboyu düzənliyin arid iqlim şəraitində kənd təsərrüfatı bitkiləri. Bakı: MBM, 2006, 140 s.
157. Məmmədov V. Cəlil Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnistitutu. Bakı: Çənlibel, 2001, 220 s.
158. Məmmədov X.B. Naxçıvan MSSR 40 ildə. Bakı: Azərnəşr, 1960. 54 s.
159. Məmmədov İ.M. Unudulmaz rəşadət. Bakı: Gənclik, 1981, 80 s.
160. Məmmədov Q.Ş. Azərbaycanda torpaq islahatları: Hüquqi və elmi-ekoloji məsələlər. Bakı: Elm, 2002, 412 s.
161. Məmmədov Q.Ş. Azərbaycanın torpaq ehtiyatları. Bakı: Elm, 2002, 132 s.
162. Məmmədov M.Y. Naxçıvan kiçik Azərbaycandır. Bakı: “Səda” nəşriyyatı 1998, 166 s.
163. Məmmədov M.Y. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, 208 s.

164. Məmmədov A.N. Naxçıvan MSSR-də səhiyyənin tarixi və mərhələli inkişafı (1826-1966). Bakı: Nurlan, 2006, 190 s.
165. Məmmədov R.B. Quşçuluğun intensivləşdirilməsi. Bakı: Azərnəşr, 1989, 63 s.
166. Məmmədov V.C. Heydər Əliyev və Sədərək rayonu. Naxçıvan: "Qeyrət", 2003, 110 s.
167. Musayev T.A. Azərbaycanda xalq təhsili və inqilab. Bakı: 1979.
168. 1968-ci ildə Azərbaycan SSR Xalq təsərrüfatı. Statistika Külliyyatı. Bakı: 1970, 501 s.
169. 1970-ci ildə Naxçıvan MSSR-nin xalq təsərrüfatı statistik məcmuə. Bakı: Birləşmiş nəşriyyat mətbəəsi, 1972, 137 s.
170. 1946-1950-ci illərdə SSRİ xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan haqqında Qanun. Bakı. Azərnəşr, 1946, 130 s.
171. 1946-1950-ci illərdə Azərbaycan SSR xalq təsərrüfatının bərpası və inkişaf etdirilməsinə dair beşillik plan haqqında Qanun. Bakı: Azərnəşr, 1946, 55 s.
172. 1999-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi, Naxçıvan: NDU-nun "Qeyrət" nəşriyyatı, 2000, 32 s.
173. Naxçıvan bazasının əsərləri. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1949, 69 s.
174. Naxçıvan MSSR - 50. Lenin milli siyasətinin yetirməsi. Bakı: Azərnəşr, 1974, 96 s.

175. Naxçıvan MSSR xalq təsərrüfatının inkişafına dair 1958-ci il dövlət planının yerinə yetirilməsi yekunları haqqında. Naxçıvan MSSR statistika idarəsinin məlumatı. Naxçıvan mətbəəsi, 1959, 15 fevral, №33
176. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Akademik H.Abdullayevin redaktorluğu ilə). Bakı: Elm, 1975, 360 s.
177. Naxçıvan MSSR Xalq Təsərrüfatının inkişafı. Statistik məcmuə. Bakı: Birləşmiş nəşriyyat mətbəəsi. 1964.142 s.
178. Naxçıvan MSSR Xalq Təsərrüfatının inkişafı. Statistik məcmuə. Bakı: "Statistika" nəşriyyatı, 1977, 119 s.
179. Naxçıvan MSSR Xalq Təsərrüfatının inkişafı. Statistik məcmuə. Naxçıvan: Naxçıvan statistika idarəsi. 1981, 91 s.
180. Naxçıvan Muxtar Respublikasının qısa statistik portreti. (Buraxılışa məsul Saleh Vəliyev). Naxçıvan: 1999, 28 s.
181. Naxçıvan Muxtar Respublikası - 75. Yubiley statistik məcmuə. Naxçıvan: 1999, 96 s.
182. Naxçıvan Statistika güzgüsündə, tarixi-statistik məcmuə. Bakı: "Səda" nəşriyyatı. 1999, 128 s.
183. Naxçıvan Muxtar Respublikası 80. Tarixi statistik məcmuə. V.Talıbov., İ.Hacıyev., B.İsmayılovun redaktorluğu ilə. Bakı: "Səda", 2004, 222 s.

184. Naxçıvan Muxtar Respublikası: Babək rayonu - 30 Tarixi statistik məcmuə. Naxçıvan: "Qızıl Dağ", 2008, 216 s.
185. Naxçıvan inkişafın 16 ili. Naxçıvan: "Əcəmi" NPB, 2011, 47 s.
186. Naxçıvanda bağçılıq: Tarixi təcrübə, mövcud vəziyyət və müasir problemlər (elmi-praktik konfransın matrealları). Bakı: Bakı Universitet nəşriyyatı, 1991, 34 s.
187. Naxçıvan tarixinin səhifələri: ("Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları). Bakı: ADPU-nun mətbəəsi, 1996, 222 s.
188. Naxçıvan Muxtar Respublikasının tarixi, siyasi, iqtisadi bələdçi kitabı (redaktor Ə.Həsənov). Naxçıvan: NDU-nun "Qeyrət" nəşriyyatı, 1998, 64 s.
189. Naxçıvan Muxtar Respublikası: 1969-1999 (tərtibçi Ə.Həsənov). Naxçıvan: 1999, 216 s.
190. Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: "Elm", 1999, 184 s.
191. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf problemləri konfransının materialları (müəlliflər kollektivi). Naxçıvan: NDU-nun Qeyrət nəşriyyatı, 2000, 134 s.
192. Naxçıvan Muxtar Respublikası (Akademik C.Quliyevin redaktorluğu ilə) Bakı: Elm, 2001, 222 s.
193. Naxçıvan Muxtar Respublikası. 1991-2001-ci illər ərzində. Naxçıvan: "Əcəmi" NPB 2001, 97 s.

194. Naxçıvan teatrı (məqalələr, xatirələr). Naxçıvan: "Əcəmi" NPB, 2013, 296 s.
195. Naxçıvan Ensiklopediyası. İki clddə. I c. Naxçıvan: 2005, 361 s.
196. Naxçıvan Ensiklopediyası. İki cilddə. II c. Naxçıvan: 2005, 381 s.
197. Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik (8 fevral 2007-ci ildə keçirilmiş elmi - praktik konfransın materialları). Bakı: "Nurlan", 2007, 406 s.
198. Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun matreallarıı). Bakı: "Nurlan", 2008, 548 s.
199. Naxçıvan Muxtar Respublikası - 85. Naxçıvan: "Əcəmi", 2009, 103 s.
200. Naxçıvan Muxtar Respublikasında Sahibkarlıq. Naxçıvan: "Qızıl Dağ" MMC-nin mətbəəsi, 2009, 182 s.
201. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. Naxçıvan: "Əcəmi" NPB, 2012, 40 s.
202. Naxçıvan tarixi: Üç cilddə. II c., Naxçıvan: "Əcəmi" NPB, 2015, 528 s.
203. Naxçıvan tarixi: Üç cilddə. III c., Naxçıvan: "Əcəmi" NPB 2015, 560 s.
204. Nadirov A.A. Naxçıvan MSSR (iqtisadi coğrafi oçerk). Bakı: Azərnəşr, 1959, 124 s.
205. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 104 s.

206. Nadirov A.A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı: Elm, 2001, 450 s.
207. Nağıyev Ə.Ə., Novruzov V.Q., Allahverdiyev H.N., Əlirzayev Ə.H. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı: Azərnəşr, 1998, 388 s.
208. Nəcəfov C.S. Naxçıvan Muxtar Respublikasında yüksək üzüm məhsulu yetişdirilməsi texnologiyası. Naxçıvan: "Əcəmi", 2006, 32 s.
209. Niftullayev V.M. Kənd təsərrüfatının iqtisadiyyatı. Bakı: Elm, 1996, 359 s.
210. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı: Elm, 2002, 618 s.
211. Nuriyev Ə.X. Regional inkişafın dövlət tənzimlənməsinin aktual məsələləri. Azərbaycan iqtisadiyyatı: problemlər, perspektivlər. Bakı: Elm, 2004, 428 s.
212. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (Nax. MR DA). f. 1 p (keçmiş partiya arxivi), s. 1, iş. 58, v. 169.
213. Nax. MR DA. f. 1 p, s. İ, iş. 86, v. 47-48.
214. Nax. MR DA. f. 1 p, s.1, iş 84, v. 13.
215. Nax. MR DA. f. 1 p, s. 1, iş. 125, v. 34-56.
216. Nax. MR DA. f. 1 p, s. 1, iş. 188, v. 23, 28.
217. Nax. MR DA. f. 1 p, s. 1, iş. 196, v. 39-59.
218. Nax. MR DA. f. 1 p, s. 1, iş. 201, v. 17-31.
219. Nax. MR DA. f. 1 p, s. 1, iş. 236, v. 36-40, 52-54.
220. Nax. MR DA. f. 1 p, s. 1, iş. 237, v. 3, 9-21.
221. Nax. MR DA. f. 1 p, s. 1, iş. 292, v. 101-127.

222. Nax. MR DA. f. 1 p, s. 1 , iş. 415, v. 66-104, 153-155.
223. Nax. MR DA. f. 1 p, s. 1, iş. 416, v. 87-95, 100-105, 108-114, 117-121, 144-147, 147-153, 171-178.
224. Nax. MR DA. f. 1 p, s. 1, iş. 516, v. 9-47, 48-77, 81-86.
225. Nax. MR DA. f. 1 p, s. 1, iş. 569, v. 3, 19-52, 135.
226. Nax. MR DA. f. 1 p, s. 1, iş. 678, v. 5-10, 29-85, 98-100, 137.
227. Nax. MR DA. f. 1 p, s. 1, iş. 578, v. 6-8.
228. Nax. MR DA. f. 1 p, s. 1, iş. 956, v. 1-2, 55-60, 136-142, 170-184.
229. Nax. MR DA. f. 1 p, s. 1, iş. 957, v. 83-115.
230. Nax. MR DA. f. 1 p, s. 1, iş. 958, v. 88-99.
231. Nax. MR DA. f. 1 p, s. 1, iş. 960, v. 158-161.
232. Nax. MR DA. f. 1 p, s. 1, iş. 962, v. 9-10.
233. Nax. MR DA. f. 1 p, s. 1, iş. 966, v. 19-26.
234. Nax. MR DA. f. 1 p, s. 1, iş. 970, v. 51-59, 66-71.
235. Nax. MR DA. f. 1 p, s. 1, iş. 972, v. 142-152.
236. Nax. MR DA. f. 1 p, s. 1, iş. 973, v. 9-16.
237. Nax. MR DA. f. 1 p, s. 1, iş. 976, v. 162-169.
238. Nax. MR DA. f. 1 p, s. 1, iş. 986, v. 20-45.
239. Nax. MR DA. f. 1 p, s. 1, iş. 993, v. 34, 40-54.
240. Nax. MR DA. f. 1 p, s. 1, iş. 1000, v. 16, 19-20, 26-29.
241. Nax. MR DA. f. 1 p, s. 1, iş. 1013, v. 37, 48-56.
242. Nax. MR DA. f. 1 p, s. 1, iş. 1017, v. 57-62.
243. Nax. MR DA. f. 1 p, s. 1, iş. 1020, v. 3-30, 67-74.

244. Nax. MR DA. f. 1 p, s. 1, iş. 1048, v. 44-64.
245. Nax. MR DA. f. 1 p, s. 1, iş. 1094, v. 111-118.
246. Nax. MR DA. f. 1 p, s. 1, iş. 1098, v. 37-41.
247. Nax. MR DA. f. 1 p, s. 3, iş. 6, v. 270-271.
248. Nax. MR DA. f. 1 p, s. 3, iş. 21, v. 61-76.
249. Nax. MR DA. f. 1 p, s. 3, iş. 24, v. 196-199.
250. Nax. MR DA. f. 1 p, s. 4, iş. 6, v. 11-33.
251. Nax. MR DA. f. 1 p, s. 4, iş. 7, v. 11-23.
252. Nax. MR DA. f. 1 p, s. 6, iş. 8, v. 18-21.
253. Nax. MR DA. f. 1 p, s. 6, iş. 10, v. 55-65, 105-113.
254. Nax. MR DA. f. 1 p, s. 9, iş. 8, v. 15-34.
255. Nax. MR DA. f. 1 p, s. 10, iş. 6, v. 13-20.
256. Nax. MR DA. f. 1 p, s. 10, iş. 8, v. 51-60.
257. Nax. MR DA. f. 1 p, s. 10, iş. 10, v. 90-100.
258. Nax. MR DA. f. 1 p, s. 10, iş. 12, v. 115-125.
259. Nax. MR DA. f. 1 p, s. 10, iş. 14, v. 127-133.
260. Nax. MR DA. f. 1 p, s. 12, iş. 17, v. 16-25, 133.
261. Nax. MR DA. f. 1 p, s. 12, iş. 19, v. 139-157.
262. Nax. MR DA. f. 1 p, s. 12, iş. 38, v. 138-141.
263. Nax. MR DA. f. 1 p, s. 13, iş. 6, v. 136-147.
264. Nax. MR DA. f. 1 p, s. 13, iş. 7, v. 35-49, 57-69, 178-183.
265. Nax. MR DA. f. 1 p, s. 16, iş. 10, v. 23-86.
266. Nax. MR DA. f. 1 p, s. 16, iş. 12, v. 16-33, 58-64, 91-105.
267. Nax. MR DA. f. 1 p, s. 20, iş. 12, v. 47-63, 73-78.
268. Nax. MR DA. f. 1 p, s. 20, iş. 55, v. 1-11.
269. Nax. MR DA. f. 1 p, s. 33, iş. 1, v. 1-45.

270. Nax. MR DA. f. 1 p, s. 37, iş. 9, v. 123-130, 230-236.
271. Nax. MR DA. f. 1 p, s. 37, iş. 15, v. 122-128.
272. Nax. MR. DA. f. 2 p, s. 1, iş. 8. v.192-196.
273. Nax. MR. DA. f. 2 p, s. 1, iş. 18. v. 13-23.
274. Nax. MR. DA. f. 2 p, s. 1, iş. 73. v.73-81.
275. Nax. MR DA. f. 2 p, s. 7, iş. 82, v. 55.
276. Nax. MR DA. f. 3 p, s. 1, iş. 3, v. 16, 17.
277. Nax. MR DA. f. 3 p, s. 1, iş. 19, v. 3, 13.
278. Nax. MR DA. f. 3 p, s. 1, iş. 25, v. 26-29.
279. Nax. MR DA. f. 3 p, s. 1, iş. 172, v. 2-11, 66-80.
280. Nax. MR DA. f. 3 p, s. 1, iş. 187, v. 5-8.
281. Nax. MR DA. f. 3 p, s. 1, iş. 204, v. 6-17.
282. Nax. MR DA. f. 3 p, s. 1, iş. 241, v. 6-17.
283. Nax. MR DA. f. 3 p, s. 1, iş. 256, v. 7-17.
284. Nax. MR DA. f. 5 p, s. 1, iş. 13, v. 26-33, 55-63.
285. Nax. MR DA. f. 5 p, s. 1, iş. 28, v. 15-20.
286. Nax. MR DA. f. 50, s. 1, iş. 10, v. 21.
287. Nax. MR DA. f. 50, s. 1, iş. 73, v. 27.
288. Nax. MR DA. f. 50, s. 1, iş. 95, v. 29.
289. Nax. MR DA. f. 50, s. 1, iş. 153, v. 1-4, 16.
290. Nax. MR DA. f. 50, s. 1, iş. 153, v. 19, 21.
291. Nax. MR DA. f. 50, s. 2, iş. 13[a], v. 4.
292. Nax. MR DA. f. 50, s. 2, iş. 13, v.2-9.
293. Nax. MR DA. f. 50, s. 2, iş. 14, v. 20-22.
294. Nax. MR DA. f. 50, s. 2, iş. 15, v. 60, 65.
295. Nax. MR DA. f. 50, s. 2, iş. 16, v. 4, 6, 13, 23.
296. Nax. MR DA. f. 50, s. 2, iş. 17, v. 8-10.
297. Nax. MR DA. f. 50, s. 2, iş. 18, v. 21.

298. Nax. MR DA. f. 50, s. 2, iş. 19, v. 74.
299. Nax. MR DA. f. 50, s. 2, iş. 21, v. 9.
300. Nax. MR DA. f. 50, s. 2, iş. 21, v.2[a]
301. Nax. MR DA. f. 50, s. 2, iş. 21, v. 37-38.
302. Nax. MR DA. f. 50, s. 2, iş. 23, v. 41-42, 45-46.
303. Nax. MR DA. f. 589, s. 1, iş. 85, v. 17.
304. Nax. MR DA. f. 589, s. 1, iş. 87, v. 48-49.
305. Nax. MR DA. f. 17, s. 1, iş. 319, v. 9-14.
306. Nax. MR DA. f. 17, s. 1, iş. 752, v. 5-7.
307. Nax. MR DA. f. 221, s. 5, iş. 98, v. 45-46.
308. Nax. MR DA. f. 613, s. 1, iş. 317, v. 31.
309. Nax. MR DA. f. 613, s. 1, iş. 874, v. 10.
310. Nax. MR DA. f. 613, s. 4, iş. 236, v. 25.
311. Nax. MR DA. f. 34, s. 3, iş. 812, v. 11.
312. Nax. MR DA. f. 34, s. 1, iş. 812, v. 8-10.
313. Nax. MR DA. f. 34, s. 3, iş. 812, v. 12.
314. Nax. MR DA. f. 34, s. 3, iş. 28, v. 13.
315. Nax. MR DA. f. 34, s. 3, iş. 65/53, v. 30, 54, 60-62, 80.
316. Nax. MR DA. f. 34, s. 5, iş. 64, v. 34.
317. Nax. MR DA. f. 34, s. 5, iş. 60, v. 94-95.
318. Nax. MR DA. f. 34, s. 5, iş. 65, v. 57.
319. Nax. MR DA. f. 221, s. 1, iş. 677, v. 3.
320. Nax. MR DA. f. 40, s. 2, iş. 52, v. 7-16.
321. Nax. MR DA. f. 221, s. 5, iş. 63, v. 6-8, 14-19.
322. Nax. MR DA. f. 221, s. 5, iş. 69, v. 6-10.
323. Nax. MR DA. f. 221, s. 5, iş. 9, v. 4-5.
324. Nax. MR DA. f. 613, s. 4, iş. 236, v. 32-45.

325. Nax. MR DA. f. 613, s. 4, iş. 237, v. 19-28, 37.
326. Nax. MR DA. f. 613, s. 1, iş. 876, v. 85-97.
327. Nax. MR DA. f. 613, s. 1, iş. 376, v. 63.
328. Nax. MR DA. f. 613, s. 8, iş. 4, v. 9.
329. Nax. MR DA. f. 613, s. 11, iş. 8, v. 1-3, 12.
330. Nax. MR DA. f. 681, s. 4, iş. 14, v. 3.
331. Nax. MR DA. f. 681, s. 6, iş. 10, v. 2-5, 12, 24.
332. Nax. MR DA. f. 681, s. 7, iş. 6, v. 6.
333. Nax. MR DA. f. 681, s. 13, iş. 7, v. 5-8.
334. Nax. MR DA. f. 681, s. 13, iş. 12, v. 1-3, 8-10.
335. Nax. MR DA. f. 688, s. 7, iş. 6, v. 6-8.
336. Nax. MR DA. f. 688, s. 7, iş. 3, v. 6-7, 76-78.
337. Nax. MR DA. f. 688, s. 7, iş. 4, v. 2-3.
338. Rüstəmov A.A., Quliyev Ə.G., Qasımov D.Q., Aqrar sahənin inkişafının regional problemləri (Dərs vəsaiti). Bakı: “Avropa”, 2013, 173 s.
339. Rüstəmov A.A. Əhalinin rifah halının yaxşılaşdırılmasında sosial-iqtisadi inkişafın istiqamətləri. Bakı: “Çaşıoğlu” mətbəəsi, 2002, 105 s.
340. Sadıqov S.H. Naxçıvan Muxtar Respublikasının tarixindən. Bakı: Azərbaycan EA mətbəəsi, 1995, 144 s.
341. Seyfullayev S.M. Aqrar-sənaye müəssisələrində iqtisadi təhlil. Bakı: Azərnəşr, 1992, 136 s.
342. Seyidli M., Suıtanov R. Sarı Qafqaz bal arısının biokimyəvi və fizoloji xususiyyətləri. Bakı: Elm, 2007, 191 s.
343. Səfərli F.Y. Heydər Əliyev irsi - əbədiyaşar təlim. Naxçıvan: “Əcəmi” NPB, 2014, 200 s.

344. Sov.İKP XXV qurultayının materialları. Bakı; Azərnəşr, 1976.
345. Sovet İttifaqı Kommunist Partiyasının Proqramı. Bakı: Azərnəşr, 1977.
346. “Sovet Naxçıvanı” qəzeti.
347. Sultanov Q.S. Arıçının məlumat kitabı. Bakı: Azərnəşr, 1990, 136 s.
348. Sultanov R.L, Seyidli M.M. Naxçıvan MR-nin ərazilərində arı ailələrinin köçürülməsi. Bakı: ADNA-nın mətbəəsi, 2005, 27 s.
349. Sultanov R.L, Əsədov E.S. Azərbaycanda bal arısının (Aris mellifera L.) bioekoloji xüsusiyyətləri, arı vərəmumunun toplanması və fiziki-biokimyəvi xassələri. Bakı: MBM, 2007, 204 s.
350. Süleymanov B. Naxçıvan inkişaf yolunda. Bakı: “İsmayıl” HPM, 2000, 131 s.
351. Süleymanov N.M. Azərbaycanın iqtisadi tarixi (Dərs vəsaiti). Bakı: ABU nəşriyyatı və poliqrafiya mərkəzi. 2001. 264 s.
352. Şahverdiyev Z.Ə., Zeynalov İ.Ə. Naxçıvan Muxtar Respublikası 1991-2001. Bakı: “Qismət” nəşriyyatı, 2002, 168 s.
353. Şahverdiyev Z.Ə. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.
354. Şahverdiyev Z.Ə., Zeynalov İ.Ə. Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi və mədəni inkişaf (2001-2012-ci illər). Dərs vəsaiti. Naxçıvan: “Əcəmi” NPB, 2014, 248 s.

355. Şərifov F.H. Azərbaycan üzümü. Atlas. Bakı: Öndər, 2005, 221 s.
356. "Şərq qapısı" qəzeti.
357. "Şərq qapısı" qəzetinin nəşri tarixi və inkişaf yolu. Naxçıvan: "Əcəmi"NPB, 2021, 416 səh.
358. Şirəliyev A.İ. İqtisadi qanunlar və iqtisadi kateqoriyalar. Bakı: APİ-nin nəşri. 1991, 80 s.
359. Şükürzadə İ.Q. Böyük Vətən müharibəsi illərində kənd təsərrüfatının inkişafında Naxçıvan MSSR kolxozçularının vətənpərvərlik hərəkatı (1941-1945-ci illər). Tarix elm. nam. diss. Avtoreferatı. Bakı: 1962, 26 s.
360. Talıbov V.Y. Yüzillik inkişafın zirvəsi. "Azərbaycan" qəzeti, 1999, 16 iyul.
361. Talıbov V.Y. Naxçıvan MR-in təşkil olunmasının 75 illiyinə həsr edilmiş təntənəli yubiley iclasında məruzəsi, "Azərbaycan" qəzeti, Bakı, 1999, 14 oktyabr №236.
362. Talıbov V.Y. Naxçıvan Muxtar Respublikasında mədəni proseslər və müasir dövr. NDU-nin elmi əsərləri, Naxçıvan-1999, №4, s.14-19.
363. Talıbov V.Y. 2002-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı haqqında məruzəsi, "Şərq qapısı" qəzeti, Naxçıvan. 2003, 9 yanvar №3-4.
364. Talıbov V.Y. 2003-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları haq-

qında məruzəsi, “Şərq qapısı” qəzeti, Naxçıvan, 2004, 8 yanvar №3.
365. Talıbov V.Y. 2004-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları haqqında məruzəsi, “Şərq qapısı” qəzeti, Naxçıvan, 2005, 04 yanvar №1.
366. Təhməzov Z.M., Hüseynov A.Y. Geniş tərəqqi yollarında. Bakı: “Bilik cəmiyyəti”, 1984, 44 s.
367. Uğurlu yekunlar, yeni vəzifələr. Naxçıvan: “Əcəmi” NPB, 2000, 92 s.
368. Vəliyev T., Həsənov A. Azərbaycan iqtisadi fikir tarixi. Bakı: Azərbaycan Dövlət iqtisad inistitutunun mətbəəsi, 1996, 236 s.
369. Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti. “Elmi Əsərlər” məcmuəsi xüsusi buraxılış “Qızıl Şərq” mətbəəsi. Bakı: 1997. №1. 48 s.
370. Zeynalov İ.X. Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 314 s.

**Elektron adreslər**

371. www.aqro.gov.az
372. www.e-kitab.nakhchivan.az
373. www.e-merkez.alimeclis.az
374. www.ndu.edu.az
375. www.serqqapisi.az

# M Ü N D Ə R İ C A T

**GİRİŞ**..........................................................................................3
**I FƏSİL. NAXÇIVANIN SƏNAYESİ (1946-1969-CU İLLƏR)**
1.1. İkinci Dünya müharibəsindən sonra Naxçıvan MR-də sənaye potensialının yaranması vəziyyəti və inkişaf perspektivləri............ 17
1.2. Muxtar respublikada yeni sənaye sahələrinin yaradılması........31
**II FƏSİL. NAXÇIVANIN KƏND TƏSƏRRÜFATI İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRAKI DÖVRDƏ (1946-1969-CU İLLƏR)**
2.1. İkinci Dünya müharibəsindən sonrakı illərdə muxtar respublikada kənd təsərrüfatının vəziyyəti......................................................70
2.2. Müharibədən sonrakı illərdə kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi........................................................80
2.3. Dənli və paxlalı bitkilərin inkişafı ...........................................97
2.4. Pambıqçılığın və tütünçülüyün inkişafı .................................106
2.5. Bağçılığın inkişaf etdirilməsi..................................................119
2.6. Heyvandarlıq və quşçuluğun inkişafı ....................................127
2.7. Müharibədən sonrakı dövrdə heyvandarlığın yem bazası........150
**III FƏSİL. NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA XALQ TƏSƏRRÜFATININ VƏ MƏDƏNİYYƏTİN İNKİŞAFI (1946-1969-CU İLLƏR)**
3.1. Muxtar respublikada xalq təsərrüfatının inkişafı.....................158
3.2. Muxtar respublika zəhmətkeşlərinin gəlirlərinin artması, ticarət və ictimai iaşə.............................................................................181
3.3. Muxtar respublika əhalisinin sosial təminatı və mənzil şəraiti.............................................................................................187
3.4. Təhsilin inkişafı.......................................................................192
3.5. Səhiyyənin inkişafı..................................................................203
3.6. Mədəni-maarif işlərinin genişlənməsi ....................................213
**NƏTİCƏ**.......................................................................................236
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATLAR**................................250

## QEYD

# X.A.Hüseynov

***Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı (1946-1969-cu illər)***

Çapa imzalanmış 18.02.2022.
Formatı 60X90 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 17.5 ç.v.
Sifariş № 170. Tiraj 150 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 14